M.Ə.Rəsulzadənin 120-illiyinə həsr olunmuş
elmi konfransın materialları
(28 yanvar 2004-cü il)

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ
# VƏ
# İCTİMAİ-SİYASİ İDEALLAR

*Məcmuə*
*Xəzər Universitəsinin Tarix departamenti*
*tərəfindən hazırlanmışdır*

Redaktor: **Hamlet İSAXANLI**

Xəzər Universitəsi

© Khazar University Press
All right reserved.

ISBN 9952-20-028-5

Məcmuə
Xəzər Universitəsinin Tarix departamenti
tərəfindən hazırlanmışdır

Redaktor: **Hamlet İSAXANLI**

Məhəmməd Əmin Rəsulzadə və ictimai-siyasi ideallar: M.Ə.Rəsulzadənin 120-illiyinə həsr olunmuş elmi konfransın materialları, 28 yanvar 2004-cű il / redaktor Hamlet İsaxanlı; Məcmuə Xəzər Universitəsinin Tarix departamenti tərəfindən hazırlanmışdır.
ISBN 9952-20-028-5

1. Azərbaycan tarixi-XX əsr.
2. Rəsulzadə, Məmməd Əmin, 1884-1955 – Siyasi və sosial görüşlər.

947.54'08 –dc21

Ünvanımız:
Baki şəhəri, Məhsəti küçəsi 11,
Xəzər Universitəsi
Tel: 4217916
4211093

Xəzər Universitəsi Nəşriyyatı - Bakı - 2005

# İÇİNDƏKİLƏR


***Mirabbas ASLANOV*** Məhəmməd Əmin Rəsulzadə İranda 1
***Ofelya BAYRAMLI*** Tarixi həqiqətləri danmaq olmaz . . . . . 8
***Firdovsiyyə ƏHMƏDOVA*** Azərbaycan dövlətçilik tarixində M.Ə.Rəsulzadənin yeri . . . . . . . . . . . . . . . . . . 17
***Süleyman ƏLİYARLI*** M.Ə.Rəsulzadə və tarix . . . . . . . . . . . 46
***Cəmil HƏSƏNLİ*** Böyük əməlpərvər . . . . . . . . . . . . . . . . . . 61
***Həsən HƏSƏNOV (Əzizoğlu)*** Bakıda milli problemlər və paytaxtın ifrat beynəlmiləlləşməsinə qarşı Nəriman Nərimanovun mübarizəsi . . . . . . . . . 100
***Hamlet İSAXANLI*** Siyasi liderlər və ictimai-siyasi ideallar. Məhəmməd Əmin Rəsulzadə 109
***Kamran İSMAYILOV*** M.Ə.Rəsulzadənin Azərbaycan Cümhuriyyətinin parlamentində fəaliyyəti . . 131
***Салават ИСХАКОВ*** Мамед Эмин Расулзаде. Национальное движение в Азербайджане. . 138
***Xaqani MƏMMƏDOV*** Görkəmli partiya və dövlət qurucusu 206
***Razim MƏMMƏDLİ*** M.Ə.Rəsulzadə və Azərbaycan mühacirət mətbuatı . . . . . . . . . . . . . . . . . . . . . . . . . 221
***Elmira MURADƏLİYEVA*** Azərbaycan milli şüurunun qatlarında Rusiya işğalı. . . . . . . . . . . . . . . . . . . . 226
***İsmayıl MUSAYEV*** M.Ə.Rəsulzadə beynəlxalq konfranslarda . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 234
***Solmaz RÜSTƏMOVA-TOHİDİ*** Azərbaycan istiqlalının iki yolu və iki mübarizi: Nəriman Nərimanov və Məhəmməd Əmin Rəsulzadə . . . . . . . . . . . . . 244
***Рашад РУСТАМОВ*** Мамед Эмин Расулзаде и Закавказский Мусульманский Национальный Совет 255
***Sevda SÜLEYMANOVA*** M.Ə.Rəsulzadənin siyasi baxışlarının formalaşması . . . . . . . . . . . . . . . . . . . . . . 273

Proceedings of the Scientific Conference dedicated to the 120th anniversary of M.E.Rasulzadeh
(28 January 2004)

# MEHMET EMIN RASULZADEH AND SOCIO –POLITICAL IDEALS

*Conference Proceedings issued by*
*Khazar University,*
*History Department*

Editor: **Hamlet ISAXANLI**

Khazar University

# CONTENTS

*Mirabbas ASLANOV*
**M.E.RASULZADEH IN IRAN . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 1**

This article explores M.E.Rasulzadeh's several visits to Iran in 1908-1911 as *Hűmmet* party functionary and as a reporter of the *Tereggi* (Progress) newspaper. The author also provides an analysis of Rasulzadeh's political and literary-publicist articles, which appeared in *"Tereggi"*.

*Ofelya BAYRAMLI*
**HISTORICAL TRUTH MUST NOT BE DENIED . . . . . . . . . . . . . . . . . . . . 8**

The author contends that Alibey Huseynzadeh was the first thinker who formulated the slogans of "national sovereignty," "national self-determination," "turkicization, islamicization and europeanization." The founder of these ideas in Azerbaijan was M.E. Rasulzadeh.

*Firdovsiyye AHMADOVA*
**M.E. RASULZADEH'S ROLE IN THE STATE HISTORY . . . . . . . . . . . 17**

The author explores the role of M.E.Rasulzadeh who spearheaded the application of the idea of national state in the political history of Azerbaijan and his activities during the existence of the Democratic Republic of Azerbaijan.

*Suleyman ALIYARLI*
**M.E. RASULZADEH AND HISTORY . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 46**

The author assesses from historical viewpoint the monograph *Nizami* as a masterpiece within M.E.Rasulzadeh's intellectual and scholarly researches. He notes that in this monograph Rasulzadeh managed to elevate the principle of "Turkness".

*Jamil HASSANLI*
**THE GREAT ACTIVIST . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 61**

The author argues that Rasulzadeh's heritage should be treated as a system of views and the evolution of this system should be viewed in the historical context. The author contends that our attitude towards M.E.Rasulzadeh, his heritage, and the historical path he went through is the attitude towards the past, present and future of Azerbaijan.

***Hassan HASSANOV***

**ETHNIC TENSIONS IN BAKU AND NARIMAN NARIMANOV'S STRUGGLE AGAINST EXTREME "INTERNATIONALIZATION" OF BAKU ................................................. 100**

The author argues that Nariman Narimanov was the only public figure who openly fought against violent conduct of Armenian radicals in Baku in the beginning of the XX century.

***Hamlet ISAXANLI***

**POLITICAL LEADERS AND SOCIO- POLITICAL IDEALS. MAHMET EMIN RASULZADEH ........................................ 109**

This article examines gradual evolution of M.E.Rasulzadeh's political ideas in the context of existing wide spectrum of public thought and political processes in all over Azerbaijan.

***Kamran ISMAYLOV***

**M.E.RASULZADEH'S ACTIVITY IN THE PARLIAMENT OF THE DEMOCRATIC REPUBLIC OF AZERBAIJAN ..................... 131**

M.E.Rasulzadeh was the leader of one of the largest fractions in the Parliament. In October 1919, by joining of independent members of parliament to this fraction it became the most influential and decisive power in the parliament.
Among one of the primary directions in Rasulzadeh's parliamentary activity was the establishment of the essential principles of legal state. Rasulzadeh strived to apply the most progressive ideas from laws of European countries in Azerbaijan.

***Salavat ISKHAKOV***

**M.E.RASULZADEH: THE NATIONAL MOVEMENT IN AZERBAIJAN 138**

This article is dedicated to M.E.Rasulzadeh's political activity as the leader of *Musavat* (Equality) party and Azerbaijani national movement. The author explores critical issues in the foundation of the Democratic Republic of Azerbaijan, its first steps and achieements, as well as its decline and the Sovietization of Azerbaijan.

***Xagani MAMMADOV***
**GREAT STATESMAN, OUTSTANDING PARTY AND STATE FOUNDER** **206**
This article demonstrates how several eminent public figures such as Alibey Huseynzadeh, Ahmad bey Agaoghlu, Ali Merdan bey Topchubashev and others fought along with M.E.Rasulzadeh in the struggle for independence of Azerbaijan. The author notes that Rasulzadeh had his own original strategy in this struggle and solidly formulated action plan in contrast to other representatives of the national-democratic movement. At the core of Rasulzadeh's political struggle was his leadership talent, which manifested itself in his successful efforts to organize the party and found the state.

***Razim MAMMADLI***
**M.E. RASULZADEH AND AZERBAIJANI EMIGRANT PRESS . . . . . . . .** **221**
The author demonstrates how the Azerbaijani emigrant press [the journal *Yeni Qafgazya* (The New Caucasus), the newspaper *Istiglal* (Independence)] was founded by M.E.Rasulzadeh. The author also reviews M.E. Rasulzadeh's articles in the journal *Azerbaijan* which was a mouthpiece of the Azerbaijani cultural circle.

***Elmira MURADALIYEVA***
**THE RUSSIAN CONQUEST IN THE DEPTHS OF AZERI NATIONAL CONSCIOUSNESS . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .** **226**
This article is based on M.E.Rasulzadeh's several historical meetings. Benefit of the Russian occupation in the national consciousness is argued to be separation from the common Muslim conception and realization of the principle 'first Turkic, then Muslim.'

*Ismayil MUSAYEV*
**M.E. RASULZADEH'S ACTIVITY IN INTERNATIONAL CONFERENCES . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 234**

In this article, the author analyses M.E.Rasulzadeh's political and diplomatic activity in the international conferences in Trabzon and Batumi.

*Solmaz RUSTAMOVA-TOHIDI*
**TWO WAYS AND TWO FIGHTERS FOR INDEPENDENCE OF AZERBAIJAN- NARIMAN NARIMANOV AND MEHMET EMIN RASULZADEH . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 244**

This article provides an in-depth examination of the ideological struggle between two outstanding representatives of the movement for the independence of Azerbaijan as well as eminent political thinkers of Azerbaijan in the early XX century-Nariman Narimanov and Mehmet Emin Rasulzadeh.

*Rashad RUSTAMOV*
**M.E. RASULZADEH AND THE TRANSCAUCASIAN MUSLIM NATIONAL UNION . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 255**
The author describes the establishment of the Transcaucasian Seym, which was the legislative power of the Transcaucasus, and the dismemberment of the Muslim National Union under M.E.Rasulzadeh's presidency.

*Sevda SULEYMANOVA*
**THE FORMATION OF M.E.RASULZADEH'S POLITICAL OUTLOOK 273**
The author provides an insight into the formation of M.E. Rasulzadeh's political philosophy as evolving stage by stage. The article emphasizes how Rasulzadeh, being a party leader, nonetheless always valued and placed national interests above the party interests.

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ İRANDA

**Mirabbas ASLANOV**

"Əqidə, amal və məsləki yolunda ölümünə hazır olub da, nəfsini fəda edən, kim olur-olsun, böyükdür" (M.Ə.Rəsulzadə). Bu böyüklük, bu fəzilət həmin mübarək kəlam sahibinin özünə də çox yaraşır.

M.Ə.Rəsulzadə, doğrudan da, böyükdür, unikal şəxsiyyətdir. Son 10-15 ildə onun haqqında maraqlı əsərlər yazılıb, ancaq İranda inqilabi hərəkatda iştirakı bizim tarixşünaslıqda qədərincə işıqlandırılmamışdır; halbuki M.Ə.Rəsulzadənin "...***fəaliyyətinin bir hissəsi İranda və İran üçün idi...***" (S.H.Təqizadə).

M.Ə.Rəsulzadənin "İranda və İran üçün ..." fəaliyyəti nə zamandan başlanır? İndiyədək ümumi fikir belə olub ki, çar üsul-idarəsinə qarşı fəal mübarizə apardığına görə Bakıda təqiblərə məruz qalan M.Ə.Rəsulzadə 1908-ci ildə "***İrana mühacirət etmək məcburiyyətində qalmışdır***" (1).

Ətraflı axtarış, ciddi araşdırmalar imkan verir deyək ki, M.Ə.Rəsulzadə 1908-1911-ci illərdə İranda bir yox, bir neçə dəfə olmuş, özü də oraya adətən, "Hümmət"çi kimi və "Tərəqqi" qəzetinin müxbiri sifətilə səfər etmişdir. Doğrudur, həmin səfərləri bu gün təsdiq edən rəsmi sənəd yoxdur, ya da bizə rast düşməmişdir, lakin müəllifin özünün dövrü mətbuatda dərc olunmuş məqalələrində o qədər dəqiq və ətraflı bilgi verilir ki, sənədsizlik həmin "daxili məlumat" qarşısında aciz qalır.

"Tərəqqi" qəzetinin 1908-ci il, 19 avqust və 3 sentyabr tarixli iki nömrəsində "Təbriz əhvalatı" rubrikası altında, "Xüsusi müxbirimizdən" qeydi və M.Ə. imzası ilə dərc olunmuş informasiyalar M.Ə.Rəsulzadənin İrana, dəqiq deyilsə, Təbrizə

birinci səfərindən xəbər verir.

"…İki gecə bir neçə saat şiddətli atışma oldu. Dəvəçi məhəlləsinin adamları irəliləyə bilmədilər və geri oturdular. Ərkdən, Əmirəxizdən və Xiyabandan müttəsil toplar atılırdı. Məşrütə qəhrəmanları hücumavər olan atlılar içinə bombalar atırdılar. Məşrutəçilər başladılar şəhərə girmək istəyən İqbalüssəltənə atlılarını geri oturtmağa… Gecə yarısı hava mülayim, Ay işıqlı idi…".

Bu adi informasiya deyil, döyüş səngərlərindən reportajdır. Onun mətni, onu qələmə alan şəxsin iki gecə bilavasitə iştirak etdiyi, gözlərilə gördüyü, qəlblə duyduğu hadisələrdən danışır.*

M.Ə.Rəsulzadə "Tərəqqi" qəzeti redaksiyasından aldığı tapşırığı yerinə yetirəndən sonra Bakıya qayıdır. Burada əsas qurucularından olduğu "Hümmət" təşkilatında çalışır, "Nicat" mədəni-maarif cəmiyyətinə rəhbərlik edir.**

"Hümmət"çi olduğundan, inqilabi fəaliyyətilə bağlı nə zaman, harada olacağını gizli saxlayaraq, "gah olur oxuyasan ki, İranın şəhərlərindən birindəyəm"- deyən M.Ə.Rəsulzadə

---

* Azərbaycan Milli Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunda buraxılmış «Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917)» kitabı müəlliflərinin «Cənubi Azərbaycan-İran inqilabının mərkəzi» bölməsindəki mətnlə M.Ə.Rəsulzadənin yuxarıda adı çəkilən iki məqaləsini yan-yana qoyub müqayisə etməklə Təbrizdən müharibə meydanından müxbirin göndərdiyi informasiyanın dəqiq və obyektiv məzmunu haqqında, tam təsəvvür əldə etmək olar. (Bax: «Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917)», Bakı, 1995, s.149-156.

** «İrşad» qəzetinin 1907-ci il, 8 dekabr tarixli 222-ci nömrəsində; 1908-ci il 15 yanvar, 27 mart tarixli 7 və 40-cı nömrələrində; «Tərəqqi» qəzetinin 19 sentyabr, 17 oktyabr 1908-ci il 56 və 78-ci saylarında «Nicat»ın sədri M.Ə.Rəsulzadənin məhz cəmiyyətin işi ilə bağlı yazıları oxucu diqqətini cəlb edə bilər.

1909-cu ilin mart ayında Rəşt şəhərindədir. Bu, onun İrana ikinci səfəridir.

Gőrkəmli İran alimi F.Adəmiyyət bunu İrana birinci səfər sayır və yazır ki, M.Ə.Rəsulzadə Rəştdə Gilan inqilabına qoşulur və Gilan műcahidlərilə birlikdə Tehranın fəthində iştirak edir.

Rəştə gələn M.Ə.Rəsulzadə Gilan műcahidləri və yerli "Hűmmət"çilərlə fəal iş aparır, həm də Rəşt şəhəri və ətrafda Novruz bayramı tədbirləri, silahlı rus kazaklarının konsulxananı qorumaq bəhanəsilə buraya gəlişi, műcahidlərə qoşulmuş qorxmaz Panovun Astrabad və Mazandaran arası rabitə xəttini kəsməsi, Tehranda məşrutəçilərə divan tutulması xəbərləri və s. barədə Bakıya bol-bol informasiya çatdırır (1).

Mőhtərəm F.Adəmiyyət cənablarının yazdığı kimi, Tehranın fəthində M.Ə.Rəsulzadənin Gilan műcahidlərilə birgə iştirak etdiyi doğrudur, ancaq o da doğrudur ki, M.Ə.Rəsulzadə 1909-ci il, aprelin son gűnlərində Rəşt şəhərini tərk edib, Bakıya dőnműşdű. Tehranın fəthinə isə hələ qalırdı… hər dəfə İrana səfərdən Bakıya qayıdan M.Ə.Rəsulzadə 1909-cu il, mayın əvvəllərində qatarla İrana qayıdır. Bu onun İrana űçűncű səfəri idi.

…Rus Culfasında ciddi yoxlama aparılırdı. Bakıdan onunla birlikdə gəldiyini gűman etdiyimiz inqilabçı Kərbalayi Nəsrulla Şeyxov və Rzaqulu Nəcəfov həbs olunurlar. M.Ə.Rəsulzadə "Tərəqqi" qəzetinin műxbiri sifətilə yolunu davam etdirir.

Ədibin yazdıqlarından: "Cəhənnəm dərəsi Culfada kőmrűk rűsumatını icra etdik. Arazı keçdik. İran torpağında rus yolu ilə getdik… İranda təbii yollar olmadığı kimi, mənəvi yollar da yoxdur. Məşrutədən őtrű műbarizə ediyorlar, amma yolsuz ediyorlar! Məşrutə arabasını sərmənzilə aparmaq űçűn yollar művafiq deyil, daşlıq, çőllűkdűr ki, burdan ancaq istibdad qatırı, zűlm eşşəyi, hűrriyyət kolyaskası keçə bilər; Məşruyyət

arabası isə daşa, qayaya toxunub əzilər, tőkűlər, keçməz. Məşruyyət arabasını salim aparmaq űçűn qabaqca bir məşrutiyyət yolu qayırmalıdır" (2). M.Ə.Rəsulzadə Təbrizə yetişəndə dűnya boyunca şőhrət tapmış olan xalq qəhrəmanı Sərdari-Milli Səttarxanı və Salari-milli Bağırxanı Osmanlı konsulluğunda bəstə oturmuş gőrdű. O, yazırdı ki, műlaqatımiz Osmanlı konsulxanasında oldu. Sərdari-milli bizi qəbul elədi. "Gűney Azərbaycan" kitabında deyildiyi kimi, "Milli istiqlal həyatımızın iki bőyűk şəxsiyyətinin bilavasitə gőrűşű hər iki tərəf űçűn unudulmaz və əlamətdar olmuşdur" (s.163).

M.Ə.Rəsulzadə qalır və buradan Bakıya, "Tərəqqi" redaksiyasına İran inqilabi tarixinə dair bőyűk əhəmiyyət kəsb edən xeyli məqalə gőndərir. Onlardan biri – "Qəribə bir bőykət" adlı etiraz və nifrin dolu məqalədir ki, haqqında bu gűn, műxtəsər də olsa danışmağı məsləhət bildik.

"İran qəribə bir təzad və dərəbəylik őlkəsi olduğundan qanun-qaydası yox!…Nədən isə ermənilər İranda kəmali-istirahət və azadlıqla yaşamışlar, műsəlmanlara nisbət artıq bir imtiyaz ilə dolanmışlar" sőzləri ilə başlanan məqalədən aydın olur ki, Təbrizdə "erməni bağ"ında erməni mədəniyyət cəmiyyəti tələbələrin xeyrinə űmumi gəzinti təşkil etmişdir.

M.Ə.Rəsulzadə bilet alıb bağa yollanır. İki nəfər gənc yolda deyir ki, "műsəlmanları bu bağa qoymurlar". Ədib eşitdiyinə inanmır, bağa girir, gəzir, lakin hiss edir ki, *deyilənlərin əsası varmış…*

"Bir cavan erməni yanıma gəlir, iki dəqiqəliyə xahiş edir ki, bir műhűm sőz deyəcəkdir. Rusca deyir: Mən məcburam bəyan edim ki, műsəlmanların bu bağa girməyə ixtiyarı yoxdur".

İran tűrklərinin doğma diyarında, evlərinin içində başqaları tərəfindən bu dərəcədə təhqir olunduqlarına dőzməyən M.Ə.Rəsulzadə: bunu vəhşilik, bədəvilik adlandırır, ciddi

etirazla: "Belə bir cəmiyyətə də, bağa da tüpürüm"- deyə oranı nifrətlə tərk edir (3). M.Ə.Rəsulzadənin "Yol təəssüratı" ümumi başlıq ilə "Tərəqqi" qəzetində dərc olunmuş məqalələri ən təsirli bədii publisistika nümunələri kimi oxucuya estetik zövq aşılayır. Culfa Təbriz arası yolda təbiətin bir dilbər guşəsi ədibi valeh edir. O yazır:

"...Günəş hənuz batmamışdı ki, Mərəndə çatdıq. Mərənd...nə gözəl, nə şairanə bir bucaq!...Qovaqlar uzanaraq asimana baş qaldırmış, meyvəli ağaclar böyük bir vüqar ilə fikrə dalmışlar".

Hər yanda, hər tərəfdə sular axıyor. Nə gözəl sular nə şirin bulaqlar. Təbiət burada həyatı tamam etmişdir...

İkimərtəbəli binada bir nömrə tutub dayandıq. Nömrənin mənzərəsi qabağında gecə aydınlığında gəl də bu mənzereyidilguşayə tamaşa et. Ay işığına düşən yarpaqlar ipək rəngə çaldıqca o xışıltılarda nazənin bir sənəmin aşiqanə elədiyi mülahizələri zamanı hərir libasının zərif səsinə bənzəyir. Özgə aləmdir. Ruh veriyor..." (4). M.Ə.Rəsulzadə burada onu da yada salır ki, İran irticaçılarının ən qəddarı, Təbriz qəhrəmanlarının özünə və silah yolunu kəsmiş, onlara ot, ələf yeməyə məcbur edən Şüja Nizami məhz burada, Mərənddə partlatmışlar.

M.Ə.Rəsulzadə bu dəfə Təbriz Urmiya yolu ilə səyahət edir. Buradakı "Yol təəssüratı" siyasi və ədəbi publisistika nümunələri kimi çox maraqlı əsəridir. Ədib yol boyu sərdərrudda, Kopand qəsəbəsində olur, Urmiyənin Dilməqanı, Gülməxana kəndini səyahət edir. Bu qərara gəlir ki, "İran bu vaxta kimi qanun görməmişdir" (5). Ədib "Yol təəssüratı"na xeyli vaxt sərf edəndən sonra Təbrizdən Rəştə yollanır. "İki ay fəraqdan sonra yenə də Rəştdəyəm" - yazır (6). Tehranın fəthində iştirak edir: "İkinci dəfə Səttarxan Tehrana gələrkən onunla görüşdük" - deyir (7).

M.Ə.Rəsulzadənin İrana üçüncü səfəri bir cəhətdən yadda

qalandır ki, ədib bu dəfə daha Bakıya qayıtmamışdır. Tehranda qalıb, o zaman İran űçűn təzə olan farsdilli "İran-i-nou" qəzetinin redaktoru kimi fəaliyyət gőstərmişdir.

M.Ə.Rəsulzadənin İranı tərk edib Tűrkiyəyə nə zaman, hansı şəraitdə getdiyi, műhacirətin əsil səbəbləri bizim tarixşűnaslıqda hələ də tam açılmayıbdır desək, gűman ki, səhv etmərik.

Məsələn, H.Yaqublu belə deyir: "İranda məşrutə hərəkatı yatırılandan sonra Milli-Məclis dağıdıldı, hűrriyyətpərvər cəzalandırıldı. Bu vəziyyətdə M.Ə.Rəsulzadə yaxın dostu H.Təqizadə ilə birlikdə Tűrkiyəyə getdi. Beləliklə, 1911-ci ildən Rəsulzadənin Tűrkiyədə műhacirət həyatı başlandı" (8). Burada, gőrűndűyű kimi, műrəkkəb və faciəli hadisələrlə dolu, təqribən 3 illik bir dővr dolaşıq tərzdə ifadə olunub. Milli Məclisin dağıdıldığı hara, 1911-ci il hara?!

Tarix elmləri doktoru İ.S.Bağırova rus dilində nəşr olunmuş "XX əsrin əvvəllərində Azərbaycanın siyasi partiyaları və təşkilatları" (Bakı, 1997) monoqrafiyasında yazmışdır:

"После появления революции в декабре 1911 г… М.Э. Расул-заде и С.Г.Таги-заде бежали в Турцию" (9). Doğru deyil! M.Ə.Rəsulzadə Tűrkiyəyə 1911-ci ilin dekabrında yox, may ayının son gűnlərində, S.H.Təqizadə isə ondan qabaq getmişdi. S.H.Təqizadə yazır: "O zaman mən İstanbulda idim. M.Ə.Rəsulzadə də ora gəldi…".

Műstəqil tədqiqatçı M.Əliyev bir mənbə gőstərmədən műhacirətin səbəbini çar hőkumətinin M.Ə.Rəsulzadənin həbs edilməsinə dair "xűsusi gőstəriş"i olması ilə izah edir: "Çar hőkuməti M.Ə.Rəsulzadənin həbs edilməsi haqqında xűsusi gőstəriş verir. M.Ə.Rəsulzadə təqiblərdən yaxa qurtarmaq űçűn İstanbula műhacirət edir" (4).

Bizim fikrimizcə, M.Ə.Rəsulzadənin őzűnűn "İran-i-nou"-da çıxmış məqalələri və həmin qəzetdə dərc olunmuş "Redak-

torumuza sui-qəsd şayiələri" kimi və digər yazıları məsələnin əsil mahiyyətini dűzgűn dərk edib, dűzgűn şərh etmək űçűn mőtəbər mənbədir.

M.Ə.Rəsulzadə Tűrkiyəyə gedəndən sonra "İran-i-nou" qəzeti redaksiyasından verilmiş: "Redaktorumuz sərt təzyiqlərə məruz qalıb őlkəni tərk etməyə məcbur oldu" qeydində "sərt təzyiqlər" ifadəsinə diqqət yetirməli olsa, műhacirətə səbəb olan daha ciddi məsələ ilə űzləşərik.

Cəlalətpərəst bədxahlar "İran-i-nou" qəzetini gah ruspərəstlikdə ittiham edir, gah da nəcəfi-əşrəfdən olan ağalarının fitvası ilə kafir adlandırırdılar.

Kűfr və kafirlik islam őlkəsində "sərt" demək azdır, dőzűlməz dərəcədə ağır və qanlı ittiham idi. Buna gőrə də M.Ə.Rəsulzadə yazırdı ki, "Əgər bű fitva tezliklə aradan gőtűrűlməsə, Şeyx Fəzullah kimilərinin əlindən xilas ola bilməyəcəyik". (10).

---

1. "Tərəqqi", №№ 57, 59 ,60,64, 74, 75,76,83; 18, 20, 23, 26 mart, 9,10,12, 13, 20 aprel 1909.
2. "Tərəqqi", № 115, 17 may 1909.
3. M.Ə.Rəsulzadə: Əsərləri, beşinci cild, s.376-78.
4. "Tərəqqi", № 122, 4 iyun 1909.
5. "Tərəqqi", № 137, 22 iyun, 1909.
6. "Tərəqqi"; №255, 13 iyul 1909.
7. "İqbal", № 786, 10 noyabr 1914.
8. N.Yaqublu. Azərbaycan milli istiqlal műbarizəsi və M.Ə.Rəsulzadə. Bakı, 2001, s.27.
9. И.С.Багирова. "Политические партии и организации Азербайджана в начале XX века". Баку, 1997, с.44.
10. "İran- i-nou", № III, 1910.

# TARİXİ HƏQİQƏTLƏRİ DANMAQ OLMAZ

**Ofelya BAYRAMLI**

Tűrkçűlűk hərəkatı tűrk xalqlarını şərəfli bir millət kimi yaşatmaq, azadlığını, műstəqilliyini qazanmaq ehtiyacından doğmuşdur. Bu hərəkat ilk dəfə őzűnű űmumrusiya tűrklərində, xűsusilə azəri tűrklərində gőstərmişdir. Azərbaycanda bu hərəkatın başında Əlibəy Hűseynzadə dururdu. Tűrkçűlűk ideologiyasının banisi olan bu siyasi ideoloq, eyni zamanda həmin ideologiyanın nəzəri təməllərinin də yaradıcısı olmuşdur.

Tűrkçűlűyű elmi-nəzəri əsaslarla mőhkəmləndirmək və onu yűksək kamil ideologiya səviyyəsinə çatdırmaq vəzifəsi ilk dəfə Əlibəy Hűseynzadəyə műəssər olmuşdur. İlk dəfə onun tərəfindən tűrkçűlűyűn milli őzűnűdərk, milli tərəqqi, milli istiqlal və "tűrkləşmək, islamlaşmaq, avropalaşmaq" məramları ictimai-siyasi fikrə gətirilmiş, elmi, nəzəri cəhətdən formalaşdırılmış və sistemləşdirilmişdir.

Lakin bu gűnűn bəzi tədqiqatçıları isə əksinə, bu sahədə apardıqları tədqiqatlarda bőyűk çaşqınlıq, dolaşıqlıq yaradaraq Ə.Hűseynzadənin fəaliyyətilə turançılıq və tűrkçűlűk hərəkatının meydana çıxmasını, ya tatar műhərriri Y.Akçuraoğlunun, ya da ki Ziya Gőyalpın adına bağlayırlar. Halbuki həmin műəlliflər őzləri yazılarında Ə.Hűseynzadəni turançılığın, tűrkçűlűyűn banisi olduğunu dőnə-dőnə etiraf etmişdilər. Y.Akçuraoğlunun őzű 1904-cű ildə "Tűrk" qəzetində dərc etdirdiyi "Űç tərzi-siyasət" əsərində tűrkçűlűyűn ona qədər Qafqaz tűrkləri arasında ilk dəfə Ə.Hűseynzadə tərəfindən yayıldığını sőyləmişdir.

Z.Gőyalp isə tűrkçűlűyűn ona qədər Tűrkiyədə Ə.Hűseynzadə tərəfindən yayıldığından danışaraq yazırdı ki: "Ə.Hű-

seynzadə 1889-cu ildə Rusiyadan Türkiyəyə "ittihadi-türk" ideologiyası ilə hazır gələrək hərbi tibb məktəbində türkçülüyün əsaslarını başa salırdı" (1).

Tədqiqatlarda belə yanlış münasibəti ən çox Ə.Hüseynzadə tərəfindən ilk dəfə ictimai, siyasi fikrə gətirilən "Türkləşmək, islamlaşmaq, avropalaşmaq" məramında da görürük. Bəzi tədqiqatçılar bu məsələdə birinciliyin Ə.Hüseynzadəyə aidliyini danaraq, tatar mühərriri Y.Akçuraoğlunun "Üç tərz siyasət" əsərinə bağlayırlar. Lakin bu əsərdəki türkçülük, islamçılıq və osmançılıq ideyaları nəzəri deyil, sırf ideoloji görüşlərdir. Bəzi tədqiqatçılar isə həmin "üç qayə" üzərində daha da ifrata vararaq, həmin məramı türkçülüklə heç bir əlaqəsi olmayan Şeyx Cəmaləddin Əfqaniyə aid edirlər. Məsələn, mərhum görkəmli alim, ictimai xadim Şamil Qurbanov həmin şüarın prinsip etibarilə Ş.C.Əfqaniyə aidliyini sübut etmək üçün yazırdı ki, "Ş.C.Əfqaninin Misirdəki (1872-1878-ci illərdə) çıxışlarının birində işlətdiyi (onun Fransa inqilabından götürdüyü) "Azadlıq, bərabərlik, qardaşlıq" şüarı sonradan get-gedə cilalanaraq Azərbaycanda 1915-ci ildə M.Ə.Rəsulzadə tərəfindən nəşr olunan "Açıq söz" qəzetinin epiqrafına çevrilmişdir" (2). Əvvələn, deməliyik ki, bu şüarlar mahiyyətcə fərqlidirlər. Ş.C.Əfqaninin şüarı ümumbəşəri məzmunda olduğu kimi, Ə.Hüseynzadənin "Türkləşmək, islamlaşmaq, avropalaşmaq" şüarı isə sırf, xalis, milli səciyyəlidir. Türkçülüyü səciyyələndirən bu şüarı zorla islamçı ideoloqa, yəni Ş.C.Əfqaniyə aid etmək olmaz. Buna heç ehtiyac da yoxdur. Çünki Ş.C.Əfqani "böyük islam inqilabçısı" (Ziya Göyalp) kimi məşhur olduğu halda, Ə.Hüseynzadə də "Bütün türk dünyasının mücahidi" (Turan Yazqan) kimi tanınmışdır.

M.Ə.Rəsulzadəni türkçülüyə və bu düstura bağlayan isə əslində onun o zaman 1912-1913-cü illərdə Türkiyədə ümumi Rusiya türklərinin (Ə.Hüseynzadənin, İ.Qaspıralının, Y.Akçu-

raoğlunun, Ə.Ağaoğlunun və b.) yaratdığı türkçülük mühitinin böyük təsiri idi. M.B.Məmmədzadə yazırdı ki, "Böyük türkçü mərhum professor Ə.Hüseynzadənin formulə etdiyi "Türkləşmək, islamlaşmaq, avropalaşmaq" düsturunun fikir baxımından M.Ə.Rəsulzadə üzərində böyük təsiri olmuşdur" (3).

Ümumiyyətlə, XX əsrin əvvəllərində Ə.Hüseynzadənin bu üçlük nəzəriyyəsi nəinki M.Ə.Rəsulzadəyə, o zaman bir çox türk dahilərinin yetişməsinə və onların fikri inkişafına qüvvətli təsir göstərmişdir".

Bu gün həmin problem ətrafında yaranan qarışıqlığın səbəbi isə mənbələrin düzgün öyrənilməməsindən irəli gəlir. Bəzi tədqiqatçılar yazırlar ki, ilk dəfə Ə.Hüseynzadə tərəfindən irəli sürülən həmin "üç qayəli" nəzəriyyə "türkləşmək, islamlaşmaq, avropalaşmaq" şəklində Z.Göyalp tərəfindən sistemləşdirilmişdir (4). Halbuki həmin məramı ilk dəfə 1905-ci ildə "Həyat" qəzetinin ilk nömrəsindən "Məsləkimiz" məqaləsindən irəli sürən də və onu sonralar nəzəri , tətbiqi baxımdan hazırlayaraq, düstur şəklində ilk dəfə "türkləşmək, islamlaşmaq, avropalaşmaq" kimi formalaşdırıb, 1907-ci ildə "Füyuzat" məcmuəsinin "tutduğu yolunun" əsas şüarına çevirən də Əlibəy Hüseynzadə olmuşdur. O, elə həmin məcmuədə həmin formulun şərhini açıqlayaraq yazmışdır. "Fədai lazımdır, fədai! Yuxarı, sıçrayan, murdarlıqdan qorxmayan fədai! Türk hissiyyatı ilə mütəhəssis, islam dinilə mütədəyyin və Avropa mədəniyyəti-hazirəsilə mütəməddin..." (5).

Ə.Hüseynzadə türk xalqlarının milli istiqlalının təməlini bu nicat yolunda görürdü. O, bu elmi, nəzəri məramla türkçülük ideologiyasını yeni bir inkişaf səviyyəsinə çatdırmışdı.

Görkəmli türkçü Ə.Cəfəroğlunun dediyi kimi: "Bu ixtiyar və imanlı türkçü bu üçlü məramla milli istiqlalın fikri mücadiləsinin "Ana Yasası"nı meydana qoymuşdur" (6).

Ziya Göyalp isə Ə.Hüseynzadəni "peyğəmbər" adlandıra-

raq yazırdı ki, "bu üçlü nəzəriyyə bütün türk dünyasında bir peyğəmbər kimi yeni üfüqlər açdı".

Ə.Hüseynzadə türk xalqlarının yalnız bu üç təməl üzərində yaşaya biləcəyinə inanır və həmin "üç qayəli" nəzəri görüşləri türklər arasında da yaymağa çalışmışdır. Onun bu cəhdləri o zaman nəticəsiz qalmır, türk ziyalılarına qüvvətli təsir göstərir. Ondan "şüurlu milliyyət hissini ilk alanlar sırasında Z.Göyalp olur. Onda türkçülüyə oyanış Ə.Hüseynzadə qarşı-qarşıya gəlib, tanış olmaqla, söhbətləşməklə deyildir. Z.Göyalpda "türkçülüyün feyziləri" Ə.Hüseynzadənin redaktorluğu ilə nəşr olunan, "Həyat" qəzetini, "Füyuzat" məcmuəsini oxumasından hasil olmuşdur. Bunu Z.Göyalpın özü də etiraf edirdi. "Biz türklər ona çox şeydə borcluyuq" (7). O zaman bu üçlü nəzəriyyə Z.Göyalpın elmi, siyasi, fəlsəfi tədqiqatlarının mərkəzinə çevrilmişdir. Lakin o, Əlibəyin həmin "nəzəri düsturunu" yenidən formalaşdırmamış, ancaq Ə.Hüseynzadənin "türkləşmək, islamlaşmaq, avropalaşmaq" formulundakı "avropalaşmağı" "müasirləşmək"lə əvəz etmişdir. Çünki "avropalaşmaqla" Avropanın yalnız elminin, texnikasının nailiyyətlərini öyrənmək tələb olunurdusa, müasirləşməklə Qərbin siyasi, iqtisadi strukturlarının öyrənilməsi də vacib görülürdü. Ziya Göyalp üçün türklərin müasirləşməsi ideoloji seçim deyil, məcburi və zəruri bir hərəkatdır. Ona görə hər "üç qayə"nin üçünü də qəbul etməli və "çağdaş bir islam türklüyü" yaratmaq lazımdır. Ziya Göyalp yaranacaq tip dövlətin yeni milli dövlətin sağlam təməlini bu "üç nəzəri qayə" ilə bina olacağını qətiyyətlə müdafiə edirdi. Z.Göyalp bu sahədəki fəaliyyətilə Ə.Hüseynzadənin həmin "üç qayəli" düsturunu yenidən formalaşdırmamışdır, sadəcə olaraq onu yaşatmış və türklərə təlqin etməyə çalışmışdır. Eynilə bu vəziyyəti Azərbaycanda da görürük. Bizim özümüzünkülər də Ə.Hüseynzadənin bu xidmətlərini səhvən ən çox M.Ə.Rəsulzadənin adına bağlayırlar. Bizim buna etirazı-

mız o demək deyildir ki, biz M.Ə.Rəsulzadənin ictimai, siyasi fikir tarixindəki rolunu kiçiltmək istəyirik. Əksinə, onların hər ikisi Azərbaycanda eyni amal-Vətənin istiqlaliyyəti uğrunda mübarizə aparmışdılar. Onlar eyni cəbhənin mücahidləri idilər. Lakin fərq onda idi ki, Ə.Hüseynzadə "milli istiqlal", "milli özünüdərk", "türkləşmək, islamlaşmaq, avropalaşmaq" məramlarının ilk yaradıcısı, carçısı olduğu halda, M.Ə.Rəsulzadə isə həmin məramları Azərbaycanda yaratmışdır.

Ümumiyyətlə, milli ideologiyamızın yaranışı, inkişafı ilə və istiqlal mücadiləmizlə bağlı elə bir problem, məsələ yoxdur ki, ilk dəfə Ə.Hüseynzadə tərəfindən irəli sürülməsin.

Məlumdur ki, Ə.Hüseynzadə redaktoru olduğu Bakıda 1905-1906-cı illərdə çıxan "Həyat" qəzetini "türkcə-cərideyi-islamiyyədir" adı altında nəşr etdirməklə nəinki "türk" adını təsdiqləmiş, hətta bu qəzetdə dərc etdirdiyi "Türklər kimdir və kimlərdən ibarətdir" silsilə məqalələrilə türkün kimliyini bərpa etməyi və onu qorumağı günün təxirəsalınmaz vəzifəsinə çevirmişdi (8).

Ə.Hüseynzadənin zaman və millət qarşısında ən böyük xidməti də bunda idi.

Bu haqda Amerika alimi T.Svyataçovski də yazırdı ki: "XX əsrin əvvəllərində türk xalqlarının kimliklərinin bilmək zamanının gəldiyinə inanan və bunun nə olacağına şübhəsi olmayan bir nəfər vardır. O da Ə.Hüseynzadə idi" (9).

Lakin tədqiqatçılarımız "türk" adının millətin özünə qaytarılmasından danışarkən yazırlar ki: "Çarizm azərbaycanlıları həqarətlə gah "tatar", gah "persian", gah da "müsəlman" adlandırırdı. M.Ə.Rəsulzadə isə öz konsepsiyası ilə bu dolaşıqlığı açaraq xalqın adını özünə qaytardı" (10). Deməliyik ki, səhv olan bu fikir çox güman ki, M.B.Məmmədzadənin "Milli Azərbaycan hərəkatı" əsərindən gəlir. O yazırdı ki: "Müsavat firqəsinin mürəvvici şəklini alan "Açıq söz" qəzeti ilk dəfə olaraq

"Müsəlman", "tatar" sözlərini "türk" sözü ilə dəyişməyə girişdi və millətə "sən türksən", rus hökumətinə "Biz türküz!"- deyə xitab etdi və özünü "gündəlik türk qəzetidir"- deyə elan etdi" (11).

Bu cür yanlışlığı, eyni zamanda Ə.Hüseynzadə tərəfindən 1906-cı ildə ilk dəfə ictimai, siyasi və ədəbi fikrimizə gətirilən "milli istiqlal" məramına münasibətdə də görürük. Məsələn, milli istiqlal məramının Azərbaycanda ilk dəfə elanından danışan tədqiqatçı yazır ki: "Bu ictimai tələbatı birinci olaraq dərk edən və ödəyən, zamanın nəbzini tutan Müsavat partiyası oldu" (12). Halbuki Ə.Hüseynzadə Azərbaycanda siyasi fəaliyyətə başladığı ilk gündən 1906-cı ildə "Həyat" qəzetində Azərbaycanın milli istiqlal bəyannaməsini elan etmişdir. "Biz Qafqazlıyıq - Qafqaz əhlinin öz dövlət idarəsinə özü baxa bilmək üçün lazım gələn muxtariyyət tələb edirik" (13).

Bu gün tədqiqatçılarımızın Ə.Hüseynzadənin xidmətlərinin M.Ə.Rəsulzadənin adına bağlamalarının, bu acınacaqlı faktın əsas səbəbini, hər şeydən əvvəl milli ideologiyamızın, azərbaycançılığın təşəkkülündə inkişafında əvəzsiz xidmətləri olan Ə.Hüseynzadənin və M.Ə.Rəsulzadənin irsini toplayıb düzgün öyrənmək, yəni ictimai, siyasi fikir tariximizdə hərənin öz yerini müəyyənləşdirmək, öz qiymətini vermək əvəzinə onların xidmətlərini qarışdırmalarında görürəm. İkinci mühüm səbəb ondadır ki, tədqiqatçılarımız eyni ideoloji cəbhədə mübarizə aparan bu vətən mücahidlərinin ideoloji mövqelərini bir-birindən ayıraraq Ə.Hüseynzadəni yalnız turançılıq və türkçülük ideologiyalarının, M.Ə.Rəsulzadəni isə yalnız azərbaycançılıq ideyasının banisi kimi təqdim edirlər. Onlara görə guya "müsavatçılar türkçülük nəzəriyyəsinin yanlış olduğunu dərk edib, azərbaycançılığı qəbul etdilər" (14). Lakin müsavatçılar türkçülərin sadiq davamçıları kimi türkçülüyü nəinki "əsrin məfkurəsi" kimi müdafiə etmişdilər". Hətta onlar türkçülüyün

"tűrkləşmək", islamlaşmaq, "avropalaşmaq" məramını Műsavat partiyasının proqramına daxil etmişdilər.

Bəzi alimlərimiz isə Ə.Hűseynzadə haqqında deyilmiş kőhnə qənaətlərini yenidən təkrar edərək yazırlar ki, "Əlibəyin yazılarında azərbaycançılıq qayəsi yoxdur" və həmin mővqedən çıxış edərək yazırlar ki, guya o zaman Azərbaycan ziyalılarının Ə.Hűseynzadəyə olan etirazları onun "bőyűk, əzəmətli bir aləmin, űmumiliyin (yəni tűrk dűnyasına işarədir - B.O.) içərisində "...Azərbaycan tűrklərinin őz műstəqil dűnyasını lazımınca gőrə və gőstərə bilməməmişdir. Onda belə fərqləndirmə yox idi" (15).

Űmumiyyətlə, belə yanlış műlahizələr bizim bir çox tədqiqatçılarımızda vardır. Onlara gőrə, guya Ə.Hűseynzadə "Vətən" deyəndə Azərbaycanı deyil, "Turan"ı nəzərdə tuturmuş. Halbuki Əlibəydə Vətən Azərbaycanla, Vətən-Turan arasında fərqləndirmə vardır. O məsləkilə əlaqədar olaraq "vətən" məfhumunu űç mənada işlətmişdir. Bu haqda əsərlərinin birində açıqlama verərək yazırdı ki: "Vətən (Azərbaycan-B.O.) yurdumun dağlarında, obalarında, meşələrində gəzən hər bir çobanın, əkinçinin, odunçunun... alın tərilə çőrəyini qazanan hər bir kasıbın, hər bir kűrəkçinin, kűrəkçi oğlunun qəlbində gizlənən atəşdir. Bu atəş vətənin səadəti yolunda uyuyur. Lakin ani təhlűkə, fəlakət baş verən kimi əcnəbilərin, yadların hűcumunu gőrdűkcə oyanır, ayılır, qiyamətlər qoparır, vətəni dűşmənlərin, əcnəbilərin vűcudundan, zűlműndən təmizləmədikcə sőnməyir. Firəng dilində buna "patriotizm", műsəlman dillərində "həmiyyəti-vətəniyyə" deyilir".

Ə.Hűseynzadənin vətəni - Azərbaycanla qəlbində yandırdığı "atəş" onun yazılarının hər sətrində əbədi iz buraxmışdır.

Ə.Hűseynzadədə Vətən - Azərbaycandan fərqli, ikinci bir "Vətən" anlayışı vardır. Həmin anlayışa gőrə, "hűbbűl-vətən minəl iman", yəni "Vətəni sevmək imandandır". Bu isə bir eti-

qadda, bir dində olan müsəlman ölkələri arasındakı məhəbbət-dir. Bu vətən məhəbbətini isə "atəş" deyil, "nur" adlandırırdı.

Ə.Hüseynzadədə "Vətən" məfhumunun üçüncü mənası "hübbülbəşər"dir. Hübbülbəşər ideyasının "atəş", "nur mənasında olan "Vətən sevgi"lərindən fərqli mahiyyətini açıqlayarkən o yazır ki: "Ancaq o hələ gizli qalıb, hökmünü həyata keçirmək üçün ayrı zamanları, ayrı dövrləri gözləyir. Bu vətəndə yaşayanlar... bu vətənə məxsus tarixin, ədəbiyyatın, etiqadın təsiri sayəsində zaman keçdikcə birləşəcəklər, bir qəlbə girəcəklər, bir vətənin övladı olacaqlar... Vay o biganələrin halına ki, bu arzuya qarşı çıxarlar, o vaxt mən vətənin göylərindən bir od parçası, alov yağmuru yağdıraram. Vətənin hər daşında, hər torpağında minlərcə atəş-paralar peyda edərəm. Bunların hamısını ətrafıma toplayıb "atəş" fırtınaları ilə düşmən ayağının nanəcibliyindən, murdarlığından təmizləyərəm. Çünki mənim bu atəşim atəşlərin ən yandırıcısıdır" (16).

Ə.Hüseynzadənin bu şərhi "Turan" anlayışını açıqlayırdı. Doğrudur, burada o, Turan məfhumunu işlətməmişdir. Lakin onun yaradıcılığından bizə məlumdur ki, "Turan ideyası"nı o, "hübbülbəşər" adlandırırdı.

Göründüyü kimi, Ə.Hüseynzadədə işlənən "Vətən" məfhumunda belə fərqli üç məzmun ehtiva olunmuşdur. Vətən - Azərbaycan, Vətən - islam aləmi, Vətən - Turan.

Hər üç "Vətən" anlayışı Ə.Hüseynzadənin məsləkilə əlaqədar yaradıcılığında vəhdət təşkil edir. Bu anlayışları onun əsərlərində kontekstdən ayırmaq çətin olduğundan bəzi tədqiqatçılar yanlış olaraq yalnız "Vətən-Turan" mənasını götürmüşlər. Halbuki, Ə.Hüseynzadəni turançı ideoloq kimi böyüdən də, tanıdan da onun Vətəni - Azərbaycana məhəbbətidir.

Məhz bu məhəbbət, Vətənin - Azərbaycanın istiqlaliyyəti uğrunda mübarizə amalı həm Ə.Hüseynzadəni, həm də M.Ə.Rəsulzadəni türkçülüyün mücahidlərinə çevirmişdir.

Bu haqda Mirzə Bala Məmmədzadə yazırdı ki: "...türkçülüyünü, azərbaycançılığını dərk etməyən bir xalq milli istiqlal bəyannaməsini də verə bilməz" (17).

---

1 Ziya Göyalp. "Türkçülük nasıl doğdu". Yeni məcmuə, İstanbul, 1915.
2 Şamil Qurbanov. "Məhəmməd Əmin Rəsulzadə". Bakı, 2001, s.126.
3 M.B.Məmmədzadə. "Milli Azərbaycan hərəkatı". Ankara, 1991, s.22.
4 Ə.Uca. Azərbaycanın önlü mütəfəkkiri Ə.Hüseynzadə. Ərzurum, 1998, s.88.
5 Füyuzat, 1907, N-23.
6 Ə.Cəfəroğlu. "Azərbaycan". İstanbul, 1940, s.32.
7 Ə.Uca. "Azərbaycanın önlü mütəfəkkiri Ə.Hüseynzadə", s.155.
8 Rəfail Məhəmmədin "Türkçülüyün təşəkkülü və inkişafı". İstanbul, 1999.
9 T.Svyatoçovski. Müsəlman cəmaətdən ulusal kimligə rus Azərbaycanı, 1905-1920. İstanbul, 1988, s.89.
10 S.Süleymanova. "XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycanda türkçülük". Azərbaycanın türkçülük və azərbaycançılıq problemləri. Bakı, 1998, s.115-126.
11 M.B.Məmmədzadə. "Milli Azərbaycan hərəkatı". Ankara, 1991, s.17.
12 T.Köçərli. "Azərbaycan Xalq Cümhuriyyəti və müasir dövr". Bakı, 1999, s.15.
13 Həyat, 1906, N-119, 2 iyun.
14 Milli özünüdərketmə. Beynəlxalq elmi kollokviumun tezisləri. Bakı, 1999, s.5.
15 Kamal Talıbzadə. "Yeni ədəbiyyatşünaslar nəslinin parlaq nümayəndəsi". Rasim Kamaloğlu. "Türkçülüyün babası". Bakı, 2000, s.7.
16 Ə.Hüseynzadə. "Siyasəti-Fürusət". Bakı, 1984, s.31.
17 M.B.Məmmədzadə. "Milli Azərbaycan hərəkatı", s.28.

# AZƏRBAYCAN DÖVLƏTÇİLİK TARİXİNDƏ M.Ə.RƏSULZADƏNİN YERİ

**Firdovsiyyə ƏHMƏDOVA**

Son on beş il ərzində Azərbaycan cəmiyyəti M.Ə.Rəsulzadə şəxsiyyəti haqqında qismən geniş bilgiyə malik olmuşdur. Sovet dővrű ərzində məhdud elmi və siyasi dairə űçűn M.Ə.Rəsulzadə adı ideoloji cəhətdən qatı antikommunist cəbhəsinin nűmayəndəsi sayılmışdır. 1980-ci illərin sonunda erməni təcavűzű dalğasında başlanan milli oyanış prosesi milli məfkurə tariximizə, xűsusən də bu məfkurənin gerçək həllini tapdığı Azərbaycan milli dővlətçiliyinə - Azərbaycan Xalq Cűmhuriyyəti tarixinə marağı və diqqəti artırdı. Cűmhuriyyət bayrağının yenidən qaldırıldığı zaman "Bir kərə yűksələn bayraq bir daha enməz!" sőzlərinin műəllifi M.Ə.Rəsulzadə milli-demokratik hərəkatın ideya rəmzinə çevrildi. Haqqında məqalələr, kitablar yazıldı, műhacir ədəbiyyatın M.Ə.Rəsulzadə barəsində yazıları təkrar dərc edildi. Rəsulzadənin publisist irsi, ayrı-ayrı kitabçaları geniş tirajla Azərbaycan cəmiyyətinə çatdırıldı.

Fəaliyyəti siyasi məzmun daşımış tarixi şəxsiyyətlərə műnasibətin birmənalı olmaması təbiidir. XX yűzilliyin birinci rűbűndə műrəkkəb və rəngarəng ictimai-siyasi həyat yaşamış Azərbaycan cəmiyyətinin űzdə olan fiqurlarından biri kimi M.Ə.Rəsulzadənin siyasi irsinin tədqiqi yaşadığı dővrűn, műhitin kontekstində araşdırılmalıdır. XX yűzilliyin əsas siyasi cərəyanları çağdaş dűnyada aktuallığını saxladığı səbəbindən, həmin cərəyanları təmsil etmiş tarixi şəxsiyyətlər çox zaman obyektiv qiymətini ala bilmir, qərəzli dəyərləndirilir, hətta siyasi műbarizə vasitəsinə çevrilir. Bu baxımdan fərqli siyasi ba-

xışların müdafiəçisi olmuş, fəaliyyətləri siyasi cəhətdən qarşıdurma səviyyəsinə çatmış, yaxud əqidəsinin təzadlı dəyişikliklərə məruz qaldığı bir çox tarixi şəxsiyyətlər, o cümlədən M.Ə.Rəsulzadə, N.Nərimanov, M.H.Hacınski, Ə.Ağayev və b. polemika mövzusu olaraq qalmaqdadır.

Azərbaycan milli dövlətçilik ideyasının başında duran M.Ə.Rəsulzadənin Cümhuriyyət dövründə oynadığı rol, ümumiyyətlə, onun dövlətçilik tariximizdə yeri elmi tədqiqata cəlb edilməlidir.

M.Ə.Rəsulzadə çox gənc yaşında siyasi həyata qoşuldu, ətrafında baş verənlərə, cəmiyyətin nöqsanlarına, Qafqaz müsəlmanlarının taleyinə biganə qalmadı. Maarifçilik, xeyriyyəçilik yolu ilə müsəlmanların tərəqqiyə nail olacağına inandı. Publisist yazılarında elmi, hümməti, qeyrəti təbliğ etdi. 1905-ci ildə "Hümmət" qəzetində 21 yaşlı Rəsulzadə Azərbaycan gəncliyinin siyasi mənsubiyyət mənzərəsinin təsnifatını vermişdir: "... biz cavanların biri millətpərəst, o biri demokrat, üçüncüsü əqidəpərəst, dördüncüsü cədidpərəst olub da, bu cür dəstə-dəstə olmaqda, hərəmiz özünə məxsus bir yol götürüb, müəyyən bir məslək ilə getməkdən hamımız tək-tək tələf oluruq... Hərəmiz bir küncdə bir xüsusi cəmiyyət qayırıb da müxtəlif yollar ilə getməkdənsə, birləşməli, öz fikir və fellərimizdən bir-birimizi hali etməliyiz. Millətpərəstlik bizə yararsa, hamımız millətpərəst, demokratlıq yararsa, hamımız demokrat və qeyri bir yarar məslək üzrə olub, müttəhidül-qövl vəl fel iş görək" (1). Həmin bu məqaləsini Rəsulzadə 1917-ci il iyulun 5-də "Açıq söz" qəzetində təkrar nəşr etdirdi (2). Üstündən 12 il keçəndən sonra "tarixi bir əhəmiyyətə malik olduğu üçün nümunə olaraq" yazının təkrar nəşri 1917-ci il iyulun 3-də N.Nərimanovun redaktorluğu ilə "Hümmət" qəzetinin yenidən nəşrə başlaması ilə əlaqədar idi. Bu münasibətlə "Açıq söz"ün 1917-ci il 5 iyul tarixli sayında "Tazə rəfiqimizi təbrik" başlıqlı

xűlasə vermiş və N.Nərimanovun "Hűmmət"in 1-ci sayındakı baş məqaləsindən iqtibas gətirmişdi (3). Əsasən N.Nərimanovun műlahizələrini bőlűşən Rəsulzadə cűmhuriyyət űsul-idarəsi məsələsində əlavə şərh vermişdir. Əgər 12 il əvvəl 1905-ci ildə Azərbaycan cəmiyyətində siyasi differensiallaşma prosesi başlayırdısa, 1917-ci il Fevral demokratik inqilabından sonra siyasi differensiallaşma rəsmi, leqal, peşəkar səciyyə daşımağa başladı. Műxtəlif ictimai təşkilatlar və siyasi partiyalar uzun műddət vahid hədəfə qarşı műbarizədə olduqlarından 1917-ci ilin Fevral inqilabına həmrəyliklə dəstək verdilər. M.Ə.Rəsulzadənin deyimi ilə, "Rusiyanın bűtűn xalqları űrəklərində bəslədikləri məqsədlərinə çatdılar" (4). Amma bu ilkin məqsəd idi. İdeya cərəyanlarının reallaşması yőnűndə maneə aradan qalxmış, geniş imkan yaranmışdı. Nəhəng imperiyanın rəngarəng milli tərkibi, iqtisadi-mədəni səviyyənin qeyri-bərabər gőrűntűsű, sosial vəziyyətin űmumi mənzərəsi təzadlı siyasi xətlərə uğur şansı vəd edən əlverişli zəmin idi.

Milli, dini, liberal, sosialist yőnűmlű hərəkatların hər birinin geniş sosial bazaya malik olmaq reallığı Rusiya məkanında ictimai-siyasi situasiyanı műrəkkəbləşdirən faktor sayıla bilər. Respublika idarə-űsulunda həmrəy olan qűvvələr Rusiyanın gələcək siyasi taleyini műəyyən edəcək Műəssislər Məclisinə seçkilərdə iştirak edərək hər biri ayrılıqda őz niyyətlərinin-proqramlarının gerçəkləşmə perspektivinə inanırdılar. Siyasi qűvvələrin proqram səciyyəsində kőklű fərq bolşeviklərin platforması qarşılığında meydana çıxırdı. Bu baxımdan M.Ə.Rəsulzadənin "Hűmmət"in űnvanına yazdığı - "Həqiqi hűrriyyətin ancaq cűmhuriyyət űsuli-idarəsinə bağlı olduğuna gəlincə, yəqin ki, burada cűmhuriyyətdən məqsəd: əvvəla "Cűmhuriyyət ən'am" (bəxşiş) olduğu və saniyən (ikinci) "cűmhuriyyət ən'am"ın belə məqsəd deyil, vasitə olduğu unudulmuş" műlahizəsi siyasi opponentlərin qarşılıqlı ittihamlar etapının 1917-ci il

üçün erkən fazasına aid idi (5). Rusiyanın respublika quruluşlu dövləti bu ərazidə yaşayan millətlərin və xalqların taleyi üçün bütün problemlərin həlli nəticəsi kimi deyil, vasitə olaraq qəbul edilirdi. Əgər Rəsulzadənin etirafına görə azərbaycanlıların milli, siyasi şüuru 1905-ci llədək milli məktəb, milli mətbuatdan uzağa getmirdisə (6), bu dövrdən 1917-ci ilin fevralınadək Azərbaycanın milli siyasi qüvvələri milli mədəniyyətin, dilin azad inkişafı üçün lazımi şəraitin yaradılmasını tələb edirdilərsə (7), artıq 1917-ci ilin martından Rusiya dövləti hüdudlarında Azərbaycana məhəlli müxtariyyət ideyası aparıcı yer almağa başladı. Bu ideyanın kəskin müzakirə və münaqişə mənbəyinə çevrilməsinə məhdud və geniş müstəvidə təhlil verilə bilər: Rusiya müsəlmanlarının müqəddəratı nöqteyi-nəzərindən eyni siyasi mənsubiyyətli müsəlman və qeyri-müsəlman qüvvələrinin baxışları müqayisəsində və fərqli siyasi mənsubiyyətli yalnız müsəlman qüvvələrinin baxışları müqayisəsində Rəsulzadənin dəstəklədiyi məhəlli muxtariyyət - Azərbaycan muxtariyyəti ideyasının məhz müsəlman məclislərində (Qafqaz müsəlmanları, sonra isə Rusiya müsəlmanları qurultayı) qızğın fikir ayrılığına, diskussiyaya səbəb olması diqqəti çəkir. Toplantı iştirakçıları müsəlmanların aqibətinə biganə qalmayan şəxslər olmaq etibarilə tərəqqipərvər aktivlər sayıla bilər. Rusiya müsəlmanlarının mənafeyi baxımından fərqli düşüncəli siyasi müsəlman qüvvələrinin arqumentləri onların əqidəsinin və fəaliyyətinin motivinə işıq salır. İslam etiqadlı millətlər üçün "federasiya, yaxud vahid - ümumi idarə quruluşlu Rusiyanın mövcudluğu sərfəlidir?" seçimində münaqişə Rəsulzadənin ibarəsilə "bir tərəfdən türkçülər, digər tərəfdən də islamçılarla sosialistlər arasında idi"(8). İkincilər, daha dəqiqi - unitar dövlət quruluşunun saxlanması tərəfdarları müsəlman-türk xalqlarının parçalanacağından ehtiyat edirdilər. İslamçılar müsəlman birliyinin möhkəmlənməsinə çalışırdılarsa, sosialist müsəlman-

lar "műsəlman əhalisinin geniş təbəqələrinin marağını" műdafiə edərək inqilabın nailiyyətlərindən onların bəhrələnə bilməyəcəkləri qənaətində idilər. Məruzəsinin əsasını federasiya ideyası təşkil edən M.Ə.Rəsulzadə isə çox saylı və çox millətli dővlətin bir mərkəzdən idarə oluna bilməsini "demokratik respublika" prinsipi baxımından qeyri-műmkűn hesab edirdi. Federasiya ideyasını dəstəkləyənlərin təyinatını Rəsulzadə gőstərmişdir: "Federasion əsasını műdafiə edənlər tűrkçűlər idi ki, bunlar xűsusi olaraq Azərbaycan űçűn dəxi məhəlli muxtariyyət tələb ediyorlardı" (9). 1917-ci ilin aprelindən "Azərbaycan muxtariyyəti" ideyası ictimai status qazanır. M.Ə.Rəsulzadənin bu ideya ətrafında təkidli mővqeyi opponentlərinin arqumentləri prizmasından birmənalı qiymətləndirilməyə bilər: Sosial-demokratiya ideyasına məhrəm olmuş, islam inancı mőhkəm Rəsulzadə űmumrusiya műsəlman birliyini parçalamaq yolunu tutdu, yaxud műsəlmanların imkansız sosial təbəqələrinin mənafeyini diqqətə almırdı, yalnız separatçılıq yolu tuturdu və s. İstər "Műsavat" partiyasının proqram məzmunu cəhətdən, istər Rəsulzadənin dəstəklədiyi ideyanın təsbit olunduğu - Azərbaycan Xalq Cűmhuriyyəti dővrűndə onun fəhlə konfranslarında műtəmadi çıxışları, yaxud da Oktyabr çevrilişi zamanı "Műsavat" partiyasının mővqeyi təkzibedici məzmun daşıyır. Yəni bolşeviklərin hakimiyyətə gələrkən bəyan etdikləri prinsiplərin reallaşmasını M.Ə.Rəsulzadə də istəyirdi və gőzləyirdi: "İnqilabın ilk gűnləri məclisi-műəssisan intizarı ilə keçiyordu. Məclisi-műəssisan bir an əvvəl toplanacaq, kőylűlərə torpaq, əmələlərə iş, millətlərə də muxtariyyət təmin edəcəkdi" (10). Bu fikirlər Fevral inqilabından sonra beyinlərə hakim kəsilmişsə də bolşeviklər onların reallaşacağını vəd edirdilər. Nəticə etibarilə, Rəsulzadəni "zəhmətkeş kűtlələrin" rəqibi kimi qiymətləndirmək olmaz. Műsəlman birliyinin parçalanmasından sőz gedərsə, 1917-ci ilin mayında Moskvada keçirilmiş Rusiya

müsəlmanları qurultayında Rəsulzadə "Rusiyadakı 30 milyon müsəlmanın 29 milyonu türkdür"-deyirdi. İlk nəzərdə yalnız müsəlman deyil, türk birliyinin parçalanmasından da söhbət gedə bilər. Lakin islam aləmində milli differensiallaşmanın olduğu gerçəkliyində Rusiya türklərinin milli özünüdərkinin geri qalması və milli mənsubiyyəti ilə dini inancını ayırd edə bilməməsi nəinki Rəsulzadəni, bütün tərəqqipərvər millətsevər ziyalıları ağrıdırdı. Rusiya türkləri arasında differensiallaşma getdiyini və labüdlüyünü nəzərə alaraq "Biz milli-məhəlli muxtariyyət əsasına görə Azərbaycan, Dağıstan, Türküstan və b. kimi ayrı məhəlli muxtariyyətlərə malik olan Türk qövmləri üçün muxtariyyat istiyoruz" deyirdi (11). Milli-məhəlli muxtariyyət çərçivəsində müsəlman-türk xalqlarının tərəqqisinə çalışan Rəsulzadə Rusiya Federasiyası ilə yanaşı Azərbaycan muxtariyyəti şüarını təqdir və təbliğ edirdi.

Bu seçim siyasi arenadakı qüvvələri Azərbaycan milli hərəkatına qarşı rəqib etdi. Sosialist partiyalarının vahid bloku parçalansa da Azərbaycan muxtariyyəti ideyasına münasibət mənfi olaraq qalırdı. "Vahid və bölünməz Rusiya"ya qarşı federativ Rusiya ideyası siyasi-hərbi qarşıdurmanın əsas leytmotivlərindən oldu. 1917-ci ilin iyunu Azərbaycanda siyasi qüvvələrin öz funksiyasını və yerini dəqiq müəyyənləşdirmək mərhələsi kimi əlamətdardır. "Müsavat" və "Türk ədəmi-mərkəziyyət" partiyalarının qovuşması və M.Ə.Rəsulzadənin birləşmiş partiyaya rəhbərlik etməsi Azərbaycan milli hərəkatının inkişafı prosesinə ideya-təşkilati baxımından ciddi təsir göstərdi.

Əksər siyasi partiyalar kimi əsas ideyalarının Rusiya Müəssislər Məclisi yolu ilə reallaşacağına ümid bəsləyən "Müsavat" partiyası Müvəqqəti hökumətin yeritdiyi siyasəti izləyir, təhlil edir, nəticə çıxarır və proqnoz verirdi. 1917-ci il oktyabr tarixində M.Ə.Rəsulzadə "Açıq söz"də "Yeni hökumətin tazə

bəyannaməsi" yazısında bəyannaməyə şərh verməklə yanaşı, bəyannamənin mətnini də qəzetdə dərc etdirmişdi. Bəyannamədə ölkənin bütün problemlərindən bəhs edildiyi qeyd olunsa da, müəllif başlıca problem kimi müharibə ilə bağlı atılacaq addıma diqqəti çəkir. Bu yalnız Müvəqqəti hökumətin xarici siyasətini izləmək və qiymətləndirmək marağından irəli gəlmirdi. Azərbaycan milli siyasi qüvvələrini də narahat edən əsas məsələ, Rusiyanın müharibəni davam etdirəcəyi təqdirdə, inqilabın nailiyyətlərinin təhlükə altında qalması və əldən getməsi ilə bağlı idi. Fevral demokratik inqilabının verdiyi imkanların, inqilabi dəyişikliklərin aradan qalxması digər siyasi qüvvələr kimi "Müsavat"ın da şansının iflası demək olardı. Bu baxımdan "ya hərb inqilabı, ya inqilab hərbi yeyəcəkdir" proqnozu təşviş doğururdu. Rusiyanın müharibəni davam etdirmək iqtidarı olmadığı kimi, ayrıca sülh bağlayıb müharibədən çıxmaq, müttəfiqləri ilə sonadək tərəfdaşlıq etməmək seçimi də imkansız görünürdü. Müvəqqəti hökumət ikinci yolu seçməyə cəsarət etmədi, müharibəni davam etdirməkdə idi. "Son qələbəyə qədər hərb" şüarının Rusiyanı məhv edəcəyini bildirən M.Ə.Rəsulzadə çıxış yolu kimi müttəfiqlərin Rusiyaya təzyiq göstərməməsini nəzərdə tuturdu. İstər Rusiyada, istərsə də ona müttəfiq ölkələrdə əhalinin, geniş kütlələrin (demokratiyanın) hərbin dayandırılmasını, sülh bağlanmasını tələb etməsi təqdir olunurdu (12). Müttəfiqlərin Parisdə toplaşacaq konfransına Rusiya hökuməti ilə yanaşı, digər demokratik qüvvələrin də daxil olduğu nümayəndə heyətinin iştirak edəcəyinə və danışıqlar vasitəsilə vəziyyətdən çıxış yolu tapılacağına ümid edilirdi. M.Ə.Rəsulzadə təkcə Müvəqqəti hökumətin yeritdiyi siyasəti deyil, keçmiş Rusiya imperiyası ərazisində baş verən prosesləri diqqətdə saxlayırdı. Xüsusən, milli məsələ, xalqların öz müqəddəratları yolunda gördüyü işlər, Rusiyanı federasiyaya çevirəcək tədbirlər daha fəal reaksiya doğururdu.

Kiyevdə keçirilmiş millətlər qurultayı mövzusuna biganə qalmayan M.Ə.Rəsulzadə "Açıq söz"ün 3 oktyabr tarixli sayındakı "Məsuliyyətli bir etinasızlıq" yazısında Rusiya Müsəlman Milli Şurasının mövqeyini tənqidi təhlil etmişdir. Belə ki, bu qurum tərəfindən Kiyevdəki millətlər qurultayına nəinki nümayəndə, heç təbrik teleqramı da göndərilməmişdir. Bu "etinasızlığın" səbəbini araşdıran Rəsulzadə Şuranın yaranma tarixçəsinə nəzər salır. 1917-ci ilin mayında Moskvada keçirilmiş Rusiya müsəlmanları qurultayının qoşma xalq cümhuriyyəti tərəfində durduğu, "mərkəziyyətçilərin" başçısı Əhməd Salikovun isə qurultayın seçdiyi milli şuranın rəyasət heyətində olduğu təzadından başlanan yolun məzmununu diqqətə çəkir: Kazandakı 2-ci ümummüsəlman qurultayı sayılsa da, əsasən Volqaboyu ərazisini əhatə etmiş, hətta Milli Şura heyətinin təklifi ilə federasiya haqqında Moskva qurultayının qərarını belə təftiş etməyə səy göstərmişdilər. Rəsulzadə bu mövqeyin kökündə "mərkəziyyətçilərdən" çox "mərkəziyyətin" durduğunu yazır. Rusiya Müsəlman Milli Şurasını bütün Rusiya müsəlmanlarının iradəsini nəzərə almalı, onları təmsil etməli orqan kimi düzgün sayırdı. Volqaboyu türklər içərisində federasiya tərəfdarları olduğunu, ümumiyyətlə, bu bölgənin federasiya əleyhinə qərar çıxarmadığı yəqinliyi ilə M.Ə.Rəsulzadə iki yoldan birini seçməyi təklif edirdi: "mərkəziyyətçilər namuslu siyasət adamları isə ... ya şuralarının adını dəyişdirsinlər, və yaxud məlum nəticəyi etsinlər; bilsinlər ki, Rusiya müsəlmanları namına hərəkət edib də Rusiya müsəlmanlığının məqsədlərinə etinasızlıq göstərmək hüquqi-milləti qəsb etməkdir"(13). M.Ə.Rəsulzadənin bu məsələdə belə kəskin reaksiya verməsini onun federasiya ideyasına bağlılığı, təşəbbüskarı və ardıcıl müdafiəçisi olduğu qənaəti ilə, yaxud məsuliyyətli fəaliyyət mərhələsində daha radikal, prinsipial davranışa üstunluk verməsi və ya Salikovla siyasi opponent olaraq dartışması ehtiya-

cından doğan addım kimi də dəyərləndirmək olar.

"Azərbaycan muxtariyyəti" ideyası Azərbaycan dövlətçiliyi gerçəkləşənədək aktuallığını saxladı, müxtəlif məzmun və səviyyələrdə təqibə məruz qaldı. İdeya daşıyıcı qüvvələrin nüfuz və say artımı digər siyasi qüvvələri qıcıqlandırırdı və onların koalisiya yaratmağına belə səbəb oldu. M.Ə.Rəsulzadənin ardıcıl müdafiə etdiyi, şərh verdiyi "Federasiya" tələbi "Müsavat" partiyasının I qurultayında proqram məzmununda bir daha təsbit olundu. Rusiya Müəssislər Məclisinin verəcəyi qərardan asılı olmayaraq qurultay Azərbaycanın məhəlli-milli muxtariyyətini həyata keçirməyə başlamaq, Mərkəzi Müsəlman Komitəsindən Azərbaycanın Müəssislər Məclisini çağırmağı israr etmək haqqında qərar qəbul etdi. Muxtariyyətin gerçəkləşməsi üçün bütün tədbirlərin keçirilməsi M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi partiyanın Mərkəzi Komitəsinə həvalə olundu. Muxtariyyət uğrunda mübarizə Azərbaycan dövlətçiliyinə aparan yol idi. Zaqafqaziya müsəlman milli komitələrinin 1917-ci ilin noyabrında keçirilən konfransı da təcili olaraq millətlərin öz müqəddəratını təyin etmə hüququnun reallaşması məqsədilə milli Müəssislər Məclisinin çağırılmasını qərarlaşdırdı.

1917-ci ilin payızı Azərbaycan türkləri üçün seçkilər prosesi ilə əlamətdar idi: Bakı şəhər dumasına, Rusiya Müəssislər Məclisinə, Bakı şəhər fəhlə və əsgər deputatları sovetinə seçkilər.

Partiya başçısı, məhəlli-milli muxtariyyət fikrinin ardıcıl müdafiəçisi və aktiv yazar olan M.Ə.Rəsulzadənin seçkilər prosesinə yazı həsr etməməsi təəccüb doğura bilərdi. Bakı fəhlə və əsgər deputatları şurasına seçkilərin səhəri günü, oktyabrın 23-də "Açıq söz"də "Nömrəli seçkilər" yazısı ilə çıxış etdi. Duma seçkilərinə həsr olunmuş məqalədə M.Ə.Rəsulzadə proporsional seçki sisteminin üstün və mənfi cəhətlərinə toxunmuşdur. Partiyaların proporsional nisbətdə təmsilçilik varian-

tında azlığın da hüququnun təmin olunduğunu bildirsə də, seçicinin istəyinin maksimum təmin olunmadığını, fərdi şəkildə deyil, qrup halında seçimə səs vermək lazım gəldiyini məhdud imkan kimi qiymətləndirmişdir. Amma Rəsulzadənin yazıda məqsədi heç də seçki prinsipinin özəlliklərini təhlil etmək deyil, partiya platforması, milli mənafe baxımından seçiciləri ayıq salmaq, "müsəlman siyahıları" arasında fərq qoymağa çağırmaq olmuşdur. Belə ki, islami şüarlarla çıxış edən, müsəlmanlığı müdafiəni vəd edən qüvvələrin siyahısı ilə Bakı Müsəlman Milli Komitəsinin siyahısı seçimində üstünlük vermək üçün hər iki tərəfin qadirlik səviyyəsini göstərmiş, etimad sonluğunu isə seçicinin öhdəsinə buraxmışdır: "Siyasi qərəzlə din qovğası çıxarıb da Qur'an iddiası edənlərəmi, yoxsa millətin dərdi üçün milli qüvvətləri bir yerə yığmaq istəyənlərəmi?"(14)

Rəsulzadə növbəti seçkilərə ümidlə baxdığı zaman Bakı Sovetinə seçkilərdə "Müsavat" partiyası uğur qazandı. "Açıq söz"dəki (26 oktyabr 1917-ci il) yazını bu baxımdan "Hagahan" bir qələbə" adlandırmışdır.

"Müsavat" partiyasının nəzəri və təşkilati baxımdan Azərbaycanın nəinki milli, ümumən siyasi qüvvələri sırasında nüfuzunun real göstəricisi 1917-ci il oktyabrın 22-də Bakı Sovetinə seçkilərin nəticəsi ilə təsdiqləndi. Qeyri-azərbaycanlı fəhlələrin çoxluq təşkil etdiyi, bolşevik təbliğatının fasiləsiz işlədiyi Bakıda fəhlə deputatları Sovetinə seçkilərdə "Müsavat" partiyasının üstün qələbə qazanmasının əhəmiyyətini M.Ə.Rəsulzadə şərh edərkən, bir sıra ümumiləşdirmələr etmişdir. "Əsgər" ifadəsinin şamil edilmədiyi, "Fəhlə vəkilləri şurasının seçkiləri" adlandırdığı prosesdə "Müsavat"ın seçici əhatəsi diqqətə çatdırılır.

M.Ə.Rəsulzadə "Müsavat"dan kənar siyasi qüvvələr üçün "nagahan" hesab etdiyi seçki qələbəsini təbii səciyyələndirsə

də, "müsəlman demokratiyası", "müsəlman əmələsi" arasında dayaqlanmaq, sosial baza qazanmaq baxımından "Müsavat" partiyasının imtahan verdiyini, sınaqdan çıxdığını bildirməklə bu seçkilərin partiya üçün önəm daşıdığını və nəticəsinin də fəaliyyət stimuluna çevrildiyini ortaya qoyur(15). Lakin, bu qələbə arxayınlıq yaratmır. M.Ə.Rəsulzadə Rusiya Müəssislər Məclisinə seçkilər ərəfəsində "Açıq söz" qəzetində çıxış edir. Seçki qabağı platforma məzmunu daşıyan bu müraciətin ilk bəndi "muxtariyyət" şərtini irəli sürür. Müəssislər Məclisinin nəinki qəbul edəcəyi qərarı gözləmədən, mürəkkəb siyasi şəraitdə Məclisin aqibətini belə gözə alaraq M.Ə.Rəsulzadə irəlicədən proqnoz verir:

"Ümumrusiya Məclisi-müəssisan toplanmasa, 36 adamdan ibarət olan Zaqafqasiya vəkilləri toplaşacaq vilayət haqqında fikir edəcəklərdir" (16). M.Ə.Rəsulzadənin siyasi irsində təsdiqini tapmış tarixi proqnozlaşdırma nümunələri istisna olmasa da, Rusiya Müəssislər Məclisi baxımından pessimist yanaşması, xüsusi uzaqgörənlik tələb etmirdi. Məclisə seçkilər keçirilən günlərdə Rusiya məkanında baş verənlərin ümumi məzmununu Rəsulzadə lakonik ifadə etmişdi: "Qiyamət". Birbaşa təyinat Rusiyaya aid olmuşdur. "Qiyamət"in siyasi rəsmini ən qatı ifadələrlə təsvir etmiş, Fevral inqilabından sonra mərkəzi idarəçilik sisteminin yalnız 8 ay fəaliyyət göstərdiyini qanunauyğun saymış, federasiya formasının qaçılmaz olduğunu bildirmişdi. "Açıq söz"ün 29 noyabr tarixli sayında səslənən yeni fikir Rusiya Müəssislər Məclisindən əvvəl Rusiya federasiyasını (cəmahir müctəməsini-respublikalar birliyini) təşkil edəcək "millət və vilayətlərin" özlərinin məclisi-müəssisanlarını çağırması haqqında idi. Artıq Rəsulzadə həmin fikri Qafqazdakı hadisələrin gedişatına əminliklə irəli sürürdü. Gürcülərin bu yolda ilkin olmaları həm cəsarətləndirici, təkanverici, həm də geri qalmaqdan ehtiyat hissinə bağlı faktor idi.

Oktyabr çevrilişindən az sonra Rusiyanın mahiyyət durumuna özünəxas bədiiliklə siyasi təhlil verən Rəsulzadə bütün Cənubi Qafqazda Rusiya Müəssislər Məclisinə seçkilərin səhəri günü, noyabrın 29-da, ilk baxışda separatçı görünən çağırışla müraciət edir: "Azərbaycan Məclisi-Müəssisanı düşünəlim, milli komitələr konferensiyasının qərarlarını heç durmadan qüvvədən felə götürəlim, heç də naümid olmayalım" (17). Lakin tarixin bütün dövrlərindən məlumdur ki, imperiyalar çökəndə, mərkəzi hakimiyyət zəifləyəndə, dağılanda hərc-mərcliyin qarşısını almaq üçün yerlərdə idarəedici qurumlar məsuliyyəti öz üzərinə götürür, yeni təsisatlar yaranır. Rusiya məkanı üçün spesifik olanı isə çevriliş edib hakimiyyət başına gələn qüvvələrin rəsmi bəyanatlarından doğdu. Millətlərin öz müqəddəratını sərbəst təyinat hüququnun qüvvədə qalması ilə yanaşı, Rusiya Müəssislər Məclisinə seçkilər davam etməkdə idi. Artıq bir çox bölgələr muxtar məzmun almış və toplaşa biləcəyi sual altında olan Müəssislər Məclisinin "federasiya" formasını seçəcəyi labüd görünürdü. Bu şərtlər daxilində Rəsulzadənin təşvişi getdikcə artırdı: "Geridə qalan yalnız biziz. Yalnız Zaqafqaziya müsəlmanları, daha doğru bir təbirlə Azərbaycan bu günə qədər sözünü söyləməmişdir" (18). Rusiya türkləri içərisində ilk dəfə olaraq federasiya prinsipini elan edən Azərbaycanın hətta Qafqazda gürcülərin milli-məhəlli muxtariyyətə qərar vermələrindən sonra belə əməli iş görməməsi səbəbləri Rəsulzadəyə bəlli olsa da "Vaxt keçir. Ötürülən vaxtların məsuliyyətindən çıxmaq müşküldür" xəbərdarlığını etmiş, "Azərbaycan muxtariyyəti həmən bir əmr-vaqe halını almalıdır. Bunun üçün lazımdır ki, hər şeydən əvvəl Azərbaycan Məclisimüəssisanı dəvət olunsun... Zaqafqasiya komitəsi bu məsələyi ciddi surətdə həll edib tələsməli, bir an əvvəl Məclisi-müəssisan dəvətinə başlamalıdır" təkidində olmuşdur (19). Rəsulzadənin bu ehtiyatı sadəcə təsbit olunmuş, sınaqdan çıxarılmış

mülahizəyə, təcrübəyə söykənmirdi. 1917-ci ilin sonu üçün Qafqazda, konkret olaraq Bakıda yaranmış siyasi qüvvələr nisbəti, hakimiyyətin rəqib tərəfin əlində cəmlənməsi təhlükəsi, hadisələrin sürətlə cərəyanı, arzu edilən istiqamətdə proqnozlaşdırmanın reallıqdan uzaqlaşması kimi şərtlərdən doğurdu. Təbii ki, muxtariyyəti əngəlləyən qüvvələr də sərvaxt idilər. Qarşıdurma getdikcə kəskinləşirdi. "Azərbaycan muxtariyyəti"nə qənim kəsilən qüvvələrdən bir qismi bu ideyanın İran Azərbaycanına şamil olunduğunu, İranın daxili işlərinə qarışmaq kimi qiymətləndirənlər idi. Onlar "Azərbaycan muxtariyyəti"nə İran Azərbaycanının ilhaqı kimi baxırdılar. Məsələyə geniş aydınlıq gətirən Rəsulzadə Azərbaycanın hər iki hissəsinin vahid milli mənşəyinə toxunmuş və siyasi müqayisə aparmışdır. 1917-ci il dekabrın sonu üçün Rəsulzadənin mövqeyi belə idi: "Bu gün Azərbaycan muxtariyyətindən bəhs olunuyorsa həmən İrəvan, Gəncə və Bakü quberniyaları ilə sair Zaqafqasiya uyezd və mahallarından bəhs olunuyor deməkdir" (20).

Rusiya Müəssislər Məclisi qovulduqdan sonra yaranmış Zaqafqaziya Seymində təmsil olunan Azərbaycan siyasi qüvvələri içərisində ən çox yeri müsavatçılar tuturdu. Seymdəki Azərbaycan partiyalarının ümumi razılığına əsasən "Müsavat" fraksiyası və demokratik bitərəflər qrupunun rəyasət heyəti eyni zamanda Azərbaycan fraksiyalarının ümumi rəyasət heyəti funksiyasını yerinə yetirməyə başladı (21). Rəyasət heyətinin sədri M.Ə.Rəsulzadə, müavinləri isə M.Y.Cəfərov və N.Yusifbəyli idi.

Rəsulzadənin Seymdəki xidməti həm də diplomatik fəaliyyəti ilə əlamətdardır. Osmanlı dövləti ilə münasibətlərin nizamlanmasında fəal rol oynamışdır. Bu zaman nə Osmanlı dövlətinin mənafeyinin zərbə almasına, nə də Cənubi Qafqazın mənafeyinin tapdanmasına yol verməmək istiqamətində iş

aparmışdır. Qars, Batum, Ərdahanla bağlı iddiada Türkiyəni Ərzincan barışığının pozulmasında günahlandırmağı təklif edənlərə qarşı çıxan Rəsulzadə, eyni zamanda bildirirdi ki, Rusiyadan və Türkiyədən olan təhlükə bizi daha sıx birləşdirməlidir. Cənubi Qafqazın müstəqilliyi və birliyi naminə isə Azərbaycanın maraqlarını güzəştə getmək mövqeyini qəbul etmirdi. Əksinə, 1918-ci ilin yazı üçün yaranmış vəziyyətdə Cənubi Qafqazın müstəqilliyinin elan edilməsini Azərbaycanın mənafeyinə məqbul akt kimi real çıxış yolu hesab edirdi: "Zaqafqaziya müstəqil olmalıdır. Bu müstəqillik zərurətə çevrilməlidir". Bakıda kütləvi müsəlman qırğınlarından sonra təşkil edilmiş sovet hakimiyyəti ilə, sovet Rusiyası ilə əlaqələr qurub Türkiyəyə qarşı birgə mübarizə aparmaq meyllərinin yarandığı şəraitdə Seymin müsəlman fraksiyası Cənubi Qafqazın müstəqilliyini tələb edirdi. Bu məsələnin reallaşması üçün Seymin digər fraksiyalarının mövqeyinə təsir etmək məqsədilə M.Ə.Rəsulzadə Trabzon danışıqlarına tərəfdar olan menşeviklərdən istifadə etməyi lazım bilirdi (22).

Məhz bu taktikanın yeridilməsi və cəbhədəki uğursuzluqlar Seymin qərarını müəyyənləşdirdi: "Gürcülər müstəqillik ideyasında azərbaycanlılarla həmrəy olduqda, ermənilər də eyni cür hərəkət etmək qarşısında qaldılar" (T.Svyatoçovski). Cənubi Qafqazın müstəqil Demokratik Federativ Respublika elan olunması, A.Çxenkelinin təşkil etdiyi hökumətə Azərbaycan fraksiyasından beş nümayəndənin daxil edilməsi Azərbaycan üçün uğurlu gedişat idi. Gürcü menşeviklərinin A.Çxenkelinin yeni hökumətə rəhbərlik etməsini Müsavat partiyasının böyük qələbəsi kimi dəyərləndirməsi əsassız olmadığı kimi M.Ə.Rəsulzadə seçiminin dəqiq və düzgünlüyünün təsdiqi idi: "Seym üzvü olan Çxenkeli ilə danışmaq lazımdır. O, müstəqilliyin elan edilməsinə tərəfdardır" (23). Yeni hökumətin əsas vəzifələrinə əlavə olaraq, Rəsulzadə Bakının azad edilməsi və Da-

ğıstanla əlaqə məsələlərinin diqqətdə saxlamaq zəruriliyini vurğuladı (24).

Batumda Osmanlı dövləti ilə yeni sülh danışıqlarında iştirak edəcək Cənubi Qafqaz nümayəndəliyinin üzvlərindən biri M.Ə.Rəsulzadə olmuşdur. O, M.H.Hacınski ilə birlikdə əsas tərkibdə Azərbaycanı təmsil edirdi. Batum danışıqlarında getdikcə artan gərginlik və ziddiyyətlər Cənubi Qafqaz Federasiyasının parçalanması ilə nəticələndi.

Tiflisdə Cənubi Qafqazla bağlı taleyüklü dəyişikliklər baş verdi. Gürcüstan istiqlaliyyətini bəyan etdikdən sonra Seymin bütün azərbaycanlı üzvlərinin yığıncağı özünü Azərbaycanın Müvəqqəti Milli Şurası elan etdi. M.Ə.Rəsulzadə gizli səsvermə nəticəsində qiyabi olaraq Milli Şuranın sədri seçildi.

Çağdaş Azərbaycan tarixşünaslığında Cümhuriyyətlə bağlı hallandırılan məsələlərdən biri də M.Ə.Rəsulzadənin dövlət idarəçiliyində yüksək vəzifə postu tutmağı ətrafındadır: Rəsulzadə hansı rəsmi vəzifəni daşıyırdı, daşımırdısa nə səbəbdən? İlk nəzərdə M.Ə.Rəsulzadənin Azərbaycan dövlətçiliyi tarixində fəaliyyət məzmununun təhlilindənsə belə formal cəhətə diqqət verilməsinin nə dərəcədə əhəmiyyət kəsb etməsi sual doğurur. Lakin digər tərəfdən, Azərbaycan milli məfkurəsinin mücahidinə çevrilmiş, siyasi arenada görkəmli fiqur olan bir şəxsin Cümhuriyyət dövründə dövlətdə, hökumətdə yüksək səviyyədə rəsmi vəzifə tutmamasının təəccüblə qarşılanmasını da təbii qəbul etmək olar. Bəs həqiqətdə necə olubdur?

Özünün iştirak etmədiyi halda (Batum danışıqlarında iştirak edirdi) Azərbaycan Müvəqqəti Milli Şurasının gizli səsvermə yolu ilə sədri seçilməsi M.Ə.Rəsulzadənin bir şəxsiyyət göstəricisi də sayıla bilər. Amma belə tarixi məsuliyyətli bir məqamda şəxsiyyətə özünü təsdiq şansının verilməsi versiyası məqbul sayıla bilməz. Əksinə, tale yüklü vəzifənin başında bu status üçün artıq özünü təsdiqləmiş şəxsə üstünlük verilməsi

daha məntiqi görünür. Azərbaycan milli hərəkatının liderlərindən biri, Rusiya müsəlmanları içərisində nüfuz qazanmış (Rusiya Müəssisələr Məclisinə həm Azərbaycandan, həm də Türküstandan üzv seçilmişdir), "Azərbaycan muxtariyyəti" şüarının ardıcıl müdafiəçisi M.Ə.Rəsulzadənin Milli Şura sədri seçilməsi məqsədə müvafiq səciyyələndirilə bilər. Bütün cəhətləri və şərtləri ilə yanaşı bu seçimin sadə, real zəmini var idi. Cənubi Qafqazda ali hakimiyyət orqanı kimi fəaliyyətə başlayan Seymdə çoxluğu müsəlman partiyaları bloku təşkil edirdisə, onların da sırasında say üstünlüyü M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi "Müsavat" partiyasına məxsus idi. Belə ki, Seymdə 4 partiya ilə təmsil olunmuş Azərbaycan fraksiyasının 44 üzvü var idi, onlardan 30-u isə "Müsavat" partiyasına mənsub olmuşdur. Və yuxarıda qeyd edildiyi kimi M.Ə.Rəsulzadənin sədri olduğu rəyasət heyəti Azərbaycan fraksiyasındakı bütün partiyaların birgə razılığına əsasən Azərbaycan fraksiyasının ümumi rəyasət heyəti funksiyasını yerinə yetirməyə başladı. Beləliklə, M.Ə.Rəsulzadə Seymin Azərbaycan fraksiyasının liderinə çevrilir və həmin özəkdə Azərbaycan Milli Şurası bəyan edilləndə Şuranın sədri seçilir. Digər bir məsələ isə Azərbaycan Müvəqqəti Milli Şurasının statusu ilə bağlıdır. Bu təsisat nə dərəcədə səlahiyyətli, hüquqi əsası olan dövlət qurumu idi? Bu suala, Milli Şuranın fəaliyyət məzmununu araşdırmaqla çavab verməyin birmənalı qarşılanmayacağını nəzərə alaraq yalnız rəsmi sənədlərə müraciət edək. Müvafiq çoxsaylı sənədlər içərisində ikisinə diqqət yetirmək yetərlidir: Azərbaycanın İstiqlal bəyannaməsi (Azərbaycan İstiqlalını mübəyyin əqdnamə) və Azərbaycan parlamentinin yaradılması haqqında qanun (Azərbaycan Məclisi-Məb'usanın tə'sisi haqqında qanun) yəqin ki, mötəbərlik baxımından mübahisə doğurmaz.

Azərbaycan Müvəqqəti Milli Şurası Azərbaycanın siyasi müqəddəratını təyin etməyə, Azərbaycanın istiqlalını elan et-

məyə, Azərbaycan Xalq Cümhuriyyətini bəyan etməyə səlahiyyətli orqan idi. Seymdəki gürcü, erməni fraksiyaları öz müstəqil dövlətlərini elan etdikləri kimi Azərbaycan fraksiyası da müvafiq addım atmışdır. Cənubi Qafqaz müsəlmanlarının iradəsini təmsil etmək hüququnu seçki yolu ilə əldə etmiş nümayəndələrdən ibarət qurum - Azərbaycan Milli Şurası ona görə müvəqqəti adlanırdı ki, qısa müddətdə Azərbaycan Müəssislər Məclisinin çağrılmasını təmin etməli idi. Azərbaycan parlamentinin yaradılması haqqında qanunda göstərilir: "Azərbaycan Məclisi-Müəssisanını toplamaq qeyri-mümkün olduğunu nəzərə alaraq Cənubi Qafqaziya Mərkəzi Müsəlman Komitəsi bu məsələnin həllini "Seym" müəssisəsində bulunan müsəlman ə'zayə vagüzar etməyi münasib gördü" (25). Seymin müsəlman üzvlərinin belə bir vəzifəni yerinə yetirməyə səlahiyyətli olduğu da Qanunda vurğulanır: "Çünki, bunlar Mövərayi Qafqaz Əhaliyi islamiyyəsi arasında mövcud bulunan müxtəlif siyasi cərəyanları təmsil edir və əhalinin milyondan ziyadə rəyini qazanmış müvəkkillərdi... *Təşkilati milliyənin təyini istiqaməti üçün bu zövat ən ziyadə səlahiyyət sahibidir" (26).*

Beləliklə, Azərbaycan Milli Şurası tam səlahiyyətli, seçki əsasında nümayəndələrdən formalaşmış *dövlət qurumu* idi. "Mavərayi-Qafqaz qit'əsi birlikdə ikən... Milli Şuralar birər milli müəssisələr idi. Vəzifələrində bittəb məhdud və mə'dud idi. E'lani istiqlal keyfiyyəti ilə Şuralar birər müəssisə halından çıxaraq dövlət müəssisi şəklini alıyorlardı" (27).

Milli Şuranın statusu lakonik tərzdə İstiqlal Bəyannaməsinin sonuncu bəndində təsbit olunmuşdur: "Məclisi-Müəssisan toplanıncaya qədər Azərbaycan idarəsinin başında arayi-ümumiyyə ilə intixab olunmuş Şurayi-Milli və Şurayi-Milliyə qarşı məsul hökuməti-müvəqqətə durur" (28). Aydın bildirilir ki, Milli Şura Azərbaycanı idarə etməli orqandır, hökumət də onun qarşısında məsuldur. Əslində Azərbaycan parlamentçili-

yinin tarixi də bu zamandan başlayır.

"Arayi-űmumiyyə ilə intixab olunan Azərbaycan Şurayi-Milliyyəyi-islamiyyəsi" *tam legitim orqan* olaraq "Xűsusi bir dővlət təşkilatı qurmaq lűzumu" ilə Azərbaycanın istiqlalını həyata keçirdi; Azərbaycanı tam hűquqlu demokratik respublika quruluşlu műstəqil dővlət elan etdi; bu dővlətin bűtűn vətəndaşlarına műlki və siyasi hűquq bərabərliyi təminatı, bu dővlət ərazisində yaşayan bűtűn xalqlara sərbəst inkişaf imkanı bəyan etdi (29).

Bűtűn dővlət hakimiyyətini təşkil etdiyi yeni hőkumətə verərək őzűnű buraxmış elan edən Milli Şura 1918-ci ilin noyabrında yenidən işə başlayaraq icraedici hakimiyyəti fəaliyyətdə olan hőkumətin səlahiyyətində saxladı və Azərbaycan Parlamentinin yaradılması haqqında qanun verdi. Qanunverici hakimiyyət orqanı kimi Azərbaycan Milli Şurası őz tərkibini genişləndirərək Azərbaycan Parlamentinə çevrildi.

Azərbaycan Parlamentinin őzəyini Azərbaycan Milli Şurası tərkibi təşkil edirdi. Yűksək bir statusda fəaliyyət gőstərmiş, "Azərbaycan dővlətçiliyində mőhtəşəm tarixi rol oynamış Azərbaycan Milli Şurası"nın (Şəfi bəy Rűstəmbəyli) sədri sonadək Məhəmməd Əmin Rəsulzadə olmuşdur. Azərbaycan Parlamentinin ilk iclasını da M.Ə.Rəsulzadə "Şurayi-Milli rəisi" səlahiyyətində açıq elan etmişdir. Tarixi sənədlər M.Ə.Rəsulzadənin Azərbaycan Cűmhuriyyətinin *ilk dővlət başçısı* olduğunun tarixi-hűquqi əsasını təsbit etmişdir.

1918-ci ilin iyununda Gəncədə Azərbaycan dővlətçiliyi məhv olma təhlűkəsi altında qalanda M.Ə.Rəsulzadənin çevik, cəsarətli mővqeyi həlledici rol oynadı. Azərbaycan dővlətçiliyini partiyalar fővqűnə qoyaraq őzűnűn sədri olduğu dővlət hakimiyyət orqanını- Milli Şuranı buraxmağa, səlahiyyətlərini şərtlərlə hőkumətə verməyə razı oldu. Bu addımı "demokratiyanın geri çəkilməsi və műrtəce qűvvələrin uğuru" adlandıran

Rəsulzadənin Milli Şuranın buraxılmasının səhəri günü, İstanbul konfransında iştirak etmək üçün Azərbaycan nümayəndə heyətinin sədri kimi Türkiyəyə yola düşməsi tarixşünaslıqda birmənalı qiymətləndirilmir. Sırf diplomatik missiya kimi səciyyələndirilən bu səfər həm də Gəncədə yaranmış gərgin vəziyyətin yumşaldılması tədbirlərindən biri kimi də qiymətləndirilir(30).

Qeyd etmək lazımdır ki, Milli Şura fəaliyyətini dayandırdığı gün, İstanbulda keçirilən Sülh konfransında iştirak etmək üçün Azərbaycan nümayəndə heyətinə Azərbaycan hökuməti tərəfindən verilmiş etimadnamədə yazıldığı tək – "Azərbaycan Məclisi-Millisi rəisi Rəsulzadə Məmmədəmin bəy Əfəndi təhdi-rəyasətində..." statusunda İstanbula yola düşdüyü kimi, 1918-ci ilin noyabrında oradan qayıdan günlərdə hökumət başçısı F.Xoyski M.Ə.Rəsulzadəyə müraciət edərək Milli Şuranın işinin bərpa edilməsini lazım bilmişdir (31). Və faktiki olaraq Milli Şuranın fəaliyyətsiz qaldığı dövr (1918, iyun-noyabr) M.Ə.Rəsulzadənin Azərbaycanda olmadığı müddətdir. Fərdi siyasi motivlə əlaqələndirilən bu səfər sırf praktiki məna ilə əsaslandırıla bilər. Belə ki, artıq Batum konfransında həlledici səs sahibi olmuş 2 azərbaycanlı nümayəndədən biri kimi müəyyən diplomatik təcrübəyə malik M.Ə.Rəsulzadə 1918-ci il iyunun 4-də Osmanlı dövləti ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında dostluq müqaviləsini, Bakı-Batum neft kəmərinin istismarına, Cənubi Qafqaz dəmiryol xətlərinə dair sazişləri imzalamışdır.(32) Bu baxımdan Azərbaycan hökumətinin 1918-ci il 18 iyun tarixli qərarı, İstanbul beynəlxalq konfransına göndərilən nümayəndə heyətinə M.Ə.Rəsulzadənin sədr təyin edilməsi təbii, əsaslı, məntiqi qəbul edilə bilər (33).

M.Ə.Rəsulzadənin başçılıq etdiyi 7 nəfərdən ibarət Azərbaycan nümayəndə heyəti iyunun 24-də İstanbula gələrək fəaliyyətə başladı. Azərbaycan Xalq Cümhuriyyətinin ilk rəsmi

diplomatik nümayəndəliyinə beynəlxalq konfransın bütün iştirakçıları ilə müxtəlif səciyyəli müqavilələr bağlamaq, yalnız Osmanlı dövləti və Dağlılar Respublikası ilə hər cür gizli sazişlər imzalamaq səlahiyyətləri verilmişdi (34). Nümayəndəliyin fəaliyyəti konkret göstəriş çərçivəsində məhdudlaşmamışdır. Əksinə, M.Ə.Rəsulzadə, 1918-ci il iyulun 19-da İstanbuldan M.H.Hacınskiyə göndərdiyi məlumatda Azərbaycan dövlətinin xarici siyasət kursunu müəyyənləşdirəcək informasiyalar (xüsusən Bakı nefti ətrafında) verməklə yanaşı AXC hökumətini ən vacib tədbirlər görməyə istiqamətləndirmişdir. Ordu yaradılması işinin diqqət mərkəzində durduğunu, xüsusi hərbi nazirliyin təsis edilməsinin əhəmiyyətini vurğulamaqla yanaşı Şimali Qafqaz hökuməti ilə əlaqələr qurmağı vacib saymışdır. Rəsulzadə İstiqlal bəyannaməsinin, bu barədə hökumətlərə göndərilən teleqramın surətlərini, Borçalı və Qarayazı bölgələri ilə bağlı sənədləri, Qafqazın xəritəsini göndərməyi tapşırmış, özü də bir sıra sənəd və materialları məktubla birgə yola salmışdı. Azərbaycanda işləmək üçün müəllimlər axtarmaq, kitab tədarükü, maliyyə və xarici işlər üzrə müşavirlər tapmaq da Rəsulzadənin İstanbul səfərindəki fəaliyyətinə daxil idi. Türkiyədəki Qafqaz azərbaycanlıları, İran azərbaycanlıları ilə görüşləri də siyasi məzmundan xali deyildi (35).

Azərbaycan hökuməti mütəmadi olaraq M.Ə.Rəsulzadə ilə əlaqə saxlayır, respublikanın taleyüklü məsələlərinin həlli yönündə tədbirlər görülürdü. Xarici işlər naziri M.H.Hacınski Gəncədən M.Ə.Rəsulzadəyə göndərdiyi məlumatında Gürcüstanla ərazi mübahisəsinin mahiyyətindən bəhs edərək qəti mövqe tutmağı tapşırırdısa, hökumət başçısı F.Xoyski 1918-ci il 31 iyul tarixli təcili teleqramında M.Ə.Rəsulzadəyə onun xahiş etdiyi, Azərbaycanın sərhədləri cızılmış xəritələrdən bir nüsxə göndərdiyini bildirir və hər vasitə ilə həmin sərhədləri müdafiə etmək vəzifəsi Rəsulzadənin üzərinə qoyulurdu (36).

Azərbaycan dövlətinin qonşularla münasibətdə yaranmış kəskin problemlərinin (sərhədlər məsələsi, əmlak bölüşdürülməsi, pul nişanlarının buraxılması və s.) çözülməsi missiyası xarici aləmlə – dövlətlərlə təmas qurmaq imkanı və səlahiyyətinə malik, başlıcası isə yardımından faydalanmağın mümkün olduğu bir ölkədə olan M.Ə.Rəsulzadənin diplomatik fəaliyyətinin əsas məzmununa çevrildi. Azərbaycan hökumətinin ən böyük qayğılarından biri pul nişanlarının çatışmazlığı idi.

Vəziyyətin hədsiz təhlükəli olduğunu bildirən F.Xoyski bu məsələni ən qısa müddətdə reallaşdırmağı, təcili olaraq borc kimi əvvəlcə 1 mln türk lirəsi, sonra isə yubanmadan hökumətin sifariş etdiyi bonları göndərməyi tapşırmışdı (37).

1918-ci il sentyabrın ortalarınadək davamlı məşğul olunan maliyyə məsələsi barədə M.Ə.Rəsulzadə Azərbaycan hökumətinə göndərdiyi hər məktub-hesabatında məlumat vermişdir. Osmanlı hökuməti ilə maliyyə məsələlərinə dair aparılan danışıqlar 2 müqavilənin bağlanması ilə nəticələnmiş, Azərbaycanın maliyyə missiyasının üzvləri ilə yanaşı müqavilələri sülh nümayəndə heyətinin sədri kimi M.Ə.Rəsulzadə də imzalamışdır. M.Ə.Rəsulzadə İstanbulda tələbələr, müəllim və kitab məsələləri ilə məşğul olmaqla yanaşı, əsas diqqəti Almaniya-Türkiyə, Almaniya-Rusiya münasibətlərini izləməyə, "Bakı" ətrafında formalaşan siyasi abu-havanı öyrənməyə yönəltmişdir. Onun mütəmadi görüşdüyü dövlət rəsmiləri Tələt paşa və Ənvər paşa olmuş, alman səfiri Bernsdorfla söhbətlərində Almaniyanın Bakı ilə bağlı mövqeyinə aydınlıq gətirməyə çalışmışdır. Diplomatik və qeyri-rəsmi görüşlərinin məzmunu, mətbuat səhifələrində beynəlxalq aləmdə əhəmiyyət kəsb edən hadisələri əks etdirən materiallar haqqında Azərbaycan hökumətinə məlumatlar göndərmişdir. Rəsulzadənin "Bakı məsələsi"ndə gəldiyi qənaət və hökumətə tövsiyəsi qəti idi: "Nəyin bahasına olursa-olsun Bakı tezliklə tutulmalıdır. Biz hamını baş vermiş

fakt qarşısında qoymalıyıq. Bakıya doğru hərəkət mütləq Azərbaycan naminə olmalıdır, onu Azərbaycan hökuməti tutmalıdır" (38). Məsələnin getdikcə qəlizləşməsi Azərbaycan hökumətini təlaşlandırırdı. F.Xoyski M.Ə.Rəsulzadəyə göndərdiyi teleqramda (23 avqust 1918-ci il) yazırdı ki, Bakı məsələsinin İstanbulda ən təcili həllinə nail olmaq üçün bütün səylərdən istifadə etmək lazımdır. Hərbi əməliyyatları davam etdirməklə yanaşı, diplomatik fəaliyyəti gücləndirmək effektli nəticə əldə etməyin ənənəvi yolu sayılsa da, M.Ə.Rəsulzadə Tələt paşa və Bernsdorfla növbəti görüşlərindən sonra sentyabrın 6-da M.H.Hacınskiyə məlumatında Bakı məsələsinin yeganə həlli yolunu göstərirdi: "Bakı məsələsi yalnız qüvvədən asılıdır. Əgər Bakı alınmasa hər şey bitdi. Əlvida, Azərbaycan. Hətta alındıqdan sonra belə biz çoxlu diplomatik çətinliklərlə üzləşməli olacağıq. Bunları {qarşıdakı vəzifələri} yerinə yetirmək üçün biz əvvəlcə ordu yaratmalıyıq" (39).

Azərbaycan hökuməti bu yöndə fəaliyyətini səfərbər etdiyi kimi, M.Ə.Rəsulzadə də hərbi işin təşkili, Azərbaycana qonşularının iddia etdiyi ərazilər haqqında Osmanlı rəsmiləri ilə danışıqlarını davam etdirmiş, xüsusən Bakı məsələsində çevik və prinsipial mövqe tutmuşdur. Vaxtı itirməmək üçün, hökumətdən xüsusi səlahiyyətlər verilməsini gözləmədən sentyabrın 12-də Almaniyanın Osmanlı dövlətindəki səlahiyyətli nümayəndəsi qraf Valdburqa Azərbaycan hökuməti adından nota imzalayaraq təqdim etmişdir. Bakının Azərbaycan ərazisində, Azərbaycan xalqının tarixində tutduğu yerdən, mədəni, iqtisadi, siyasi, milli bağlılıq tarixindən bəhs edərək, gətirdiyi konkret faktlara söykənərək fikrini əsaslandırmış, Rusiyanın Bakıya iddiasının əsassızlığını, həm də yeni rus hökumətinin bəyan etdiyi prinsiplər baxımından Almaniya nümayəndəsinin diqqətinə çatdırmışdır (40).

"Almaniya imperiyası ilə Böyük Rusiya arasında bağlan-

mış sazişin Bakıya aid maddəsinə" etiraz olaraq verilmiş nota barəsində Azərbaycan xarici işlər nazirliyini məlumatlandıran M.Ə.Rəsulzadə lazım olarsa hőkűmətin notaya uyğun hərəkət etməyini məqsədə művafiq saymışdır. Diplomatiyada qarşı tərəfin maraq dairəsindən çıxış etməyin faydasını bilən peşəkar kimi Rəsulzadə neft amilini, sazişin "Bakı məsələsində" Almaniyanı təmin edəcək şərti nəinki diqqətsiz qoymamış, əksinə, "Almaniya kimi nəhəng sənaye dővlətinin ticari və iqtisadi maraqlarını" Azərbaycan hőkumətinin nəzərə alacağını vurğulamışdır. Rəsulzadə təkcə bu nota ilə kifayətlənməmişdir. Osmanlı dővlətindəki Almaniya səfirliyinə etiraz notası təqdim edilmiş, notanın surəti Osmanlı dővlətinin xarici işlər nazirliyinə, Avstriya-Macarıstan və Bolqarıstan səfirliklərinə, həmçinin bitərəf őlkələrin diplomatik nűmayəndəliklərinə verilmişdir. İstanbuldakı nűmayəndəlik adından etiraz edən M.Ə.Rəsulzadə M.H.Hacınskiyə məktubunda "Hőkumət də ayrıca olaraq etiraz etməlidir və {műtləq} hay-kűy qaldırmaq lazımdır" yazdığı kimi bir daha bildirirdi: "Bilməlisiniz ki, bu xəyanətkarlığa ən bőyűk və layiqli cavab Bakının alınmasıdır" (41).

Bakının alınması barədə rəsmi şəkildə Azərbaycan hőkumətindən deyil, Ənvər paşa vasitəsilə xəbər tutan M.Ə.Rəsulzadə nővbəti məlumatında Alman bloku dővlətlərindəki vəziyyəti, Rusiya ilə műnasibəti təhlil edərək getdikcə daha ciddi şəkil alan siyasi şəraitdə fəaliyyət kursunu műəyyənləşdirmişdi: "Əgər Azərbaycan hőkuməti hazırda műstəqil çevik siyasət yeritsə, zənnimcə, bu bizim xeyrimizə olacaqdır" (42).

Cənubi Qafqaz respublikalarının sərhədlərinin műəyyənləşdirilməsi Rəsulzadənin İstanbulda diqqət verdiyi məsələlərdən olmuşdur. Ermənilər Ənvər paşaya təqdim etdiyi layihə və xəritəyə gőrə Tűrkiyə və Azərbaycan ərazilərindən, həmçinin gűrcűlərdən bir sıra torpaqlar tələb edirdilər. Bu məsələyə dair Ənvər paşa ilə sőhbətlərində Rəsulzadə Osmanlı dővlətinin

ümumi maraqlarına zidd olmasa da Azərbaycan dövlətinin mənafeyi əleyhinə olan layihələrə qarşı çıxmış və Ənvər paşa da ən münasib saydığı yolları məsləhət görərək Nuru paşaya müvafiq hərbi göstərişlər vermişdi.

Gənc Azərbaycan dövlətinin demokratik imici faktoruna biganə olmayan M.Ə.Rəsulzadə İstanbuldan göndərdiyi məlumatlarında başlıca problemlər sırasında bu məsələdən də bəhs etmişdir. Azərbaycan höküməti tərəfindən sol qüvvələrin təqib edilməsi haqqında xəbərlərin yayılması Rəsulzadəni narahat etmiş, "gənc Azərbaycan"ın azadlıqsevər, siyasi baxışlara dözümlü olduğunu təsdiqə yetirməyi hökumətin nəzərinə çatdırmış, yeni qurulan dövlətin vəziyyətini daim diqqətdə saxlamağı ciddi tərzdə tövsiyə etmişdir (43). Dövlətçilik prinsiplərinə sadiq hökumət başçısı Fətəli xan Xoyski də 1918-ci ilin avqustunda M.Ə.Rəsulzadəyə göndərdiyi məktublarında digər ağrılı problemə toxunurdu. Nuru paşanın, daxili işlərə getdikcə daha artıq qarışmasına narazılıqla Fətəli xan Rəsulzadəyə yazırdı ki, Türkiyə ilə qarşılıqlı münasibətlərə təcili, dəqiq və qəti aydınlıq gətirsin: "İstanbulun {yeritdiyi} siyasətini ehtiyatla aydınlaşdırmaq və müstəqilliyimizin qorunması üçün lazımi tədbirlər görmək gərəkdir." Yenicə yaranmış dövlətdə hökumətin fəaliyyət göstərdiyi fövqəladə çətin bir şəraitdə "ikihakimiyyətli və çoxhakimiyyətli idarəçilik" məhvedici amil kimi qətiyyən yolverilməz sayılırdı. M.Ə.Rəsulzadənin Türkiyə dövlət rəsmiləri ilə mütəmadi görüşləri məhz qarşılıqlı münasibətlərin nizamlanması, bərabər səviyyəli məcraya yönəldilməsi baxımından təqdirəlayiq sayıla bilər. M.Ə.Rəsulzadə Azərbaycanın istiqlaliyyəti haqqında hökumət teleqramının surətini bütün konsulluqlara təqdim etməklə yanaşı Azərbaycanın müstəqil dövlət kimi mövcudiyyətini göstərmək üçün rəsmi dövlət qəzetinin nüsxəsini, qoşunların, bayrağın, dövlət adamlarının foto şəkillərini, milli ədəbiyyatın nümunələrini, Bakı şəhərinin gö-

rünüşlərini tezliklə göndərməyi xahiş edirdi. Azərbaycanın hərbi işinin təşkili üçün lazım olan hər şeyi Türkiyədən ürəklə, cəsarətlə tələb etməyə çağırırdı. "Azərbaycanın müstəqil dövlət olduğunu nə qədər çox göstərə bilsəz, o qədər yaxşı olar" sifarişi ilə Rəsulzadə konfransın artıq baş tutmayacağına əminliklə, həm də maliyyə məsrəfi baxımından geniş nümayəndə heyətinin İstanbulda qalmasını mənasız sayaraq, bir nəfərin nümayəndəlik qismində fəaliyyətini kafi bilmiş, yubanmadan paytaxtlarda iş aparmağa üstünlük vermişdir. Azərbaycanın İstiqlal Bəyannaməsinin İstanbuldakı konsulluqlara təqdimatı belə hadisəsiz keçməmişdir: İran konsulluğu Azərbaycan nümayəndəliyinin göndərdiyi bütün kağızları bir paketə qoyaraq geri göndərmiş və ayrıca bir kağızda yazaraq bildirmişdi ki, Azərbaycan adı altında müstəqil dövlət tanımır. Qacarlar sülaləsindən olan konsulla köhnə tanışlığına baxmayaraq bu "kobud hərəkət"inə görə Rəsulzadə onunla görüşmək belə istəməmişdir. Bununla belə İranla münasibəti diqqətdə saxlayaraq oradan olan rəsmi və qeyri-rəsmi şəxslərlə görüşləri olmuşdur.

M.Ə.Rəsulzadənin İstanbuldakı diplomatik fəaliyyətinin məzmunundan Azərbaycan hökumətinin operativ faydalanmaq imkanının texniki məhdudluğu təbii ki, əlaqələrin işgüzarlıq effektinə təsirsiz qalmamışdır. Üç ay ərzində M.Ə.Rəsulzadə Azərbaycan hökumətindən cəmi üç paket almış, çoxsaylı paketlər yollasa da hökumət onlardan vaxtında xəbər tutmamışdır. Rabitə əlaqələrinin bu səviyyədə olmağından təəssüflənən Rəsulzadə Azərbaycan hökumətinə vaxtında və düzgün məlumatlanması üçün məsləhət görürdü ki, mütləq Batumda bir nəfər məmur saxlasın.

Bütün çətinliklərinə baxmayaraq 1918-ci il oktyabrın 22-dək İstanbulda olmuş Rəsulzadənin diplomatik fəaliyyəti olduqca faydalı məzmun daşımış, Türkiyə rəsmiləri ilə münasibətlərin qurulması, Azərbaycan üçün hərtərəfli dəstəyə nail ol-

maq yönündə iş aparmışdır. Azərbaycanın xarici siyasi məsələlərinin tənzimlənməsində, xüsusən də "Bakı məsələsində" ardıcıl və prinsipial mövqeyi mətbuat tərəfindən də yüksək dəyərləndirilmişdir (44). Rəsulzadənin İstanbuldan Bakıya dönüşünü salamlayan "Azərbaycan" qəzeti "görkəmli ictimai xadim-publisist"in Azərbaycan türklərinin ictimai hərəkatı tarixində rolunun, doğma xalqının maraqlarının qorunmasında ağır məsuliyyətli zəhmətinin dərin minnətdarlığa və ehtirama layiq olduğunu yazırdı (45). Milli Şuranın buraxılmasından dərhal sonra Azərbaycanı tərk etmiş Rəsulzadə Bakıya dönən kimi, yaranmış yeni siyasi vəziyyətin şərtlərinə müvafiq F.Xoyskinin müraciətinə əsasən (46) Milli Şuranın çağırılması işinə başlayır. Azərbaycan parlamentçiliyi tarixində bilavasitə rolu və izi olan Rəsulzadə 1918-ci il noyabrın 12-də "Azərbaycan" qəzetinə müsahibədə İstanbul səfərindən, parlamentin təşkilindən bəhs etmiş, Qafqazın taleyi ilə bağlı fikirlərini bildirmişdir. Qafqazın gələcəyini Azərbaycan, Gürcüstan, Ermənistan və Şimali Qafqazın daxil olduğu birləşmiş ittifaq dövləti halında görən Rəsulzadə 1918-ci il noyabrın 29-da "Bütün Azərbaycan əhalisinə" müraciət etmişdir. Muraciətdə "İstiqlal bəyannaməsi"nin məzmunu bir daha təsbit olunmuş, qarşıda dayanan ən mühüm vəzifələrin həllinə çağırılmışdır: parlamenti təsis etmək, yeni hökumət təşkil etmək və ümumsülh məclisinə hazırlaşmaq (47).

Bu da əlamətdar idi ki, parlamentin açıldığı gün "Azərbaycan" qəzetində Rəsulzadənin "təyini-müqəddərat" haqqında məqaləsi dərc olunmuşdur. Təyini-müqəddərat prinsipinə fərqli siyasi platformalar prizmasından şərh verən Rəsulzadə Azərbaycan parlamentini açarkən tarixi-rəmzi nitq söyləmişdir. Bununla onun bioqrafiyasında yeni mərhələ başlamışdır. Parlament üzvü, "Müsavat" fraksiyasının sədri Rəsulzadə bu mərhələdə nə rəsmi dövlət vəzifəsi tutmadı, nə də buna iddialı

olmadı. Amma Cümhuriyyətin taleyində ən ağır, böhranlı sınaq anlarında çevik, cəsarətli qərarı, mövqeyi ilə çıxış yolu tapmış, hadisələrin axarına təsir göstərməyə qadir və nail olmuş, dövlətin ideoloqu missiyasını layiqincə yerinə yetirmişdir. Parlamentdə siyasi partiyaların bəyannamələri təqdim edilərkən M.Ə.Rəsulzadə ilk olaraq fraksiyası adından geniş proqramla çıxış etmişdir. Onun aqrar məsələ, fəhlə məsələsi və b. məsələlərlə bağlı söylədikləri mütəmadi alqışlarla müşayiət olunmuş, çox zaman sol qüvvələr tərəfindən rəğbətlə qarşılanmışdır (48).

M.Ə.Rəsulzadə parlamentin ən fəal, intizamlı üzvü olmuşdur. İclaslarda ardıcıl iştirak etmiş, demək olar ki, bütün məsələlərin (təşkilati, ərazi, milli münasibətlər, qanun layihələrinin qəbulu, sosial vəziyyət, xarici siyasət, ölkənin müdafiəsi, Qars, Dağıstan məsələləri, Rusiya ilə münasibətlər, fəhlə məsələsi və s.) müzakirəsində nəinki münasibət bildirmiş, hətta professionallıq nümayiş etdirmiş, həllini tapmasına nail olmuşdur (49). Qeyd etmək lazımdır ki, Bakıda fəhlə konfransı timsalında bolşeviklərin hakimiyyəti qədərincə fəallıq göstərən rəqib qurumu təcrid etmək üçün Rəsulzadə mütəmadi olaraq müsəlman fəhlə konfransının iclaslarında çıxış etmiş, ən mühüm dövləti məsələlərin fəhlələr arasında müzakirəsi və təqdirinə səy göstərmişdir (50).

Aktiv bir siyasətçi ömrü yaşamış M.Ə.Rəsulzadənin Cümhuriyyətin süqutu anlarında ayıq, real mövqeyi və dəqiq proqnozu olmuşdur. Siyasi proseslərin mahiyyətinə misilsiz poetik ifadə ilə təhlil vermiş Rəsulzadə bir sıra tarixi məzmun və əhəmiyyətli əsərlərin müəllifidir. Mühacir həyatında Azərbaycançılıq ideyasına, milli dövlətçilik əqidəsinə sadiq qalmışdır. Azərbaycan milli dövlətçiliyinin bərpası, Azərbaycanın bütövləşməsi amalı ilə yaşamışdır. Hətta qənim kəsildiyi bir rejimin qurulması hesabına da olsa Cənublu-Şimallı Azərbaycanın qo-

vuşmasına xeyir-dua vermişdi.

M.Ə.Rəsulzadə yaşadığı mühitdən, milli-mənəvi məfkurə sahiblərinin irsindən qidalandı, yüksək intellektli, peşəkar ziyalılar nəsli ilə birgə yol keçdi, dövlətçiliyimizi bərqərar etdi. Lakin çağdaş cəmiyyətimizdə nə M.Ə.Rəsulzadənin, nə də digər tarixi şəxsiyyətlərimizin siyasi mübarizə vasitəsinə çevrilməsinə yol verilməməli, onların irsi obyektiv, elmi tədqiqat işinə cəlb edilməli, bundan da nəzəri və əməli fayda götürülməlidir. Siyasi mülahizələrin elmi yanaşma tərzini üstələməsi tendensiyasına qarşı ciddi və prinsipial mövqe tutulmalıdır.

---


1. Rəsulzadə M.Ə. Əsərləri, I cild, Bakı, 1992, s.18-19.
2. Yenə orada.
3. Yenə orada.
4. Kaspiy, 1917, 8 mart, N54.
5. Rəsulzadə M.Ə. Əsərləri, I cild, Bakı, 1992, s.19.
6. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990.
7. Балаев А. Азербайджанское национальное движение в 1917-1918гг. Баку, 1998, с.57.
8. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990. s.27.
9. Yenə orada.
10. Yenə orada, s.26.
11. Süleymanova S.Y. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu - XX yüzilliyin əvvəli), Bakı, 1999, s.344.
12. Açıq söz, 1917, 1 oktyabr.
13. Yenə orada, 3 oktyabr.
14. Yenə orada, 23 oktyabr.
15. Yenə orada, , 26 oktyabr, N598.
16. Yenə orada, 26 noyabr, N613.
17. Yenə orada, 29 noyabr, N616.
18. Yenə orada, 8 dekabr, N624.
19. Yenə orada.
20. Yenə orada, 22 dekabr, N635.
21. Балаев А. Азербайджанское национальное движение в 1917-1918 гг., с.141-142.
22. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-

1920-ci illər). Bakı, 1993, s.65.
23. Yenə orada.
24. Yenə orada, s.70.
25. Azərbaycan Xalq Cűmhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). I cild, Bakı, 1998, s.29-32.
26. Yenə orada.
27. Yenə orada.
28. Азербайджанская Республика. Документы и материалы. 1918-1920 гг. Баку, 1998, с.12.
29. ARDA, f.970, s.1, iş 4, v.1-2.
30. Балаев А. Азербайджанское национальное движение в 1917-1918 гг., с.216-217.
31. Азербайджанская Республика. Документы и материалы. 1918-1920 гг., с.14-23.
32. Азербайджанская Демократическая Республика. Внешняя политика (Документы и материалы). Баку, 1998, с.14.
33. Yenə orada, s.25-26.
34. Musayev İ. Azərbaycanın xarici siyasəti (XX əsr), I hissə. Bakı, 2003, s.44.
35. Азербайджанская Демократическая Республика. Внешняя политика…, с.33-41.
36. Yenə orada, s.41-43.
37. Yenə orada, s.42-43.
38. Yenə orada, s.50.
39. Yenə orada, s.69.
40. Yenə orada, s.72-75.
41. Yenə orada, s.75.
42. Yenə orada, s.81.
43. Yenə orada, s.51.
44. Азербайджан, 1918, 10 ноября.
45. Yenə orada.
46. Yenə orada, 12 noyabr.
47. ARDA, f.895, s.1, iş.25.
48. Azərbaycan Xalq Cűmhuriyyəti (1918-1920). Parlament…, s.49-58.
49. Yenə orada, I və II cildlər, Bakı, 1998.
50. Азербайджанская Республика. Документы и материалы. 1918-1920 гг.

# M.Ə.RƏSULZADƏ VƏ TARİX

**Süleyman ƏLİYARLI**

Başlığa çıxarılmış olan mővzu əslində M.Ə.Rəsulzadənin bűtűn elmi-ədəbi irsinə aiddir. Bu irsin bűtőv bir qatı Rəsulzadə qələminin məhsulu olan nisbətən kiçik həcmli məqalələr toplusundan ibarətdir. Űnlű jurnalist-tarixçi professor Şirməmməd Hűseynov bu məqalələrin ilk iki cildini artıq çap etmişdir.

M.Ə.Rəsulzadənin tarixə baxışı bir neçə iri həcmli əsərlər ilə təmsil olunmuşdur (1). Bu sıralamada "Nizami" monoqrafiyası ayrıca bir yer tutmaqdadır. Bu, Məmməd Əmin Rəsulzadə zəkasının və elmi araşdırma qűdrətinin şah əsəridir. Bununla yanaşı, műəllifin tarixi gőrűşlərini və tarixi qavrayışını tam ehtiva edən başlıca, ən mőhtəşəm yazısıdır. Nə yazıq, yuxarıda deyilənlərə rəğmən Rəsulzadənin "Nizami"si həm də "onun" ən baxtsız yavrusudur sőyləmək məcburiyyətindəyik. Bu kitabın başlıca və őnəmli mővzularına son yarım əsr boyunca onlarla tədqiqatçı dəyib toxunsa da, bir kimsə onun dəyərinə yer verməmiş, hətta istinad etmək belə istəməmiş və ya çəkinmişdir. Yalnız Dr. Cavad Heyət őzűnűn "Xəmsə"də tűrkcə sőzlər" məqaləsində bu unutqanlıq çevrəsini yarmağa çalışaraq yazmışdır: "Bu mővzuda ilk dəfə Azərbaycanın talesiz rəhbəri Məmməd Əmin Rəsulzadə dərin araşdırmaların nəticəsi olaraq "Nizami"… adlı əsərini 1952-ci (1951 olmalı – S.Ə.) ildə Ankarada çap etdirmişdir" (2).

Deyilənlərlə bağlı bu yazıda Rəsulzadə "Nizami"sinin tarixçilik baxımından dəyərləndirilməsi őn plana çəkilmişdir.

Əmin bəyin bu kitabı űçűn (bəlkə də bilərəkdən) seçmiş olduğu quruluş yazardan tarixi və tarixçilik mővzularına nisbətən çox yer verməyi tələb etmişdir. Artıq kitabın "Başlanğıc"

adlı ilk bőlűműndə "Doğu islam mədəniyyəti", "Doğu islam mədəniyyətində Azərbaycanın rolu", "Tűrk hakimiyəti altında fars ədəbiyyatı", "XII yűzildə Azərbaycan" kimi mővzular yer almış və açıqlanmışdır. Bunun ardınca "Nizami kimdir?" başlıqlı I bőlűmdə ulu şairin hal tərcűməsi, onun Azərbaycan hőkmdarları ilə műnasibətləri kimi sırf tarixi mővzular keçməktədir. III bőlűm analitik araşdırma biçimindədir və zənnimcə əsərin ən ağrılı hissəsidir: "Mővzuları baxımından Nizami". Diqqət ediniz lűtfən, műəllifin "Pənc-Gənc"dən ("Xəmsə"dən) (3) ayırıb őnəm verdiyi mővzulara: "Nizamidə Farslıq", "Nizamidə" Tűrklűk"!! "Nizamidə Kafkazya"; "Nizami gőrűşű ilə Rus" və bu kimi. Belə bir quruluş seçimi ilə műəllif təbii, Nizami mővzularını yalnız konsepsion gőrűşləri çərçivəsinə sıxıb kiçiltmək istəməmişdir (kitabın ikinci və dőrdűncű bőlűmlərinin "Nizaminin beş kitabı", "Nizamidə sənət və ideoloji" adlanması bunun belə olmadığını gőstərməkdədir). Sadəcə Əmin bəy űçűn Nizaminin və Nizami irsinin etnokűltűr varlığı və kimliyi, hansı millətə mənsub olması başlıca incələmə mővzusudur. Və műəllif artıq "Başlanğıc" bőlűműndə őz araşdırmaçı istəyini oxucudan gizləməyərək yazmışdır: "Mővzuları araşdırılınca, Nizaminin Fars nasyonalizmindən uzaq, tűrk sevgisiylə dolğun, Kafkazya műhit və şəraitinə bağlı, yurdunın tarixi műqəddarat və geopolitikindən doğan daimi qayğılarla ilgili olduğu gőrűnűr ki, bu surətlə o, əlbəttə bir Azərbaycan şairidir" (s.31).

M.Ə.Rəsulzadənin őz əli ilə yazdığı not, "Nizami" kitabına 11 oktyabr 1941 də Buxarest şəhərində son nőqtə atıldığını bildirməktədir, yəni əsər şairin 800 illik yubileyi űçűn hazırlanmış idi. Ancaq II Cahan savaşı yubileyi də, kitabın çapını da geriyə atdı. Yalnız on il sonra, 1951 tarixində Tűrkiyə Cumhuriyətinin Milli Təhsil Basımevi tərəfindən "Nizami" kitabı Ankarada çap edildi. Bu "gecikmə" illərindən maksimum yararlanmağa çalışan műəllif, mətnə bűtőv bir sıra dűzəliş və əlavə-

lər edə bildi. Fəqət bu əlavələr də yuxarıda xatırladılan konsepsiona tabe tutulmuş olduğundan quruluşca kitab dəyişmədi. Yeni parçalar da çox őnəmli, prinsipial mővzuların açılmasına yőnəlmiş oldu: "iki Leyla-Məcnun" (Nizami ilə Fűzuli)"; "Nizaminin doğulduğu yer və məzarı"; "Nizamidə Tűrkcə sőzlər"; "Vəhid Dəstgərdinin yorumları" və s.

Kitabın konseptual qayəsini açıqlamaq űçűn Əmin bəy, "Firdővsiyə verildiyi kimi, Nizamiyə bir Fars şairi sifətini verə bilirmiyiz?" sualını ortaya gətirir. Və son səkkiz yűzilin gűndəmindən çıxmayan bu sualı həm "hə", həm də "xeyr" şəklində cavablandırmış: "Hə, çűnki əsərlərini Farsca yazmışdır və bu yazısıyla Fars dilini zənginləşdirmiş, gőzəlləşdirmiş, onun olğunlaşmasına xidmət etmişdir.

Xeyr, çűnki onda, Firdővsidə bulduğumuz Fars qeyrətkeşliyindən heç bir əsər yoxdur" (s.171).

İlk baxışda çox sadə gőrűnsə də, Nizamişűnaslıq űçűn bu cavab yeni sőzdűr. Yeni, analitik araşdırma yolu tutmaq űçűn açar ola biləcək bir "sőz"dűr. Bu yolda műəllifin "at başı" qarşılaşdırma űsulundan necə, hansı őlçűdə yararlanmış olduğunu izləməyə çalışaq.

Əmin bəyin qənaətincə, Firdővsi 60 min beytlik "Şahnaməsi" ilə bu "Parısı" (Fars dilini) və "Əcəmi" (İranı) diriltdiyinə əmindir. Nizami isə 48 min beytlik ("Pənc-Gənc" və "Divan-ı Əşar" birlikdə) sənəti ilə qarşısına "belə bir məqsəd və őyűnmə" qoymamışdur. Firdővsidə olan bir irq təəssűbű də Nizamidə yoxdur. "Onun űçűn őnəmli olan qan deyil, imandır. Nizamiyi ilgiləndirən İran və Fars qanı deyil, tekallahlıq əqidəsiylə, ədalət anlamıdır"(s.172). Yerindəcə bildirmək istərdim ki, Nizamini Şərq bidətci cərəyanlarına qoşmaqla onu panteist, antiortodoksal, dinə qarşı olan bir műtəfəkkir kimi dəyərləndirmək istəkləri çağdaş fəlsəfi ədəbiyyatda kəskinliklə pislənilməkdədir(4).

Çox əski tarixlərdən sorağı gələn başqa bir mővzu: "Nizamidə, Firdővsinin bilhassə şəxsiyyətini təşkil edən ərəb və tűrk dűşmançılığından zərrə qədər əsər yoxdur (s.172). Adı ikinci keçən műəllif İran-Turan savaş dastanını vermiş və onun təsvirində "İran" xeyir ilahəsi Hőrműzdű, "Turan" isə şər ilahəsi Əhriməni bildirməkdədir. Əmin bəyin qənaətincə Nizami bu əsatiri mővzunu genişliyilə səsləndirmək istəməmiş, həmin anlayışlardan yalnız "bir və ya iki yerdə… iki dűşmən dűnyanı deyil, sadəcə iki coğrafi bőlgəyi qəsd etmişdir" (yenə orada). Bununla yanaşı Nizamidə Turan qəhrəmanı Əfrasiyab, İran Keyxosrovu dəyərindədir. "Kraliça" (ifadə M.Ə.Rəsulzadənindir) Şəmiram (5) qardaşı qızı və vəliəhdi Şirinə sevdiyi iranlı Xosrova qarşı ehtiyatlı davranması űçűn őyűd verirkən: "O Keyxosrov isə, biz də Əfrasiyabıq" sőyləyir.

Nizami əsərlərində tarixi olaylar bir sıra tədqiqatçıların diqqətini őzűnə çəkmişdir (6). Bu olaylardan biri M.Ə.Rəsulzadə və Y.E.Bertelş tərəfindən işlənilmiş olduğundan, yığcam bir açıqlama ilə kifayətlənmək gərəkdir. Sőhbət Makedoniyalı (Nizamidə: Maqduniyə) İsgəndərin doğuş tarixçəsidir. Nizamiyə gőrə bu mővzuda bir neçə rəvayət yaranmış idi. Şair, Rum (Yunan) bilgisi ilə yanaşı Zərdűşti və Firdővsi versiyalarının űzərində dayanmağı lazım bilmişdir. O, yazır ki, "Azərpərəst dehqan başqa bir rəvayət sőylər, onun (İsgəndərin–S.A.) nəslini Daraya (İran şahına –S.Ə.) bağlayır". Nizami gerçək tarixi araşdırma ilə bu rəvayətləri uydurma adlandırır:

Elə ki, mən tarixləri qarşılaşdırdım, Allaha inananın (Firdővsinin –S.Ə.) əsərinə də baxdım, həm onlarda (Zərdűşti kahinlərdə), həm bunda (Firdővsidə) doğruçuluq yox, uydurma sőzlərdə bir gerçək yox (xatırlatmaq istərdim ki, Psevdo-Kallisten (rusca yazılışı Kallisfen) romanında İsgəndər qədim Misrin çar sűlaləsindən tőrəmiş kahin oğludur) (7).

Nizami isə artıq "Dastanın başlanğıcı" bőlűműndə bűtűn

bu uydurmaları kənara atmış, tacidar (İsgəndər) "Filiqus (Filippus) oğludur" yaz mışdır.

M.Ə.Rəsulzadə bu mővzuya "Firdővsi ilə Nizami arasındakı his başkalığı" baxımından yanaşmışdır. Firdővsi, Kəyan taxtını ələ keçirən bir Rumun yabançılığına dayana bilmir, "İranın yenilgisini İsgəndərin damarlarında axan qana bağlayır". "Şahnamə"də İsgəndər Kəyanilərdən biri, Dara Kodomanın oğludur. Guya Dara ilə Filip arasında olan bir savaşda rumlar basılmış, Filip qızı Nahidi Daranın hərəminə gőndərməli olubmuş. Ancaq Dara rum məlikəsini bəyənməmiş, izdivacdan sonra geri atası yanına gőndərmişdir. Filip isə hamilə qızının doğduğu uşağı őz oğlu və varisi elan etmişdir. M.Ə.Rəsulzadəyə gőrə, "Şahnamə" hekayəsi İran űçűn bűtőv bir konseptual baxış yaşatmaqdadır. "Firdővsinin gőzűndə, İsgəndər bir yabançı və işğalçı deyil, Kəyan tacının həqiqi varisi və İranın məşhur hőkmdarıdır" (s.174).

Nizaminin isə belə bir bayıldıcı uydurmaya ehtiyacı yox idi. İsgəndərin yalnız Kəyan taxtına yox, bűtűn dűnyaya sahib olmasının sirrini "Nizami İsgəndərin qanında deyil, imanında, fikirləriylə idarə sistemində gőrműşdűr" (yenə orada).

Nizamidə İsgəndər mővzusu bir zaman tərəfimizdən araşdırılmış olduğundan (bax. "İsgəndərnamə tarixi baxımdan", 1983), burada kiçik bir arayış vermək zorundayam. Əmin bəy yazır ki, bu mővzu yunanca əsli qeyb olmuş, şərq dillərində tərcűməsi műhafizə edilmiş Yunanlı Klastinesin (Kallisten) uydurma kitabından alınmışdır(s.159). Haqq űçűn, műəllif mővzunu araşdırmadan bu fikri sadəcə Məhəmməd Əli Tərbiyətin "Danişməndəni Azərbacyan" kitabından iqtibas etmişdir. Teymur Kərimli də Nizaminin bu məlumatı "Yalançı Kallisfen"dən aldığını təhmin etməkdədir (8). Bu yanlış fikir bəlkə də korifey Nizamişűnas Y.E.Bertelsin əsərlərindən gəlir (9). Onun fikrincə İsgəndərin "Şahnamə"dəki Əndəlűs kraliçəsi

Kaydafə və "İsgəndərnamə"dəki Bərdə kraliçəsi Nűşabə ilə gőrűş mővzusu "Psevdo-Kallisten" romanının iki bőlűműnə istinad etməktədir. Başqa sőzlə, Firdővsi də, Nizami də eyni bir qaynaqdan yararlanmışlar, fərq yalnız bu imiş ki, İran şairi adı keçən romanın pəhləvi, ərəb və ya suryanı tərcűmə-lərindən biri ilə tanış olubmuş, Nizami isə heç bir kitab nűsxəsi ilə deyil, ancaq el rəvayətləri ilə. Beləcə də yazmış: "Nizami Aleksandra xűsusi olaraq həsr edilmiş *heç bir kitabın űzűnű gőrməmiş*. Deməli, Psevdo-Kallisfenin pəhləvi variantı və ya onun ərəb tərcűməsi Nizamiyə bəlli olmamışdır"(10). Bizim araşdırma isə "İsgəndərnamə" poemasının mőhtəşəm yazılı qaynaqlarla, Nizaminin őzű bildirdiyi kimi, fars, ərəb, yəhudi və nəsrani manus-kriptlərinə dayandığını açıqlamışdır. Və baş mővzu versionu űzrə Psevdo-Kallistenə deyil, Arrian və Plutarx yazıları ilə uzlaşmaqdadır (11).

M.Ə.Rəsulzadənin qənaətincə, Nizaminin farslıqla bağlı olmadığını gőstərən "kəsin dəlillərdən" biri" atəşpərəstliyə qarşı dűşmanlıqdır. Məcusilik, zərdűştçűlűk, və atəşpərəstlik təsisatlarına Nizamidə İsgəndər də dűşmən kəsilmişdir. Birbaşa Təbəri tarixindən və ya Samani vəziri Bələminin qısa fars çevirməsindən (963 il) gőtűrűlműş olan "Ərmən", "Rus", "Qıpçaq yűrűşləri" məhz atəşpərəstlik davası ilə başlanmışdır (12). "Şərəfnamə"də İsgəndər Kəbə ziyarətində olarkən yanına "bőyűk Azərbaycan hőkmdarından" elçi gəlib sőyləyir ki, "Ərmən oda ibadət, başqa bir padşaha itaət etməkdədir. Bu səmtə ordunla yűrűməsən devlət (műlk) əldən gedəcəkdir". Başqa deyişlə, atəşpərəstliyin yox edilməsi şairin "ideal qəhrəmanı" İsgəndər űçűn mənəvi borc işidir. Buna gőrə də poemanın ilk bőlűmlərində İsgəndər yapdığı alqışlanası işlərdən biri İran və Azərbaycanda bu "bulanıq dinə" (Nizami) son qoyub műsəlmanlığı qəbul etdirməsidir. Bir qayda olaraq bu işin sonu atəşgahların yıxılması və maqların (kahinlərin) qılıncdan keçiril-

məsi olurdu. Tarixçilikdə maqofoniya (maqoponiya) adlanan bu əməliyyatların ilk çağı iranlıların milli bayramı kimi qeyd ediməkdə idi (qədim műəliflərdən İosif Flavi və Ktesiyə gőrə, m.ő.522-521 illərdə midiyalı maq Qaumatanın İrana qarşı űsyanı yatırılmış, madalı maqların qətlə yetirilməsi İranda bayrama çevrilmişdi) (13). Makedoniyalı İsgəndər bu bayramı İran űçűn yasa çevirdi, atəşpərəst iranlı kahinləri qətlə yetirdi, "Avesta"-nın iki ən qədim mətnini oda yaxdı (14).Bu, maqoponiyanın ikinci, bundan on bir əsr sonra Ərəb yűrűşləri ilə islamın bərqərar olması və atəşpərəstliyə őldűrűcű zərbə vurulması isə űçűncű mərhələsi oldu.

Təbii, Nizami bu çeşiddən olan "əməliyyatların" nə qədər ağrılı keçməsinin, saysız qurbanlar tələb etməsinin fərqində olmamış deyildi. Ancaq insan oğlunun islam hidayətinə girməsi Şair űçűn hər şeydən űstűn idi. Bu baxımdan Sasani imperatoru Xosrov Pərvizin Həzrəti Peyğəmbərin "műbarək hidaűətnaməsini" (İslama dəvət məktubunu) ləyaqətsizliklə cırıb atması, elçisini təhqir etməsi Nizaminin gőzűndən yayınmamışdı. Burada İslamın ilk yayılma çağlarının gerçək tarixi şərtləri gőzardı edilməməlidir.Həzrəti peyğəmbər İran, Həbəşistan və Bizans padşahlarına yazılı məktubla İslamı dinc yolla qəbul etməyi buyurmuşdu. Quran-ı Kərimdə deyilir: "O halda Allah-Taalaya və onun űmmi nəbisi olan Rəsuluna tabe olun ki, doğru yolu bulmuş olasınız" (VIII, 158); "Kim Allah- Taalaya və Peyğəmbərinə iman etməzsə, gerçək (bilsin) ki, biz o kafirlər űçűn çılğın bir atəş hazırlamışıq" (XLVIII, 13). İlkin çağda bu buyruqların őzűndə də, onların yerinə yetirilməsində də bir əxlaqi yumşaqlıq, dőzűmlűk vardı (15). Bu əxlaqi yumşaqlıq, dőzűmlűk tarixi bəlgələr ilə sűbuta yetirilir. İslamı fətihlərin başlanğıc çağında İraq savaşlarında Xalıd b. əl-Vəlid İran sərhəd komandanı Hőrműzə yazırdı : "Siz İslam dininə giriniz əmniyyət və gűvən içində yaşamanıza davam ediniz. Əgər İs-

lam dininə girməzsəniz,… hakimyətimizi qəbul ediniz. *Zimmi* olun, biz də sizi qoruyaq. Kimsənin sizə taarruz (hücum) etməsinə fürsət verməyək. O təqdirdə bizə *cizyə* verməniz gərəkdir. Yox, bunu da qəbul etməzsəniz, sizə yapacaq bir işimiz qalmamışdır. Aramızdakı hökmü Allah verəcəkdir. Fəqət biz elə ordu ilə gəlmişik ki, bu ordunun ərləri (əsgərləri) ölümü sizin həyatı sevdiyinizdən daha çox sevən kimsələrdir" (16).

Bütün bunlarla bağlı M.Ə.Rəsulzadənin fikrincə, farsçılıq təəsübünə yad olan Nizami, Xosrov Pərvizin davranışını "məcusi quduzluq" kimi dəyərləndirmiş, onu ata üçün ən ağır ölüm hökmünə "məhkum etmişdir". Oğlu Şeruyənin əli ilə Xosrovun yataqda öldürülməsi ilə faciə bitməmiş, İran səltənəti bütünlüklə çökmüşdür.

M.Ə.Rəsulzadəyə görə farslığın ən böyük və ən parlaq ənənəsi Zərdüştçülük ilə atəşpərəstlikdir. "Belə isə, Fars şerinin Firdövsidən sonra ikinci böyük dirəyi Nizami bu müəssisəyə nədən bu qədər düşməndir? Onun üçün ki, sözün gerçək mənasıyla, Nizamidə Farslıq duyğusu yoxdur. O, bütün duyğu və şüuri ilə bir müsəlmandır. Tək Allaha inanır. Allahlıq anlamında o, hər növ ikiliyi və çoxluğu rədd edən bir "vahdaniyətçidir" (s.175). Buradaca qeyd etmək olar ki, Nizami yazıları farsca isə də, Əmin bəyin fikrincə, onun duyğu və şüuru farslıqdan uzaqdır. "Bu uzaklıq, onun zamanında olduqca qüvvətli bulunan ismailiyə məzhəbinə qarşı gizləmədiyi düşmanlıq ilə nifrəti də göstərə bilir. Vaqif olanlar bilir ki, içərisindən Hasan-i Səbbah kimi qorxunc terroristlər yetişərək, Xilafətə qarşı şiddətlə mücadilə edən bu hərəkat əski farslığın islamlığa qarşı gəlişinin bir ifadəsi idi" (yenə orada). Nizami məmduhlarından Azərbaycan Atabəyi Sultan Qızıl Arslanın ismaililər tərəfindən öldürülməsi haqda rəvayət şairə çatmamış deyildi. Hər halda Əmin bəyin müşahidəsincə, ərəb Xilafəti və Türk Səltənətinə düşmən kəsilmiş, bu "İranlı" məzhəb Nizami lüğətində söyüşlə

yad edilir. Və Əmin bəy "őrnəklərdən" yalnız birini xatırladaraq, onlar "bir-iki deyildir" yazır (yenə orada). Bu mənada Nizaminin ismaililik tərəfdarı kimi təqdim edilməsi fəlsəfəçilikdə haqlı olaraq tənqid edilməkdədir (17).

Sőylənildiyi kimi, kitabın III bőlűműnűn ikinci hissəsini Əmin bəy "Nizamidə Tűrklűk" adlandırmışdır. O, "Xəmsə"dən və "Divan-ı Əşar" dan Nizamişűnaslıqda ilk dəfə űzə çıxarılmış onlarca "tűrkizmləri" bir-birinin ardınca sadalayıb açıqlamağı lűzumlu saymamışdır. Burda da analitik tarixi-filoloji araşdırma űsuluna dayanaraq, bulduğu tűrkcə deyim, anlayış və ata sőzlərini (bu sonuncuların bir çoxunu Şair farscaya çeviribmiş!) Nizaminin etnomədəni kimliyi mővzusunun açıqlanmasına yőnəltmişdir. Bundan irəli gedərək sőyləyə bilərik, M.Ə.Rəsulzadə "Nizamidə Tűrklűk" mővzusunu Tűrkçűlűk ucalığına yűksəltməyi bacarmışdır. Onun qənaətincə, Nizami tűrklűyű konseptual yűk daşımaqtadır. Őrnəklər çox və biri o birindən tutarlı. Ancaq bunların sırasında ən tutarlısı "Həft Peykət" də olan bir beytdir:

ترکیم را درین حبش نخرند
لاجرم ، دوغبای خوش نخورند

Kiçik fərqlər sayılmazsa, beytin farsca oxunuşu M.Ə.Rəsulzadə və Cavad Heyət mətnlərində eynidir: Tűrkiyəmra (Cavad Heyətdə "Torkimra") dər in Həbəş nəxərənd/Lacərəm doğbaye xoş nəxorənd".

Tűrkcəmizə tərcűməsi də hər ikisində gőzəl:
Tűrkcəmi bu həbəşlikdə alan yox,
Dovğayı bir yemək deyə sayan yox.*

---

* S.Onullahinin oxunuş və tərcűməsi başqadır:
Bu Həbəş őlkəsində (?) tűrkliymi almazlar
Ona gőrə də yaxşı dovğa yeməzlər (?)

M.Ə.Rəsulzadə bu beytdə ifadə olunan şikayəti şairin yaşadığı dővrdə tűrkcə yazmanın adət olmadığı səbəbiylə duyduğu təəssűr kimi izah etmişdir. O yazır: "Hər halda Tűrk anlamına – sezişlərində, duyuşlarında, dűşűnűş və buluşlarında – bu qədər yűksək yer verən bir Azərbaycan evladına, *Gőzəl ilə bőyűyə- Tűrk, gőzəllik ilə bőyűklűyə – tűrklűk, gőzəl və bőyűk ifadəyə – tűrkcə, gőzəllik və bőyűklűk diyarına – Tűrkűstan* deyən bir şairə, sırf Farsca yazmışdır deyə, Tűrk deməmək qabilmidir?

Əsla!!" (s.187. Kursiv M.Ə.Rəsulzadənindir).

Əmin bəyin yorumlamasınca gőzəl və bőyűk ifadəyə (hakimanə fikirlərə) Şair "Tűrkcə" deyirsə, bu sőz ilə őz dűhasının məhsulu olan yűksək dűşűncələrini də nəzərdə tutmaqda idi.

Oxucu diqqət yetirmişsə, incələmə predmeti olan beytdə daha bir "tűrkizm" uyumaqdadır: Doğva və ya Dovğa. Səhifəaltı yorumla M.Ə.Rəsulzadə bunun "yoğurtla yapılan" bir şorba olduğunu, indi də "Gəncənin (əslində bűtűn Azərbaycanın – S.Ə.) bəlli őzəlliklərindən" sayıldığını bildirir. Bununla bağlı əlavə etmək olar ki, Azərbaycan kulinarisində dovğa, aclığı xətm edə biləcək bir "műstəqil statuslu" yiyəcək sayılmaz, buna gőrə də "məzə" və ya "çərəz" yerinə yűksək kolorili yeməklərdən (plov, kabab və s.) sonra sűfrəyə verilər. Beləliklə,

---

Bundan əlavə, ikinci misranın başında gələn sőzű M.Ə.Rəsulzadə «Lacərəm», Cavad Heyət «Lacorəm», S.Onullahi isə «Lacirəm» oxumuşdur. Ancaq fars dilinin etibarlı çağdaş sőzlűklərində sőzűn «Lacərəm» və «Lacorəm» yazılışı var, «Lacirəm» isə yoxdur. Bax.:

علی اکبر دهخدا لغت نامه جلد دوازدهم (گندشک – مضعف) چاپ اول از دوره جدید ۱۳۷۳ ، تهران ص ۱۷۲۱۳؛

فرهنگ فارسی امروز غلامحسین صدری افشار، نسرین حکمی ، نسترن حکمی، ویرایش سوم، تهران ۱۳۷۷، ص. ۶۷۳.

Nizami yazısında tűrk xőrəyi dovğanın mənalandırılması doğma Gəncənin tarixi etnoqrafiyasına bűtűnűylə uyğun gəlməktədir.

Bir neçə sőz də "həbəşlik" deyimi űçűn. "Tűrkcəmi bu həbəşlikdə alan yox" misrası ilə heç də tűrkcənin və tűrklűyűn "Həbəş őlkəsində"ki durumu nəzərdə tutulmamışdır. Bu misraya yűklənmiş olan fikir konkret, őzəl bir coğrafi bőlgəni və ya anlayışı bildirmək űçűn işlənməmişdir. M.Ə.Rəsulzadə haqlı olaraq yazır ki, Həbəşlik "qara cəhalət" mənasına gəlməktədir (s.187). Yəni "həbəşlik" mənaca irfansızlıq (intellektsizlik) ilə eşdir, műsəvidir, hər ikisi də "cəhl, cəhalət műhiti" kimi yorumlanmalıdır. Fűzuli bunu bir deyim ilə çox aydın şəkildə bildirməkdədir.

*Kamal-ı cəhl ilə davayı irfan eyləmək olmaz.*

Bu mővzu ilə bağlı Nizami yazılarında və ondan sonrakı ədəbiyyatda Hindu, Hinduluq anlamı űzərinə diqqət çəkmək istərdim, Bu anlam ilə də bəlli bir etnomədəni varlıq və ya surət deyil, űmumbəşəri bir rəmz (őğurluq, çirkinlik, qaraçılıq) bildirilməkdə idi. "Maxzənul ətrar"da bőyűk səlcuqlu Sultan Səncərdən zűlm gőrműş bir qarı nənə deyir ki,

"Madam ki, sən zűlmə amil olursan

Bir Tűrk deyil, çapolçu bir *Hindusan*" (tərcűmə M.Ə.Rəsulzadənindir).

M.Ə.Rəsulzadə yanaşmasında Nizami tűrkcűlűyű universal bir tarixi keyfiyyətdir. "Sultan-ı Kəbə" başlıqlı bir qəsidəsində şair, Peyğəmbər űnvanına "Ərəb vűcutlu (əndamlı) Tűrk" deməkdədir. "Şərəfnamə"də isə Makedoniyalı İsgəndəri "Rum kűlahlı (şlemli) tűrk" deyə vasiflandımaqdan çəkinməmişdir.

Yazıya son verməzdən őncə son qənaətimizi açıqlamaq gərək. O zamanın islam mədəni műhitində "tűrk ziyalısı" (Nizamidə "qələm Tűrkű") bir zűmrə olaraq, təbii, artıq var idi.

Ancaq bu ziyalı zümrəsi bütöv deyildi, ən azı üç qola bölünmüşdü. İlk öncə türk mənəvi varlığını, türk kimliyini qoruyub saxlamış olanlar gəlirdi. Bu qolu təmsil etməkdə olan zümrə üçün Has Hacib Balasaqınlu Yusuf ölməz "Kitadqu Bilik" poeması ilə zirvə və öndər sayıla bilər.

İkinci yerdə türk kimliyini qeyd etmiş, İslam hümməti və mənəviyyatına tam qovuşmuş olanlar oturmuşlardı. Etnomədəni kimliyini qismən saxlamış olanları da buraya qatmaq olar, çünki Ərəb və Fars ədəbi və elmi mühitində doğma türkcəsinə yuxarıdan baxır və saymazlıqla yanaşırlardı. Buna Əbu Reyhan əl Biruni "Farmakognoziya"sı örnək alına bilər. Böyük türk bilgini burada yazırdı: "Təbiət məni bir ayrı dil dünyasında yaratmış, ancaq elmlərdən birini bu dildə (müəllifin öz doğma türkcəsini nəzərdə tutması sözsüzdür. –S.Ə.) səsləndirmək istəsən, elə bil dəvə yağış selində hərəkət etməkdədir və ya zürafə xəndəyə düşmüşdür. Sonraları mən [ana dilindən] ərəb və fars dillərinə keçdim; onların hər birində mən özümü onlara güclə yiyələnmiş bir yabançı [müsafir] sanıram. Fəqət mənə ərəbcə söyüş farsca söylənilən tərifdən daha xoş gəlir" (18).

Bu ikisinin arasında üçüncü bir qol yer almış idi. Təmsilçiləri ərəbcə və ya farsca yazsalar da, türk varlığı ilə mənəvi dəyərlərini tarixə mal edərək yaşatmaq istəyənlərdən ibarət idi bu qol. Başlıcası isə, türkcəni ərəb və fars dilləri ilə "atbaşı bərabər yürüyə bilən" (Kaşqarlı Mahmut) bir dəyər kimi qorumaq əzmində israrlı idilər. Sözü Əmin bəyin özünə verək: "Əsərlərini ərəbcə yazmışlar ikən türklük haqqındaki duyğulariylə türk kültür və milliyətçiliyi tarixində müstəsna yer tutan Kaşqarlı Mahmutlar, Gurlu Fəxrəddin Mübarəkşahlar, Zamahşərli Mahmutlar nə qədər türklərsə, Nizami də onlar qədər türkdür" (s.187).

* *
*

Yeni dövr Azərbaycan şairi Hacı Seyid Əzim Şirvani (1835-1888) doğulduğu Şamaxı şəhərində cəhalətcil güruh ilə üz-üzə gəlmiş, açdığı və müəllimlik etdiyi məktəbi (ilk üsuli-cədid məktəblərindən biri) qapadılmışdı. Şikayət üçün Tiflisə gedərkən, Gəncədə Nizami türbəsini ziyarət etmiş və ağır təəssüratını iki məşhur beyt ilə bildirmişdi (M.Ə.Rəsulzadə bu sətirləri kitabın əlavələr bölümünə qatmışdır, s.324):

Ey Şeyx Nizami, ey nizamı dağılan;
Ey Gəncədə izzü ehtişamı dağılan.

Olubmu səninlə mən kimi aləmdə
Yurdu, evi, məktəbi, kəlamı dağılan.

Məncə bu sətirlər hər iki şairdən daha çox Məmməd Əmin Rəsulzadənin özünə aid edilməlidir.

---

1. Bax: Mehmet Emin Resulzade. Asrımızın Siyavuşu. Azerbaycan Kültür Dernegi: Yayınları, Ankara, 1989, 70s.; Yenə onun. Azerbaycan Cumhuriyeti. Hazırlayanlar: Yavuz Akpınar, İrfan Yıldırım, Sabahattin Çağın, İstanbul, 1990, 205s.; yenə onun. Kafkasya Türkleri. Hazırlayanlar: Yavuz Akpınar, İrfan Yıldırım, Sabahattin Çağın, Türk Dünyası Araştırmaları Vakfı, İstanbul, 1993, 132s.; yenə onun. İran Türkleri. Hazırlayanlar: Yavuz Akpınar, İrfan Yıldırım, Sabahattin Çağın, Türk Dünyası Araştırmaları Vakfı, İstanbul, 1993, 142s.; yenə onun Azərbaycan şairi Nizami. Türk Dünyası Araştırmaları Vakfı, İstanbul, 1991, 402s. Son üç əsər üçün türk Dünyası Araşdırmaları Vakfının başqanı, Türk Dünyasına dəyərli və əvəzsiz xidmətləri ilə tanınan Prof. Dr. Turan Yazgan "sunuş" (təqdimat) yazmışdır.
2. Doktor Cavad Heyət. "Xəmsə"də Türkcə sözlər./ "Ədəbiyyat qəzeti" 26 iyul 1991, №30 (2477); bu dəyərli araşdırmanın farsca mətni üçün bax.: "Varlıq" dərgisi, Tehran, 1991, №1, s.4-14.
3. Görkəmli şərqşünasımız mərhum Qəzənfər Əliyevin qənatincə Nizami öz poemalarını heç bir yerdə "Xəmsə" adlandırmamış, ancaq onların hər birinin bir "Gənc", yəni bir xəzinə kimi zəngin olduğunu "Şərəfnamə"də qeyd etmişdir. Şairin ölümündən bir qədər keçmiş adı

bəlli olmayan bir xəttat-katib poemaları toplu şəkildə "Pənc-Gənc" adlandırmış, daha sonralar isə ərəbcədən alınma lakonik "Xəmsə" adı onu əvəz etmişdir (Алиев Г.Ю. Темы и сюжеты Низами в литературах народов Востока, Москва, "Наука", 1985, с.15-16).

4. Бах.: Мустафаев Джамал. Философские воззрения Низами, Баку, 1962; Məmmədov Zakir. Nizami. Gəncəvinin fəlsəfi dűşűncələri. Bakı, 2000.
5. Qəzənfər Əliyev hələ 50-ci illərdə Şəmira –Mehin Banu sűrətinin tarixi prototip olmaqla qədim Şərq tarixindən yaxşı tanış olan Semiramida ilə bağlı olduğunu sűbuta yetirmişdir. Bax.: Алиев Г.Ю. Образ Мехин-Бану и его исторический прототип / Azərbaycan EA Məruzələri, XIII cild, 1957, №13, s.1319-1322.
6. Nizaminin 850 illiyinə həsr olunmuş yazılardan yalnız bir neçəsi sırf tarixi mővzularla bağlıdır. Bax: Onullahi S. Şirin Tűrk qızıdır, műsəlmandır. / "Azərbaycan műəllimi", 6.III.1991, №18 (7057); yenə onun. İsgəndərnamə / "Azərbaycan műəllimi", 12.IV.1991, №28 (7067) Təəssűflər olsun, bu məqalələrdə mővzuya həsr olunmuş elmi ədəbiyyata, M.Ə.Rəsulzadənin, Y.E.Bertelsin və bu sətirlərin műəllifinin yazılarına heç bir istinad verilməmişdir. Son illərin uğurlu tədqiqatları sırasında T.Kərimlinin "Nizami və tarix" (Bakı, Elm, 2002) kitabını, őzəliklə kitabın "Nizami məmduhları" bőlűműnű qeyd etmək istərdim.
7. "Şərəfnamə". Filoloji tərcűmə. İzahlar və şərhlər Qəzənfər Əliyevin, Bakı, 1983, s.67, Bertelğs E.E. Низами и Физули, Москва, 1962, s.372;. Kərimli Teymur. Nizami və tarix, s.175.
8. Kərimli Teymur. "Nizami və tarix", s.127.
9. Bax.: Bertels Y.E. "Şərəfnamə". Őn sőz, s.5-18; yenə onun. Роман об Александре и его главные версии на Востоке, Москва-Ленинград, 1948; yenə onun. Низами, Москва, 1956; yenə onun. Низами и Физули, 1962, VI bőlűm.
10. Bertels, Nizami, s.207; Şərəfnamə, őn sőz, s.9.
11. Műfəssəl bilgi űçűn bax.: Əliyarlı Sűleyman, "İsgəndərnamə" tarixi baxımdan. "Azərbaycan", 1988, № 8, s.177-188. Qəzənfər Əliyev də "Leyli və Məcnun" ilə "Yeddi gőzəl" arasındakı səkkiz illik fasilədə Nizaminin ərəbcə, farsca, ermənicə və yunanca olan əski qaynaqlar űzərində çalışmalara girişdiyini yazmışdır. (Темы и сюжеты Низами.., с.14).
12. Bax. Əliyarlı Sűleyman. "İsgəndərnamə" tarixi baxımdan".
13. Фрай Ричард. Наследие Ирана, Москва, 1972, с.132, 272.

14. Луконин Б.Г. Культура Сасанидского Ирана. Москва,1969,с.81.
15. Bax. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci ilə qədər. Sűleyman Əliyarlının redaktəsi ilə, Bakı, "Azərbaycan" nəşr, 1996, s.14.
16. Kitabçı Zekeriya. Orta Asyada İslamiyetin yayılışı və Tűrkler, IV Baskı, Konya, 1998, s.125.
17. Məmmədov Zakir, s.29-79.
18. Azərbaycan tarixi. Sűleyman Əliyarlının redaktəsi ilə, s.334.

# BÖYÜK ƏMƏLPƏRVƏR

**Cəmil HƏSƏNLİ**

XXİ yüzilliyin daha bir ili tarixə qovuşur. 2004-cü il özü ilə birlikdə böyük mütəfəkkir, ilk Azərbaycan respublikasının, daha dəqiq desək, Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu M.Ə.Rəsulzadənin 120-ci doğum gününü bizə yaxınlaşdırır. 31 yanvar 2004-cü ildə Azərbaycanın taleyində və tarixində müstəsna rol oynamış böyük bir mütəfəkkirin, siyasi xadimin və ideoloqun doğum günüdür. Müstəqil Azərbaycanda bu günün qeyd edilməsi, M.Ə.Rəsulzadənin anılması, onun tariximiz üçün qiymətli adının, keşməkeşli həyatının, əzəmətli mübarizəsinin öyrənilməsi, nəzəri irsinin araşdırılması, müstəqil Azərbaycanın qurulmasında təməl prinsiplər kimi böyük əhəmiyyətə malik ideyalarının dəyərləndirilməsi tariximizin aktual problemi olaraq qalır.

M.Ə.Rəsulzadəyə yanaşma necə olmalıdır? İlk növbədə bu böyük tarixi şəxsiyyət öz zamanının şərtləri daxilində, yaşadığı tarixi prosesin içində öyrənilməlidir. Millətin, xalqın taleyində rol oynamış böyük siyasi xadimlərin fiziki mövcudluğundan sonrakı yaşantılarının bünövrəsini həmin siyasi xadimlər məhz özləri qoyurlar: öz əməlləri ilə, öz idealları ilə, öz mübarizələri ilə. Bu əməllər və ideallar o zaman xalqın yaddaşına hopur ki, onun daşıyıcısı olan siyasi xadimin mübarizəsi ilə tamamlansın. M.Ə.Rəsulzadə tək böyük əməllər və ideyalar çapçısı deyildi, həm də onların həyata keçirilməsinin iştirakçısı idi. Bu mənada onun bütün həyatı mübarizədə keçdi. O, böyük bir imperiya ilə qarşı-qarşıya dayandı. Təsadüfi deyildi ki, məhz 20-ci illərdən sonra M.Ə.Rəsulzadəyə qarşı mübarizənin baş planını həmin imperiyanın birinci şəxsi olan

İ.V.Stalin tərtib etmişdi. Və o da təsadüfi deyildi ki, mərkəzin direktivləri əsasında M.Ə.Rəsulzadəyə qarşı mübarizə tək Bakıda deyil, onun səsi eşidiləcək hər yerdə - Kazanda, Krımda, Mərkəzi Asiyada, hətta Moskvanın özündə belə aparılırdı. Sonrakı yazılarda biz bu məsələyə qayıdacağıq.

Fikrimizcə, ikinci önəmli məsələ M.Ə.Rəsulzadə irsinə bir sistem kimi, daha doğrusu, baxışlar sistemi kimi yanaşmaqdan ibarətdir. Əgər bu sistemlilik bərpa olunsa, biz ancaq və ancaq Rəsulzadənin, onun baxışlar sisteminin təkamülünü tarixi prosesin içində görə bilərik. Və bu təkamülün, bu inkişafın keçdiyi maraqlı yol, XX əsrin əvvəllərində Azərbaycan mətbuatının, siyasi mühitinin, ictimai fikrinin keçdiyi yoldur. Əsrin əvvəllərində həmin mühit M.Ə.Rəsulzadənin özü kimi gənc idi. Amma Rəsulzadə bu mühitin içərisində yetişməkdə, kamilləşməkdə ikən hələ həmin mühitin aparıcı siması deyildi. Sonralar biz onu həmin milli-mədəni yeniləşmə mühitinin yetirdiyi, kamilləşdirdiyi istedadlı publisistdən bacarıqlı siyasətçiyə doğru yüksəldiyinin şahidi olacağıq. Bu təkamül prosesi bir daha təsdiq edir ki, M.Ə.Rəsulzadə büt deyildi və heç bir halda ona bu meyarla yanaşmaq olmaz. O, yaşadığı tarixi prosesin içində böyüdü, təkmilləşdi, ictimai inkişafın zaman anlayışı daxilində yetişdi. Həmin illərdə biz M.Ə.Rəsulzadəni "Şərqi rus"da, "Hümmət"də, "Dəvət"də, "İrşad"da, "Yoldaş"da, "Füyuzat"da, "Tərəqqi"də və "Təkamül"də görürük. Əslində çox gənc yaşlarında onun tərəqqisi və təkamülü bütün Azərbaycanın taleyi kimi bu mətbu orqanlarından keçirdi. Sonralar Rəsulzadənin mətbuat coğrafiyası daha da genişlənəcəkdir.

Coğrafiyadan söz düşmüşkən, M.Ə.Rəsulzadənin yaradıcılığı və mübarizəsi müəyyən coğrafi anlayışlar daxilində öyrənilməlidir. Nə deməkdir bu coğrafi anlayışlar? Əslində bu rəmzi anlayış olmayıb, siyasi mübarizənin müəyyən coğrafi hüdudlar daxilində aparılmasını özündə ehtiva edən bir ide-

yadır. Və bu baxımdan Rəsulzadənin siyasi mübarizəsinin coğrafi hüdudları çox genişdir. Bu hüdudlar Rusiyadan, İrandan, Türkiyədən, Polşadan, Almaniyadan, Rumıniyadan və digər ölkələrdən keçir. Fəqət bu böyük coğrafi hüdudların mərkəzi, çıxış nöqtəsi Azərbaycandır. Harada, hansı ölkədə olmasından asılı olmayaraq, M.Ə.Rəsulzadə ömrünün sonuna qədər Azərbaycan davasını apardı. Bu davanı həyatının mənasına çevirdi. M.Ə.Rəsulzadənin baxışlar sistemin formalaşmasında, təkmilləşməsində, daha dəqiq desək, təkamülündə qeyd etdiyimiz coğrafi amil müəyyən mənada rol oynayıb və onun nəzəri irsi öyrənilən zaman bu amil nəzərə alınmalıdır.

XX əsrin əvvəllərində yaşamış, həyatlarına Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizəyə həsr etmiş siyasi xadimlər, fikir adamları arasında süni intriqalar quraşdırmaq son illərin eybəcər ənənəsinə çevrilmişdir. Təəssüflər olsun ki, biz M.Ə.Rəsulzadəni də bu "intriqaların içərisində görürük". Bəri başdan qeyd etməliyəm ki, bu zərərli ənənədir və buna son qoymağın vaxtı çoxdan çatıb. Cəmiyyəti rəsulzadəçilərə, topçubaşovçulara, fətəlixançılara bölmək olmaz. Ən azı ona görə ki, zəmanələrində onlar hamısı bir cəbhədə idilər: Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizə cəbhəsində. Həmin dövrün siyasi xadimlərinə yanaşmanın çıxış nöqtəsini də məhz bu ideya təşkil etməlidir.

Azərbaycanda XİX əsrin ikinci yarısında M.F.Axundov və Həsən bəy Zərdabidən gələn bir milli oyanış və bir mədəni yeniləşmə hərəkatı var idi ki, sonrakı dövrdə bu müəyyən tarixi mərhələlərdən keçdi. Bu prosesin başlanmasında Zərdabinin rolu və ictimai missiyası çox böyükdür. XXİ əsrin əvvəllərində belə biz Şərq mədəniyyətinə Qərb ağlını, Qərb elmini calaq edib yeni, müasir azərbaycanlı yetişdirən bu böyük, müdrik insanın tariximizdə yerini hələ yetərincə müəyyən edə bilməmişik. Məhz ilk dəfə olaraq Həsən bəy "Məhrib-zə-

min" dediyi Avropa ilə "Məşriq-zəmin" dediyi Şərqin insan azadlığına münasibətdə fərqliliklərini ictimai müzakirəyə çıxardı. Bu müzakirələr fərzin azadlığının toplumun azadlığı ilə tamamlanması, milli hüquqların ümmət coğrafiyasından çıxıb milli hüdudlarla tamamlanması ideyasını ortaya qoydu. Qiyafəsində belə Şərqlə Qərbin sintezini yaşadan bu müdrik insanın çiyinlərində Azərbaycan islam ümmətçiliyindən islam millətçiliyinə doğru tarixi keçidə başladı ki, bu da az sonra türk millətçiliyi ideyası ilə tamamlandı. Qeyd edilən prosesin başlanğıcında biz Zərdabini, mərkəzində Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.M.Topçubaşovu, sonunda M.Ə.Rəsulzadəni görürük. M.Ə.Rəsulzadənin "Niçatımız türkçülüyümüzdədir" və "Diriliklərin ən qiymətlisi milli dirilikdir" ideyası bu tarixi prosesi tamamladı.

Azərbaycan bütün islam və türk dünyasında islam ümmətçiliyindən türk millətçiliyinə doğru tarixi keçidi başlayan və onu sona çatdıran ilk ölkə oldu. Əslində Şərqdə ilk qəzet, ilk teatr, ilk opera, ilk cümhuriyyət bu böyük tarixi prosesin başlıca mərhələləri idi. M.Ə.Rəsulzadəni yetişdirən də elə həmin tarixi proses, həmin tarixi mühit oldu.

Ən nəhayət, M.Ə.Rəsulzadəyə, onun irsinə, keçdiyi tarixi yola münasibət Azərbaycanın dünəninə, bugününə və sabahına münasibətdir. Millət bunun fərqindədir, dövlət də bunun fərqində olmağı düşünməlidir. Hər halda 1994-cü ildə H.Əliyev M.Ə.Rəsulzadənin anadan olmasının 110 illiyini dövlət səviyyəsində keçirə bildi. Özü də həmin yubileyə həsr olunmuş rəsmi dövlət tədbirinin iştirakçısı oldu. Əgər səhv etmirəmsə, baş nazirin müavini, XX əsrin əvvəllərində Azərbaycanda gedən yeniləşmə hərəkatına, ictimai-siyasi fikir tarixinə dərindən bələd olan E.Əfəndiyev M.Ə.Rəsulzadə haqqında gözəl bir məruzə ilə çıxış etdi. İndi o vaxtdan 10 il keçib, M.Ə.Rəsulzadə 10 yaş da böyüyüb. Müstəqil Azərbaycan dövlətinin yaşı da, təcrübəsi də, imkanları da bir o qədər artıb. Bu elə be-

lə bir xatırlatma idi. M.Ə.Rəsulzadənin anadan olmasının 120 illiyi ərəfəsində kiçicik bir xatırlatma...

XX əsrin əvvəllərində o taylı-bu taylı Azərbaycanda baş verənlər dünyanın diqqətini cəlb etməkdə idi. Bütövlükdə hər iki Azərbaycanda zülmə və haqsızlığa qarşı, milli hüquqlar uğrunda geniş mübarizə dövrü başlanmışdı. Vəziyyətin qəribəliyi onda idi ki, hər iki Azərbaycan çar istibdadından əzab çəkirdi. Hələ 1905-ci ildən qabaq 1904-cü ilin payızında və 1905-ci ilin ilk günlərində Muğanda Alar camaatının çarizmin köçürmə siyasətinə, müstəmləkə siyasətinə qarşı qəhrəman mübarizəsinin, öz torpaqlarını silah gücü ilə qorumalarının sədası Peterburqa - imperator sarayına qədər gedib çatmışdı. Rusiya imperiyasının paytaxtından senator Kuzminskinin təcili olaraq Bakıya gəlməsi, Muğanda olması bütövlükdə Qafqazı bürümüş narazılıq və həyəcanla bağlı idi. XX yüzilin əvvəlində Bakıda, Tiflisdə, Peterburqda çıxan qəzetlərin səhifələrinə baxılsa, əsrin birinci onilliyində Bakıda və Təbrizdə necə böyük hadisələrin baş verdiyinin şahidi olarıq.

Hadisələrin lap başlanğıcında biz gənc Rəsulzadəni gündən-günə genişlənən azadlıq hərəkatının içində görürük. Əvvəlcə şimalda, sonra isə cənubda. Azərbaycan aydınları, yazarları, publisistləri içərisindən, o, tənha adam idi ki, həm 1905-07-ci illər rus inqilabının, həm 1908-1911-ci illər Məşrutə hərəkatının, Səttarxan hərəkatının iştirakçısı oldu. Əgər Azərbaycan mətbuatını izləsək görərik ki, öz məqalələri ilə M.Ə.Rəsulzadə Bakıda və Təbrizdə, bütövlükdə Yaxın Şərqdə və Rusiyada gedən inqilabi mübarizənin təkcə publisistik deyil, həm də tarixi salnaməsini yaratmışdır. Onun bu mövzuya həsr edilmiş yazılarının sayı 250-dən çoxdur və bunun böyük bir hissəsi İran inqilabına həsr olunmuşdur. Mirzə Bala Məmmədzadə yazır: "M.Ə.Rəsulzadəni 1908-ci ildən 1911-ci ilə qədər Tehranda... görürük. Mərkəzini Azərbaycan və onun

hűrriyyətsevər baş şəhəri Təbriz təşkil edən İran inqilabına demokratiya aşiqi Rəsulzadə də műşahidəçi kimi qalmamışdır". Biz M.Ə.Rəsulzadənin Təbriz hərəkatı və Təbriz qəhrəmanları haqqında yazdığı silsilə məqalələrdən onun bu hərəkata və onun liderlərinə nə qədər bőyűk rəğbətlə yanaşdığının şahidi oluruq. Qənaətimizcə, onun "İran məktubları" Məşrutə hərəkatının tarixini őyrənmək űçűn bu gűn də qiymətli mənbə olaraq qalır.

Məşrutə inqilabı haqqında yazanlardan ilk olaraq M.Ə.Rəsulzadə onun rus inqilabı ilə bağlılığını műəyyən etdi. O yazırdı: "İranda inqilab başladı. Rusiya inqilabına nisbətən bir ayrı tonda, bir ayrı rəngdə başladısa da, eybi yox. O da İranın əhval və şəraitinə bağlıdır. İranın cavan inqilabı őz műrəbbisi olan Rusiya inqilabını bir çox məsələlərdə təqlid etdi. "İranda yanvarın doqquzu" məqaləsi M.Ə.Rəsulzadənin tək İran inqilabına deyil, eyni zamanda rus inqilabına műnasibətini də ortaya qoyur. O sual edir: Yanvarın 9-u nə idi? Cavabında isə qeyd edir ki, yanvarın 9-u istibdadın hűrriyyətin əvvəlinci qanlı műcadiləsi idi. İştə Rusiyaya təqlid edən İran inqilabı da bir yanvardan doqquzu çıxarmış, İranda inqilabın bűnővrəsini qoymuşdur.

İran inqilabı haqqında yazanlardan ilk olaraq M.Ə.Rəsulzadə bu inqilabın milli xarakterini műəyyən etdi. O, "Təkaműl" qəzetindəki məqaləsində İran inqilabının mərkəzinin Azərbaycana keçdiyini gőstərərək yazırdı: "Bu gűnlər Azərbaycan bir atəşi-inqilab və ixtilal içində yanıb-yaxılmaqdadır. Bu inqilabda bőyűk rol oynayan tűrklərdir. Bəli, tűrklər də gərək olsun. Çűnki Qafqaz vilayətlərində fəhləlik etməklə kəsb-ruzi edən iranlıların əksəri Azərbaycan tűrkləridir ki, burada Rusiya fəhlələri arasında işləməklə hűrriyyət və fədakarlıq işlərinə alışmışlar". M.Ə.Rəsulzadənin əsrin əvvəllərində irəli sűrdűyű "İran bahadırları tűrklərdir" fikri XX əsr ərzində baş vermiş bűtűn sonrakı İran inqilablarının timsalında tarixin sınağından çıxdı.

1908-ci ilin iyununda Məmmədəli şah İran Məclisini rus torlarından atəşə tutanda məşrutəçilərin çoxu ümidsiz vəziyyətə düşdü. İnqilabın birinci mərhələsində fəallığı ilə seçilən Seyid Məhəmməd Təbatəbai Tehran küçələrində yaralandıqdan sonra öz yaxın adamlarına gizli xəbərlər göndərirdi ki, silaha əl atmasınlar, gizlənmək və tanınmamaq üçün 2-3 dəst əba və əmmamə göndərsinlər. Tehran məşrutəçilərinin əba və əmmamə axtardığı ağır vaxtlarda Təbriz ayağa durdu. Nə Məmmədəli şahın hədələri, nə də rusların müdaxiləsi Azərbaycanı mübarizədən çəkindirə bildi. Səttarxanın Təbrizin mərkəzində, Əmrəxiz məhəlləsindəki rəşadəti inqilabın sədasını İrandan çox-çox kənarlara yaydı. Artıq bu zaman Təbriz hadisələrinin tək müşahidəçisi deyil, eyni zamanda iştirakçısı olan M.Ə.Rəsulzadə yazırdı ki, indiyədək Təbrizdə bu qədər şiddətli atışma olmamışdı. Məşrutəçilərin bəzi səngərlərinə 3-4 yüz nəfər birdən hücum edirdi. Bunların müqabilində 5-10 nəfər məşrutəçi qəhrəmanı dayanıb kömək gələnə qədər onların qabağını saxlayır, səngərləri qoruyurdur. Hüququnu anlayan adam qəhrəman olarmış. Həqiqətən bu gecənin davası dövləti davalar kimi bir dava idi.

Bundan sonrakı yazılarında Səttarxan və Bağırxan M.Ə.Rəsulzadənin İran məktublarının əsas qəhrəmanına çevrilir. Təbrizə hücum edən şah qoşunları və rus kazaklarının qarşısında hər məhəlləsi səngərə çevrilən tarixin bu qoca şəhərinin şanlı adını məhz sərdari-millinin qəhrəman mübarizəsi xilas etdi. Bir il mühasirə vəziyyətində yaşayan, dirənişindən başqa hər şeyi - ərzağı, azuqəsi tükənən Təbrizi M.Ə.Rəsulzadə belə təsvir edir: "Zavallı Təbriz, Bəlalı mücahid nə qədər korluq görmüş, nə qədər hücumlara düçar olmuş. Bir il tamam üzərinə yağmaqda olan güllələrə sinə gərib durmuş olan Təbriz bir o dərəcə vətən yolunda fəda olmağa hazır imiş ki, rus qoşunlarının gəlməsindən iləri öylə bir halda ki, hər bir azuqə

şəhərdən qurtarıb, xalq acından tökülüb küçələrdə qalırlarmış, mücahidlər yonca yeyib dava edirlər və müxaliflərini şəhərə qoymurlar. Burada davada olmamış çox az adam tapılır. Qocasından tutmuş uşaqlarına kimi tüfəng alıb müdafiəyə çıxmışlar. Az adam tapılır ki, güllə yeməmiş olsun".

M.Ə.Rəsulzadə 1909-cu ilin mayında Təbrizdəki Osmanlı imperatorluğu konsulxanasında Səttarxan ilə görüşü barədə Bakıya maraqlı bir teleqraf çəkmişdi. Bu teleqrafda sərdari-millinin siyasi və mənəvi baxımdan gözəl portreti yaradılıb. O yazırdı: "Bütün İranı təmin yolunda tamam dünyaca şöhrət qazanmış olan, bu qəhrəmani-millinin ziyarətinə nail oldum... Sərdarın zahirini tərif etmək, məncə, əbəsdir. Zira bu surəti-benami tanımayan bir nəfər tarılmaz. Fotoqraf o əksi-millini eynilə bütün aləmə nəşr etmiş və hər bir kəsə tanıtdırmışdır. Sərdar qayətdə qanı isti bir adam, hərəkəti xeyli cəlddir, danışığı çox ciddidir. Məşrutərərəstliyi din dərəcəsində qəvidir. Bu adam məşrutə tərəfdarı olmaqda fanatizm ediyor".

M.Ə.Rəsulzadə qeyd edir ki, ruslar Təbrizə daxil olduqda Səttarxan Təbrizdəki rus konsulluğuna gedib tələb etmişdi ki, ruslar ölkənin daxili işlərinə müdaxilə etməsinlər. Lakin İran hökumətinin biganəliyi ucbatından bunun qarşısı alınmadıqda sərdari-milli Osmanlı konsulluğuna üz tutub Dövləti Aliyeyi Osmaniyyətin himayəsinə sığınır. Rəsulzadə bunun səbəbini soruşduqda Səttarxan cavabında bildirir: "Mən artıq istərdim ki, bizim millət Osmanlı ilə yaxınlaşsın". Bu xəbər İstanbula çatdıqda Osmanlı imperatorluğu Xarici İşlər Nazirliyi elan etmişdi ki, "Baydağı-Osmaniyyə təhtinə sığınanlar lazımınca himayə olunmalıdırlar". M.Ə.Rəsulzadənin fikrincə, belə ideyanın meydana çıxması Səttarxan hərəkatının ciddi yekunlarından biri idi.

Səttarxan hərəkatı ilə bağlı digər bir ciddi nəticəni M.Ə.Rəsulzadə sərdari-milli ilə görüş zamanı onun öz dilindən

belə verir: "Artıq bizim vəzifəmiz bitdi. Bizimki əsgərlik idi. Vəzifəmiz kőhnəni yıxmaq və dağıtmaq idi... İndi tikmək zamanı gəlmişdir. Bunun űçűn başqa qűvvələr, yəni alimlər və műtəqənninlər lazımdır".

Səttarxanla bağlı məsələlərə M.Ə.Rəsulzadə bir də 1914-cű ilin noyabrında Sərdarın vəfatı műnasibətilə yazdığı həzin bir yazıda toxunur. Təəssűf hissi ilə qeyd edir ki, bir vaxtlar Avropa qəzetlərinin "İran Haribaldisi" adlandırdığı Səttar xan son vaxtlar unudulmuşdu. M.Ə.Rəsulzadə haqlı olaraq Səttarxanın cismən 1914-cű ildə vəfatına baxmayaraq, onun 1910-cu ildə Atabəy parkında baş verən bir atışmada őldűrűldűyűnű yazırdı. Həmin il avqustun 7-də Tehranın Atabəy parkında Təbriz műcahidlərinə hűcum edilmişdi və Səttarxan ayağından yara almışdı. Bununla belə, M.Ə.Rəsulzadə belə hesab edirdi ki, millətin bətnindən yetişmiş olan bu qəhrəman hər nə qədər avamlığı cəhətindən onun-bunun intriqalarına qurban olurdusa da, fitrətən bir çox məziyyətlərə malik idi.

M.Ə.Rəsulzadə Səttarxanın şőhrəti ilə məğlubiyyətini onun yetişdiyi műhit və o műhitin əsirinə çevrilmiş siyasi və ictimai şərtlərlə əlaqələndirirdi. İran məşrutiyyəti təkaműl edə bilmədiyindən onun qəhrəmanları da belə bir faciəvi sonluğa məhkum idilər. Lakin bununla belə, M.Ə.Rəsulzadə haqlı olaraq bu qənaətə gəlirdi ki, İranda yeniləşmə Səttarxanın adı ilə bağlıdır və Səttarxan İranda tarixi yeniləşmənin unudulmaz bir simasıdır.

1905-07-ci illərin rus inqilabı ağır məğlubiyyətlə nəticələnsə də, artıq, o, őz işini gőrműşdű. Cəmiyyət yeniləşmiş, ictimai fikir dəyişmiş, milli hűquqlar anlayışı siyasi műzakirələrə daxil olmuşdu. Bűtővlűkdə bu prosesin təhlili Azərbaycanda yeni bir mərhələnin başlandığını deməyə əsas verir. M.Ə.Rəsulzadənin fikrincə, bu, milli mədəni hərəkatdan milli hűquqlar uğrunda siyasi műbarizəyə keçid mərhələsi idi. Bu

ideya tək mübarizənin forma və metodlarının dəyişməsiylə bağlı olmayıb, eyni zamanda nəsillərin dəyişməsiylə bağlı məsələ idi. Mirzə Fətəliləri, Həsən bəyləri, Qaspralı İsmayıl Mirzələri əvəz edən yeni nəsil Topçubaşlar, Hüseynzadələr, Ağaoğlular tək forma etibarilə deyil, fikir və düşüncə, bu fikir və düşüncənin siyasi müstəvidə yozumu etibarilə də adlarını zikr etdiyimiz böyük mirzələrdən xeyli qabağa getmişdilər. Məhz bu böyük əməlpərvərlərin apardığı milli dava, milli hüquqlar uğrunda mübarizə tanınmış mütəfəkkir C.Əfqaninin "Milliyyət xaricində səadət yoxdur" fəlsəfəsini açıq-aydın ortaya qoymuşdu. Lakin bu, hüquqlar uğrunda dava idi, millət olmaq həqiqətini siyasi səhnəyə qoymaq idi, fəqət milli istiqlal məfkurəsi deyildi. Bu məfkurəni az sonra biz M.Ə.Rəsulzadənin "Milli dirilik" silsiləsində görəcəyik. Həm də bütün tərəfləri ilə.

Birinci rus inqilabının məğlubiyyəti bütün imperiyaya, o cümlədən Qafqaza da ağır bədbinlik gətirdi. Ə.M.Topçubaşov və İ.Ziyadxanov "Vıborq bəyannaməsi"ni imzaladıqlarından Peterburqda "Kresti" həbsxanasının mötəbər qonaqları idi. 1907-ci ilin sonunda Azərbaycanın qoca maarif mücahidi və cəmiyyətin dərdinə dərman olan ürfan toxumu səpmiş, qələmin müqəddəs vəzifəsini millətə xidmətdə görən Həsən bəy Zərdabi vəfat etdi. 1908-ci ildə M.Ə.Rəsulzadə İrana, 1909-cu ildə Ə.Ağaoğlu, 1910-cu ildə Ə.Hüseynzadə Türkiyəyə getdilər. 1905-07-ci illərin ılıq inqilab havası yenidən despotizmin dumanına bürünməyə başladı. Mirzə Bala Məmmədzadənin təbirincə desək, Rusiyada orta əsr despotizmi yenidən xortladı. Bu qara kabus nəinki Rusiyada, onun cənubu olan Qafqazda hürriyyəti və hürriyyətsevərliyi boğmağa başladı, eyni zamanda İranda da irtica və istibdadı qanadı altına aldı. Rusların İrandakı təqibləri M.Ə.Rəsulzadənin, onunla birlikdə S.H.Tağızadənin də Osmanlılıqdan və ittihadi İslamdan türk milliyyətçiliyinə keçid dövrünü

yaşayan Türkiyəyə mühacirəti ilə nəticə-ləndi.

Böyük ideyaların və həmin ideyalara bərabər əməllərin daşıyıcısı olan böyük şəxsiyyətlərin mühacirəti Azərbaycanda görünməmiş bir siyasi boşluq yaratdı. Bu boşluq o qədər böyük idi ki, həmin dövrün mətbuatı cəmiyyəti işıqlandıran adamların mühacirətindən sonra Qafqazda yenidən qaranlıq bir mühitin başladığından, maarifdən yetim qalan Qafqaz türklərinin çırağının söndüyündən yazırdılar. Qəzetlərin dediyi kimi, onlar lalların dili, karların qulağı, korların gözü idilər. Məcazi mənada desək, xırda istisnalarla bu lal, kar və kor olan siyasi mühit 1913-cü ildə M.Ə.Rəsulzadənin Bakıya dönüşünə qədər davam etdi.

İstər İran və xüsusilə Türkiyə mühacirəti dövründə biz M.Ə.Rəsulzadənin siyasi baxışlarının sürətli inkişafının, güclü təkamülünün şahidi oluruq. İran mühacirəti dövründəki müşahidələri onun İstanbulda "İran türkləri" silsiləsi ilə nəticələndi. Bu məqalələrin milli qayəsi və siyasi məzmunu belə bir fikir söyləməyə əsas verir ki, M.Ə.Rəsulzadə ilk müəlliflərdən idi ki, İran türkləri və onların aparıcı hissəsi olan Cənubi Azərbaycan türkləri problemini siyasi müstəviyə çıxarmışdı. Əslində M.Ə.Rəsulzadənin "İran türkləri" adı altında nəşr olunan altı məqaləsi nəinki o dövr üçün, eyni zamanda indinin özündə də Cənubi Azərbaycan haqqında ictimai-siyasi məzmuna malik ciddi tarixi elmi araşdırma kimi qiymətini saxlayır. Burada Azərbaycanın tarixi, coğrafiyası, ədəbiyyatı və mədəniyyəti haqqında ilk baxışda publisistik düşüncə kimi yozula bilən çox maraqlı elmi mülahizələr var. Məsələn, M.Ə.Rəsulzadə "İran türkləri"ndə bu gün bilərəkdən, yaxud bilməyərəkdən üstündən sükutla keçilən belə bir fikir söyləmişdi ki, İranda türklər nə Rusiyada olduğu kimi məhkum və nə də Türkiyədə olduğu kimi hakim bir millətdirlər.

M.Ə.Rəsulzadə haqlı olaraq cüzi miqdarda türkmənlərdən

başqa İran türklərinin əsasını təşkil edən azərbaycanlılar arasında milli ideyanın zəif olmasını din amili ilə aləqələndirir. Onun fikrincə, şiəlik İran türklərini o qədər farslaşdırıb ki, indi onlar özlərini türkləşmiş fars, yəni əslən iranlı hesab edirlər. XX yüzilliyin əvvəllərində gedən tarixi prosesin öyrənilməsi belə bir fikir söyləməyə əsas verir ki, Azərbaycanda dini və milli ideyaların hüdudları düzgün müəyyənləşdirilməlidir. Bu və ya digər dərəcədə dini və milli hüdudların pozulması, uzun müddət toplumun müdafiəsində mühüm rol oynamış islamın millət mərhələsində milli ideyaların formalaşmasına qarşı mühafizəkar mövqeyə yuvarlandığının şahidi oluruq. Yüz ilə yaxındır ki, Arazın hər iki tərəfində islamçılıq ictimai baxışlar sistemində millətçiliyə, daha dəqiq desək, türkçülüyə açıq və gizli formada dirəniş göstərir. Bunun əksinə olaraq millətçilik və onun təzahürü kimi türkçülük eyni zamanda sağlam və salim islamçılığın, etibarlı və etimadlı islam inancının mühüm şərtidir. Cənubi Azərbaycanda gedən proseslərdə bu amil hökmən nəzərə alınmalıdır. Əslində M.Ə.Rəsulzadə türk sülaləsi olan Qacarların məğlubiyyətini düzgün olaraq millətçilik əsrinin tələblərini anlamamaqları ilə izah edir. Dünyanın millətləşdiyi dövrdə Qacar xanədanının son şahları özlərinə milli sosial dayaqlar hazırlamaq zərurətini anlamadılar. Hökmdarların türklüyünə rəğmən dil, mərasim və idarəçiliyin bütövlükdə fars ənənələrinə söykənməsi, M.Ə.Rəsulzadənin yazdığı kimi, beş yüz ildən bəri şahlıq taxtında bir türk xanı otursa da, gərək bu xanlar, gərəksə türk əhalisi iranlılaşmış, yəni farslar tərəfindən assimilyasiya olunmuşdur.

M.Ə.Rəsulzadənin "İran türkləri" araşdırmasında Azərbaycanın mərkəzi şəhəri olan Təbrizin İranın və eləcə də Yaxın Şərqin ictimai-siyasi həyatında roluna aid maraqlı məqamlar var. O yazır ki, Fransa inqilabında Marsel, Osmanlı inqilabında Salonik nə isə İran inqilabında da Təbriz odur. Azəri

türklərindən təşəkkül edən hürriyyət mücahidləri bütün İran zülmət-pəsəndanına qarşı mərdanə köks gərmişlər. Təbrizin üstün rolunu M.Ə.Rəsulzadə onun bir tərəfdən Rusiyaya, digər tərəfdən Türkiyəyə həm coğrafi, həm də siyasi mənada yaxın olması ilə izah edir.

M.Ə.Rəsulzadənin "İran türkləri" silsiləsindən beşinci yazısı onların ədəbiyyatından bəhs edir. İran mühitində xüsusilə ədəbiyyatda farscanın üstün bir dil olduğu şəraitdə türk dilində yaradılmış ədəbi nümunələrin, hətta dini mövzuda belə olmuş olsa, geniş tədqiqata cəlb edilməsi Rəsulzadənin mühüm xidməti idi. Bu istiqamətdə M.Ə.Rəsulzadə birincilərdən idi. O, tarixin bu qəribəliyini təəccüb və istehzayla izhar edirdi ki, türkcə danışılır, türkcə nitq edilir, türkcə vəəzlər söylənir, fəqət yazıya gəlincə, həp farsi kəsilir. Bununla belə, yazma və oxumanın bütövlükdə fars dilinin inhisarında olmasına baxmayaraq, türkcə danışan, türkcə düşünən böyük bir kütləni milli bir ədəbiyyatdan məhrum edə bilməzdi və edə bilməmişdi də. Yüz ilə yaxın bir vaxt keçməsinə baxmayaraq, bu məsələdə İran M.Ə.Rəsulzadənin yazdığından elə də qabağa getməyib.

İran türkləri probleminə M.Ə.Rəsulzadə ilk müəllif idi ki, küll halında yanaşırdı. Metodoloji baxımdan doğru olaraq o, Şahsevənlərə Azərbaycan türklərinin bir hissəsi kimi yanaşırsa, Qaşqay türklərinə ayrı bir məqalə həsr etmişdir. M.Ə.Rəsulzadənin qaşqay türkləri haqqında yazısı İran türkləri içərisində bu türk toplumunun tarixi, mədəniyyəti, adət və ənənəsi haqqında ilk yetərli sözdür. O yazır: "Qaşqayların ana dili türkcədir, öz aralarında türkcə danışırlar. Şirazda türk adı ilə məşhurdurlar. Bu yazı Qaşqay türklərinin etnoqrafiyasının öyrənilməsi baxımından müstəsna dərəcədə əhəmiyyətlidir".

Bütövlükdə M.Ə.Rəsulzadənin "İran türkləri" adlı silsilə məqalələri Azərbaycan, İran və ümumtürk tarixinin öyrənilməsi baxımından bu gün də əhəmiyyətini saxlayan qiymətli

elmi araşdırmadır.

1913-cü ilin fevralında Rusiya imperiyası Romanovların hakimiyyətə gəlməsinin 300 illliyini böyük təntənə ilə qeyd etdi. İmperiyanın hər yerini, ən uzaq ucqarlarını belə bayram əhval-ruhiyyəsi bürümüşdü. Rusiyanın bütün böyük şəhərlərində, quberniya mərkəzlərində bayram mərasimləri keçirilir, əlahəzrət imperatora dualar edilirdi. Bütün bu təmtəraq 1911-ci ilin 5 sentyabrında imperator İİ Nikolayla birlikdə Kiyevə İİ Aleksandrın abidəsinin açılışına gəlmiş P.A.Stolıpin öldürülməsindən sonra başlanmış irtica və repressiyalar fonunda ilk yumşalma idi.

Tarixin qəribə istehzası idi ki, Romanovların 300 illik səltənətinin bayram edilməsinin hazırlığı və keçirilməsi qatı monarxist, Duma institutunun qatı əleyhdarı və ölkənin hər yerində "vətən xaini" axtarışına çıxmış daxili işlər naziri Nikolay Maklakova tapşırılmışdı. Məhz Maklakovun iradəsinə zidd olaraq onun təqdimatı ilə imperator İİ Nikolay babalarının taxta əyləşməsinin 300 illiyi münasibətilə bir sıra siyasi məhbusların azad edilməsi və siyasi əqidəsinə görə ölkədən çıxmış mühacirlərin vətənə qayıtması barədə əfv fərmanı imzaladı. Bu fərmandan yararlananlardan biri də M.Ə.Rəsulzadə oldu. O, 1913-cü ilin aprelində Bakıya döndü və özü ilə yeni ab-hava gətirdi.

İran və Türkiyədəki mühacirət həyatı M.Ə.Rəsulzadənin baxışlar sisteminin formalaşmasında mühüm rol oynamışdı. O, İranda Avropa üsulu ilə nəşr olunan ilk qəzetin - "İran-i nov"un müdiri və baş redaktoru olmuş, Seyid Həsən Tağızadə ilə birlikdə "İran Demokrat Partiyası"nın ideologiyasını hazırlamışdı. Türkiyə mühacirəti dövründə "Türk ocağı"ndakı təcrübə, "Türk yurdu"ndakı yazılar, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Z.Gökalp kimi böyük türkçülərlə birgə fəaliyyət onun bir lider kimi kamilləşməsində, peşəkar bir inqilabçı kimi yetişməsində

faydalı addımlar olmuşdu. Sonralar Ziya Gőkalpın vəfatı műnasibətilə yazdığı məqalədə M.Ə.Rəsulzadə őzű bu dővrű belə səciyyələndirirdi: "Mərhumun (Ziya Gőkalpın) "Tűrk yurdu"nda dərc olunan "Tűrkləşmək, islamlaşmaq və műasirləşmək" məqalələri məni adətən vəcdə gətirirdi. Bakıya geri dőndűm. Mətbuat dil məsələsi ilə məşğul idi. Bu məsələdə Ziya nəzəriyyəsinin műdafiəçisi oldum".

Doğrudan da M.Ə.Rəsulzadənin Bakıya dőnűşűnű izləsək, 1913-cű ilin yayında onun "Şəlalə" jurnalında "Asan dil - yeni dil", "Yeni dilçilər və Tűrkçűlər", "Dil ictimai műhűm bir amil kimi" maraqlı yazılarının şahidi olarıq. Adı zikr olunan sonuncu məqaləsində o yazırdı: "Bir millətin həyatında maddətən və mənən bu qədər bir əhəmiyyətə malik olan dili biz – Azərbaycan tűrkləri vaxtilə unutmaq űzrə idik. Tamamilə farslaşdığımız bir zamanlar var idi. Tűrk ədəbiyyatı bilməzdik. Tűrkcə əvama məxsus bir dil ədd olunur, xass farsı və ərəbi bilməsiylə fəxr edərdi. Sonra Fűzuli əleyhirrəhmənin təsiri-fəyyazi təhtində yetişən bir çox azərbaycanlı tűrk şairləri bu təhlűkəli missiyanın őnűnű aldılar, "yaman-yaxşı" bir ədəbiyyat vűcuda gətirdilər".

M.Ə.Rəsulzadə bu yazılarında Azərbaycan ictimai və mədəni həyatı űçűn zəruri olan bir həqiqəti ortaya qoydu ki, millətin millət kimi formalaşması űçűn danışıq dili ilə yazı dili arasındakı fərq aradan gőtűrűlməlidir. O qeyd edirdi: "Dilimizi həqiqətən də millətimizin ruhu və onun vasiteyi-bəqası məqamında gőrmək istəyirsək və onu cəmiyyəti-milliyəmizdə ən műhűm bir ittihad və tərəqqi amili ədd edirsək, yazımız ilə danışığımız arasında olan fərqi azaltmalıyız".

Műhacirətdən dőndűkdən sonra "İqbal" qəzetində, "Şəlalə", "Bəsirət" və "Dirilik" məcmuələrində Azərbaycan tűrk millətinin varlığının elmi cəhətdən əsaslandırıldığını biz məhz M.Ə.Rəsulzadənin əsərlərində gőrűrűk. Bunlardan ən műhűmű

"Dirilik"də nəşr olunan "Milli dirilik" silsilə yazılarıdır. Bu silsilə məqalələrdə o, elmi cəhətdən əsaslandırdı ki, millət din birliyinə deyil, dil və mədəniyyət birliyinə dayanır, müsəlmanlıq millət deyil, ümmət anlayışı üzərində qurulmuş dini inanc və imandır.

"Milli dirilik" silsiləsi Azərbaycan ictimai fikir tarixində müəyyən bir mərhələyə yekun vurdu, yeni mərhələnin başlanğıcının əsasını qoydu. Milli istiqlal məfkurəsini bütün tərəfləri ilə M.Ə.Rəsulzadə "Milli dirilik"də əsaslandırdı. Bu silsilə M.Ə.Rəsulzadənin özünün ictimai bir xadim kimi formalaşmasının təsdiqidir. Rəsulzadə baxışlar sistemində "Milli dirilik" şəksiz bir zirvədir. Azərbaycanın gələcək inkişafının müəyyən edilməsi, milli azadlıq və müstəqillik ideyası ilk dəfə olaraq bu silsilədə qoyuldu. Bu, M.Ə.Rəsulzadənin uzun axtarışlarının, mühacirətdə qazandığı təcrübənin, həyatında baş verən təkamül prosesinin məntiqi nəticəsi idi. Milli dirilik ideyası qeyd edilən silsilədə yeddi məqalədə verilmişdir. Lakin bundan əlavə M.Ə.Rəsulzadənin bir giriş xarakterli yazısı da vardır ki, bu yazı da "Dirilik nədir?" adlanır və həmin yazıda əslində dirilik ideyasının mahiyyəti aydınlaşdırılır. İstər bu yazıda və istərsə də "Milli dirilik" silsiləsində söhbət fərdin deyil, millətin diriliyindən gedir.

M.Ə.Rəsulzadə dirilik anlayışına ümumdünya tarixi prosesinin tərkib hissəsi kimi yanaşır və millətlərin, xalqların diriliyə gedən yolunun heç də asan olmadığını göstərir. Haqlı olaraq o qeyd edir ki, dünyanın inkişaf etmiş millətləri öz milli azadlıqlarına qovuşmaq üçün ağır və üzücü bir yol keçiblər, cəhənnəm əzabını yaşayıblar. M.Ə.Rəsulzadənin təbirincə desək, həmin o qabaqcıl millətlər istədikləri kimi dirilə bilmək üçün ölümü qəbul ediblər. Yəni dirilik üçün ölüblər. Dirilik üçün ölmək: Azərbaycan dünyanın keçdiyi bu tarixi yolun astanasına gəlib çatmışdı. Həqiqətlərin ən böyüyü, ən vacibi bu idi və

M.Ə.Rəsulzadə birinci olaraq bunu tuta bilmiş, bu həqiqəti, bu reallığı anlaya bilmişdi.

M.Ə.Rəsulzadə ilk dəfə olaraq dirilik ideyasına Qərb-Şərq kontekstində yanaşmağın başlanğıcını qoydu. O, haqlı olaraq bu qənaətə gəlmişdi ki, avropalılar öz diriliklərini əldə etmək üçün böyük qurbanlar vermiş, dirilik üçün ölmüşlər. Bunun əksinə olaraq islam Şərqində yalqız olmaq üçün dirilirlər, Qərbin diriliyi bu dünyanın gerçəkliyinə söykəndiyi halda, Şərqin diriliyi o dünyanın axirətinə söykənirdi. Avropa milli diriliyi bu dünyada qovuşmaq üçün ölürdü, islam Şərqində fərd diriliyinə axirətdə qovuşmaq üçün ölürdü. Məsələ yaşadığın dünyada dirilik haqqı qazanmaqdan ibarət idi. Milli inkişafın çıxış nöqtəsini də Rəsulzadə məhz bunda görürdü. Qabaqcıl millətlər dirilik üçün öldükləri halda Şərqdə hələ ölmək üçün dirilirdilər. Məhz bu düşüncəni dəyişmək lazım idi.

M.Ə.Rəsulzadə dünyada mübarizənin hədəflərinin dəyişdiyini önə çəkərək yazırdı: hər hansı millət ki, təbiətə qarşı icra olunan müharibədə daha bacarıqlı və daha qüvvətlidir, o millət təbiətdən alınan qənimətdən də daha ziyadə istifadə edir. XX əsrin əvvəllərində təbiətdə baş verən inqilablar, elmi-texniki kəşflər cəmiyyətdəki dəyişikliklərin mühüm amilinə çevrilmişdi. Doğrudan da o millətlər XX əsrdə böyük tərəqqiyə nail oldular ki, onlar ayrı-ayrı dövlətlərlə deyil, təbiətlə savaşda böyük qələbələr əldə etdilər. XX əsrin inkişafı bütövlükdə müstəvini dəyişdi, elmi inqilabda böyük rolu olan diri millətlər özlərinə hər kəsdən daha çox pay əldə etdilər.

M.Ə.Rəsulzadə cəmiyyətdə və təbiətdə baş verən təbəddülatları belə ümumiləşdirirdi: məncə, ümumbəşəri mədəniyyət millətlərin zəhmətlərindən hasil olan bir yekundur. Hər millət öz iqtidar və öz istiqlalı sayəsində, yəni öz diriliyi ilə özünə xüsusi, xüsusi olduğu qədər də qiymətli bəzi şeylər əlavə edirlər ki, bir millətin ölməsi və yaxud ölgün fikirlərlə

yaşaması yalnız özünün bədbəxtliyi deyil, bəşəriyyətin də böyük bir nöqsanını təşkil edir. Yalnız 50 ildən sonra bu həqiqətlər dünya düzənində təsbit edilməyə başlandı.

M.Ə.Rəsulzadənin fikrincə, biz ona görə başqalarının əsiri olduq ki, islam aləmi və islam millətləri dinimizin sağlam əmrlərindən çox uzaqlaşaraq dünya diriliyinə qəribə bir nəzərlə baxmağa başladı. Dünyanın bir qara qəpiyə dəymədiyi, beş günlük dünyanın müvəqqəti bir karvansaradan ibarət olması haqqında fikirləri Rəsulzadə ziyanlı hesab edirdi. Diriliyin ölmək, ruhən və cismən qüvvətli olmaqdan keçdiyini əsas tutaraq, o belə hesab edirdi ki, diriliyi sevmək lazımdır. Məhz diriliyi sevən millətlər haqlarına yetişdilər. Dirilik nədir? Bu suala Rəsulzadə belə cavab verir: dirilik dünyanı sevməkdən, öz hüquq və namusunu mühafizə edə biləcək qədər qüvvətli olmaqdan ibarətdir. Ən nəhayət, M.Ə.Rəsulzadə belə bir həqiqəti ortaya qoydu ki, diriliklərin ən qiymətlisi milli dirilikdir.

1914-cü ilin payızından başlayaraq M.Ə.Rəsulzadə üç ay ərzində milli dirilik problemini işlədi. Milli istiqlal məfkurəsini, o, elmi və nəzəri cəhətdən məhz bu silsilədə əsaslandırdı. Bütövlükdə "Milli dirilik" M.Ə.Rəsulzadənin yaradıcılığında zirvə sayılacaq əsərlərdəndir. Bu yazıda hər millətin keçdiyi tarixi yola uyğun bir sıra özünəməxsus keyfiyyətlər əldə etdiyini, hər millətin bir şeydə mahir olduğunu göstərirdi. Avropa xalqlarının mədəniyyətini təhlil edərək M.Ə.Rəsulzadə belə qənaətə gəlirdi ki, almanların sənətdə, fransızların zərafətdə, ingilislərin gəmiçilikdə, belçikalıların ictimai təşkilatda, italyanların musiqidə şöhrət qazanmaları məhz onların keçdiyi tarixi-mədəni proseslə bağlıdır. Millətlərin özünəməxsusluğunu M.Ə.Rəsulzadə, ilk növbədə, onların istiqlalı ilə əlaqələndirir. Onun təbirincə, alman milləti öz istiqlalını təmin etməsəydi, öz mədəniyyətini mühafizə etməsəydi, bəşəriyyət Şopenhaur, Fixte, Höte, Faust, Qutenberq və Lüter kimi dühaları

gőrməyəcəkdi. Eyni ilə fransız xalqı őz kimliyini itirsəydi, bəşəriyyət Jan Jak Russo, Didro, Monteskye, Viktor Hűqo və Valter kimi qəhrəmanları da itirməli olacaqdı. İtaliyada milliyyətini anlamayıb başqa bir millət tərəfindən udulsaydı, indi nə bəşəriyyəti heyrətə salan heykəllər var idi, nə də Mikelancelo kimi heykəltaraşlar. M.Ə.Rəsulzadə haqlı olaraq məsələni belə qoyurdu ki, Rusiyanın istiqlalı olmasaydı, yəqin ki, Puşkin, Lermontov, Dostoyevski, Tolstoy, Şalyapin və digərləri olmayacaqdı. Rusiyada və Avropada gedən milli prosesin, milli kimliyin qorunması uğrunda műbarizənin əhəmiyyətini dəyərləndirərək, o, belə qənaətə gəlirdi ki, daha műqtədir sənətkarlar őz kimliyini műhafizə etmiş millətlər arasından çıxır. Bu baxımdan M.Ə.Rəsulzadə milli kimlik məsələsinə bőyűk əhəmiyyət verirdi. O, belə hesab edirdi ki, assimilyasiya edilmiş xalq nə assimlə edən millətə bir şey verə bilməz, nə də őzű bőyűk ideallara sahib çıxa bilməz. Bir rus qəlbinin, rus vicdanının tərcűmanı ola bilmək űçűn ruslar kimi dűşűnmək, onlar kimi həmin həyatın incəliklərini duymaq lazımdır. O yazırdı: Bunun űçűn rus olmaq, rus yaşamaq və rusları olduqca bilmək gərəkdir. Halbuki ruslaşmış bir műsəlman balası, yaxud assimlə edilmiş bir erməni dığası və ya dőndərilmiş bir yəhudi ővladı nə qədər őzlűyűndən uzaqlaşmış olsa da, yenə bőylə bir rus ola bilməz. Őzlűyűndən çıxarılıb başqa bir milliyyətə assimlə etdirilən şəxs assimlə edən műhitə bőyűk bir fayda verə bilmədiyi kimi, əslində mənsub olan műhitə də bőyűk bir fayda yetirə bilməz. Bu problem XX əsrin əvvəllərində çox bőyűk műzakirəyə səbəb olmuş bir məsələ idi. Rusca, farsca, ərəbcə və hətta Avropa dillərində təhsil alıb milli işlərdən kənarda qalan, daha dəqiq desək, kimliklərini unudub milli dűşűncəyə laqeyd yanaşanlar elə də az deyildilər. M.Ə.Rəsulzadə belə hesab edirdi ki, bu şəxslər ancaq o halda őz millətlərinə fayda verə bilər ki, az-çox tűrkcə savadları olsun və őz millətlərinin

nə olduğunu anlasınlar.

M.Ə.Rəsulzadə ən zəif istiqlalı ən güclü asılılıqdan daha üstün tuturdu. Misal olaraq, o, İrana nəzər yetirirdi və qeyd edirdi ki, bu gün İranı "xilas" etmək üçün əlindəki istiqlal kölgəsindən də məhrum edib başqa mütərəqqi bir millətin idarəsinə versəniz, ehtimal ki, Ənzəli bir neçə ilin içində Bakıya meydan oxuyacaq, Bəndər də Bombeydən geri qalmayacaq. Fəqət belə tərəqqinin müqabilində İran bir daha nə Firdovsi, nə Sədi, nə də Hafiz yetirəcəkdir. Azərbaycanı öz ətrafı ilə müqayisə edərək M.Ə.Rəsulzadə qeyd edirdi ki, maddi baxımdan biz İrandan, Osmanlıdan, Misirdən və digərlərindən irəlidə olsaq da, elmi ixtiralar və kəşflər sahəsində nə bir ismimiz var, nə də rəsmimiz. Halbuki, İranın heç olmasa "Mahmudiyyə" adında bir ulduz kəşf edən Mahmud xanı var. Türkiyə doktor Münir Paşaya, Tofiq Fikrət, Əbdülhəqq Namid kimi böyük şairlərə malik olduğu üçün öz istiqlali-millisinə borcludur. Ona görə M.Ə.Rəsulzadə millətin maddi olaraq tərəqqi edib mənəvi olaraq asılı qalmağındansa, əksinə, maddi cəhətdən gec tərəqqi edib mənəviyyatca müstəqil olmağına üstünlük verirdi. O yazırdı: "Başqalarını assimlə üçün deyil, öz mənliyini mühafizə üçün çalışan millətpərəstlik mədəniyyətibəşəriyyə naminə təqdir və təsdiq olunmalı zəruri və faydalı böyük bir fikirdir".

M.Ə.Rəsulzadə belə hesab edirdi ki, millətpərəstliyin və milli diriliyin nə olduğunu bilmək üçün ilk növbədə millətin nə olduğunu öyrənmək lazımdır. Əslində məsələnin belə qoyuluşu ona görə zəruri idi ki, nəinki Azərbaycanda, eləcə də bütün Şərqdə milləti "müsəlmanlıq" kimi anlayır, ümmət kəlməsi ilə millət kəlməsi arasında ayrıntılara fərq qoymurdular. Halbuki, M.Ə.Rəsulzadə doğru olaraq bu nəticəyə gəlirdi ki, xristian milləti olmadığı kimi, müsəlman milləti də yoxdur. Millət həmdinliliyə deyil, həmdilliyə söykənən cəmiyyəti

özündə ehtiva edir. Lakin bununla da bitmir. Xalqların keçdiyi tarixi yolu ümumiləşdirərək M.Ə.Rəsulzadə mütərəqqi millətlərin qövmiyyət və milliyyət mərhələsindən keçərək millət olduqlarını önə çəkirdi. Qövmiyyət yalnız nəsil və dil birliyinə, milliyyət dil və mədəniyyət birliyinə söykəndiyi halda, millət mədəniyyət və milli diriliyə qovuşmaqdan keçir. M.Ə.Rəsulzadəyə görə, millət dil birliyi, adət və əxlaq birliyi, tarixi ənənə və dini etiqad birliklərinin məcmusundan meydana gələn ictimai bir varlıqdır. Bütün bunlarla yanaşı, millətin müəyyən olunmasında aparıcı rol onun fikrincə, dil amilinə bağlıdır. Dil millətin varlığıdır, onun zahiri və batinidir deyən M.Ə.Rəsulzadə millətləri bir-birindən ayıran ən böyük əlamət dildir fikrinə tapınmışdır. Tarixi ənənə qırıla bilir, din diyişilə bilir, necə ki, tarixdə bir çox xalqlar dinlərini dəyişmişlər. Fəqət dəyişməyən dildir. Bununla yanaşı, M.Ə.Rəsulzadə onu da əhəmiyyətli hesab edirdi ki, dil ilə yanaşı, din birliyinin mövcudluğu xalqların inkişafını sürətləndirən mühüm amildir. Amma təyinedici deyildir. Vaxtilə din birliyinə üstünlük verildiyindən ictimai həyatın maarif, mətbuat, teatr, opera və s. ilə bağlı yenilikləri müsəlman adı altında tanıdılırdı. Məhz milli kimliyin yetərincə dərk edilməməsinin nəticəsi idi ki, Azərbaycan türklərini "tatar", "persiyan" və s. kəlmələrlə adlandırmağa cəhdlər olurdu. M.Ə.Rəsulzadə bunu onunla izah edirdi ki, müsəlmanlığın ibtidai təsirindən gələrək biz özümüzü müsəlman adlandırdığımızdan əsl milliyyətimizin ünvanını təşkil edən türklüyə əhəmiyyət verməmişik.

Milli vicdan ilə milli imanın milli dirilikdəki əməl və arzu üzərində qurulması milli idealı və ya milli məfkurəni formalaşdırır. Hər bir millətin böyük əməl və arzuları onun milli vicdanını şərtləndirən mühüm amildir. M.Ə.Rəsulzadə "Milli dirilik"də belə bir həqiqəti ortaya qoydu ki, şəxsi maraqlar üzərində qurulan əməllər böyük ola bilməz. Lakin bir fərd öz mühiti-

nin faydasını düşünərək şəxsi üçün deyil, xalqı və milləti üçün bir əməl bəslərsə, buna böyük əməl demək olar, bu kimi adamlara da böyük əməlpərvərlər, yaxud məfkurəçi adını vermək olar. M.Ə.Rəsulzadə ruslarda Böyük Pyotru, Lomonosovu, fransızlarda Jan Jak Russonu, Napoleonu, almanlarda Lüteri, Bismarkı, Osmanlılarda Sultan Məhəmməd Fatehi, Midhəd Paşanı, iranlılarda Nadir şahı, Firdovsini, əfqanlarda Əmir Əbdürrəhman xanı belə əməlpərvərlərdən hesab edirdi.

M.Ə.Rəsulzadənin böyük əməl sahibi olmaq barədə fikirləri bu gün Azərbaycan cəmiyyəti üçün öyrənilməsinə ciddi ehtiyac duyulan ideya istiqamətidir. Böyük əməlpərvərlərdən məhrum olan millət müstəqil və sağlam bir vücud üzü görməz və başqalarının ayaqları altında tələf olub gedər. Kimlərdir böyük əməlpərvərlər? Bu suala M.Ə.Rəsulzadə belə cavab verir: "Öz şəxsi məqsədi xaricində mühitinin ehtiyacı ilə məşğul olan, onun səadəti naminə əməl bəsləyən və o əməllərə öz şəxsi əməlləri kimi xidmət edənlər həmən böyük əməlpərvərlərdəndirlər". M.Ə.Rəsulzadə özü Azərbaycanın taleyində əbədi iz qoyan böyük əməlpərlərdən idi. Belə əməlpərvərlərə, şəxsi maraq və mənafeyini millətin maraqlarına təslim edən böyük əməl sahiblərinə bu gün Azərbaycan, sözün həqiqi mənasında, daha çox möhtacdır.

M.Ə.Rəsulzadə "Milli dirilik"i yazanda artıq dünya müharibəsi başlanmışdı. Bu silsilədə irəli sürülən ideyalar müharibənin nəticələri ilə bilavasitə bağlı idi. Məhz M.Ə.Rəsulzadə dünya müharibəsində atılan topların böyük imperiyaları silkələyəcəyini ilk duyanlardan idi. 1915-ci ildə nəşrə başlayan "Açıq söz" ilk nömrəsində M.Ə.Rəsulzadənin "Dünyanın xəritəsi hərbdə dəyişəcək" uzaqgörənliyini ictimai müzakirəyə gətirdi. Dünya qanlı səngərlərə böləndüyü, havalar barıt tüstüsündən dumanlandığı bir vaxtda o, 15 ilini yaşadığı əsrin xarakteri haqqında yazırdı: Dəhşətlərinə şahid olduğumuz bu yol bir

həqiqəti - əsrimizin milliyyət əsri olduğunu isbat etdi. Belə bir gerçəkliyin, dünya müharibəsinin dumanı içindən bəşəriyyətin inkişafının başlıca istiqamətini müəyyən etmək M.Ə.Rəsulzadənin böyük xidməti idi. XX əsrin böyük təbəddülatları, dünya xəritəsində baş verən dəyişikliklər, millətlərin öz kimliklərinə tapınması və tarixi prosesin gedişində öz milli haqlarına qovuşması M.Ə.Rəsulzadənin necə böyük bir ağla və geniş dünyagörüşə malik olduğunu təsdiqlədi. Bəs milliyyət əsrində M.Ə.Rəsulzadə Azərbaycan türklərinin gedəcəyi yolu necə təsəvvür edirdi? "Açıq söz"ün ilk nömrəsindəki "Tutduğumuz yol" məqaləsində o yazırdı: "Dilcə biz türkük, türklük milliyyətimizdir. Binaən-əleyh müstəqil türk ədəbiyyatı, türk sənəti, türk tarixi və türk mədəniyyətinə malikiyyətimiz məqsədimizdir. Parlaq bir türk mədəniyyəti isə ən müqəddəs qayeyi-amalımız, işıqlı yıldızımızdır". Əslində bu amal və həmin amalın yolunu işıqlandıran ulduz Azərbaycanın müstəqilliyinə doğru gediləcək yolu müəyyənləşdirirdi. "Açıq söz" özü, məcazi mənada desək, elə həmin parlaq ulduz idi ki, müstəqillik ideyasının formalaşmasında və inkişafında müstəsna rol oynadı. Azərbaycanda türk milli şüurunun ideya istiqaməti kimi meydana çıxması, milli kimliyi müəyyən edən başlıca baxışlar sisteminə çevrilməsi, heç şübhəsiz ki, "Açıq söz"lə bağlı idi. Rusiya imperatorluğunda türklərin, o cümlədən azərbaycanlıların dil, din, tarixi ənənə, əxlaq və mənəviyyat ayrıntılarına görə müstəqil milli bir mövcudluq olduğunu əsaslandırmaq "Açıq söz"ün başlıca qayəsi idi.

1917-ci ilin rus inqilabı M.Ə.Rəsulzadənin həyatında böyük dəyişikliklər etdi. İnqilabın ilk günlərindən biz onu coşqun hadisələrin içində görürük. Sovetlər Birliyi dağılandan sonra Moskvada nəşr edilən "1917-ci ilin siyasi xadimləri" ensiklopedik nəşrində onun çoxtərəfli fəaliyyətinə geniş yer verilməsi məhz bununla bağlı idi. İkinci rus inqilabı M.Ə.Rəsulzadəni

siyasi bir lider olaraq Ümumrusiya səhnəsinə çıxardı. 1917-ci ildə M.Ə.Rəsulzadə Rusiyanın dövlət quruluşu ilə bağlı elə böyük ideyanı ortaya qoydu ki, sistem dəyişikliyinə baxmayaraq, Rusiya hələ bu gün də "milli məhəlli muxtariyyətə" söykənən həmin ideyanın cazibəsindədir. 1917-ci il inqilabına münasibətdə bir çox rus liberalından və sosialistindən fərqli olaraq, M.Ə.Rəsulzadənin bəkləntiləri ancaq siniflərin azadlığından deyil, həm də millətlərin azadlığından idi. Onun fikrincə, 1917-ci il inqilabı məhkum siniflərə hürriyyət, məhkum millətlərə də muxtariyyət verəcəkdi. Rus inqilabının bütün məhdud cəhətlərinə, rus siyasi xadimlərinin imperiyanın hüdudlarına hədsiz sədaqətlərinə baxmayaraq, tarixi proses M.Ə.Rəsulzadənin bu böyük ideyasından yan keçə bilmədi.

1917-ci ilin yazında keçirilən iki müsəlman qurultayı M.Ə.Rəsulzadəni Rusiya türklərinin liderinə çevirdi. Həmin ilin 15-20 aprelində Qafqaz müsəlmanlarının Bakı qurultayı rus inqilabından azərbaycanlıların gözləntilərini ortaya qoydu. Azərbaycan siyasi və ictimai təşkilatlarından başqa, Şimali Qafqaz, Gürcüstan və İrəvan müsəlmanlarının çeşidli təşkilatlarını təmsil edən nümayəndələr qarşısında M.Ə.Rəsulzadə geniş məruzə ilə çıxış etdi. Rusiyanın dövlət quruluşu və xalqların hüquqları ilə bağlı məsələyə toxunaraq, o dedi: "Dövlətə daxil olan müxtəlif millətlərin möhkəm birliyini onların dövlət ittifaqı haqqında azad ifadə olunmuş arzusundan başqa heç bir qüvvə təmin edə bilməz". M.Ə.Rəsulzadənin məruzəsi əsasında qurultayın qəbul etdiyi qətnamədə göstərilirdi: "Federativ əsaslarla demokratik respublika Rusiya dövlət quruluşunun müsəlman xalqlarının mənafeyini ən yaxşı təmin edən forması kimi tanınsın. Rusiyada yaşayan digər xalqlara münasibətdə Bakı qurultayı qərara aldı ki, Rusiya dövlətinin bütün xalqlarına, o cümlədən Qafqaz xalqlarına münasibətdə demokratik prinsiplərə əsaslanan milli-siyasi ideallarını həyata keçirmək

cəhdləri hər vəchlə müdafiə olunmalıdır".

Bakı qurultayında M.Ə.Rəsulzadənin qaldırdığı digər mühüm məsələ müsəlman qadınlarının ictimai-siyasi proseslərə, milli azadlıq mübarizəsinə cəlb edilməsi ilə bağlı idi. O deyirdi: "Bütün digər xalqların qadınları kişilərlə bərabər ictimai-siyasi hərəkatda iştirak etdiyi və bununla da öz millətinin uğurlarına kömək etdiyi bir vaxtda müsəlman qadını dustaqlıqda qala bilməz və qalmamalıdır. Cins fərqinin aradan götürülməsi istiqamətində Bakı qurultayının qərarı bütün Rusiya inqilabının gedişində ilk siyasi sənəd idi.

1917-ci ilin Bakı qurultayı bütün Qafqaz türklərinin Rusiyanın siyasi həyatında iştirakını aktivləşdirməklə yanaşı, M.Ə.Rəsulzadənin də bir lider kimi siyasi proseslərin sövqünə yüksəldiyini təsdiq etdi. Biz bunu Bakı qurultayından az sonra, 1917-ci ilin mayında Rusiya müsəlmanlarının Moskva qurultayında daha qabarıq formada görürük. Moskva qurultayına həmin dövrün Ə.M.Topçubaşov, S.Arsal, J.Akçura, Z.V.Toğan, F.Kərimi, Ə.Salikov, M.Çokayev, S.Çanturin, Q.İshaki, R.İbrahim, F. Tuktarov, H.Atlasov və başqaları kimi çox tanınmış şəxsləri iştirak edirdi. Fəqət qurultayın parlaq ulduzu M.Ə.Rəsulzadə idi. Rus inqilabının ilk dövrlərində bir sıra müsəlman siyasi xadimləri rus dövlətinin ərazi federativ əsaslarla qurulmasının əleyhinə çıxırdılar. Onlar belə hesab edirdilər ki, ərazi federasiya prinsipi türk-müsəlman xalqlarını bir-birindən ayrı salar və aqrar məsələnin həllinə maneçilik törədər, müsəlman əhalisinin Ümumrusiya sosial qanunvericiliyindən kənarda qoyar. Bu qrupa daxil olan nümayəndələr milli-mədəni muxtariyyət ideyasına üstünlük verirdilər.

Moskva qurultayında ərazi muxtariyyəti ideyasının əsas müəllifi M.Ə.Rəsulzadə idi. O, belə hesab edirdi ki, mədəni muxtariyyət ideyası Rusiyanın türk xalqlarının gündən-günə artan milli özünüdərk prosesinə bütövlükdə cavab verə bilməz.

M.Ə.Rəsulzadə qurultaydakı məruzəsində sual edirdi: Millət nədir? Cavabında deyirdi: "Mən əminəm ki, millətin ən mühüm xüsusiyyətləri dil və tarixi əlaqələrdən, adət və ənənələrin ümumiliyindən ibarətdir. Bəzən deyirlər ki, islam millətin təcəssümüdür, çünki türk-tatardan milləti soruşduqda o, "mən müsəlmanam" deyə cavab verir. Lakin, bu, səhv baxışdır. Xristian milləti yoxdur və eləcə də islam milləti mövcud deyildir. Bu böyük müsəlman evində türklər və ərəblər üçün ayrı-ayrı otaqlar olmalıdır". Moskva qurultayında Rusiya imperiyasında türkçülük hərəkatının patriarxı Ə.M.Topçubaşovun sədrlik etdiyi iclasda ərazi muxtariyyəti ideyası ilə çıxış edən M.Ə.Rəsulzadə dedi: "Rusiyanın idarə forması demokratik respublika olmalıdır. Yer kürəsinin altıda birini tutan və Kamçatkadan Qara dənizə qədər və Arxangelskdən İranla sərhədə qədər uzanıb 170 milyon əhalisi olan çoxmillətli bir dövlət bir mərkəzdən idarə oluna bilməz. Ona görə də Rusiya dövlətinin idarə forması federasiya olmalıdır. M.Ə.Rəsulzadənin ideyası Moskva qurultayında böyük səs çoxluğu ilə 271 səsə qarşı 446 səslə qəbul olundu. Qurultay qərara aldı ki, milli ərazi prinsipi ilə federativ əsasda qurulacaq demokratik respublika Rusiya dövlət quruluşunun müsəlman xalqlarının mənafeyini tam təmin edən ən yaxşı dövlət formasıdır. Milli tariximiz üçün son dərəcə əhəmiyyətli olan Moskva qurultayının materiallarının Azərbaycanda nəşr olunmasına böyük ehtiyac var. Xatırlatmağa dəyər ki, bu materialları 1990-cı ildə Ankarada İhsan İlqar artıq nəşr etdirmişdir. Məhz bu tutanaklarda Azərbaycan nümayəndələrinin, o cümlədən M.Ə.Rəsulzadənin qurultayın işinə necə böyük təsir göstərdiyi, onun qərarların qəbul olunmasında necə böyük rol oynadığı aydınlaşır. Mirzə Bala Məmmədzadə sonralar M.Ə.Rəsulzadənin Moskva qurultayındakı fəaliyyətini belə xarakterizə edirdi: 1917-ci ilin mayında Moskvada toplanan Rusiya türklərinin böyük konqresində Rəsulzadə "milli

dővlət" tezisini hərarət, israr, qűvvət və művəffəqiyyətlə műdafiə etmiş və bu művəffəqiyyət onun şőhrətini bűtűn tűrklər arasında űmumiləşdirərək Rəsulzadəni bűtűn məhkum tűrklərin lideri etmişdi. 1917-ci ildə çarlıq reyiminin yerini tutacaq Rusiyanın gələcək idarə şəklini təyin edəcək Műəssislər Məclisinə Rəsulzdənin həm Azərbaycandan, həm də Tűrkűstandan xalq vəkili seçilməsi bu şőhrətin nəticəsi idi.

1917-ci ildə ikinci rus inqilabının ilk çağlarından başlayaraq, M.Ə.Rəsulzadə Rusiya tűrklərinin lideri olmaq missiyasını artıq őz űzərinə gőtűrműşdű. Birinci rus inqilabı dővrűndə həmin missiyanı Ə.M.Topçubaşov yerinə yetirirdi.

Çar Rusiyası Birinci dűnya műharibəsinin ağırlığına dőzə bilmədi. İkinci rus inqilabı imperiyanı tarixin arxivinə verdi. Qələbəyə doğru gedən Antantanın Şərq cəhbəsi dağıldı. Rusiya qalib dővlətlər içində məğlubiyyət ab-havasını yaşayırdı.

İmperiya dağılanda M.Ə.Rəsulzadə artıq bőyűk műbarizə məktəbi keçmiş, siyasi proseslərdə mətinləşmiş, Rusiyanın tűrk xalqlarına liderlik etmək missiyasını őz űzərinə gőtűrműş peşəkar bir inqilabçı, kamil bir siyasətçi idi.

İmperiya dağılanda M.Ə.Rəsulzadənin başçılıq etdiyi Műsavat Partiyası Cənubi Qafqazın ən gűclű siyasi təşkilatlarından biri kimi milli qűvvələrin və bűtővlűkdə millətin űmid yerinə çevrilmişdi. 1917-ci ildə Műsavat Partiyası Azərbaycan xalqının milli-azadlıq ideyalarının əsas carçısı, milli hərəkatın başlıca təşkilatçısı, milli műbarizənin qűdrətli siyasi qűvvəsi idi. M.Ə.Rəsulzadənin başçılığı ilə bu partiya 1917-ci ilin oktyabrında Bakı Sovetinə, həmin ilin noyabrında Rusiya Műəssislər Məclisinə keçirilən seçkilərdə bőyűk uğur qazandı.

Azərbaycanın İstiqlal Bəyannaməsinin elanı ərəfəsində biz M.Ə.Rəsulzadənin Zaqafqaziya seymi daxilində coşqun műbarizəsinin şahidi oluruq. Onun seym iclaslarındakı nitqləri, çıxışları, hesabatları təkcə Azərbaycan űçűn deyil, bűtűn Cənu-

bi Qafqaz üçün bu gün də öz siyasi dəyərini saxlayır. Zaqafqaziya seyminin kövrək olduğunu hiss edən M.Ə.Rəsulzadə düzgün olaraq belə bir fikri təlqin edirdi ki, Azərbaycan, ilk növbədə, öz gücünə arxayın olmalıdır. Çox keçmədi ki, onun bu fikri 1918-ci ilin mart hadisələrinin siyasi reallığında təsdiqləndi. Baş vermiş hadisələrdən ağır sarsıntı keçirən M.Ə.Rəsulzadə doğru olaraq qeyd edirdi ki, mart hadisələrindəki uğursuzluğun ən böyük səbəbi camaatımızın başsızlığı, o vaxta qədər tanıdığı camaat xadimlərinə deyil, qeyri-məsul adamlara, əqlindən ziyadə hissiyyatına tabe şəxslərə uyduğu olmuşdur. Mart hadisələri M.Ə.Rəsulzadənin və digər Azərbaycan siyasətçilərinin Rusiyanın demokratikləşəcəyinə ümidlərini qırdı. Ölkədə yeni bir proses, müstəqillik uğrunda mübarizə dövrü başladı. Məhz Bakı hadisələrinin müzakirəsi Zaqafqaziya seymində siyasi böhran yaratdı və 1918-ci ilin aprel ayının 22-də müsəlman fraksiyasının ciddi təzyiqi altında Zaqafqaziyanın müstəqilliyi elan edildi. Bununla bağlı M.Ə.Rəsulzadə qeyd edirdi ki, Cənubi Qafqaz böyük rus inqilabının nailiyyətlərini bizə yalnız irtica vəd edən Rusiyaya qurban verməməlidir. Cənubi Qafqaz müstəqil olmalıdır. Əgər biz istəyiriksə ki, Cənubi Qafqazın yeni doğulan övladı həyat qabiliyyətli olsun, onda müstəqilliyi bizi təhdid edən qorxunun hökmü ilə deyil, vicdanın hökmü ilə elan etməliyik.

1918-ci ilin mayında M.Ə.Rəsulzadənin Batumda Türkiyə ilə danışıq aparan Zaqafqaziya Cümhuriyyəti sülh heyətinin tərkibində olması, həyati əhəmiyyətə malik danışıqlar aparması, istiqlalın birinci həftəsində Osmanlı imperatorluğu ilə dostluq haqqında müqavilə imzalaması Azərbaycanın gələcək taleyində həlledici rol oynadı.

1918-ci il mayın sonunda Zaqafqaziya seymində yaranmış ikinci siyasi böhran onun dağılması ilə nəticələndi. Azərbaycan xalqı qarşısında məsuliyyətini dərindən dərk edən seymin

müsəlman fraksiyası dərhal milli şüura təsir etdi və M.Ə.Rəsulzadə Batumda olduğu halda Milli Şuranın sədri seçildi. Bu, bir tərəfdən həmin dövrün siyasi xadimlərinin yüksək mənəvi-etik dəyərlərə tapınması ilə bağlı idisə, digər tərəfdən M.Ə.Rəsulzadənin siyasi lider olduğunun etirafı və təsdiqi idi. Milli Şura Azərbaycan üçün ən böhranlı bir dövrdə ölkənin məsuliyyətini öz üzərinə götürdü və 28 May İstiqlal Bəyannaməsini elan etdi. Bu böyük hadisə münasibətilə M.Ə.Rəsulzadə yazırdı: "28 May bəyannaməsini elan etməklə Azərbaycan Milli Şurası, sözün siyasi mənasında, Azərbaycan millətinin varlığını təsbit etmişdir. Belə ki, Azərbaycan kəlməsi sadə coğrafi, etnoqrafik və linqvistik bir kəlmə olmaqdan çıxaraq siyasi bir aləm kəsb etmişdir".

Cümhuriyyətin bir illiyində onu dəyərləndirən M.Ə.Rəsulzadə belə hesab edirdi ki, milli mədəniyyət əsasına dayanması və milli demokratik türk dövlətçiliyi üzərində qurulması etibarilə Azərbaycan ilk türk dövləti və ilk müsəlman cümhuriyyəti idi.

Yeni yaranmış cümhuriyyətin qarşısında duran başlıca vəzifəni M.Ə.Rəsulzadə ölkənin siyasi, iqtisadi, mədəni mərkəzi olan Bakını azad etməkdə və istiqlalı Azərbaycanın bütün hüdudlarına yaymaqda, ölkənin ərazi bütövlüyünü təmin etməkdə görürdü. Əslində bir sıra tarixçilərin yazdıqlarının əksinə olaraq, M.Ə.Rəsulzadənin iyul ayında Dövləti Aliyeyi Osmaniyyəyə səfər edən bir Azərbaycan heyətinə başçılıq etməsi məhz yuxarıda qeyd edilən mühüm vəzifələrlə bağlı idi. O, Azərbaycan Cümhuriyyətinin xaricə göndərdiyi ilk diplomatik missiyanın başqanı idi. Məsələnin çətinliyi Bakının bir coğrafi ərazi olması ilə bağlı deyil, onu vuruşan ölkələrin hərbi-strateyi planlarına daxil edən dünyanın zəngin neft mərkəzi olması ilə bağlı idi. Tarixin müəyyən mərhələsində "Bakı məsələsi" Antanta ilə Dördlər İttifaqı arasında başlıca mübarizə hədəfinə

çevrilməklə yanaşı, blokdaxili əməkdaşlığın da ilk ziddiyyətli məqamı idi. M.Ə.Rəsulzadə Azərbaycan rəsmilərinə yazırdı: "Sizə məlumdur ki, neft haqqında məsələ Azərbaycandan çox Tűrkiyə-Almaniya məsələsidir. Lakin Almaniya və Tűrkiyə bu məsələyə műxtəlif cűr yanaşırlar". Beynəlxalq vəziyyəti təhlil edərək həmin dővrűn şərtləri daxilində M.Ə.Rəsulzadə dűzgűn olaraq belə qənaətə gəlirdi ki, yalnız qardaş Tűrkiyə Azərbaycanı dűşmənlərin əlindən qoparıb ala bilər. Məhz M.Ə.Rəsulzadənin təkidli xahişi ilə Tűrkiyə hərbi naziri Ənvər Paşa Azərbaycana yeni tűrk diviziyasının gőndərilməsi barədə sərəncam verdi. 1918-ci ilin yayında "Bizim məqsədimiz – Bakıdır" deyən tűrk ordusu irəliyə doğru hərəkətə başladı.

M.Ə.Rəsulzadənin İstanbul məktubları Azərbaycan diplomatiyasının műhűm sənədləri olmaqla yanaşı, őlkənin taleyinə məsul olan bir liderin űrək çırpıntılarıdır. Dűnya műharibəsinin son mərhələsindəki vəziyyəti təhlil edərək, o, Azərbaycanın baş nazirinə və xarici işlər nazirinə yazırdı: "Hansı yolla, nəyin bahasına olursa-olsun, Bakı tezliklə azad olumalıdır. Əks təqdirdə biz baş vermiş fakt qarşısında çətin vəziyyətdə qalarıq. Bakıya doğru hərəkət yalnız Azərbaycanın adından olmalıdır, onu Azərbaycan hőkuməti azad etməlidir. M.Ə.Rəsulzadə həyəcanla bildirirdi ki, Bakı alınmasa, hər şey bitdi. Əlvida, Azərbaycan".

M.Ə.Rəsulzadənin bu həyəcanını dərindən anlayan baş nazir Fətəli xan sentyabrın 11-də hőkumətin vaqon qərargahından İstanbula "Pera Palas" hotelinə Məhəmməd Əminə gőndərdiyi teleqramda yazırdı: "Bolşevik hőkuməti Bakıda devrilmişdir. Rusiya bolşevik hőkumətinin űzvləri həbs edilmişdir. Hakimiyyət ingilislərlə birlikdə daşnak və menşeviklərin əlinə keçmişdir. Bakı mədənlərinin bir hissəsi və Abşeron yarımadası bizim əlimizdədir. Biz əminik ki, yaxın vaxtlarda şəhər təslim olacaq. Alman və Avstriya nűmayəndələri dəfələrlə bizi

əmin ediblər ki, onlar Bakını Azərbaycanın ayrılmaz hissəsi, onun paytaxtı kimi tanıyırlar. İndi onlar qoşunun daşınmasında bizə yardım da gőstərirlər. Sizin Almaniyaya etiraz notanızı bəyənirik. Ə.M.Topçubaşov İstanbula gəlir. Vəziyyəti műzakirə edin və lazım olan bűtűn qərarları qəbul edin. Vəziyyət tələb edirsə, Berlinə gedin".

Bu teleqramda haqqında sőhbət gedən etiraz notası Bakı barəsində avqustun 27-də imzalanmış alman-rus sővdələşməsinə etiraz olaraq M.Ə.Rəsulzadə tərəfindən İstanbuldakı alman və digər ittifaq dővlətləri səfirliklərinə təqdim edilmişdi. Notada deyilirdi: "Azərbaycan xalqı rus hőkuməti tərəfindən elan edilən və Brest-Litovskda onlar tərəfindən təsdiq edilən "hər millətin őz műqəddəratını təyin etməsi hűququ" haqqındakı şűarına istinad edərək əsrlərdən bəri altında əzildiyi rus boyunduruğunu űzərindən ataraq istiqlalını elan emişdisə də, bağlanan saziş Azərbaycanın təbii paytaxtı, elm və mədəniyyət mərkəzi, iqtisadi və siyasi mərkəz olan Bakı şəhərinin yenidən rus hakimiyyəti altına alınmasına təminat vermişdir". M.Ə.Rəsulzadə yazırdı: "Elm və mədəniyyət nőqteyi-nəzərindən Bakı Azərbaycana bağlıdır. Siyasi, iqtsadi və ictimai təşkilatlar, tədris, xeyriyyə, zehni mərkəzlər, əhalinin ziyalı nűmayəndələrinin toplaşdıqları başlıca yer Bakıdır. Bűtűn bu məlum səbəblərə gőrə məmləkətin istiqlalını fəth etmək fikrindən heç bir zaman sərf-nəzər etməyən Azərbaycan xalqı Bakını geri qaytarmaq arzusundan heç bir zaman əl çəkə bilməz. Bu məsələ Azərbaycan űçűn yalnız ərazi məsələsi deyil, őlűm-dirim məsələsinə çevrilmişdir".

Etiraz notası təqdim etməsi ilə yanaşı, M.Ə.Rəsulzadə Azərbaycan hőkumətinə bildirirdi ki, Almaniyanın műharibədə qələbə çalacağı haqda fikirləşmək dővrű keçib. Avstriyanın və Tűrkiyənin daxilində vəziyyət ciddiləşir. Bolqarıstana gəldikdə isə, demək olar ki, o, məğlubiyyət astanasındadır.

1918-ci ilin sentyabrında İstanbuldakı Azərbaycan heyətinin başçısı kimi M.Ə.Rəsulzadənin yenə taxta çıxmış Sultan Vİ Mehmed Vahidəddinlə gőrűşű Azərbaycanın beynəlxalq vəziyyətinə və Bakının azad olunmasına műsbət təsir gőstərdi. Audiensiyaya gələn heyətlər içindən birinci olaraq Azərbaycan nűmayəndələrinin qəbul edilməsi sultan hőkumətinin Azərbaycana műnasibətindən irəli gəlirdi. Bu qəbul barədə Azərbaycan hőkumətinə məlumat verən M.Ə.Rəsulzadə yazırdı: "Biz çıxanda Sultanın Ənvər Paşa həzrətlərinə yaxınlaşaraq "Bu dəqiqələr őmrűműn ən xoşbəxt dəqiqələridir" dediyini eşitdik və bundan kőksűműz iftixarla doldu".

Azərbaycan hőkumətinin gərgin műbarizəsi, qəhrəman tűrk ordusunun uğurlu hərbi əməliyyatları, M.Ə.Rəsulzadənin İstanbulda diplomatik səyləri nəticəsində 1918-ci ilin 15 sentyabrında műqəddəs Qurban bayramı gűnű Bakı azad edildi. Bakının azad olunması barədə şad xəbəri Tűrkiyənin hərbi naziri Ənvər Paşa M.Ə.Rəsulzadəyə bildirdi. Bundan sonra Tűrkiyədə bir neçə həftəlik diplomatik fəaliyyətdən sonra oktyabrın 22-də M.Ə.Rəsulzadə Bakıya dőndű.

XX yűzilliyin əvvəllərində Osmanlı imperatorunu və Rusiya tűrklűyű içərisində cərəyan edən çeşidli hadisələr milli azadlıq műcadiləsi və istiqlal savaşı iki műhűm hadisə ilə nəticələndi. İlk olaraq 1918-ci ilin 28 mayında Azərbaycanda, 5 il sonra isə 1923-cű ilin 29 oktyabrında Tűrkiyədə cűmhuriyyət quruluşu elan edildi. Azərbaycan cűmhuriyyətinin elanı və qurulmasında tűrk əsgəri və tűrk silahı nə qədər bőyűk rol oynamışdısa, Tűrkiyədə cűmhuriyyət quruluşunun yaranmasına, hələ XX əsrin əvvəllərindən tűrk dűnyasının ideya mərkəzinə çevrilmiş Azərbaycan tűrklűyű və bűtővlűkdə Rusiya tűrklűyűnűn bőyűk təsiri olmuşdur.

Tűrkiyə cűmhuriyyətinin yaradıcısı Mustafa Kamal paşanın dővlət quruculuğunda əsas tutduğu műstəqillik, cűmhuriy-

yətçilik, hürriyyətçilik, millətçilik, xalqçılıq, dünyəvilik və çağdaşlıq kimi təməl prinsiplər əsrin ilk iki onilliyində Rusiya türklüyü içərisində ideya istiqaməti kimi formalaşmış, Azərbaycan cümhuriyyətinin 23 aylıq tarixi təcrübəsindən keçmişdi. Ədalət naminə qeyd etməliyik ki, Türkiyədə cümhuriyyət quruculuğunda və Atatürk inqilablarının uğurla həyata keçməsində türk dünyası aydınlarının - Əli bəy Hüseynzadənin, Əhməd Ağaoğlunun, Zəki Vəlidi Toğanın, Məhəmməd Əmin Rəsulzadənin, Yusif Akçuranın, Əhməd Cəfəroğlunun, Sədri Maqsudi Arslanın və digərlərinin nəzəri və praktiki baxımdan böyük xidmətləri olmuşdur. İftixar duyğusu ilə adlarını çəkdiyimiz bu şəxsiyyətlər türk dünyasnını elə işıqlı aydınlarıdır ki, onların adı da, əməlləri də türklük yaşadıqca yaşayacaq, bir sözlə, əbədi olacaqdır.

M.Ə.Rəsulzadə tərəfindən  milli ideologiya səviyyəsinə qaldırılan Ə. Hüseynzadənin dahiyanə "türkləşmək, islamlaşmaq, çağdaşlaşmaq" üçlü düsturu, böyük Qaspıralının dildə, fikirdə, işdə birlik çağrışı dünənimizin tarixi olmaqdan daha çox sabahımızın fəaliyyət proqramıdır, şərəfli keçmişimiz olmaqla yanaşı, işıqlı sabahımızdır.

Türkiyədə çağdaş dövlət, cümhuriyyət məfkurəsinin yayılmasında xidmətləri olan türk aydınlarından biri də M.Ə.Rəsulzadədir. 20-ci illərin əvvəllərində Türkiyəyə mühacirət edən M.Ə. Rəsulzadə milli mücadilədə və cümhuriyyət quruculuğunda tarixi yol keçmiş, bütün türk və müsəlman dünyasında ilk cümhuriyyətin banisi, XX əsrin ilk iki on illiyində genişlənən Azərbaycan milli hərəkatının lideri səviyyəsinə yüksəlmişdi.

Azərbaycan Cümhuriyyətinin devrilməsindən sonra M.Ə.Rəsulzadə həbs edildi. Bir neçə aylıq həbsdən sonar, o, daha 2 ili Moskvada keçirməli oldu. Burada qısaca olaraq, 1920-ci ilin aprel hadisələrindən sonra həbs edilmiş M.Ə.Rə-

sulzadənin Stalin tərəfəindən həbsdən azad olunmasına toxunmağı zəruri bilirik. Bəzən bu hadisə ilə bağlı bir sıra siyasi spekulyasiyalara rast gəlinir və M.Ə.Rəsulzadənin əleyhdarları Stalinə olan münasibətlərdən çox məharətlə onun əleyhinə istifadə edirlər. Əvvəla, 20-ci illərin Stalini 37-ci ilin Stalinindən xeyli fərqli idi. Bunu hökmən nəzərə almaq lazımdır. İkincisi, M.Ə.Rəsulzadə bu dövrdə Stalinin həbsdən azad etdiyi tənha adam deyildir. Uzun müddət Bakıda, Qafqazda və digər müsəlman vilayətlərində inqlabi hərəkətdə iştirak etmiş Stalin müəyyən çətinliklərə baxmayaraq, hələ ki, böyük məmnuniyyətlə öz köhnə tanışlarını həbsdən azad edirdi. Nəzərə almaq lazımdır ki, bolşevik təqiblərindən yayınaraq 1919-cu ildə Bakıya gələn Dövlət Dumasının və İttifaqı Müslümünün üzvü olmuş tanınmış tatar millətçisi Nadi Atlasov da bolşevikləşmədən sonra Bakıda həbs olunduqda, Stalin onun azad olunması üçün N.Nərimanova xüsusi məktubla müraciət etmişdi. Elə 1920-ci ilin dekabrında Rusiya müsəlmanlarının milli hərəkatında fəal iştirak etmiş İlyas Alkın və Ubaydulla Xocayev nəinki Stalinin köməkliyi ilə Butırsk həbsxanasından azad edilmiş, eyni zamanda azad olunan kimi də onun tərəfindən Kremldə qəbul edilmişdi. Ona görə Stalinin M.Ə.Rəsulzadəni azad etməsində "kriminal" axtarmaq mənasız işdir.

Özünün yazdığı kimi iki ilin istiqlal mücadiləsindən və sonrakı iki ilin istibdad qovğasından sonra ilk cümhuriyyət yaradıcısı olan M.Ə.Rəsulzadənin üz tutduğu ölkə qardaş Türkiyə oldu. O, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.Cəfəroğlu, A.İldırım, M.B.Məmmədzadə, Ə.Yurdsevər və digər istiqlal mücahidləri ilə birlikdə Türkiyə cümhuriyyəti quruculuğunda, "Qəhrəman Türkiyənin nail olduğu istiqlal" amalında fikrən və əməlƏn iştirak etmişdi. M.Ə.Rəsulzadənin mühacirətdəki həyatının böyük bir dövrü Türkiyə cümhuriyyəti ilə bağlı olmuşdur. 1923-cü ildə Türkiyə cümhuriyyətinin elan edilməsindən

bir neçə ay əvvəl M.Ə.Rəsulzadənin İstanbulda "Azərbaycan cűmhuriyyəti" əsəri nəşr edildi. Bu əsər Azərbaycanda cűmhuriyyət űsul-idarəsinin keçdiyi tarixi yola qısa baxış olmaqla yanaşı Tűrkiyə ictimaiyyəti arasında cűmhuriyyətiçilik ideyasının yayılması baxımında őnəmli rol oynadı. M.Ə.Rəsulzadənin "Azərbaycan cűmhuriyyəti" kitabı Tűrkiyənin İzmir şəhərində keçirilən "Kitab bayramı"nda ən yűksək ődűlə layiq gőrűlműşdű. Bundan əlavə 1923-cű ildə İstanbulda onun "Əsrimizin səyavuşu", "İstiqlal məfkurəsi və gənclik" kitabları çap edildi. Hər iki kitab "Azərbaycan cűmhuriyyəti" ilə birlikdə milli műcadilənin istiqlaliyyətdə təcəssűműnű əks etdirən "tűrkləşmək, islamlaşmaq və çağdaşlaşmaq" idealına doğru tarixi keçidinin tűrklűk űçűn həyatı zərurət olduğu əsaslandırılmışdı.

M.Ə.Rəsulzadə İstanbulda Azərbaycan siyasi műhacirətinin əsasını qoydu. 1923-24-cű illərdə Műsavat Partiyasının xarici bűrosunu və Azərbaycan milli mərkəzini yaratdı. Hər iki təşkilatın başlıca təbliğat orqanı olan "Yeni Kafkasiya" dərgisinin nəşrinə başladı. Tűrkiyə cűmhuriyyətinin ilk beş ilində (1923-1928) nəşr edilən bu dərgi əsasən űç műhűm məsələni - Azərbaycan tűrklərinin istiqlal idealını, Rusiya tűrklərinin azadlıq arzularını, Anadolu tűrklərinin cűmhuriyyət quruculuğunu őz səhifələrində təbliğ edirdi. M.Ə.Rəsulzadənin İstanbuldakı fəaliyyəti istər Tűrkiyədə və istərsə də Qafqaz və Rusiya tűrkləri arasında elə geniş əks-səda doğurmuşdu ki, Sovetlər Birliyinin rəhbəri İ.Stalinin tővsiyə və gőstərişlərinə əsasən SSRİ xűsusi idarələri və təbliğat orqanları ona qarşı total műbarizəyə başlamışdı. M.Ə.Rəsulzadə əleyhinə hazırlanan kitabçanın ən yűksək səviyyədə təşkil olunmuş műəllif kollektivinə 42 il őncə M.Ə.Rəsulzadəni həbsdən azad etmiş Stalinin tővsiyələri olduqca maraqlıdır. O yazırdı: "Rəsulzadənin műrtəce kitabçası barədə Musabəyov, Mirzayan, Axundov, Kirov, Oraxelaşvili yoldaşlara mənim məsləhətim: Rəsulzadə

əleyhinə kitabça hücum xarakteri daşımalıdır. Heç bir halda özünü təmizə çıxarmaq lazım deyil, onu aşağıdakılarda ittiham hücuma keçmək:

1. Dönüklükdə. O, bolşevik idi, sonda onlara xəyanət etdi.
2. Türklərin özlərinin mənafelərinə xəyanətdə; çünki Rəsulzadə özü və onun Müsavat Partiyası Qızıl Ordunun türklərə yardım göstərməsi və Bakının alınmasına maneçilik törədirdilər;
3. Azərbaycan xalqına xəyanətdə:torpağın kəndlilərə verilməsinə və bəylərin mülklərinin ləğv edilməsinə maneçilik törədirdilər;
4. Bütün Şərq xalqlarının mənafeyinə xəyanətdə: müsəlmanlar üzərində İngiltərənin müstəmləkəçilik hökmranlığını saxlamaqda, ona yardım göstərməkdə;
5. Erməni-tatar qırğınının təşkilində: "Rəsulzadəni Azərbaycan Puruşkeviçi" kimi "lağa qoymaq";
6. Şamxor talanının təşkilində ittiham etmək, onu "Azərbaycan talançısı" kimi damğalamaq.

Mənim fikrimcə, əgər bu tezislər nəzərə alınsa, kitabça tamamilə qənaətbəxş olacaq.

*Salamlar İ.Stalin*
16 sentyabr, 1923".

Bu tövsiyyələrdə qoyulan tezislər, xüsusilə,onu türk işinə, Azərbaycan xalqına xəyanətdə, Türkiyənin mənafeyinə xəyanətdə ittiham etmək o qədər cəfəngiyyat idi ki, ciddi "araşdırmalar" aparmaqlarına baxmayaraq qeyd edilən müəlliflər kollektivi və bu işi görməli olan Q.Musabəyov ortaya bir şey çıxara bilmədilər. Stalinin bu həyəcanı onunla bağlı idi ki, M.Ə.Rəsulzadənin həcm etibarı ilə elə də böyük olmayan bu kitabı bolşeviklər bütün milli siyasətini şübhə altına alır, bu siyasətin əsl mahiyyətini ifşa edirdi. Əvvəlcə M.Ə.Rəsulza-

dənin "ifşası" Q.Musabəyova tapşırılsa da, qeyd edildiyi kimi o, bu işin őhdəsindən gələ bilmədi. Çox maraqlıdır ki, elə həmin vaxt, 1924-cű ilin əvvəllərində Kazanda Qalimcan İbrahimovun tatar milli hərəkat liderlərinə - Q.İshaqi, F.Tuktarov, S.M.Arsal və digərilərinə qarşı yazdığı "Qara mayaklar" kitabı çapdan çıxdı.

Bu kitabın bir paraqrafı da M.Ə.Rəsulzadə və onun "əksinqilabi broşurası" haqqında idi. Bu kitabda M.Ə.Rəsulzadəyə qarşı műəlliflik dəlilləri Stalinin Kirov, Axundov, Musabəyov və digərilərinə yazdığı təlimatlarla űst-űstə dűşűrdű. Bu fakt təsdiq edir ki, 20-ci illərin ortalarından başlayaraq M.Ə.Rəsulzadəyə qarşı műbarizə űmumittifaq miqyasında aparılırdı. Bu məsələlərlə bağlı məşhur tatar tarixçisi Bulat Sultanbəyovun "Milli siyasətin sirləri", "Stalin və tatar izləri", "Gizli arxivlərin səhifələri", "Faciəli talelər" və digər kitablarında maraqlı məqamlar vardır.

M.Ə.Rəsulzadə őz çoxsahəli fəaliyyətilə 20-ci illərdə Tűrkiyədə həyata keçirilən Tűrk inqilabının, Tűrk cəmiyyətində bőyűk çağdaşlaşma hərəkatının Atatűrk başqanlığında yeni cűmhuriyyət quruculuğunun fəal iştirakçısı idi. Tűrk cűmhuriyyətində həyata keçirilən ictimai inqilabları, Xəlifəliyin ləğvini, qadın haqlarını, papaq və qiyafət haqda fərmanları, ictimai həyatın beynəlxalq standartlara uyğunlaşdırılmasını, hűquq, maarif, mədəniyyət, əlifba və dil islahatlarında M.Ə.Rəsulzadə bőyűk heyranlıqla iştirak edirdi. Bu reformaların çoxu onun lideri olduğu Azərbaycan cűmhuriyyətində hələ 1918-20-ci illərdə başlanmışdı. Cűmhuriyyət elanından bir ay sonra Tűrk dili dővlət dili kimi qəbul edilmiş, 1919-cu ildə latın əlifbasına keçidlə bağlı məsələlər műzakirə edilmişdi. Sonralar, Atatűrkűn bőyűk maraq gőstərdiyi Bakıda keçirilən birinci tűrkoloyi qurultayda műzakirə edilən məsələlər hələ Azərbaycan cűmhuriyyəti dővrűndə qaldırılmışdı. M.Ə.Rəsulzadə Tűrkiyə Cűmhuriyyə-

tinin yapmış olduğu devrimləri, qurmuş olduğu sosial düzeni, formalaşan siyasi və iqtisadi sistemi böyük bir şövq və həyəcanla dilə gətirərək yazırdı:" Türkiyə, sadə ideal proqramını qanunlar halında təsbit etməklə qalmamış; Cümhuriyyət erleri bu böyük həqiqəti dahi unutmamışlardı. Bir millət, ancaq orqanizmə oluşu və iqtisadi fəaliyyət və refahi nisbətindədir ki, ideal haklardan istifadə edər. Fikri, milli və siyasi istiqlallarının kökü iqtisadi istiklalıdır".

Cümhuriyyət prinsiplərinin tətbiqi, təkcə biz Azərbaycan milliyyətçiləri için deyil, bütün türk elləri milliyyətçiləri için hər zaman müqəddəs bir arzu yeridilməsi istənilən böyük bir ideal olmuşdur. Bu idealın təbliğində "Yeni Kafkasya"dan sonra İstanbulda nəşr olunan "Azəri-Türk" (1928-1931), "Odlu Yurd" (1929-1930) dərgiləri, həftədə bir dəfə çıxan "Bildiriş" (1929-1931) qəzeti böyük rol oynamışdı. Elə bu illərdə M.Ə.Rəsulzadənin İstanbulda nəşr edilən "İnqilabçı sosializmin iflası və demokratiyanın gələcəyi", "Millət və bolşevik", "Qafqasiya türkləri", 1930-cu ildə Parisdə nəşr edilən "Qafqaz problemi ilə əlaqədar olaraq panturanizm" kitabları, 30-cu illərdə onun çeşidli Avropa ölkələrində nəşr etdiyi "İstiqlal" (1932-1934) qəzeti, "Qurtuluş" (1934-1938), "Prometey" dərgilərində milli mücadilə və yeni cəmiyyət quruculuğu, türklük və demokratiya Türkiyə Cümhuriyyətindəki inqilabi dəyişikliklər, Atatürkün şanlı mübarizə yolu və işıqlı şəxsiyyəti ilə bağlı son dərəcə maraqlı, nəzəri və ictimai baxımdan dəyərli ideyalar irəli sürülmüşdür. Atatürkə dərin bir sevgi bəsləyən M.Ə.Rəsulzadə yazırdı: "Nə ingilis himayəsi, nə Amerika mandası altında deyil, o, qurtuluşu yalnız hakimiyyəti-milliyəyə istinadən, qeydsiz və şərtsiz müstəqil bir türk dövləti təsis etməkdə görmüşdü".

M.Ə.Rəsulzadənin ikinci cahan savaşından sonrakı fəaliyyəti də Türkiyə Cümhuriyyəti ilə bağlı olmuşdur. 1947-ci ildə

Ankaraya dőnən M.Ə.Rəsulzadə Azərbaycan milli mərkəzinə rəhbərlik etmiş, 1949-cu ildə "Azərbaycan kűltűr dərnəyi"ni təsis etmiş, 1952-ci ildə "Azərbaycan" dərgisinin nəşrinə başlamış, tűrk dil qurumu və tűrk tarix qurumu ilə yaxından əməkdaşlıq etmişdir. 1955-ci ildə bu istiqlal műcahidi və tűrklűk fədaisi őz canını da Anadolu torpağına tapşırdı. Bakıda doğulub Ankarada uyuyan, Azərbaycanda çağdaş bir cűmhuriyyət qurmuş, Tűrkiyə Cűmhuriyyətinin quruculuğunda fəal iştirak etmiş işıqlı tűrk lideri olan M.Ə.Rəsulzadənin adı, Milli İstiqlal ruhu və məfkurəsi yaşadıqca yaşayacaqdır.

# BAKIDA MİLLİ PROBLEMLƏR VƏ PAYTAXTIN İFRAT BEYNƏLMİLƏLLƏŞMƏSİNƏ QARŞI NƏRİMAN NƏRİMANOVUN MÜBARİZƏSİ

**Həsən HƏSƏNOV (Əzizoğlu)**

Böyük Britaniya hərbi missiyasının Bakıdan verdiyi məlumatında deyilirdi: "Azərbaycan hökuməti yaxşı anlayır ki, gələcək milli qarşıdurmanın azaldılmasından asılıdır. Amma mövcud vəziyyət çox gərgindir, xırda savaş nəticəsində bir neçə güllə atəşi belə milli qırğına gətirib çıxara bilər. Belə bir ehtimal da var ki, milli qırğın siyasi məqsədlərlə həyata keçirilsin"(1). Beləliklə, Bakıda millətlərarası münasibət AXC dövründən kəskin problem olaraq qalırdı. Azərbaycan milli hökuməti mövcud idisə də, amma bir çox hallarda millətlərarası münasibətdə olan problemlər var idi.

N.Nərimanov daşnakları sadəcə antiazərbaycan, antimüsəlman partiyası kimi deyil, həm də qeyri-səmimilikdə ifşa edirdi. "Daşnaklar Böyük Ermənistan naminə hər hansı rəngə boyanarlar və hər hansı maskanı taxarlar. Daşnaklar Qolisinin vaxtında inqilabi partiya, Vorontsov-Daşkovun vaxtında onun əl-ayaqlarını öpərək özlərini əksinqilabçılar partiyası kimi qələmə verirdilər, çünki o, türklərin üzərində çalınan qələbələrindən sonra Böyük Ermənistanın təşkilini vəd vermişdir. Türklər qələbə çalandan sonra, ermənilər əl-ayağa düşərək türklərlə dostluq etməyə hazırlaşırdılar. Qafqazda sovet hakimiyyəti qurulsa, daşnaklar təcili maskalarını dəyişib kommunist olacaqlar, Gürcüstanda və Azərbaycanda aparılacaq işlərin başında olacaqlar…Onlar hamıdan tez "kommunist" olsalar da, altdan-altdan öz işlərini davam edəcəklər, öz məqsədlərinə

doğru gedəcəklər. Belə bir vəziyyət imkan verməyəcək ki, sovet hakimiyyəti milli məsələnin həllinə nail olsun və sovet hakimiyyəti bundan çox şey itirəcək"(2).

Şaumyan, ermənilərin müstəqilliyini qanuni tarixi ideya kimi qəbul etdiyi halda (3), Azərbaycan xalqının milli müstəqillik ideyasını, bir neçə millətçinin arzusu kimi qələmə verirdi (4). Lenin və bolşeviklər partiyası bir neçə dəfə Şaumyanın məhz milli məsələlərdə səhv mövqeyini vurğulayaraq onu tənqid atəşinə tutmuşdu. İlk dəfə hələ 1914-cü ildə Lenin ona irad tutmuşdu ki, o, marksist mövqeyindənsə, erməni mövqeyini (5) üstün tutur və Purişkeviçlərin (6) yardımçısı olaraq onların millətçi mövqelərindən çıxış edir (7). 1918-ci il martın 15-də Lenin bir daha Şaumyanın xalqların, daha doğrusu, Azərbaycan xalqının öz müqəddəratını həll etmək hüququnun, hətta muxtariyyət hüququnun olmaması mövqeyindən çıxış etdiyindən ona ciddi xəbərdarlıq edir (8). Bu da Şaumyanın mövqeyinə təsir etmədiyindən, üç gün sonra 1918-ci il martın 19-da RK(b)P MK Şaumyana məktub yazaraq xüsusi vurğuladı ki, "əgər müsəlmanlar muxtariyyət istəyirlərsə, onlara vermək lazımdır" (9). Bütün bu göstərişlərə və tövsiyələrə baxmayaraq, Şaumyan ermənilərə və xüsusən də daşnaklara arxalanaraq 1918-ci ilin mart ayının ikinci yarısında Azərbaycan xalqına qarşı soyqırımı siyasətini həyata keçirdi. Bunun üçün Bakıda toplanan bütün silahlı ermənilər hazırlıq vəziyyətinə, silahlı azərbaycanlılar isə tərksilah vəziyyətinə gətirildilər. Şaumyan tutduğu mövqeyini heç də gizlətmirdi. O açıq etiraf edir ki, vətəndaş müharibəsi (10) milli qırğına gətirdisə də, bizim başqa yolumuz var idi. Maraqlıdır ki, başqa yol deyərkən heç də söhbət fəhlələrin marağının itirildiyindən getmir, söhbət sadəcə ondan gedirdi ki, Bakı Azərbaycanın paytaxtı elan edilməsin. Deməli, Şaumyanın rəhbərliyi ilə təşkil olunmuş Bakı Kommunasının əsas məqsədi nə kommunist

ideyasının təntənəsi deyil, nə sovet hakimiyyətinin qurulması, nə də fəhlənin tarixi zülmdən qurtarması deyil, sadəcə Bakının Azərbaycana paytaxt olmamağıdır (11), daha doğrusu Bakı ola biləcək hər hansı Azərbaycan dövlətinin tərkibinə daxil olmamalıdır. Daha həqiq desək, söhbət tək Bakı şəhərindən deyil, Azərbaycanın bütün Xəzər sahilinin və bütün Bakı əyalətinin ola biləcək Azərbaycan dövlətindən təcrid etməkdən və bütün müsəlmanlardan təmizləməkdən gedirdi (12). Bunun bolşeviklərdən ötəri və kommunist ideyası üçün nəticələrini Bakı Kommunasının sovet hakimiyyətinə yaxınlaşdırmaqdansa uzaqlaşdırdığını hətta A.Mikoyana etiraf edirdi (13). 1918-ci ilin aprelində Bakıda qurulan Xalq Komissarları Sovetinin fəaliyyətinin mahiyyəti, Şaumyanın siyasəti və mövqeyi, Şaumyan tərəfindən bu orqanın fəaliyyətinə cəlb olunan şəxslərin daha doğrusu, ermənilərin siyasi mövqeləri, V.Leninin və buraya daxil olan bəzi komissarların (misal üçün N.Nərimanovun) Şaumyandan fərqli baxışı 1918-ci il Şaumyanın hakimiyyətinin mahiyyətini proletar birliyi, sinfi mübarizə deyil, millətçi maraq və şovinist mövqedən irəli gələn bir siyasət kimi qiymətləndirməyə bizə əsas verir...

Azərbaycan ideyası yolunda fəaliyyət göstərən siyasi partiyalar o zaman Şaumyanın imkanları qarşısında aciz idilər. Şaumyan Fətəli xan Xoyskinin başçılıq etdiyi Bakı Şəhər Dumasını heç bir maneəsiz buraxdı. Cənubi Qafqaz Seymində sosialist Z.Q.Məmmədbəyov tədbir görülməyini tələb etdi, M.Rəsulzadə Seymi boykotla hədələdisə də, istər erməni, istərsə də gürcü fraksiyaları bolşeviklərə qarşı getmək fikrində olmadıqlarını vurğuladılar (14). Vəziyyətə müdaxilə etməyə hazırlıqlarını ancaq Daşnaklar bildirdilər. O da belə şərtlə ki, erməni silahlı qüvvələrinin Bakıda mövcudluğu qanuniləşsin və Bakı bir milli qurum kimi deyil, ermənilərin və azərbaycanlıların müştərək hakimiyyət ərazisi olsun. Azərbaycan siyasi

partiyalarının heç biri buna getmədi (15).

Bakıda rus hakimliyi problemi imperiya dağılandan sonra őz gűcűnű itirmişdirsə də, amma heçə enməmişdi. 1917-ci ildə Bakı fəhlə sinfinin 37%-i műsəlman, 23%-i rus və 21%-i erməni idi (16) (ikisi birlikdə 44%, yəni műsəlmanlardan qat-qat çox). AXC dővrűndə Bakıda bir neçə rus icması fəaliyyət gőstərirdi. Onlardan slavyan-rus icmasının hőkűmətin tərkibində nűmayəndələri var idi. Amma onlarla yanaşı Podşibyakinin başçılığı ilə Rus Milli Şurası da fəaliyyətdə idi (17). Onlar demək olar ki, Azərbaycanın műstəqilliyini tanımırdılar, Azərbaycan hőkűməti və parlamenti ilə əmakdaşlıqdan imtina edirdilər. Onlar bunu ancaq bir şərtlə edərdilər ki, Azərbaycan Rusiya tərkibinə daxil olsun. Bakıda fəaliyyət gőstərən Erməni Milli Şurası həmin Rus Milli Şurası ilə "əl-ələ verib birgə mővqe tuturdular" (18).

AXC dővrűndə Azərbaycanda erməni-műsəlman qarşıdurmasının qızışdırılmasını Denikin də, bolşeviklər də ustalıqla həyata keçirirdilər. Çűnki, ikisinin də əsas məqsədi műstəqil Azərbaycanı yox etmək idi. Xaricilər hələ də ermənilərə daha çox inanırdılar, nəinki azərbaycanlılara. Bunu xaricilər őzləri də etiraf edirdilər. 1919-cu ilin fevralında ingilis hərbi missiyası "Azərbaycanda vəziyyət" adlı məlumatda yazırdı ki, "bizim burada mővcudluğumuz Bakı műsəlmanları űçűn qəbulolunmazdır. Műsəlmanlar űmidlidirlər ki, biz erməniləri fəaliyyətə sővq edirik" (19). Təsadűfi deyil ki, AXC hőkűmətinin tərkibinin birində əhalinin műtənasibliyi nazirlərin műtənasibliyi ilə uyğunlaşdırılması siyasi problem kimi ortalığa qoyulmuşdu. Uzun műzakirələrdən sonra AXC hőkűmətinin tərkibinin 6 azərbaycanlı, 3 rus, 3 ermənidən ibarət olduğu haqqında qərar verilmişdi (20).

Bakıda ermənilərin őzbaşınalığı və erməni dərəbəyliyi N.Nərimanov hakimiyyətə gəldiyi zaman yaranmışdı. Tarixi

məlumatlardan aydın gőrűnűr ki, o, əvvəllər də mővcud idi. Amma o illərdə bu dərəbəyliyə qarşı açıq siyasi műbarizə aparan yeganə hakimiyyətdə olan siyasətçi məhz N.Nərimanov idi. Onu da nəzərə almaq lazımdır ki, o zamanlar Bakının əhalisinin çoxluğu, yəni űçdə iki hissəsi erməni və rus idi. Bakıda vűsət tapan qanlı-qadalı sinfi műbarizənin aparıcı qűvvələri də onlar idi, AXC dővrűndə tətil keçirənlər, bolşeviklərə dayaq duranların, vəziyyətə gərginlik gətirənlərin, XI Qırmızı ordunu gűl-çiçəklə qarşılayanların əksəriyyəti onlar idi. Təsadűfi deyil ki, AXC ideoloqları bolşeviklərə qarşı silahlı çıxışlarını çoxmillətli Bakıda deyil (Bakının əhalisinin əksəriyyətini ermənilər və ruslar təşkil edirdi), milliliyi ilə fərqlənən Gəncədə etdilər.

N.Nərimanov hakimiyyətə gələrkən bu problemə nəinki rast gəldi, hətta onunla açıq műbarizəyə girdi. Stalinə məktubunda yazır ki, Bakının erməniləşdirmək planı var və bunun qurucusu məhz Mikoyandır. N.Nərimanov bu qrupla őlűm-dirim műbarizəsinə girişdi. O yazırdı ki, Bakı Partiya Komitəsi Azərbaycanda hər şeydir. Ona gőrə də ermənilər çalışırdılar ki, məhz Bakı Komitsəsində başçılıq irsən ermənilərə keçsin. Hələ kommunistlər Bakıda hakimiyyətə gəlməzdən qabaq N.Nərimanovun dediyinə gőrə, Mikoyan Bakıda fəaliyyət gőstərməyə gəldiyini bildirirdi və hakimiyyət dəyişdirilən kimi o, həqiqətən də Bakı Partiya Komitəsinin katibi seçildi. N.Nərimanovun tənqid atəşinə məruz qalan Mikoyan N.Nərimanovun iradəsinə zidd olaraq Moskvaya işləməyə keçirildi. N.Nərimanov mərkəzi ittiham edərək deyirdi: "Mikoyandan sonra BK-nın katibi Sarkis oldu, Sarkisdən sonra isə Mirzoyan. Çox guman ki, Mirzoyandan sonra Kasparov olacaq v i.a." (21). Ermənilərin Bakını erməniləşdirmə planı haqqında N.Nərimanov deyirdi: "Lakin çoxları bunu başa dűşműrdűlər. Bunu hazırda AKP MK katibi yoldaş S.Kirov da başa dűşműr, bu adama Mir-

zoyanla əlbir fəaliyyət göstərmək təlqin edilmişdir. Hətta əgər Kirova təlqin edilməsəydi də, o bu kampaniyanın fəaliyyəti onun daxili aləmini məmnun edir. Bu kampaniyanın təsiri altına düşərdi, çünki, bu fəaliyyəti isə məhz Azərbaycanın simasızlaşdırılmasına yönəlmişdir. Bir tərəfdən kommunizm bayrağı altında daşnaklar öz işlərini görür, digər tərəfdən keçmiş eserlər tədricən və inadla sovet hakimiyyətini içəridən dağıdırlar" (22).

Daha sonra N.Nərimanov yazırdı: "Mən bildirirəm ki, bu ağılla düşünülmüş və düzgün hesablanmış bütöv bir plandır. Lakin elə işimin ilk günlərindən açıq deyirəm: bir çox mülahizələrə görə hələlik erməni yoldaşların görkəmli, məsul vəzifələrə təyin edilməsini dayandırmaq vacibdir. Cənubi Qafqazın keçmişi, ümumiyyətlə və xüsusilə 18-ci ildə Bakıdaki vəziyyət bu məsələ üzərində düşünməyə məcbur edirdi" (23).

N.Nərimanov Stalinə Bakı fəhlələrinin dilindən deyirdi: "Sarkis düz danışmır. Bakı Partiya Komitəsi müsəlman fəhlələri üçün heç bir iş görmür. Biz (yəni müsəlman fəhlələri) yoldaş Sarkisdən bir neçə dəfə xahiş etmişdik ki, bizim vəziyyətimizə diqqət yetirsin, məktəblər açdırsın, bizim dilimizi bilən partiya komitə katibləri təyin etsin və s. və i.a. Lakin indiyə qədər heç bir iş görülməmişdir". Fəhlələrin dilindən N.Nərimanov davam edərək Stalinə çatdırırdı ki: "Bu konfrans yoldaş Sarkisin bizə (yəni müsəlman fəhlələrinə) olan "qayğısını" göstərir. Baxın, burada nə qədər müsəlman fəhlələri var, nə üçün konfransın yalnız dörddə birini müsəlman fəhlələri təşkil edirlər".

Bu məlumatı başa çatdırandan sonra N.Nərimanov ürək ağrısı ilə əlavə edirdi: "Bütün bu nitqlərdən sonra solluq oyunları oynayan Ruhulla Axundov da çıxış etdi və fəhlələri yalançı kimi qələmə verərək Sarkisi müdafiə etməyə başladı" (24).

Bununla barışmayan N.Nərimanov "Mikoyanın, Sarkisin,

Mirzoyanın başçılıq etdiyi Bakı Partiya Komitəsinin işini nəhayət yoxlamaq lazımdır" deyə tələb irəli sürdü (25).

N.Nərimanov deyirdi: "Hər yerdə, bütün iclaslarda mənim çıxışımdan sonra, müsəlmanlar qrupla mənə yaxınlaşıb deyirlər: bizi hara istəyirsən apar, nə istəyirsən elə, biz sənə inanırıq, biz ailəmizin xoşbəxtliyini sənin ixtiyarına veririk. Ancaq 18-ci il hadisələri təkrar baş verməsin" (26).

N.Nərimanov bu mövzunu davam etdirərək, 1918-ci ildə ermənilər tərəfindən törədilmiş Bakı qırğınını nəzərdə tutaraq qeyd edirdi: "Bu suala 18-ci ildə Bakıdakı sovet hakimiyyəti cavab verməlidir (27). Bütün bunlar məni ilk vaxtlar erməni yoldaşlarını yüksək vəzifələrə təyin etməmək barəsində danışmağa məcbur edirdi" (28).

Ümumiyyətlə, N.Nərimanov Bakıda erməni amilinə hərtərəfli nəzarət edirdi. Böyük sayda silahlı ermənilərin həbs edilib Rusiyaya sürgün olunmaq qərarı qəbul olunmuşdu, Gəncədə fəaliyyət göstərən Erməni Milli Şurasının sədri mühakimə olunub güllələnmişdi (29), Rusiyadan köçməkdə olan bir çox ermənilər Bakıda məskən salmaq istədiklərindən onları məcburi Ermənistana sürgün edirdilər (30). Ermənistanda sovet hakimiyyəti qurulandan sonra, N.Nərimanovun təklifi ilə, Azərbaycandan 310 nəfər erməni kommunisti oraya işləməyə göndərildi (31).

Bəzi Azərbaycan siyasətçiləri N.Nərimanovdan fərqli olaraq beynəlmiləlçiliyə aludə olaraq, bəzən də öz şəxsi karyeralarını güdərək ermənilərə süni olaraq qayğı göstərirdilər. 20-ci illərin axırlarında Ə.Qarayev heyfsilənərək, yazırdı ki, ermənilər dağ hissələrdə yaşayaraq 40-50 rubl qazanırlarsa, azərbaycanlılar Aran yerlərdə yaşayaraq ayda 250-300 rubl qazanırlar. Və belə qərara gəlirdi ki, gərək erməniləri gəliri çox verən yerlərə köçürək (32).

Ermənilər isə erməniləşmə siyasətlərinə müxtəlif rəng ve-

rərək onu illərlə davam etdirirdilər. İkinci dünya müharibəsindən sonra dünya ermənilərini SSRİ-yə köçürülmək məsələsi qaldırıldı. Repatriasiya (vətənə qayıtmaq) bir neçə məqsəd güdürdü. Daşnakların məqsədi bu adla Ermənistan üçün SSR-dən (yəni Gürcüstan və Azərbaycandan) yeni torpaqlar tələb etmək, Ermənistanın rəhbərlərinin məqsədi isə heç olmasa, yer azlığı adı ilə azərbaycanlıları Ermənistandan sürgün etmək idi. Qərb ölkələrinin marağı da qərb düşüncəli adamları SSRİ-yə köçürməklə orada yeni siyasi iqlim yaratmaq idi. Mənə belə gəlir ki, bunların hamısı öz məqsədinə bir növ nail oldular. Misal üçün, Ermənistan KP başçısı Arutyunyan Dağlıq Qarabağı Ermənistana verilməsi məsələsini Moskva qarşısında qaldırdı. Azərbaycan bundan rəsmi imtina edəndən sonra onlar başqa üsula əl ataraq Ermənistanda torpaq azlığından azərbaycanlıların oradan köçürmək məsələsini qaldırdılar və buna həmin dövrdə qismən nail oldular.

Repatriantlardan biri Z.M.Suvaryan SSRİ-yə köçərək Ermənistanda deyil, əsli qarabağlı olduğundan Qarabağda məskunlaşmaq xahişini etdi və buna nail oldu. O, Qarabağa köçərək "referendum" nəticəsində Ermənistana birləşdirmək fikrini təbliğ etdi. O, hətta Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin birinci katibi Tiqran Qriqoryanla sıx əlaqə yaratmış və onun himayəsi altında bu fəaliyyəti həyata keçirirdi. Bundan başqa o, görkəmli erməni şairi Avetik İsaakyanı Qarabağa gətirdərək onunla kəndbəkənd gəzib əhali arasında Ermənistana birləşmək ideyasını təbliğ edirdi (33).

1. Şutlevort. Briqada generalı. Azərbaycandakı şəraitin qiymətləndirilməsi. 1919. 26.8. Foreign Office Archives.
2. Нариманов Н. Взгляд на захват Кавказа. Февраль 1919. – Избранные произведения. Т.2, Баку, 1989, с.194-195.
3. Декреты Советской власти. с.298-299.
4. Шаумян С.Г. Избранные произведения. Т.2, с.257.

5. Orijinalda"армянской слепоты".
6. Rus şovinist-millətçilərdən.
7. Ленин В.И. ПСС, т.48, с.302.
8. Ленин В.И. ПСС, т.48, с.233-236.
9. Ратгаузер Э. Революция и гражданская война в Баку. 1927, с.107.
10. Yəni sinfi műharibə.
11. Шаумян С.Г. Избранные произведения. Т.2, с.246.
12. АРДА, ф.1061, сий.1, иш 95, в.5-8.
13. "Бакинский рабочий" qəzeti, 1923, 15 mart.
14. ARDA, f.970, siy.1, iş 1, v.38.
15. Yenə orada.
16. Мусабеков Г. Октябрьская революция и основные достижения Советской власти в Азербайджане (К 10-летию Октября),Баку, 1927.
17. Rəsmi adı "Russovet" idi. Bu təşkilat keçmiş çar qvardiya zabitlərindən ibarət idi. Cənubi Qafqaz şəhərlərində bőlmələri var idi. Denikinin qərargahı ilə sıx əlaqədə idilər. Bakıdakı qərargah Denikinin cəsuslarının toplumu idi və hőkűmətə qarşı əks fəaliyyətdə idi.
18. Bőyűk Britaniya hərbi missiyasının 1919-cu il fevral məlumatından. Foreign Office Archives.
19. Azərbaycanda vəziyyət. 1919, fevral. Foreign Office Archives.
20. Qorton R.İ.Q. Briqada generalı, 1918-ci il 8 dekabr tarixli məlumat. Foreign Office Archives.
21. Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair. Bakı, Azərnəşr, 1992, s.413.
22. Yenə orada, s.413.
23. Yenə orada, s.415.
24. Yenə orada, s.400.
25. Yenə orada, s.401.
26. Yenə orada, s.413.
27. Yenə orada, s.414.
28. Yenə orada, s.415.
29. ARDA, f.28s., siy. 1c., iş 570, v.48 arxa.
30. ARDA, f.28s., siy. 1c., iş 570, v.22.
31. http://www.arax.ru/sovietic.html | 09.05.2003. İnternet.
32. Караев А., s.41.
33. Məlumatı Ermənistan DTN-sin məlumatına əsasən Azərbaycanın DT Naziri Yemelyanov tərtib etmişdir. APSPİHDA, f.1, siy.291, iş 78, s.119-121.

# SİYASİ LİDERLƏR VƏ İCTİMAİ-SİYASİ İDEALLAR. MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ

**Hamlet İSAXANLI**

*M.Ə.Rəsulzadə - haqqında danışılan, yazılan, son 15-20 ildə isə Azərbaycan, Amerika, Avropa və Rusiya tarixçiləri və publisistləri tərəfindən, yəqin ki, ən çox öyrənilən siyasi xadim. Geniş əhatəli siyasi fəaliyyətlə yanaşı milli azadlıq hərəkatı haqqında çoxsaylı analitik xülasələr müəllifi olan siyasət tarixçisi. Azərbaycanda, İranda, Türkiyədə və Avropada qəzet və dərgilərdə çalışan naşir, redaktor, fəal və mübariz jurnalist. Azərbaycan və Şərq ədəbiyyatına aid orijinal əsərlər yazmış ədəbiyyatçı və nəhayət, yazıçı və tərcüməçi.*



Böyük siyasət adamları olan Əlibəy Hüseynzadə (1864-1940), Əhməd Ağaoğlu (Ağayev) (1869-1939), Nəriman Nərimanov (1870-1925), Məmməd (Məhəmməd) Əmin Rəsulzadə (1884-1955) həm də yazıb-yaradan mütəfəkkir insanlar idi. Əlimərdan bəy Topçubaşovu (1865-1934) da bu sıraya daxil edib digər onlarla görkəmli siyasətçilərin əməyini və millət qarşısında xidmətlərini qətiyyən azaltmadan deyə bilərik ki, bu böyük beşlik 20-ci yüzilliyin birinci rübündə siyasi mühiti formalaşdıran və ictimai-siyasi cərəyanları istiqamətləndirən gücə və nüfuza malik olmuşdur. N.Nərimanov istisna olmaqla, onlar həmin yüzilliyin ikinci rübündə də qismən fəaliyyətdə olmuş,

M.Ə. Rəsulzadə isə əsrin ikinci yarısına da qədəm qoymuşdur. Bu beşlik həmçinin Türk dünyasında, müsəlman şərqində, Rusiya və qismən Avropada tanınmış, siyasi həyata yaradıcı təsir etmişdir.



Siyasi plüralizmin bərqərar ola bilmədiyi, hakimiyyət uğrunda mübarizənin ölüm-dirim davasına çevrildiyi, sözləri və hərəkəti arasında ziddiyyətlərin dayandığı sovetləşmə dövründə zamanın bu böyük burulğanı içində böyük siyasi liderlərə öz vətəni Azərbaycanda yaşamaq, çalışmaq və ölmək qismət olmadı. Əvvəlcə Ə.Ağaoğlu (1908) və Ə.Hüseynzadə (1910), Azərbaycan sovetləşmə ərəfəsində olarkən Ə.Topçubaşov və M.Ə.Rəsulzadə, bir qədər sonra isə N.Nərimanov Azərbaycandan ayrılmalı oldular. Topçubaşov Parisdə, Ə.Hüseynzadə, Ə.Ağaoğlu və M.Ə.Rəsulzadə Türkiyədə, Nərimanov Moskvada dünyalarını dəyişib torpağa qovuşdular.

İctimai-siyasi ideallar ədəbi və siyasi liderlərin fəaliyyəti və yaradıcılığının məhsuludur.

Biz burada geniş mənada ədəbi-ictimai-siyasi həyatın deyil, başlıca olaraq siyasi həyatın, siyasi hərəkatın liderləri haqqında söhbət açırıq. Nəcəf bəy Vəzirov, Cəlil Məmmədquluzadə, Sabir, Üzeyir bəy Hacıbəyov, Əbdürrəhim bəy Haqverdiyev və digər tanınmış yazıçı və sənət adamları, şübhəsiz ki, ictimai-siyasi həyata böyük təsiri olan insanlar idi, sadəcə, ədəbiyyat və mədəniyyət xadimləri, bəzi istisnalarla, siyasətlə bilavasitə məşğul olmurdular; Üzeyir bəyin "İttihad" partiyasında, Y.V.Çəmənzəminlinin və gənc Cəfər Cabbarlının "Müsavat"da fəaliyyəti bu istisnalara aiddir. Ümimiyyətlə desək, hər iki sahəni, siyasəti və yazıçılıq fəaliyyətini özündə eyni

dərəcədə birləşdirmək işində N.Nərimanovu daha művəffəq hesab etmək olar.

20-ci yűzilliyin əvvəllərində ictimai-siyasi həyatın əsas műzakirə mővzuları hansılar idi? Siyasi fəallığa qida verən əsas ideyalar nədən ibarətdi?

A.Bakıxanovun yaradıcılığında hiss olunacaq dərəcədə iz buraxan, M.F.Axundzadə (Axundov) tərəfindən əsaslandırılan və təbliğ olunan, Həsən bəy Zərdabinin bőyűk őnəm verdiyi *avropalaşma* (və ya tam űst-űstə dűşməsə də, *műasirləşmə*) fikri, Cəmaləddin Əfqani, Ə.Hűseynzadə və gənc Ə.Ağaoğlunun irəli sűrdűkləri İslam mədəniyyətinin űstűn rolu və ya islamlaşma, M.F.Axundzadənin yaradıcılığı ilə (şəxsi fikirləri ilə deyil!) və digər tűrkdilli yazıçı və publisistlərin əməyi ilə hazırlanan, Ə. Hűseynzadə, Z.Gőkalp və Ə. Ağaoğlu və başqaları tərəfindən əsaslandırılan və inkişaf etdirilən tűrkçűlűk…

Birinci rus inqilabı ərəfəsində beyinlərdə dolaşan ən populyar cərəyan tezliklə aparıcı ictimai ideyaya çevrilən sosial-demokrat hərəkatı oldu. Bu hərəkatın liderləri N.Nərimanov və M.Rəsulzadə idi. Bir tərəfdə isə yazıçı, şair və publisistlərin yavaş-yavaş arenaya çıxarmağa başladığı yeni dűşűncə – azərbaycançılıq boy gőstərirdi. Mirzə Cəlil, Ű.Hacıbəyov bu cərəyanın ən gőrkəmli nűmayəndələri idi. Onların həyat və yaradıcılığından qırmızı xətlə keçən bu fikrin parlaq nűmayişi kimi "Anamın kitabı" və "O olmasın, bu olsun"u yada salmaq kifayətdir. Əlbəttə, A.Bakıxanov, M.F.Axundov, Həsən bəy Zərdabi kimi műtəfəkkirlərin bőyűk ciddiyyətlə irəli sűrdűkləri, adları çəkilən və çəkilməyən dəyərli ziyalılarımızın məslək və amalına çevrilən maarifçilik hərəkatı xűsusi mővzudur və xűsusi diqqət tələb edir. Cəmiyyətin inkişafı haqqında dűşűnəndə, geriqalmışlığın aradan qaldırılması yolları arananda maarifçilik heç nə ilə əvəz olunan deyildi, hər şeydən əvvəl gəlirdi.

Maarifçilik istisna olmaqla yuxarıda qeyd edilən ideyalardan, cəmiyyətin inkişafı yolunu müəyyən etməli olan ictimai-siyasi ideallardan hər birinin liderləri və qızğın tərəfdarları olduğu kimi əleyhdarları da vardı. İdeyalar uğrunda gedən mübarizə, öz idealının yeganə doğru yol olduğunu sübut etmək üçün sərf olunan istedad, zəka, enerji və təşkilatçılıq qabilliyyəti – bunlar idi tərəqqinin ümidi və sirri. Təbii ki, siyasi və ədəbi-publisistik hərəkata ilham verən, onu qızışdıran, onu irəli aparan rəqabət və mübarizə liderləri qarşı-qarşıya qoyur, onları çox vaxt barışmaz hala gətirir. Azərbaycan kontekstində buna aid irəlidə kiçik işarələr olacaq (hərçənd ki, məqsədimiz bu deyil), kənardan isə bizim məsələlərlə və dövrlə səsləşən bir misal gətirməklə kifayətlənəcəyik: 1920-21-ci illərdə Hindistanın Böyük Britaniya ilə münasibətlərinin keyfiyyətcə yenidən qurulması yolları barədə iki böyük hind patriotu – Mahatma Qandi və Rabindranat Taqor arasında gedən, qarşılıqlı hörmətə baxmayaraq onları bir-birinə qarşı qoyan sərt polemika dünyaya səs salmışdı.

Bir çox hallarda  tarixi keçmişimizə öz siyasi mənsubiyyəti və idealları ilə yanaşan tədqiqatçı və ya publisist o zamanın mübarizə mənzərəsinə yeni rənglər qatmaqla ya onu qatılaşdırır və ya "milli iş, milli birlik naminə", ya da tarixi şəxsiyyəti ideallaşdırmaq  məqsədilə müəyyən faktların üstünü vurmamağı lazım bilir. O günlərin mübarizəsi çox zaman müxtəlif bucaqlar altında günümüzə proyeksiyalanır, məsələn, günümüzün Nərimanovçuları ilə Rəsulzadəçiləri arasında qovğaya çevrilir; adətən ikincilər kəskin hücuma keçir, birincilər isə müdafiədə dayanır, tək-tək hallarda əks-hücuma keçirlər.

(Küləyin hara əsməsindən asılı olaraq bu hücum-müdafiə istiqamətləri dəyişə bilir). Ayrı-ayrı səhnələr, maraqlı fraqmentlər araşdırılıb üzə çıxarılsa da, o günlərin tam və gerçək mənzərəsi hələ çəkilməyib desək, dəyərli tədqiqatçılar qarşı-

sında yəqin ki, böyük günah işlətmərik. Sirli və dumanlı pərdəsi heç zaman tam açılmayan həqiqət adlı elmi ideala yaxınlaşmaq üçün büt yaratmaq fikrindən daşınaraq, sistemli və uzunmüddətli araşdırmalar aparılmasına ehtiyac duyulur.



Böyük beşliyin yaşca ən kiçiyi olan M.Ə.Rəsulzadə ömrünün 50 ildən artıq böyük bir hissəsini getgedə güclənən və nəticədə aparıcı ideyası Azərbaycan muxtariyyətindən müstəqil Azərbaycan dövlətçiliyinə çevrilən siyasi mübarizəyə və siyasi yazıçılığa həsr etdi. Tale Məhəmməd Əminə ömrünün yarıdan çoxunu əhatə edən bir mühacirət həyatı hazırlayıbmış. Maddi və mənəvi çətinliklər, mühacirlərarası ziddiyyətlər və çəkişmələr onu öz mübarizə yolundan döndərə bilmədi. Bu ağır, məşəqqətli dövr ərzində onun siyasi iradəsi, əzmi və inamı zəifləmədi, əksinə, yaş artdıqca daha da gücləndi, qələmi dayanmadı, daha da iti yazdı və dərinə işlədi.

Siyasi mədəniyyətin yüksək olmadığı ölkədə siyasi mübarizənin və milli hərəkatın canı bir tərəfdən siyasi partiyaların və qeyri-hökumət təşkilatlarının qurulması, siyasi plüralizmin formalaşması ilə, digər yandan isə milli mətbuatın inkişafı ilə bağlıdır. M.Ə.Rəsulzadə öz həyatı, mübarizəsi və yaradıcılığı ilə bu fikrə işıq tutmuş, bu fikrin gerçəkliyə qovuşması üçün böyük əmək sərf etmişdir. O, gəncliyindən ictimai birliklərin yaradılmasını vacib hesab etmiş, xeyriyyə və maarifçiliklə məşğul olan cəmiyyətlərdə fəallıq göstərmiş, o zamankı Azərbaycanın ən güclü partiyası olan "Müsavat"ın sədri və baş ide-

oloqu olmuş, Tűrkiyə və Avropada siyasi məramlı dərnəklər qurmuşdur. Azərbaycan tarixində heç kəs Məhəmməd Əmin qədər műxtəlif coğrafiyada - Qafqazda, İranda, Tűrkiyədə, Avropa őlkələrində műxtəlif mətbu orqanların - qəzet və jurnallarin naşırı və redaktoru olmayıb. O, Ə.Ağaoğlu ilə bərabər, Azərbaycan tarixində ən çox siyasi-publisistik məqalələr və kitabçalar yazan műəlliflər sırasındadır (onların, həmçinin digər yaradıcı siyasi liderlərin əsərləri kűllisi, təəssűf ki, nəşr olunmayıb). Y.Akçura Əhməd bəyin zarafatla dediyi sőzləri xatırlayır: "Hayatımda yazdığım makaleler, hepsi bir araya getirilse Bakű'den İstanbul'a kadar bir geniş yol meydana getirebilir".

18 yaşından siyasətə qoşulan Məhəmməd Əmin tezliklə qələmə də qurşandı, 1906-cı ildən başlayaraq yazıları sıxlaşdı, mővzuca kifayət qədər rəngbərəng oldu - siyasət, təhsil, mədəni və iqtisadi məsələlər, ədəbi əsərlər. Bu, siyasətdə sosialist dűşűncəsinin gűcləndiyi və millətçiliyin oyanmağa başladığı, Məhəmməd Əminin isə qələmini itilədiyi dővr oldu. Dűnyada və bőlgədə baş verən hadisələr, o cűmlədən 1905-ci il Rus inqilabı, bir az sonra İranda başlanan Məşrutə inqilabı, Osmanlıda aparıcı gűcə çevrilən Jőn (Gənc) Tűrklər hərəkatı, Erməni-Műsəlman davası adlanan qanlı qarşıdurma, ermənilərin qurduqları "Daşnaksűtun" və digər siyasi partiyaların antiazərbaycan, antitűrk siyasəti Azərbaycanda da siyasi oyanma və siyasi təşkilatlanmaya gətirib çıxardı. "Hűmmət" (N.Nərimanov, M.Ə.Rəsulzadə, M.Əzizbəyov və b.), "Difai" (Nəsib bəy Yusifbəyli, Ə.Ağaoğlu və b.), "Űmumrusiya Műsəlmanları İttifaqı" (Ə.Topçubaşov, İ.Qasprinski, Y.Akçura və b.) siyasi partiyaları və gőrűnməmiş vűsət alan mətbuat bu oyanma və təşkilatlanmanın nəticəsi idi (və onlara xidmət edirdi). Rusiyada Kazan və Krım tatarları, Azərbaycan tűrkləri, Osmanlıda İstanbul intellektualları bir-biri ilə sıx əlaqədə idi, bir yerdə

doğulan ideya onların arasında dolaşır, dövr edir, digər yerlərdə davamını tapır, güclənirdi. "Siyasi fəallıq qan qohumluğu barədə böyük inam yarada bilər" (M.Weber).

1908-1911-ci illər M.Ə.Rəsulzadənin İran dövrüdür. İranı gəzib-dolaşdı, Məşrutə inqilabının içində yaşadı, fəaliyyət göstərdi. Səttarxan, Bağırxan, Seyid Həsən Tağızadə ilə yaxindan tanış oldu. "Tərəqqi" qəzetində maraqlı "İran məktubları"nı çap etdirdi. Sosial-demokratlara rəqib olan siyasi partiyaların tənqidinə həsr olunmuş xüsusi əsər yazdı. İran sosial-demokrat partiyasının orqanı rolunu oynayan "İran-i Nou" adlı Avropa tipli ilk İran qəzetinin redaktoru oldu. Fars dilini ciddi şəkildə inkişaf etdirməyə girişdi; bu, ona sonralar da, farsdilli ədəbiyyata aid əsərlər yazarkən lazım gələcəkdi. "İran-i Nou" qəzetinin ictimai-siyasi mühitə və İranda jurnalistikanın inkişafına təsiri misilsiz idi. Anti-imperialist və anti-Rusiya ağırlıqlı, lakin rus sosial-demokratları ilə həmrəylik ruhunda təqdim olunan dünya və bölgə xəbərləri və əlbəttə, milli məsələlər qəzetin əsas məğzini təşkil edirdi. Oxucularının siyasi və ədəbi zövqünü də formalaşdırmağa çalışan qəzet İranda ilk dəfə marksizmin əsas müddəalarını ciddi şəkildə izah edir, "Kommunist Partiyasının manifesti", "Kapital", "Siyasi iqtisadın tənqidinə dair" kimi əsərlərin şərhinə girişir, gənc Lahuti və Məlik əl-Şüarə Baharın şerləri ilə yanaşı L.Tolstoy və A. Dümadan farscaya tərcümələr verirdi. "İran-i Nou"dakı uyğun yazılardan təsirlənən Tehran qəzetlərinin çapçıları İranda ilk həmkarlar ittifaqı yaradılmasını bəyan edərək nümayişə çıxmışdılar.



S.H.Tağızadə və M.Ə. Rəsulzadənin mühüm rol oynadıqları sosial-demokratların Bakıda fəaliyyət göstərən İran sosial-demokratları ilə, eləcə də artıq Tehranda yaşayan Səttarxan və Bağırxanla ciddi mövqe fərqləri də bu zamana təsadüf edir. İrandakı qüvvələr nisbətinin dəyişməsi və Rus diplomatlarının təzyiqi nəticəsində M.Ə. Rəsulzadə 1911-ci ilin mayında İranı tərk edib Türkiyəyə getməyə məcbur oldu.

Rusiyanı inqilaba hazırlayan sosial-demokrat hərəkatına qarşı hökumətin qəzəbi siyasətdə kəsərli sözü olan heç kəsdən yan keçmədi. Ya təhlükəli gizli fəaliyyətə keçməli, ya da mühacirətə getməli - başqa yol qalmamışdı. Millət işi ilə məşğul ola bilən savadlı liderlərin varlığını həyati vacib hesab edən Ü. Hacıbəyov 27 avqust 1909-da "Tərəqqi" qəzetində yazırdı: "...Üzümüzü ağardan və haqqımızın paybəşik olmasına namusi-millisi yol verməyənlərimiz var idisə, o da Əhməd bəy idi. Onu vətəndən qaçırtdılar...Əhməd bəydən keçəndən sonra doktor Qarabəy Qarabəyov idi (həkim, jurnalist və ictimai xadim, 1874-1953, H.İ.). Onu da vətəndən qaçırtdılar. Bunlardan başqa, Əlimərdan bəy Topçubaşov idi, onu da vətəndən qaçırtdılar. Bunlardan savayı doktor Nəriman Nərimanov idi, onu da qazamata saldırıb, bir bölük külfətini ac qoydurdular". Çoxları üçün ən uyğun yer Türkiyə idi. Məhəmməd Əminin yaxından dostlaşdığı və oxşar, hətta daha ciddi səbəblər üzündən İrandan ayrılan S.H.Tağızadə, eləcə də Azərbaycandan Ə.Ağaoğlu və Ə.Hüseynzadə də orada idilər (uyğun olaraq 1908-in sonlarından və 1910-dan etibarən). Türkçülük, türk millətçilik tarixində xüsusi yeri olan Volqa tatarı Yusuf Akçura (Akçurin, Akçuraoğlu) da Ə.Ağaoğlu ilə təxminən eyni vaxtda İstanbula gəlmişdi. Y.Akçura 1904-cü ildə Qahirədə nəşr olunan "Türk" qəzeti səhifələrində "Üç Tarz-ı Siyaset" adlı məqalə yazmış və Osmanlı dövlətinə və xalqına xitabən "Osmanlıcılık, İslamcılık ve Türkçülük" şüarını ortaya atmışdı. "Os-

manlıcılık" dedikdə birinci növbədə dövlətçilik (Osmanlılar üçün!) nəzərdə tutulurdu. Ə.Hüseynzadə də əvvəllər yazdığı, amma həmin ildə həmin qəzetdə işıq üzü görən "Mektub-ı Mahsus" məqaləsində və 1905-1906-cı illərdə "Həyat" qəzeti və "Füyuzat" dərgisində çap olunan məqalələrində siyasi Türkçülüyün və Turançılığın əsas müddəalarını bəyan etmiş, o cümlədən özünün məşhur "Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq" şüarını səsləndirmişdi. Bu üçlüyün sonuncu maddəsi, yəni Avropalaşmaq, Y.Akçuranın mövcud dövlətçiliyi gücləndirməyə, müəyyən mənada keçmişi diri saxlamağa çağıran "Osmanlıçılıq" maddəsi əvəzinə gələcəyə doğru hərəkət etmək, Avropa mədəniyyətini mənimsəmək şüarı idi. "Kısacası Hüseyinzade Ali Bey, … merkez Osmanlı devleti olmaq üzere, Türkçülük, Bütün Türkçülük, hətta Panturanistlik fikri akımına ilk açıklık veren adamdır…. Onun şairene Turancılığı, 1908-den sonra, İstanbul'da diğer Turancıları, başlıca Gökalp Ziya'yı yaratmıştır" (Yusuf Akçura). Ə.Hüseynzadədən sonra Türkçülüyün sistemli nəzəriyyə kimi daha da inkişaf etdirilməsi Ziya bəyin üzərinə düşdü.



Eyni dövrdə və daha əvvəllərdə siyasi və mədəni türkçülüyün inkişafı istiqamətində İsmayıl bəy Qasprinskinin və Ə.Topçubaşovun oynadıqları mühüm rol da xüsusi qeyd olunmalıdır. Əlbəttə ki, M.F.Axundzadənin sadə xalq dilində yazdığı komediyalarının və Həsən bəy Zərdabinin "Əkinçi" qəzetinin Azərbaycanda ədəbi-ruhi türkçülüyün və azərbaycançılığın sonrakı gedişinə göstərdiyi həlledici təsirdən heç cür yan

keçmək olmaz. Osmanlıda isə 1899-da nəşr edilən kiçik "Türkcə Şiirler" kitabçası Türk dili və Türk millətçilik coşğusunun uvertürasına çevrildi, fəxrlə

*Ben bir Türküm, dinim, cinsim uludur*

deyən müəllif - Mehmet Emin bey Yurdakul milli şair ünvanı qazanaraq, türk dilinin ən təbii və gözəl nümunələrini və türklüyə dərin sevgini nümayiş etdirdi. Mehmet Emin bey Osmanlı lisanı adlanan və ərəb, fars, türk dillərinin qarışığı olan bir dil əvəzinə sadə xalq türk dilini səhnəyə çıxarmaqla türkçülüyə, milliyyət hissinə meydan açdı.

Siyasiləşməni hazırlayan bünövrə öncə ədəbiyyat, arxasınca mətbuatdır.

Türkçülük hərəkatının belə geniş vüsət aldığı İstanbula gələn M.Ə.Rəsulzadə adlarını çəkdiyimiz siyasi liderlərin və ideoloqların hamısından gənc idi. O, öyrətməyə deyil, öyrənməyə gəlmişdı (Burada Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Z.Gökalp kimi nüfuzlu nəzəriyyəçilər və müəllimlər vardı). İrandakından fərqli olaraq Məhəmməd Əminin İstanbulda yeni qəzet təsis etməsinə də o qədər ehtiyac yoxdu; "Türk Yurdu" dərgisi və "Türk Ocağı" cəmiyyəti geniş fəaliyyət göstərirdi. Burada Məhəmməd Əmin hamıdan yaxşı bildiyi bir sahəni işıqlandırmağı qərara aldı, "Türk Yurdu"nda "İran Türkləri" adlı yazılarını çap etdirdi.

İran və İstanbul təcrübəsi ilə yetkinləşmiş siyasətçi kimi 1913-də Bakıya qayıdan M.Ə.Rəsulzadə "Müsavat" partiyasının əsas ideoloquna çevrildi, milli tərəqqi məsələlərini araşdıran məqalələrini yazdı, Rusiya müsəlmanlarına Rusiya daxilində bərabər hüquqlar əldə etmək məqsədi güdən sosial-demokrat və islami-türk əsaslı siyasi proqram irəli sürdü. O, geniş əhatəli və cəlbedici programı olan "Müsavat"ı sistemli şəkildə görülən işlərin nəticəsində ciddi bir partiyaya çevirmə-

yi bacardı; 1915-də nəşrinə başladığı "Açıq söz" qəzeti də bu məqsədə xidmət edirdi.

Rusiya tarixində yeni səhifə açan 1917-ci il Fevral inqilabı rus milləti içindəki qarşıdurmanı daha da dərinləşdirdi, hakimiyyət uğrunda mübarizə şiddətləndi. Bu vurhavurda qeyri-rus millətlər tamam çaş-baş qalmışdı. Nə olacaq? Nə etməli? Kiminlə bir yerdə olmalı? Kimə arxalanmalı? Burada hadisələrə mümkün qədər soyuq məntiqlə, hiss-həyəcansız, bu günün deyil, baş verdiyi zamanın gözü və gözləntiləri ilə baxmağa ehtiyac var.

1917-ci il, 15-20 aprel, Bakıda Qafqaz müsəlmanlarının qurultayı və 1-11 may, Moskvada Rusiya müsəlmanlarının qurultayı Məhəmməd Əminin qızğın təbliğ etdiyi Rusiyanın ərazi-muxtariyyət prinsipi əsasında qurulması fikrinə səs verdi. Beləliklə, M.Ə.Rəsulzadə Ə.Topçubaşovla birlikdə milli muxtariyyət uğrunda mübarizəyə liderlik etməyə başladı. Ə.Hüseynzadə hadisələri uzaqdan - İstanbuldan izləyirdi. Osmanlı ordusunun müşaviri rolunda 1918-də Bakıya dönən Ə.Ağaoğlu 1919-da Versal konfransına gedən nümayəndə heyətinin tərkibində, bu dəfə həmişəlik, Azərbaycandan ayrılacaqdı. N.Nərimanov isə eyni ərazi-muxtariyyət prinsipini və millətlərin öz müqəddəratını təyin etmək hüququnu sosial-demokratlarla, RSDFP ilə bir olmaq vasitəsilə həyata keçirmək düşüncəsində və niyyətində idi.

Milli əyalətlərdə bolşeviklər nisbətən zəif idilər, 1917-nin oktyabrında Bakı Sovetinə seçkilərdə olduğu kimi - bolşeviklər Müsavat, Eserlər və Daşnaksütundan sonra yalnız dördüncü yeri tutmuşdu. Lakin Mərkəzi Rusiyada bolşeviklərin hakimiyyəti ələ alması və xalqlara azadlıq vəd etməsi onların əyalətlərdə və milli ərazilərdə də güclənməsinə təkan verirdi. Mövcud siyasi cərəyanlardan yalnız və yalnız özlərini bolşevik adlandırmış bu qüvvələr millətlərə azadlıq və dövlətçilik ver-

məyi öz proqramlarına daxil etmişdilər. Get-gedə güclənən bu haqq-ədalət və bərabərlik carçıları ilə niyə də birlikdə olmayasan?! Görünür ki, müstəqil milli dövlətlərin ayaq üstə durması və yaşaması vaxtı yetişməmişdi, tarix hələ Rusiya imperiyasını dağıtmaq həddinə gəlib çatmamışdı (Uzun zaman can verməkdə olan Osmanlının isə dağılacağı gözlənilirdi, daha doğrusunu desək, böyük dövlətlər tərəfindən planlaşdırılmışdı). Üstəlik, bolşeviklərlə üz-üzə duran, ölüm-dirim savaşına çıxan rus siyasi və hərbi müxalifəti Rusiyanı unitar dövlət kimi bərpa etmək fikrini açıq elan etmişdi. Nərimanov bunu görürdü, əks yolu - bolşeviklərsiz dövlət qurmaq siyasətini o, "xalqın həyatı ilə cinayətkarcasına oynamaq", xalqı aldatmaq, reallıqdan uzaqlaşdırmaq, fəlakətə sürükləmək kimi qiymətləndirirdi. N.Nərimanov və M.Ə.Rəsulzadə, milli hərəkatın bu iki görkəmli lideri ayrı-ayrı yollarla getsələr də, hər ikisi güclü milli hissiyata malik sosial-demokrat düşüncəli siyasətçi idi, hər ikisi Azərbaycan adlı dövlətin qurulması arzusunda idi.

Bolşeviklərin Rusiyadakı 1917-ci il, Oktyabr qələbəsindən sonra milli partiyaların (Müsavat, Menşevik, Daşnaksütun və s.) Ümumzaqafqaziya dövlətçiliyi axtarışı (Zaqafqaziya Seymi) bolşeviklərlə yolların tam ayrıldığını göstərdi (1918, yanvar-aprel). Bakıda baş verən mart qırğını bolşeviklərlə "Müsavat"ı bir-birinə tam düşmən etdi; Bakı bolşeviklərin əlinə keçdi (aprel-iyul). Nəhayət, Osmanlı ultimatumunun və alman-gürcü münasibətlərinin doğurduğu ifrat qarışıq vəziyyətdə Qafqazlılar müstəqillik yoluna qədəm qoydular, o cümlədən bolşeviklərlə işbirliyində olmayan Azərbaycan liderləri öz müstəqil dövlətlərinin - Azərbaycan Demokratik Cümhuriyyətinin yaradıldığını elan etdilər (28 may 1918). Bu ərəfədə M.Ə.Rəsulzadə Milli Şuranın sədri seçildi. İlin sonunda Parlament yaradıldı, Azərbaycan siyasətçilərinin ağsaqqalı Ə.Topçubaşov sədr seçildi, Məhəmməd Əmin isə yalnız Müsavat fraksiyasının

lideri rolunda parlamentçilikdə iştirak edirdi. Bu vəziyyət sonralar mühacirətdə dedi-qodu və çəkişmə mövzusu olacaqdı…

23 aylıq Azərbaycan Demokratik Cümhuriyyəti böyük güclər-dövlətlər tərəfindən de-yure tanınmasa da, hökumət böhranı keçirsə də, hərbi gücü zəif olsa da, milli ruhun yüksəlişi, milli siyasət, parlamentarizm və idarəetmə sınağı, Azərbaycan adının və ideyasının möhkəmlənməsi baxımından Azərbaycan tarixinin şanlı səhifəsi hesab olunur. Sadəcə, müəyyən mənada qəflətən baş verən müstəqillik uyğun ictimai-siyasi-mədəni zəmin üzərində dayana bilmirdi. Allahdan gizli deyil, bəndədən nə gizlətmək - qonşularımız gürcülər və ermənilərlə müqayisədə milli özünüdərketmə məsələsində biz zəif idik. Kütlənin savadsızlığı və hadisələrin axarını başa düşməməsi, bir-birinə zidd cərəyanların qarşıdurması, hökumətin və parlamentin qərarqəbuletmədə bəzən çaş-baş qalması, vəziyyətin dayanıqlı olmadığından xəbər verirdi. Böhrandan çıxa bilməyən, yüksəlişə nail olmayan, beynəlxalq aləmin, bəzi böyük güclərin köməyinə arxalana bilməyən, daxilində narazılar və xaricində - qonsuluğunda düşmənləri olan dövlətqurma cəhdinin, gözəl ideallara söykənsə də, iflas edəcəyi gözlənilməli idi. Bu şəraitdə hər hansı bir səlis, rəvan siyasət aparmaq ağlabatan deyil. Bir misal: təhsil və dil siyasətinə böyük əhəmiyyət verən Cümhuriyyət dövrü məktəblərdə tədris dili olaraq osmanlı ləhcəsi, yeni yaradılmış Bakı Universitəsində isə rus dili seçilmişdi, Parlamentin sənədləri rusca yazılırdı, Azərbaycan türkcəsinə yer yoxdu…

1919-20-ci illərlə müqayisədə Azərbaycanın 1990-91-ci illərdəki vəziyyətinin müstəqil dövlət qurmaq üçün nə qədər əlverişli olduğunu görmək çətin deyil.

Atatürklə Leninin hər iki tərəfə zəruri olan müttəfiqlik qətiyyəti və bolşevik ordusunun Qafqaza doğru irəliləməsi Azərbaycan Cümhuriyyətinin tezliklə süqut edəcəyindən xə-

bər verirdi. Ümumiyyətlə, böyük güclərin hərbi və mənəvi-psixoloji təzyiqinə məruz qalan və savaşa çıxdığı qonşuları qarşısında özünü qorumağa çalışan Türkiyə bolşevik Rusiyası ilə əməkdaşlıq etməyən Azərbaycanın əlahiddə maraqlarını müdafiə etmək niyyətində ola bilməzdi. Əksinə, Türkiyə ona köməklik göstərən Rusiya bolşevik hökuməti ilə əməkdaşlıq edən bir Azərbaycan arzusunda idi.

Denikinə müharibə elan etmək vasitəsilə bolşeviklərin müttəfiqi olmaq imkanını Azərbaycan hökuməti qaçırmışdı, sadəcə istəməmişdi. Buna əsas səbəb, yəqin ki, Qərbin əvvəllər yaxın qoymaq istəmədiyi yeni cümhuriyyətləri indi bolşeviklərin əleyhinə vahid cəbhədə birləşdirmək fikri ilə onlara kömək vəd etməsi olmuşdu.

Azərbaycan siyasi elitasında bolşeviklərlə dil tapmaq istəyənlərin sayı günbəgün artırdı. Artıq 1919-un axırlarında Müsavatın M.Ə. Rəsulzadə və M.Hacınskinin də daxil olduğu sol qanadı bolşeviklərlə yaxınlaşmanı günah iş hesab etmirdi, Fətəli Xan Xoyskinin də təmsil olunduğu sağ qanad isə radikal mövqedə dayanmışdı; bu mövqe fərqləri, gələcək mühacirətdə mübahisə və ayrılığın səbəblərindən biri olacaqdı. Bu şəraitdə gerçəklikdən çıxış edən M.Hacınski ona həvalə olunmuş hökumətin təşkilində bolşeviklərlə işbirliyinə girmək istəyirdi. Lakin artıq hər şeyin həll olunduğunu görən bolşeviklərin belə dostluğa ehtiyacı qalmamışdı. Parlament komissiyası hakimiyyətin bolşeviklərə verilməsi haqqında ultimatumu səsvermə yolu ilə qəbul etmək məcburiyyətində qaldı.

Çoxmillətli Rusiyada bolşevizmin qalib gəlməsinin səbəblərindən biri ideyaların nümayişi və çarpışması dövründə sosialist-kommunist ideyasının milli ideyalara zidd olmaması, əksinə, onların bir-birinə çox yaxın görünməsi, az qala üst-üstə düşməsi idi.

Lahıcda gizlənən Məhəmməd Əmin özünün ən romantik

və orijinal əsərlərindən birini - "Əsrimizin Səyavuşu"nu yazdı. Bu, Onun Azərbaycan, Azərbaycançılıq, Azərbaycanşűnaslıq sahəsində őmrűnűn sonuna kimi yorulmadan və ilhamla yazacağı çoxsaylı əsərlər silsiləsinin başlanğıcı idi. Sonrakı bűtűn əsərlər műhacirətdə yazılacaqdı. Bakıda Stalin tərəfindən həbsxanadan azad edilib Moskvaya aparılan Məhəmməd Əmin 1922-də Tűrkiyəyə qaçmağa művəffəq olmuşdu.

Azərbaycanda isə sovetləşmə başlanmışdı. Maraqlıdır ki, milli hərəkatımızın liderlərindən biri - Tűrkiyədə yaşayan Əhməd Ağaoğlu vətənə - Sovetləşmiş Azərbaycana qayıtmaq istəyirdi, bu cűr xahişlə Nərimanova műraciət etmişdi və cavab almamışdı (bu, yəqin ki, başa dűşűləndir). Sovetləşmə birinci nővbədə ordunun əli ilə, daha doğrusu silahı ilə baş verirdi. Əlbəttə, Nərimanovun xalq içində danılmaz nűfuzundan da istifadə olunurdu. Nərimanov da, őz nővbəsində, nűfuzundan digər istiqamətdə istifadə etməyə çalışırdı. Hər yandan gerçək və xəyali təhlűkə gőzləyən və amansızlaşan bolşevizmi yumşaltmaq, Şərqin Qərb olmadığını bolşevik liderlərinə dőnə-dőnə, təkidlə izah etmək, yalvarmağa qədər getmək də Nərimanovun űzərinə dűşműşdű. O zamanın qeyri-adi ziddiyyətlərindən yoğrulan faciəli vəziyyət bu gűn bəzən fərqli çəkildə izah və şərh edilir, bəzi tədqiqatçılar və publisistlər tarixi şəxsiyyətləri ya dűmağ, ya da qapqara rəngə boyayır. Hadisələrə műxtəlif bucaq altında baxmaq imkanı əldə etmək űçűn bir anlığa bir fərziyyəyə qapılaq, "zehni təcrűbə" yolu ilə suallar verib cavab axtaraq. Əgər Ermənistan Azərbaycandan əvvəl sovetləşsəydi nə baş verərdi? (İndi bizə məlumdur ki, heç cűr yola getməyən hər iki qonşu, eləcə də Gűrcűstan sovetləşəcəkdi, geci-tezi vardı, o zamankı uzaqgőrən siyasətçilər də, yəqin ki, bunu dərk edirdilər…). Bu halda, sovetləşmiş Ermənistan Moskvanın őzűnűnkű olduğu űçűn, Azərbaycan daha bőyűk ərazi itkilərinə məruz qala bilərdimi? Nərimanov bolşeviklərlə

bir olmasa, yəni Sovet Azərbaycanı Nərimanovsuz olsa, nə baş verərdi? Bu sual oyunu ritorika olsa da, düşündürür. Bu yerdə istər-istəməz S.Vurğunun "Vaqif" dramından Vaqifin vəzirlik etdiyi İbrahim xanın sarayı haqda dediyi sözlər yada düşür :

*Mən orda olmasam qan çıxar dizə,*
*Quşlar da ağlayar ellərimizə.*
*Xan məndən utanır, çəkinir bir az,*
*Mən getsəm qırğının hesabı olmaz.*
*O bəzən hirslənib quduran zaman*
*Mənəm zəncirini tutub saxlayan.*

Təəssüf ki, N.Nərimanov bolşevizmin uzun və ağır zəncirini tutub saxlamağa qadir deyildi, amma o, qeyri-müəyyənliyin hökm sürdüyü ağır zamanda zəncirin altına girməklə insanların və torpağın müəyyən nəfəs almasına kömək etdi, onların bir qismini qoruyub saxlaya bildi.

1922-dən 1931-ə kimi Məhəmməd Əmin Türkiyədə mühacirəti vahid mərkəzdə birləşdirmək uğrunda çalışdı, amma buna nə Türkiyədə, nə də Avropada tam müvəffəq ola bilmədi, yəqin ki, bu mümkün də deyildi… 1923-də "Yeni Qafqasiya" jurnalının nəşrinə başladı, kəskin antisovet mövqe tutan jurnal Sovetlərin təzyiqi ilə 1927-də bağlansa da, M.Ə.Rəsulzadə başqa adda jurnallar nəşr etməklə mübarizəni davam etdirirdi. Sovet - Türkiyə əlaqələrinə ziyan vurduğuna görə o, 1931-də ikinci vətəni olan Türkiyəni tərk etməli oldu. Yorulmaq, yavaşımaq, ehtiyatlı dolanmaq, uyğunlaşmaq onun narahat və mübariz təbiətinə uyğun deyildi, nə Azərbaycanda, nə Rusiyada, nə İranda, nə də Türkiyədə onu qəbul etmirdilər. Bu böyük mühacirət dövründə M.Ə.Rəsulzadə ilə Ə.Hüseynzadə və Ə.Ağaoğlunun fəaliyyəti və siyasi görüşləri arasındakı fərqlər də artmışdı (Məhəmməd Əmin Türkiyə hökuməti üçün problemlər törədərkən Ə.Ağaoğlu və Y.Akçura sosialist meylli

olmaqla yanaşı hökumətlə əməkdaşlıq edir, Millət Məclisinə üzv seçilirdilər).

Azərbaycanda isə sovetləşmə davam edirdi. Müstəqil Sovet Azərbaycanı ideyası gerçəkləşmədi, əvəzində Zaqafqaziya Federasiyası təcrübəsi əsasında Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) yarandı. 1918-1920-ci illərin Azərbaycan Cümhuriyyətinin (və ona bənzər digər dövlətçilik təcrübələrinin) sonadək baş tutması üçün zəruri tarixi məqam, beynəlxalq mühit yox idi və milli birlik yaranmamışdı. Səbəblərdən biri də bu xalqların yaxın dövrlərdə dövlətçilik ənənələrinin, xüsusi halda hərbi gücünün olmaması idi, onların müstəqil dövlət qurma cəhdləri beynəlxalq aləmdə ciddi qarşılanmırdı, onları tanımırdılar. Osmanlıda isə vəziyyət nə qədər böhranlı olsa da, böyük ərazi itkiləri labüd olsa da, böyük dövlətçilik tarixi olan bu xalqın dövlətsiz qala bilməsi qəti ağlabatan deyildi. İbrətamiz və maraqlı bir misal: M.Qandi və Hindistan müsəlman liderləri birlikdə Türkiyə ilə həmrəylik nümayiş etdirir, Böyük Britaniyadan bu barədə öz siyasətinə yenidən baxmağı tələb edirdilər. Müstəqil Azərbaycan dövləti isə, nə tez-nə gec, yalnız təbii zamanı yetişəndə yaranacaqdı…

Azərbaycan və digər yeni Sovet Respublikalarının uzun zaman Rusiyadan ayrı tam müstəqil dövlət kimi var olmaları da, bolşeviklər bunu vəd etsələr də, baş tutan iş deyildi. Eyni sosialist dəyərlərini, inqilabi ruhu, beynəlmiləlçilik siyasətini və tarixi keçmişi, xarici müdaxilə qorxusunu, iqtisadi çətinlikləri nəzərdə tutan rus və milli sosializm və sovet quruculuğu ideoloqları tədricən milli-ərazi prinsiplərinə əsaslanan dövlətlərin birliyini yaratmaq fikrində dayandılar. Bu, əslində, milli, ərazi xüsusiyyətlərini ciddi şəkildə nəzərə almaqla vahid dövlət qurmaq ideyası idi. Yalnız Ukrayna və Gürcüstan nümayəndələrinin muxtar respublika kimi Rusiya tərkibinə daxil olmaq fikrinə qəti etiraz etmələri və, əlbəttə ki, Leninin bərabər-

hüquqlu dövlətlərin - respublikaların müqavilə əsasında birliyi fikrindən bir addım da geri çəkilməməsi nəticəsində 1922-23-cü illərdə SSRİ yaradıldı. Beləliklə, SSRİ-də birləşən xalqlar öz müqəddəratını təyin etmək, öz dövlətçiliyini qurmaq, öz dil və mədəniyyətlərini inkişaf etdirmək imkanı əldə etdilər. Zəif, ayaq üstə dayanmağa imkanı olmayan, ciddi surətdə dəstəklənməyən müstəqillik muxtariyyət səviyyəli dayanıqlı dövlətçiliklə əvəz olundu. Bu, hadisələrin təsadüfi axarı deyildi, sosializmin təbiətindən irəli gəlirdi.

Ayrı-ayrı insanlar, ailə və nəsillər, bir qisim siyasətçilər, ziyalılar, böyük hücumlara və haqsızlığa məruz qalan kənd... böyük zərbələr aldı, bu, acı və danılmaz həqiqətdir. Kənddə kollektivləşmə 1917-ci ilin Oktyabrında baş verən inqilabi çevrilişdən daha faciəli, daha ifrat siyasət idi, bu, Sovetlərin sonadək özünü göstərən ən böyük səhvi idi. Eyni zamanda siyasi plüralizm aradan qaldırıldı və siyasi diktatura qərarlaşdı, "Yeganə düzgün, ədalətli partiya - kommunist partiyası"nın hakimiyyətini tanımaq və sevmək məsələsi qoyuldu. Sonralar, "inkişaf etmiş sosializm" dövründə partiya elitası özünə "sosializm içində kapitalizm" qurmağı da bacardı.

M.Ə. Rəsulzadə birinci rus inqilabı dövründə sosial-demokrat inqilabçılarla birlikdə siyasi mübarizə aparırdı. 1908-1909-cu illərdən başlayaraq onların arasında əqidə və ideya müxtəlifliyi parçalanmaya səbəb olmuşdur. M.Ə. Rəsulzadə başda olmaqla Azərbaycanın milli-demokratik qüvvələri milli problemləri ön plana çəkirdilər. Sosial-demokratlar isə sinfi mübarizəni özlərinin başlıca məqsədi sayır, milli problemlərə isə ikinci dərəcəli məsələ kimi yanaşır, onu sinfi mübarizəyə

tabe edirdilər.

Fikrimizcə, M.Ə. Rəsulzadə başda olmaqla, Azərbaycan milli-demokratik qüvvələrinin sosial-demokrat ideyalarından uzaqlaşaraq, milli mübarizəyə üstünlük vermələri bir sıra mühüm amillərlə izah edilməlidir. Birincisi, Qafqazda güclənən erməni-azərbaycanlı münaqişəsi, çarizmin bu münaqişədə erməniləri açıq və ya gizli surətdə müdafiə etməsi, bu münaqişənin qarşısının xalqın öz gücü, iradəsi, milli birliyi, milli şüurun və özünüdərkin inkişafı sayəsində alınmasının mümkünlüyünə inamın güclənməsi; ikincisi, rus çarizminin şovinizminin şiddətlə artması, Balkan müharibələrinin başlanması ilə əlaqədar olaraq bütün dünyada xristian-müsəlman qarşıdurmasının və milli azadlıq hərəkatlarının yüksəlişi; üçüncüsü, M.Ə. Rəsulzadənin İran və Türkiyədə mühacirətdə olduğu dövrdə türkçülüyün və türk millətçiliyinin onun siyasi baxışlarının və dünyagörüşünün təkamülünə olan təsirinin artması.

Çarizmin amansız irtica illərində İrana sürgün edilən M.Ə. Rəsulzadə məşrutə inqilabında yaxından iştirak etmiş, Səttarxanın ən yaxın silahdaşlarından biri olmuşdur. O, 1909-cu ilin avqust ayında Tehranda gündəlik "İran-i-nou" (Yeni İran) qəzetini təsis etmişdi. Bu, İran qəzetləri arasında həcmcə ən böyük, ən zəruri, ən çox oxunan qəzet idi. T.Svyatoçovskinin təbirincə desək, ""İrani-nou" İran Demokrat Partiyasının islahatlara tərəfdar çıxan zəkalı şəxslərini öz ətrafına toplayan solçular qrupunun orqanına çevrildi" (6). M.Ə. Rəsulzadə İranda da partiya quruculuğu işlərində fəal iştirakçı olmuş, İran Demokrat Partiyasının əsasını qoyanlardan biri olaraq partiyanın Proqramının və Nizamnaməsinin hazırlanmasında yaxından iştirak etmişdir. 1911-ci ildə Tehrandakı rus səfirliyinin təzyiqi ilə İranı tərk etməyə məcbur olan M.Ə. Rəsulzadə Türkiyəyə getmiş və özünün ictimai-siyasi fəaliyyətini İstanbulda davam etdirmişdir. İstanbulda yaşadığı illərdə o, "İttihad və Tərəqqi"

cəmiyyətinin fəalları Z. Goyalp, Y. Akçuraoğlu, Ə. Hűseynzadə, Ə. Ağaoğlu ilə yaxından əlaqə saxlamış, "Tűrk ocağı" cəmiyyətinin orqanı olan "Tűrk Yurdu" jurnalında əməkdaşlıq etmişdir.

Tűrkiyədə olarkən M.Ə. Rəsulzadə Azərbaycana, őz yaxın silahdaşı və əmisi oğlu Məhəmməd Əli Rəsuloğluna yazdığı məktublarında milli siyasi təşkilatın yaradılmasına zəruri ehtiyac olduğunu bildirirdi (7). Rusiyada və dűnyada cərəyan edən ictimai-siyasi hadisələrlə ayaqlaşmaq, milli-demokratik qűvvələri vahid təşkilatda birləşdirmək, xalqı milli istiqlal uğrunda műbarizəyə hazırlamaq, kűtləri milli ideallar uğrunda səfərbər etmək űçűn milli siyasi təşkilatın yaradılması zamanın tələbi idi. 1904-cű ildə yaradılmış "Hűmmət" təşkilatı RSDFP-nin təşkilati və siyasi təsiri altında olduğundan, Azərbaycanda getdikcə yűksəlməkdə olan milli hərəkatı dűzgűn qiymətləndirə bilmir, geniş xalq kűtlələrinin milli mənafeyinə uyğun siyasət yeritmirdi.

Bűtűn bunları nəzərə alan, əvvəllər M.Ə. Rəsulzadə ilə birlikdə "Hűmmət" təşkilatında çalışan űç nəfər- Məhəmməd Əli Rəsul oğlu, Abbasqulu Kazımzadə və Tağı Nağı oğlu 1911-ci ilin oktyabr ayında gizli siyasi təşkilat yaratmaq qərarına gəldilər. Sonralar Azərbaycanın ən bőyűk, uzunőműrlű partiyasına çevriləcək bu cəmiyyətə "Műsavat" (bərabərlik) adı verildi. Bəzi műəlliflər, o cűmlədən A.Rayevski "Műsavat" partiyasının əsasının M.Ə. Rəsulzadə tərəfindən qoyulduğunu gőstərir (8). M.D. Hűseynov isə partiyanın yaradıcıları olaraq M.Ə. Rəsulzadə (jurnalist), Qulamrza Şərifzadə (tacir) və Kərbəlayi Vəli Mikayılovun adlarını çəkmişdir (9). H. Baykara partiyanın əsasının űç nəfər – A. Rəsulzadə, A. Kazımzadə və Vəli Mikayıl oğlu tərəfindən qoyulduğunu yazmışdır (10). Məşhur Amerika Azərbaycanşűnası, gőrkəmli alim T. Svyatoçovski Azərbaycana həsr edilmiş fundamental əsərində cəmiy-

yətin təşkilatçılarının Kərbəlayı Mikayılzadə, Abbas Kazımzadə və Qulam Rza Şərifzadənin rəhbərlik etdiyi keçmiş hümmətçilərdən ibarət bir qrup olduğunu göstərmişdir (6).

Əslində hər dörd müəllifin qənaəti yanlışdır. Əvvəla M.Ə. Rəsulzadə partiyanın yaradıldığı dövrdə Türkiyədə mühacirətdə olduğu üçün onun "Müsavat" partiyasının yaradılmasının bilavasitə iştirakçısı olduğunu söyləmək doğru deyildir. Qulamrza Şərifzadə və Kərbəlayi Vəli Mikayılov "Müsavat" partiyasının ilk üzvlərindən olsalar da, onun yaradılmasında bilavasitə iştirak etməmişlər.

"Müsavat" partiyasının yaranması haqqında dəqiq məlumatı onun yaradıcılarından və fəal üzvlərindən biri olan Məhəmməd Əli Rəsuloğlu vermişdir: "1911-ci ilin son bahar günü idi. Arkadaşların gizli toplantı və müşavirə yeri rəhmətlik Kazımzadə Abbas bəyin xırdavat mağazası idi. Bir gün arkadaşlarla Abbas bəyin mağazasının arxa bölümündə otururduq. Arkadaşlarımızdan mərhum Tağı Nağı oğlu içəri girdi və bizlərə: "Gürcülərin, ermənilərin və rusların siyasi partiyaları var. Bizim də nədən bir partiyamız olmasın. Biz də bir siyasi partiya quralım", - dedi. Bir neçə gün sürən müzakirə və müşavirədən sonra "Müsavat" partiyasını qurmağa qərar verdik" (7).

1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibətilə verilən amnistiyaya düşən M.Ə. Rəsulzadə Azərbaycana qayıtdı və "Müsavat" partiyasına daxil olaraq, onun liderinə çevrildi. O, 1915-ci il oktyabr ayının 2-də ilk nömrəsi çap edilən "Açıq söz" qəzetinin baş redaktoru oldu. "Açıq söz" qəzeti azərbaycanlılar arasında millətçilik və türkçülük düşüncələrinin qüvvətlənməsinə yardım etdi.

M.Ə. Rəsulzadə 1917-ci il aprel ayının 15-20-də Bakıda keçirilən Qafqaz müsəlmanlarının qurultayının keçirilməsində, onun düzgün qərarlar qəbul etməsində böyük rol oynadı. Qurultayda ölkənin gələcək siyasi quruluşu mövzusunda çıxış

edən M.Ə. Rəsulzadə göstərirdi ki, "Tarix özü Tamerlanın, Çingiz xanın, Makedoniyalı İsgəndərin və Roma imperatorlarının timsalında şəhadət verir ki, bir dövlətə daxil olan ayrı-ayrı xalqlar arasında heç bir qüvvə azad, könüllü dövlət ittifaqından savayı möhkəm birlik yarada bilməz (11). O qeyd edirdi ki, Rusiya kimi nəhəng bir dövlətin mərkəzləşdirilmiş şəkildə idarə olunması onun tərkibindəki ayrı-ayrı xalqların milli hüquqlarını tapdalayır, millətlərin inkişafına mane olur. Onun fikrincə, Rusiyaya daxil olan ayrı-ayrı xalqlar öz müqəddəratını azad təyin etmək hüququna malik olmalı, muxtariyyət yaratdıqdan sonra Rusiya xalqları ittifaqında birləşməli idi. Xarici siyasət, ümumdövlət əhəmiyyətli bir sıra məsələlərin həlli üçün ayrı-ayrı muxtar qurumların nümayəndələrindən ibarət ümumittifaq şurası yaradılmalı idi. M.Ə. Rəsulzadənin təklif etdiyi və qurultayın qəbul etdiyi Rusiyanın dövlət quruluşunun ərazi-federativ əsasda olması prinsipi yekdilliklə bəyənildi.

1917-ci il may ayının 1-dən 11-dək Moskvada keçirilən Ümumrusiya Müsəlmanları Qurultayı XX yüzillikdə Rusiya imperiyasında yaşayan türk-müsəlman xalqlarının ən böyük yığıncağı idi. Böyük siyasi fəallıq içərisində keçən qurultaya 600 nəfərlik nümayəndə dəvət edildiyi halda, 900 nəfər iştirak edirdi.

Qurultayda çıxış edən M.Ə. Rəsulzadənin təqdim etdiyi layihədə "Rusiyanın dövlət quruluşu forması müsəlman xalqlarının mənafeyinə uyğun olan milli ərazi federasiya prinsipləri əsasında yaradılmış demokratik respublika" kimi təklif olunurdu. O, Əhməd Salikovun məruzəsində irəli sürülmüş "federasiya idarə şəklinin türk-müsəlman qüvvələrinin parçalayacağı" iddiasını rədd edərək bildirdi ki, "Biz türk-tatar övladı, bir millətin övladlarıyıq. Biz türk oğlu türküz. Türk mədəniyyəti, türk mənliyi vücuda gətirmək istəriz. Rusiyada yaşayan 30 milyonluq müsəlmanın böyük qismi, təxminən bu millətə mənsub-

dur... Biz türk-tatar millətləri eyni soydan türk oğlu türk olmaqla bərabər ayrı şivələrə və çeşidli özəlliklərə də malik olduğumuz inkar edilməz...Bu özəllikləri qaldırmaq nə gərəklidir, nə də faydalıdır. Buraxın hər kəs öz yolunda təbii surətdə yürüsün. Çeşidli türk irmaqlarının axıb nəhayət töküləcəkləri tək bir dəniz var: Böyük Türk dənizi" (12).

Qurultayda M.Ə. Rəsulzadənin federasiya sistemini əsas tutan layihəsi əleyhinə 271 səsə qarşı lehinə 446 səslə böyük üstünlüklə qəbul edildi. Z.V. Toğanın qeyd etdiyi kimi, "Əgər 700 kişinin içərisində Məhəmməd Əmin bəy və arkadaşları olmasaydı, qurultay istiqlal və muxtariyyət qəbul etməkdə çətinlik çəkəcəkdi" (13). Görkəmli tatar ziyalısı Abdulla Taymas M.Ə. Rəsulzadənin qurultaydakı çıxışı ilə əlaqədar yazırdı: "Bu parlaq fikir sayəsində Məhəmməd Əmini bütün Rusiya türklüyü tanımış, artıq o, sadəcə Azərbaycan türkçülüyünün deyil, bütün rus türkçülüyünün əzizi olmuşdur" (14).

1917-ci il oktyabr ayının 26-31-də Bakı şəhərində 500 nəfərlik nümayəndənin iştirakı ilə "Müsavat" partiyasının ilk rəsmi qurultayı keçirildi. Qurultay "Müsavat" partiyası ilə "Türk ədəmi-mərkəziyyət" partiyasının birləşib vahid adla və proqramla fəaliyyət göstərməsini bəyəndi. Qurultayda öz müqəddəratını təyin etmək uğrunda mübarizə aparan Rusiya türklərinin gələcək haqqında arzuları onun aydın və həmin dövr üçün səciyyəvi olan proqramında öz əksini tapdı. Proqramda Rusiya türklərinin, o cümlədən Azərbaycanın milli-məhəlli muxtariyyət məsələsi hərtərəfli şəkildə əks olunmuşdu. Qəbul edilmiş proqram sənədi "Müsavat" partiyasının islamçılıqdan uzaqlaşaraq tam türkçülük mövqeyinə keçdiyini göstəririrdi. Qurultay partiyanın M.Ə. Rəsulzadənin sədrlik etdiyi Mərkəzi Komitəsinə Azərbaycanın milli-məhəlli muxtariyyətini reallaşdırmaq istiqamətində tapşırıqlar verdi.

1918-ci il may ayının 27-də Zaqafqaziya Federasiyasının

buraxılması ilə fəaliyyətini dayandırmış müsəlman nümayəndəliyi özünün Azərbaycan Milli Şurasına çevrildiyini elan etdi. M.Ə. Rəsulzadə Milli Şuranın sədri seçildi. Azərbaycan Milli Şurası mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması haqqında Əqdnaməni- İstiqlal Bəyannaməsini bütün dünyaya bəyan etdi. Fətəli Xan Xoyskinin rəhbərliyi ilə Müvəqqəti İcraiyyə Komitəsi təşkil edildi.

1918-ci il dekabr ayının 7-də Azərbaycan parlamentinin açılışı zamanı M.Ə. Rəsulzadə öz nitqində demişdir: "Müsavat" partiyası birinci olaraq Azərbaycanın müstəqilliyi bayrağını yüksəyə qaldırmışdır...Beləliklə, müsəlman partiyaları arasında Azərbaycan ideyasında fikir ayrılığı yoxdur. Xalqın şüurunda Azərbaycan ideyası artıq möhkəmlənmişdir" (15). Böyük siyasi xadim həmin tarixi nitqində millətə xitabən söylədiyi "Bir kərə yüksələn bayraq bir daha enməz" şüarı ilə müstəqil Azərbaycan dövlətinin danılmaz bir reallıq olduğunu bütün dünyaya elan etdi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə bilavasitə M.Ə. Rəsulzadənin siyasi liderliyi ilə milli dövlətçiliyimizin yaradılması sahəsində ciddi işlər görülmüşdür. Qısa bir müddətdə 40 minlik ordu yaradılmış, respublikanın ərazisi işğalçılardan təmizlənmiş, əmin-amanlıq bərpa edilmiş, dünyanın bir sıra inkişaf etmiş dövlətləri ilə diplomatik əlaqə yaradılmış, milli valyuta tədavülə buraxılmış, Azərbaycan türkcəsi rəsmi dövlət dili elan edilmiş, təhsil və mədəniyyətin inkişafında, milli kadrların hazırlanmasında mühüm addımlar atılmışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsidən sonra çox böyük çətinliklə 1922-ci ildə xaricə mühacirət edən M.Ə. Rəsulzadə Azərbycanın müstəqilliyi uğrunda mübarizəsini bir an da olsun dayandırmadı. Xarici ölkələrdəki Azərbaycan siyasi mühacirlərini bir araya gətirmək, onların mübarizəsini eyni səmtə istiqamətləndirmək üçün böyük siyasi xadim təşkilatçı-

lıq bacarığını və quruculuq məharətini yeni siyasi təşkilatların və mətbu orqanlarının yaradılması işinə sərf etdi. O, 1923-cü ilin əvvəllərində Türkiyədə "Yeni Qafqazya" jurnalının əsasını qoydu. Bu, xaricdə nəşr edilən ilk Azərbaycan siyasi mühacirət mətbuatı idi. 1924-cü ildə M.Ə. Rəsulzadənin rəhbərliyi ilə İstanbulda Azərbaycan Milli Mərkəzi yaradıldı. Böyük öndər həmin mərkəzi yaratmaqla qarşıya iki məqsəd qoymuşdu: birincisi, Azərbaycanın istiqlalı uğrunda mücadiləni davam etdirmək; ikincisi isə xalqımızın milli mədəniyyətini təbliğ etmək (16).

M.Ə. Rəsulzadə "Yeni Qafqazya" jurnalının ardınca "Azəri-türk" (1928-1929-cu illər), "Odlar yurdu" (1929-1931-ci illər) jurnallarını və "Bildiriş" (1929-1931-ci illər) qəzetini redaktə etmişdir. Həmin mətbuat orqanlarında onun Azərbaycan tarixi və ədəbiyyatı, xalqımızın istiqlal mübarizəsi ilə bağlı çoxlu sayda elmi-publisistik yazıları dərc olunmuşdur.

1931-ci ildə SSRİ-nin təzyiqi ilə türk-müsəlmaq xalqlarının mühacirləri Türkiyəni tərk etməyə məcbur olarkən, M.Ə. Rəsulzadənin rəhbərliyi ilə Azərbaycan siyasi mühacirləri Polşada yaşayıb istiqlal mübarizəsini davam etdirdilər. Polşada yaşadığı illərdə M.Ə. Rəsulzadənin redaktorluğu ilə "İstiqlal" (1932-1934-cü illər) və "Qurtuluş" (1934-1938-ci illər) qəzet və jurnalları nəşr edilirdi. O, 1936-cı ildə Varşava şəhərində "Müsavat" partiyasının qurultayının çağırılmasına rəhbərlik etmiş, qurultay partiyanın yeni Proqramını qəbul etmişdir. "Müsavat" partiyasının yeni Proqramında real tarixi şəraitdən çıxış edilərək, milli tənasüb prinsipi əsas tutulmuşdur: "Müsavatçılıq- böyük türk kültürünə bağlı milli, mədəni və insani dəyərlərini mənimsəyən, hürriyyət, cümhuriyyət və istiqlal idealına sadiq Azərbaycan vətənsevərliyidir" (17).

II Dünya müharibəsi başlandıqdan sonra faşist Almaniyasının dəvəti ilə Berlinə gedən M.Ə. Rəsulzadə Almaniyanın

rəsmi dövlət nümayəndəliyinin iş birliyi təkliflərinə Azərbaycanın dövlət müstəqilliyinin Almaniya tərəfindən tanınmasını yeganə şərt kimi irəli sürmüşdü. 1942-ci il oktyabr ayının 7-də Alman Ordusu rəhbərliyi, Xarici İşlər Nazirliyi, Şərq Nazirliyi rəhbərləri ilə danışıqları davam etdirən, lakin bir müsbət nəticə əldə etmədiyini görən M.Ə. Rəsulzadə Almaniyanı tərk etməyə məcbur oldu. Almanlar ona Drezdendəki ilahiyyat məktəbində dosent vəzifəsini təklif etsələr də, o, bundan qətiyyətlə imtina etmişdir (18).

1947-ci ildən Türkiyəyə dönərək Ankarada yaşayan M.Ə. Rəsulzadə 1952-ci ildə "Azərbaycan" jurnalının əsasını qoymuş və ömrünün sonuna qədər onun redaktoru olmuşdur. O, Ankarada Azərbaycan Kültür Dərnəyini yaratmış və "Müsavat" partiyasına rəhbərliyini davam etdirmişdir. O, 1953-cü ildə "Müsavat" partiyasının lideri kimi hökumətin rəsmi dəvəti ilə ABŞ-a gedərək, Azərbaycanın istiqlalının 35-ci ildönümü münasibətilə "Amerikanın səsi" radiosundan Azərbaycan xalqına müraciət etmişdir.

50-ci illərdə Azərbaycan istiqlalı uğrunda mübarizəni davam etdirən "Müsavat" partiyası və Azərbaycan Milli Mərkəzi M.Ə. Rəsulzadənin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycan Kültür Dərnəyinin ətrafında birləşmişdi. Bu birliyi zəruri edən şərtlərdən biri SSRİ-nin Türkiyəyə 1931-ci il müqaviləsini xatırladaraq "Müsavat" və AMM-nin normal fəaliyyətlərinin qadağan edilməsinə nail olması idi. Azərbaycan Kültür Dərnəyi isə siyasətlə məşğul olmayan bir təşkilat kimi qeydiyyatdan keçmişdi. "Müsavat" partiyası və AMM öz müstəqilliklərini və adlarını saxlamaq şərti ilə eyni başqanlıq tərəfindən idarə edilirdi. Hər üç təşkilat "Müsavat" partiyasının bayrağı altında mübarizə aparan, onun ideologiyasına dayanan, milli lider, böyük siyasi xadim, görkəmli partiya və dövlət qurucusu M.Ə. Rəsulzadə tərəfindən rəhbərlik edilən vahid siyasi təşkilatı xa-

tırladırdı.

M.Ə. Rəsulzadə 1955-ci il mart ayının 6-da saat $22^{45}$-də Ankarada vəfat etmiş, Əsri qəbirstanlığında dəfn edilmişdir. Dəfn mərasimində çıxış edən Tahir Cağatay demişdir: "...Ey Azərbaycan istiqlalının əziz şəhidləri, Tűrk qurtuluş hərəkatının mőhtərəm őlűləri! Qalxın, yűksəlin, omuzlarınızdakı ay-ulduzlu bayrak kəfənlərinizlə çevrəni sűsləyin. Bőyűk műcahid Qoca Əmin bəy sizə gəlir" (19).

Bűtűn şűurlu həyatını Azərbaycan xalqının azadlığı və műstəqilliyi uğrunda műcadiləyə sərf edən, bu yolda hər cűr mərhumiyyətlərə və çətinliklərə sinə gələn milli lider xalqımızın istiqlal műbarizəsi tarixinə bőyűk őndər, gőrkəmli siyasi xadim, partiya və dővlət qurucusu kimi əbədi daxil olmuşdur.

1. "Azerbaycan", yıl 35, sayı 269, 1989. s.49.
2. M.Ə. Rəsulzadə. Stalinlə ixtilal xatirələri. Bakı,Elm,1991, s.13-14.
3. ARDA, fond 132, siy. 1, iş 31, v.59-60.
4. Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri, I c. Bakı, Azərnəşr, s.97.
5. М.А. Казиев. Из истории революционной борьбы Бакинского пролетариата. Баку, 1956, с. 78.
6. T.Svyatoçovski. Rusiya və Azərbaycan. Sərhədyanı bőlgə keçid dővrűndə. Xəzər Universitəsi nəşriyyatı, Bakı,2000,s.66-67.
7. M.A. Resuloğlu. "Műsavat" Pariyasının Kuruluşu. "Műsavat" Partisi Bűlteni, 1962, sayı 4.
8. А. Раевский. Партия "Мусават" и ее контрреволюционная работа. Баку, 1929, с.4.
9. М.Д. Гусейнов. Партия "Мусават" в прошлом и настоящем. Тифлис, 1927, с.9.
10. H.Baykara. Azərbaycan istiqlal műbarizəsi tarixi,Bakı, 1992, s.184.
11. "Kaspi" qəzeti, 1917-ci il, 19 aprel.
12. İhsan İlqar. Rusiyada birinci Műslűman Konqresi. Bűtűn Rusiya műslűmanlarının (tűrklərin) 1917 yılının 1-11 mayısında Moskvada yaptıkları Genel Toplantının Protokolları, İstanbul, 1988, s.165-166.
13. A.Karaca. Azərbaycanın yakın tarihine kısa bir bakış.Ankara,1982, s.15.

14. "Azerbaycan", yıl 4, sayı 4, 1955.
15. Azərbaycan Cűmhuriyyəti. Sənədlər və materiallar (1918-1920-ci illər). Bakı, "Elm", 1998. s.98-99.
16. X.M. Məmmədov. Aydınlarımızın istiqlal műcadiləsi. Bakı, 1999, s.73.
17. Műsavat Partisi Yeni Proqram Esasları. Varşava, 1936, s.3.
18. X. İbrahimli. Azərbaycan siyasi műhacirəti. Bakı, "Elm", 1996, s.185.
19. V.Sultanlı. Ağır yolun yolçusu. Bakı, 1996. s.71.

# M.Ə.RƏSULZADƏ VƏ AZƏRBAYCAN MÜHACÌRƏT MƏTBUATI

**Razim MƏMMƏDLİ**

Azərbaycan Demokratik Cűmhuriyyətinin sűqutundan sonra təqib, sűrgűn və həbsxanalardan yaxa qurtarmaq űçűn on minlərlə soydaşımız vətəni tərk etmək məcburiyyətində qalmışlar. Onların arasında yűksək səviyyəli ziyalılarımız da az deyildi. Belə bir műrəkkəb dővrdə műhacirət edənlər arasında xalqımızın bőyűk oğlu Məhəmməd Əmin Rəsulzadə də var idi. M.B.Məmmədzadənin "qələm, kəlam, məfkurə ustadımız" adlandırdığı M.Ə.Rəsulzadənin műhacirətdə yaşadığı illərdə ən çox diqqət yetirdiyi sahələrdən biri də mətbuat idi. "Milli qurtuluş hərəkatının ideoloqu və lideri" (M.B.Məmmədzadə) olan M.Ə.Rəsulzadə mətbuat işini də yaxşı bilirdi. Műxtəlif illərdə onun "Hűmmət", "Təkaműl", "Yoldaş", "Tərəqqi", "İrşad", "İran-i-nou" (Tehran), "Açıq sőz" və sairə kimi mətbuat orqanlarında kűlli miqdarda məqaləsi işıq űzű gőrműşdűr.

M.Ə.Rəsulzadə Mətbuatı bőyűk qűvvə hesab edirdi. Onun milli mətbuatımızın yaradıcısı Həsən bəy Zərdabiyə həsr etdiyi "Azərbaycan mətbuatının piri" publisist yazısında oxuyuruq: "Millətin tarixində qəzet təsisi műhűm bir dővrű əhatə edir. Danışdığı dildə ilk qəzetə malik olan cəmiyyət, bir milliyət ikən millət olmağa başlamış deməkdir. Həyatında mətbuat ənənələrinə malik olan bir xalq isə artıq təşəkkűl tapmış bir millətdir".

M.Ə. Rəsulzadənin keçən əsrin 20-ci illərin əvvəllərində çap etdirdiyi "Yeni Qafqasya" jurnalı ilə Azərbaycan műhacir mətbuatının əsasını qoymuşdur. Tűrkçű, milli ideologiyanın alovlu carçısı olan bu jurnalın xarici őlkələrdə, xűsusilə də

Avropa və Tűrkiyədə məskunlaşan həmvətənlərimizin təşkilatlanmasında, onlara milli azadlıq ideyasının aşılanmasında bőyűk xidmətləri olmuşdur. Jurnalın rəhbərliyi, redaktoru, qarşıya qoyduğu məqsəd və vəzifələri haqqında filologiya elmləri namizədi Abid Tahirli "Azərbaycan műhacirət mətbuatı" sərlővhəli kitabında yazır: "Ədəbi, ictimai və siyasi məcműə olan "Yeni Qafqasya" da "sahibi-imtiyaz və műdiri məsul Seyid Tahir yazılsa da, nəşrə bilavasitə M.Ə.Rəsulzadə rəhbərlik və redaktorluq edirdi." Bu barədə M.Ə.Rəsulzadə irsinin dəyərli araşdırıcılarından olan Yavuz Akpinar "Bayraqlaşan şəxsiyyət: Məhəmməd Əmin Rəsulzadə" sərlővhəli məqaləsində yazır: " 1922-ci ilin yazında İstambulda olan Rəsulzadə "Yeni Qafqasya" dərgisini çıxarmağa başladı. Noyabr 1927-yə qədər on beş gűndən bir çıxarılan bu dərginin cəmi 100 nőmrəsi nəşr edildi. Fəqət anlaşıla biləcək bəzi səbəblər űzűndən dərginin "sahibi imtiyaz və műdiri məsul Seyid Tahir"dir (Bakı, 2002, səh. 20).

Azərbaycanın, űmumiyyətlə Qafqazın istiqlalı uğrunda műbarizə aparmağı qarşısına məqsəd qoyan jurnalın səhifələrində Məhəmməd Əmin Rəsulzadənin silsilə məqalələri çap olunmuşdur. Rus imperializmin və bolşevizmin tənqidi, Şərqdəki milli istiqlal hərəkatına bəraət, Azərbaycanın azadlığı onun məqalələrinin leymotivini təşkil ediridi.

Azadlıq uğrunda műbarizə tarixində şərəfli iz qoyan "İstiqlal" qəzeti də M.Ə. Rəsulzadənin bőyűk zəhməti bahasına işıq űzű gőrműşdűr. "İnsanlara hűrriyyət, millətlərə istiqlal!" şűarı ilə buraxılan qəzetin ilk nőmrəsi 1932-ci ilin yanvar ayında Berlin şəhərində buraxılmışdır. A.Tahirli yazır ki, baş redaktor kimi M.Ə.Rəsulzadə qəzetin bűtűn ağırlığını őz őhdəsinə gőtűrműşdűr. Demək olar ki,qəzetin bűtűn nőmrələrində Məhəmməd Əminin məqalələri çap olunurdu. Bu barədə tədqiqatçının yuxarda adı çəkilən kitabında oxuyuruq: "Onun məqalələri qəzetin ideya-istiqaməti,proqram və məramını műəy-

yənləşdirir, Avropada Azərbaycan mühacirəti haqqında ictimai rəy formalaşdırırdı. Onun birinci nömrəsində dərc olunmuş "Boğulmayan bir səs" adlı yazı həm qəzetin məqsədi,məramı barədə, həm də Azərbaycan mühacirlərinin Türkiyəni tərk etməsi,onların İstambuldakı nəşrlərinin fəaliyyətinin dayandırılması haqqında məlumat verir (səh.85)."

"Boğulmayan bir səs" sərlövhəli məqaləsində M.Ə.Rəsulzadə qəzetin məqsədi haqqında yazırdı: "Mütaliənizə təqdim olunan bu qəzet müqəddəs bir idealın müdafiəsinə yüksələn bir səsi mədəni dünyaya çatdırmaq üçün nəşr olunur.Milli Azərbaycanın istiqlal davasının səsi-bax, bizə həyacan verən bir nida!...

Bu gün Berlində eşitdiyiniz bu səs on ilə yaxın müddətdən bəri İstambuldan gəlirdi və nə qədər təbii idi".

M.Ə.Rəsulzadənin qəzetin səhifələrində çap olunmuş "Yenilməyən bir qüvvə"(№5), "Mücadilənin taktikası"(№3), "İntiqam günü"(№8), "Rədd olsun işğal"(№33), "Türkiyə və Avropa"(№13), "Uzaq Şərqdə"(№34), "Yeni vəhşiliklər qarşısında"(№7), "Demokratiya və Sovetlər"(№30), "Sovetlərdə vəziyyət"(№40), "Müştərək Qafqaz cəbhəsi"(№12), "Tarixi bir akt" (№64), "Fitnədən qorunmalı"(№21) və sairə kimi məqalələri olduqca maraqlıdır.Bu yazılarda Azərbaycan istiqlalı, mühacirlərin qarşısında duran vəzifələr,sovet quruluşunun tənqidi, beynəlxalq siyasi münasibətlər, antisovet mühacir təşkilatlar, ayrı-ayrı nüfuzlu elm, mədəniyyət,siyasi xadimlər və sairə məsələlərdən söhbət açılırdı. O, "Acı diplomatiya" sərlövhəli məqaləsində rus diplomatiyasının ağır nəticələri haqqında yazırdı: "Müharibələri imperiyalar və imperialistlər törətmişlər, gizli diplomatiya onların silahı idi.Sülhü isə millətlər və demokratlar təmin edəcəklər-açıq diplomatiya onların silahıdır.

...Rus imperatorları gizli diplomatiyaları ilə açıq məqsədlər güdürlər.Sovet diktatorları isə açıq diplomatiya ilə gizli

məqsədlər güdürlər".

M.Ə.Rəsulzadənin müntəzəm çıxış etdiyi mətbuat orqanlarından biri də əsası 1952-ci ilin aprel ayının əvvəllərində qoyulmuş "Azərbaycan" jurnalı idi. Jurnalın nəşrində önəmli rol oynamış M.Ə.Rəsulzadənin xidmətləri haqqında Əhməd Qaraca yazırdı: "Təməli M.Ə.Rəsulzadə kimi bir mütəfəkkir, bir dava xadimi,bir öndər, Azərbaycanın böyük bir övladı tərəfindən atılan "Azərbaycan" türk kültür dərgisi mütləq milli davamıza xidmət etdiyinə görə bir abidə olaraq əbədiyyən yaşayacaqdır" ("Azərbaycan" jurnalı, №301, yanvar-fevral, 1995, səh.4-5).

Azərbaycan Mədəniyyət Dərnəyinin orqanı kimi nəşr olunan bu jurnalın şöhrətlənməsində Məhəmməd Əminin misilsiz xidmətləri olmuşdur. Jurnalın müxtəlif nömrələrində çap etdirdiyi silsilə məqalələrdə istiqlal mücadiləsinin çətin, lakin şanlı mübarizə yolundan, Azərbaycan mühacirlərinin fəaliyyətindən, vətənimizin tarixi, mədəniyyəti haqqında söhbət açılırdı.

Bu mənada onun jurnalda çap olunmuş "Azərbaycan haqqında ümumi məlumat"(№1), "Nizamidə türklük"(№2), "Azərbaycan mətbuatının piri"(№4) və sairə kimi məqalələri çox qiymətlidir.

M.Ə.Rəsulzadə müxtəlif ölkələrdə və illərdə buraxılan "Odlu Yurd", "Azərbaycan yurd bilgisi", "Azeri türk", "İstiqlal", "Bildiriş", "Qurtuluş" və sairə kimi mətbuat orqanlarında ya yaxından iştirak etmiş, ya da onların nəşrinə və fəaliyyətinə obyektiv qiymət vermişdir.

M.Ə.Rəsulzadə mühacirətdə yaşadığı illərdə yalnız milli mətbuatda deyil,müxtəlif illərdə Qafqaz mühacirlərinin ayrı-ayrı dillərdə nəşr etdirdikləri "Prometey", "Qafqaz almanaxı", "Qafqasya" kimi məcmuələrin işində də yaxından iştirak etmiş, onların səhifələrində müxtəlif mövzularda çoxsaylı məqalələri çap olunmuşdur.

Təəssűflə qeyd olunmalıdır ki, "Tűrk yolu", "Tűrk izi" və sairə kimi mətbuat orqanları M.Ə.Rəsulzadə və onun silahdaşlarının istiqlal uğrunda műbarizələrini qəbul etmir, onlara qarşı műxalifətdə dururdular. Məmməd Sadiq Aran "Tűrk Yolu"nun 31 avqust 1953-cű il tarixli nőmrəsində dərc etdirdiyi "Bəy Rəsulzadə Məhəmməd Əminə" sərlővhəli məqaləsində M.Ə.Rəsulzadə haqqında "şőhrət dűşkűnű", "məfkurə yolunun məna və məqsədlərini tam qeyb etmiş", "milliyyətçilik ideyasından uzaqlaşmış" kimi doğru olmayan ifadələr işlədir.

Bunlar bőhtan və qara yaxmalardan başqa bir şey deyildi. M.Ə.Rəsulzadə őzűnűn məşhur "Şəfibəyçilik" sərlővhəli iri həcmli məqaləsində bu cűr iftiralara və onun műəlliflərinə kəskin cavab vermişdir.

M.Ə.Rəsulzadə őmrűnűn sonuna kimi xarici őlkələrdə milli mətbuat orqanlarının yaranmasında, onların məzmunlu çıxmasında və uzun őműrlű olmalarında yaxından iştirak etmişdir. O, yazdığı məqalələrdə doğma Azərbaycanın, eləcə də bűtűn Qafqazın azadlığı ideyalarını təbliğ etmiş, həmvətənlərimizin birləşməsi və təşkilatlanması űçűn var qűvvəsini əsirgəməmişdir.


1. Səbahaddin Şəmşir. Azərbaycanlıların Tűrkiyədə siyasi və mədəni fəaliyyətləri (1920-1991). Ankara, 1999.
2. Abid Tahirli. Azərbaycan műhacirət mətbuatı. Bakı, 2002.
3. "İstiqlal" qəzeti, 1932, № 3,5,8,12.
4. "Azərbaycan" jurnalı, 1952, № 1,2,4,301.
5. M.B.Məmmədzadə. Milli azadlıq hərəkatı. Bakı, 1993.

# AZƏRBAYCAN MİLLİ ŞÜURUNUN QATLARINDA RUSİYA İŞĞALI

**Elmira MURADƏLİYEVA**

Başa çatan XX yűzilliyə nəzər salarkən gőrűrűk ki, bu yűzili fərqləndirən ən bőyűk əlamətlərdən biri dağılan imperatorluqların űzərində yeni műstəqil milli dővlətlərin doğulmasıdır.

Artıq XX yűzilliyin başlanğıcında Rus imperatorluğunun dağılması Tűrk və Műsəlman dűnyasında ilk olaraq Cűmhuriyyət elan olunması ilə başa çatdı. Bu, Azərbaycan Xalq Cűmhuriyyəti idi. 23 ay yaşamış Cűmhuriyyət Azərbaycan xalqının tarixində və taleyində műhűm hadisə oldu. Azərbaycan Cűmhuriyyətini yaradan şəxslər, başda Məhəmməd Əmin Rəsulzadə olmaqla, Azərbaycan tűrklərinin şərəfini xilas etdilər.

Bu tezisi əsaslandırmaq űçűn yalnız bir faktı gətirmək kifayətdir: rus işğalı nəticəsində nəinki xalqın soyadı inkar edildi, həmçinin őlkənin adının-"Azərbaycan" məfhumunun rəsmi dővlət sənədlərində işlənməsi ləğv olundu və sonralar isə xəritələrdən də silindi. Bu vaxtdan Rusiyanın rəsmi sənədlərində, o cűmlədən Rusiya və İran arasında bağlanmış Gűlűstan (1813) və Tűrkmənçay (1828) barışmalarında (1) Qafqaz Azərbaycanının adı yox, keçmiş xanlıqların adları qeyd olunmuşdur. Yalnız 28 may 1918 –ci il Azərbaycan adı dővlət anlayışı kimi Xalq Cűmhuriyyəti tərəfindən təsdiq olundu. Məhəmməd Əmin Rəsulzadə 1925-ci ildə İstanbulda oxuduğu műhazirələr zamanı qeyd etmişdi: "Rusiya idarəsindəki műsəlmanlara "tűrk" dedirtmək indi artıq qazanılmış bir davadır. Yalnız "tűrk" kəlməsi deyil, "Azərbaycan" adı da qazanılmışdır" (2).

Hətta Azərbaycan Xalq Cűmhuriyyəti devrildikdən sonra da Azərbaycan adı rəsmən műhafizə olundu. Azərbaycan Xalq

Cűmhuriyyəti mővcudluğunun tarixi əhəmiyyətindən biri də məhz bu faktdır. 27 aprel 1920-ci il istilası ilə dővlət faktiki műstəqilliyini itirsə də, lakin Azərbaycan SSR-i kimi formal da olsa műstəqil qaldı.

Çarlıq Rusiyası Azərbaycan torpaqlarını milli qırğın hesabına, hərbi műdaxilə yolu ilə işğal etmişdir. Qarabağnamələrdən birini yazan Mir Mehdi Xəzani (1809-1894) Gəncə savaşının "kűtləvi qırğına", "qətliama" çevrildiyini bildirən ilk Azərbaycan műəllifidir. O yazır: "…Mayor Lisaneviçin bir gülləsi ilə Cavad xan barui-həyatından sərazir oldu… Soldatlar haman saat dőrd tərəfdən hűcum edib… műddəti űç saat tamam o şəhərdə xalqı kűltəvi şəkildə qırdılar… Űç saatdan sonra sərdar (Çiçianov) qadağan qıldı ki, dəxi səfəki-dəmadan əl gőtűrűb…, qalanı xalqdan təmizləsinlər... Həqiqətən bu cűr qala almaq və bűtőv qətliam olunmaq Çingiz xan qoşunundan və Teymurləng zamanından sonra bu vilayətlərdə və məmləkətdə gőrűnməmişdi" (3).

Azərbaycanın bőyűk elm xadimi, hadisələrin műasiri Mirzə Kazımbəy də "Gűrcűstanın və űmumiyyətlə Zaqafqaziya őlkəsinin qalib rus silahı ilə fəth olunduğunu" yazırdı(4).

Amma bu məsələ ətrafında kəskin fikir qarşılaşması da olmuşdur. Belə ki, "Rusiyada əvvəlinci tűrk qəzeti", Azərbaycanın ictimai-siyasi və mədəni tarixinin ilk ensiklopediyası olan "Əkinçi"də Mirzə Fətəli Axundovla Həsən bəy Zərdabinin yazışması çox őnəmlidir. Mirzə Fətəli Həsən bəyə (1877) yazmışdı: "Pəs, bica yerə bizə tənə etmə, əl çək bizim yaxamızdan, buna ancaq şakir ol ki, dővləti-Rusiyanın təxti-himayətində keçən zəmanələrin qoşunkeşliyindən və çapqınından azad olub, asayiş tapmışıq və zindəganlıqdan razıyıq" (5). Amma Həsən bəy bőyűk bir vətəndaşlıq ən-ənəsini yaşadaraq, bu məsələdə milli konsepsiyanı irəli sűrműşdű: basqın və çapqınların yerinə kőləlik asayiş gəlmişdi. "Dővləti-Rus bizim vilayə-

ti zəbt edəndən irəli" yazan Zərdabi, 30 il sonra da "Həyat" qəzetində (1906), ömrünün sonunda eyni fikrini üstündə durudu: "Rus dövləti bizim vilayəti alandan irəli" (6).

XX yüzilin əvvəllərində də H.Zərdabinin fikir daşıyıcıları bu məsələdə milli konsepsiyanı müdafiə edirdilər. Firudin bəy Köçərli 1903-cü ildə yazırdı: "Rusiya dövləti bu tərəfləri zəbt etmiş". İsmayıl xan Ziyadoğlu 1906-cı ildə Rusiya Dövlət Dumasındakı nitqində demişdi: "Kafkaz ötəsi ölkələr yüz il bundan öncə ruslar tərəfindən işğal edilmişdir" (7). Bu fikirlərin davamı kimi Əhməd Ağaoğlunun "Kaspi" qəzetində "Şeytan bazar" adlandırdığı yazısı da önəmlidir : "Biz, müsəlmanlar özümüzü könüllü olaraq cəmiyyətin ögey oğulları yerinə qoyur, yaşayış süfrəsindən bizə atılan çörək qırıntıları ilə kifayətlənirik. Biz uca səslə danışmağı bacarmırıq, nə haqqımızı tələb etməyi, nə də işlərimizi yoluna qoymağı heç öyrənməmişik də… Və belə bir psixoloji durum keçmişdən bolluca aldığımız ağır, öldürücü miraslardan biridir…"(8). Buradan Mirzə Fətəlinin: "dövləti-Rusiyanın təxti-himayətində… asayiş tanmışıq və zindəganlıqdan razıyıq" sözlərinin reallıqdan uzaq olması bir daha aydın olur.

Məhəmməd Əmin Rəsulzadənin bu səpgidə tarixi görüşləri bir neçə əsərində açıqlanır: "Kafkasya türkləri", "İran türkləri", "Əsrimizin Səyavuşu", "Çağdaş Azərbaycan tarixi" (9). "Kafkazya türkləri" əsəri dörd bölümdən ibarətdir. Rusların Qafqazdakı işğalından 1917-ci ilə qədər dövrü əhatə edən ikinci bölümün başlığı "Rus istilasında yüz il" adını daşıyır. Bu bölümdə M.Ə.Rəsulzadə mühüm bir məsələlərin üzərində dayanır: "sırf rus intriqası ilə həyata gələn Qafqaz bəyləri" ilə dəftər mollaları"nın* meydana gəlməsi. M.Ə.Rəsulzadə yazır:

---

* Rus hizmətinə girən mollaya xalq «dəftər mollası» deyirdi. (M.E.Resulzade. Kavkazya türklei, s.24)

"Rus idarəsi yeni istila etdiyi bu məmləkətlərə yűksək bir iqtisad və siyasət kűltűrű gətirməmişdi" (10). Műstəqil və yarımműstəqil xanlıqları məhf edərək, çar hőkűməti keçmişə aid hər bir istiqlal xatirəsini silib atırdı. Çarlıq yeni yerləşdiyi məmləkətdə istinad edə biləcəyi ictimai bir zűmrə hazırlayırdı. Kimlərdən təşkil olunmalı idi bu zűmrə? Bu suala M.Ə.Rəsulzadə belə cavab verir: "Xanlıq dővrűndə qapıqulluğunda bulunub bəy adını alan zatlar rus ordusunun istədiyi bu zűmrəni təşkil edəcəkdi… Çarizm xanların əlindən qəsb etdiyi hakimiyyəti őzűnə minnətdar etdiyi bəylərlə, bir az olsun, bőlűşűrdű" (11). M.Ə.Rəsulzadənin fikrinin davamı kimi Mirzə Bala Məmmədzadə yazır: "Millətin həyatında az-çox rol oynaya biləcək hakim zűmrələr ortadan qaldırılmış, xanlar və orduları məhv edilmiş, millətdən əskər yığılmamaq surətilə əskəri ruhun və ənənənin unudulması təmin edilmiş, heç bir ictimai və siyasi haqqa malik olmayan bəylər birər qapıqulu vəziyyətinə gətirilmiş, kəndli kőləlik rejiminə tabe edilmiş, becərdiyi torpağı pulla almaq haqqından belə məhrum edilmişdi" (12).

M.Ə.Rəsulzadənin yazdığı kimi, "milli intibah və birliyi çətinləşdirəcək təbdirlər" daima çarlığın nəzarətində idi. Bunların içərisində "idare-i-ruhaniyə" adı ilə dini təşkilat rəsmi rus hőkűmət műəssisələrinə tabe olunmuşdu. Gűrcű əsilzadələri ilə Azərbaycan bəyləri arasında olduğu fərqi çarizm ruhani idarəçiliyinə də tətbiq etmişdi. Belə ki, gűrcű partiarxı ilə erməni katolikosu kimi, műsəlmanların da "şeyx" və "műfti"ləri vardı. Amma rűtbə və ehtirama gəlincə, sonuncular polis zabitindən daha az bir maaşla təmin olunaraq, "çinovnik (məmur)"-dan ibarət idilər. "Qəribə deyilmi, mənşə və təkaműlűnű rus çarizminin iradəsindən deyil,… milli tarixindən alan Gűrcű əsilzadədən təşkilatı ilə erməni kilsə təşkilatı bu iki qonşu millətin həyatında műhűm rol oynadıqları halda, sırf Rus intriqası ilə həyata gələn Qafqaz bəyləri ilə "dəftər mollaları"nın

milli Azərbaycan həyatında müsbət rolları yoxdur" (13). Burada M.Ə.Rəsulzadə yeni ali zümrənin yaranış mexanizmini açıqlayır – "sırf rus intriqası ilə həyata gəlmiş və məhz buna görə də xalq içərisində, Cənubi Qafqazın başqa xalqlarından fərqli olaraq, onun nüfuzu yox dərəcəsində idi. Çarizmin yeritdiyi belə siyasət Azərbaycanda milli şüurun oyanış dövrünü xeyli uzatdı. Mirzə Bala Məmmədzadə yazırdı ki, "millət yeni bir ictimai zümrənin yetişməsini gözləməli idi. Bu da XIX əsrin sonu- XX əsrin əvvəllərində yaranan yeni sənaye burjuaziyası və Avropavi ziyalı zümrəsi oldu. Mirzə Fətəli ilə Həsən bəyin açdıqları milli oyanış dövrü, mədəni millətçilik hərəkatı bu zümrənin yetişib güclənməsinə qədər çox ağır, hətta müvəffəqiyətsiz şəkildə yürümüşdü" (14).

Azərbaycanlılara qarşı rus çarizminin ədalətsiz siyasətini açıqlayaraq, M.Ə.Rəsulzadə qeyd edirdi ki, Qafqazda bir müsəlmanın Türkistanda mülk almasına yasak qoyulmuşdu. Halbuki Rusiyanın ən hüquqsuz və zavallı bir məxluqunu təşkil edən yahudi belə bir haqdan məhrum deyildi. Bütün bu tədbirlərlə Rusiya hökumətinin bir məqsədi var idi ki, özünün inanmadığı Türk məmləkətinin inkişafına tərəqqi verməmək (15).

Beləliklə, millətin öz keçmişini və indisini anlaması baxımından Azərbaycanda yetişmiş nəsillər Rusiya köləliyinə və milli-siyasi bərabərsizliyə yanaşma məsələsində böyük bir vətəndaşlıq ənənəsini yaşada bilmişlər.

Amma ideologiyalaşdırılmış Azərbaycan sovet tarixçiliyində qaynaqların məlumatları inkar edilərək, Rusiya hökmranlığı "birləşmə, könüllü bir akt, mütərəqqi tarixi hadisə" kimi dəyərləndirilirdi (16). Düzdür, hələ o zamanlar da, sovet quruluşunun qızğın çağlarında, bu konsepsiyaya qarşı çıxan tarixçilərimiz olmuşdur (17). Lakin elmi polemika əvəzinə bu müəlliflərə qarşı mətbuatda və hətta yüksək partiya kürsüsündən kampaniya başlandı, "birləşmənin" rəsmi idelogiya əsasında

mütərəqqi əhəmiyyəti müdafiə olundu. "İdeoloji işi daha da gücləndirmək sahəsində respublika partiya təşkilatlarının vəzifələri haqqında" materiallarda göstərilirdi: "...Bəzi müəlliflər tarixi keçmişdən bəhs edərək partiyalılıq prinsipəlrindən kənar çıxmış… Ziya Bunyadov, Mahmud İsmayılov, Süleyman Əliyarov bir sıra tarixi faktları qiymətləndirərkən kobud səhvlərə yol vermişlər" (18). O dövrdə bu çox böyük ittiham idi. Yalnız Azərbaycanın bağımsızlıq qazanması nəticəsində adı çəkilən tarixçilərin üzərindən rəsmi səviyyədə bu ittihamlar götürüldü. Bakı Dövlət Universitetinin 75-illik yubileyində Azərbaycan Respublikasının prezidenti H.Əliyev demişdi: "1968-ci ildə mən Respublika Dövlət Təhlükəsizlik Komitəsinin sədri idim. Universitetdə bir neçə alim Azərbaycan tarixini araşdırarkən Azərbaycanın Rusiyaya birləşməsi haqqında mübahisə aparmışdı ki, Azərbaycan Rusiyanın tərkibinə könüllü surətdə girmişdir, ya da məcburi girmişdir… O vaxt isə ümumi qərar belə idi ki, Azərbaycan Rusiyanın tərkibinə könüllü daxil olmuş, özü bunu xahiş etmişdir. Amma bir neçə alim o vaxt bunu şübhə altına alaraq öz fikirlərini söyləmişdi. Bu böyük bir ixtişaş yaratdı. Başladılar araşdırmağa ki, bunlar millətçidirlər, dövlət mövqeyindən kənar fikirlə yaşayırlar və s." (19).

Bəzən günümüzdə belə XIX yüzilliyin əvvəllərində baş vermiş Rusiya-Azərbaycan savaşları haqda, 1813-cü il "Gülüstan" müqaviləsi ətrafında polemika səngimir (20).

Sonda "rus istilasının faydalı tərəfi" haqqında məsələyə baxışı M.Ə.Rəsulzadənin fikrilə yekunlaşdırmaq istərdim. "Əsrimizin Səyavuşu" əsərində o, yazırdı: "Bir çox zaman azərbaycanlılar öz türklüklərini və türk soyundan gəldiklərini bilməyərək xalis iranlı kimi özlərini hiss etdilər… Şimali Azərbaycan rus idarəsinə keçdi… rus istilasının xeyri bu oldu ki, azərbaycanlılar özlərini ictimai bir vücud, xüsusi mədəniyyət toxumlarını daşıyan bir cəmiyyət, yəni ruslardan ayrı bir millət

olduqlarını hiss etməyə başladılar" (21).

Beləliklə, milli şüurun qatlarında "rus istilasının xeyri" məhz ümummüsəlman anlayışından çıxmaq, "əvvəlcə türk, sonra müsəlman" varlığını dərk etmək üçün vacib bir amil kimi qiymətləndirilirdi.

---


1. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. Prof. S.Əliyarlının redaktəsilə. Bakı, 1996, s.602-607; 618-624.
2. Elmira Muradəliyeva. Azerbaycan tarixçılığınde ve Üniversite kurslarında atatürkçülük kavrayışı. // Atatürkçülük ve modern Türkiye. Ankara, 1998, s.573.
3. Azərbaycan tarixi. s.586.
4. Vilayət Quliyev. Mirzə Kazımbəy. Bakı, 1987, s.18.
5. Əkinçi, 18 yanvar, 1877, №2, //Əkinçi. 1875-1877. Tam mətni. Tərtib edəni Turan Həsənzadə. Bakı, 1979, s.305.
6. S.Əliyarlı. Azərbaycan milli hərəkatının ilkin dönəmi. //Azərbaycanda ictimai-siyasi fikir. XX əsr. Konfransın əsərləri. Xəzər Universitəsi. Bakı, 1996, s.42.
7. Yenə orada, s.42.
8. Каспий, 25 апрел, 1904.
9. Mehmed Emin Resulzade. Kafkasya türkleri. Türk Dünyası Araştırmaları Vakfı. İstanbul, 1993; İran türkləri. Türk Dünyası Araştırmaları Vakfı. İstanbul, 1993; Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Cağdaş Azərbaycan tarixi. Bakı, 1991.
10. Mehmed Emin Resulzade. Kafkasya türkleri, s.21
11. Yenə orada. s.20.
12. Mirzə Bala Məmməmzadə. Milli Azərbaycan hərəkatı. Bakı, 1992, s.16-17.
13. Mehmed Emin Resulzade. Kafkasya türkleri, s.24.
14. Mirzə Bala Məmmədzadə. Milli Azərbaycan hərəkatı, s.17.
15. M.E.Resulzade. Kafkasya türkleri, s.25.
16. Azərbaycanın Rusiyaya birləşdirilməsi və onun iqtisadiyyat və mədəniyyət sahəsində mütərəqqi nəticələri. Az. SSR EA, Bakı, 1995.
17. Bu barədə bax: Elmira Muradəliyeva. Müəllim haqqında söz. // Azərbaycan tarixinin çağdaş problemləri. Azərbaycan tarixçisi, professor Süleyman Əliyarlının 70 illik yubileyinə həsr olunmuş məcmuə. Xəzər Universitəsi. Bakı, 2000, s.5-7.

18. Sov. İKP XXIV qurultayınının qərarları ilə əlaqədar olaraq ideoloji işi daha da gűcləndirmək sahəsində respublika partiya təşkilatlarının vəzifələri haqqında materiallar. 29-30 oktyabr, 1971. Bakı, 1972, s.38.
19. M.Ə.Rəsulzadə adına Bakı Dővlət Universitetinin 75 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Repsublikasının prezidenti H.Əliyevin nitqi. // Azərbaycan qəz., 29 noyabr, 1994, s.2.
20. Bax: S.Əliyarlı. Vay o gűndən ki, tarix bizdən űz dőndərə. //Xalq qəz., 22 oktyabr, 1997 (Əkrəm Əylisliyə cavab).
21. M.Ə.Rəsulzadə. Əsrimizin Səyavuşu, s.33,34.

# M.Ə.RƏSULZADƏ BEYNƏLXALQ KONFRANSLARDA

**İsmayıl MUSAYEV**

M.Ə.Rəsulzadənin zəngin, çoxşaxəli fəaliyyətində beynəlxalq siyasət və diplomatiya məsələləri də mühüm yer tutmuşdur. O, Transqafqaz Seymi Azərbaycan fraksiyasının başçısı və Azərbaycan Milli Şurasının sədri olaraq bir sıra milli və regional problemlərin həllinə çalışmışdır. Həmin problemlərdən ən başlıcaları sırasında aşağıdakıları qeyd etmək olar:

- Azərbaycanın siyasi-milli inkişaf yolunun müəyyənləşdirilməsi;
- Transqafqaz-Osmanlı münasibətlərinin ədalətli qaydada tənzimlənməsi;
- Qafqazın (Quzey Azərbaycanın) türk-müsəlman əhalisinin, rus qoşunları-ermənilər tərəfindən həyata keçirilən, soyqırımlarının qarşısının alınması;
- Azərbaycan dövlətçiliyinin bərpası, müstəqilliyimizi təhdid edən daxili və xarici güclərin (maraqların) zərərsizləşdirilməsi;
- Azərbaycan Xalq Cümhuriyyəti (AXC) xarici siyasətinin əsas vəzifələri və başlıca istiqamətlərinin müəyyənləşdirilməsi;
- AXC-nin ərazi bütövlüyünün təmin olunması və onun beynəlxalq aləmdə tanınması, dövlətlərarası münasibətlər sisteminə qatılması və s.

M.Ə.Rəsulzadənin, yuxarıda sadalanan məsələlərin həllinə yönəlik, siyasi-diplomatik fəaliyyətinin, o cümlədən də bir sıra beynəlxalq konfranslarda (Trabzon və Batum) gördüyü işlərin təhlilinə keçməzdən öncə Qafqazın (Şimali Azərbayca-

nın) o dövrki beynəlxalq durumuna qısa nəzər salmaq lazım gəlir. Belə ki, 1917-ci ilin sonu – 1918-ci ilin əvvəllərində Transqafqazın daxili və beynəlxalq vəziyyətində ciddi proseslər gedir, əsaslı dəyişikliklər baş verirdi. Müttəfiqlərin regionun problemlərinə və gələcəyinə münasibətdə sərgilədikləri fərqli mövqelər də əlavə rahatsızlıqlar yaradırdı. Transqafqaz Seymi milli (müsəlman, yəni azərbaycanlı; gürcü; erməni) fraksiyalarının xarici siyasət məsələlərinə yanaşmadakı fərqli baxışları (1) da regionun daxili və beynəlxalq vəziyyətindəki gərginliyi xeyli artırırdı.

Bu dövrdə regionun daxili və beynəlxalq durumunun yaxşılaşmasına müsbət təsir göstərə biləcək həlli vacib məsələlər arasında Transqafqaz-Osmanlı münasibətlərinin qaydaya salınması, ilk öncə də onlar arasındakı hərbi qarşıdurmaya son verilməsi önəmli yer tuturdu. Ərzincan barışığı (5/18.XII.1917) tərəflərarası uzlaşmada müəyyən irəliləyiş yaratsa da, Qafqazda davamlı sülhü təmin edə bilməmişdi. Regionda sülhə və təhlükəsizliyə qənim kəsilən ermənilər müəyyən səbəblərə görə daha da fəallaşaraq müxtəlif bölgələrdə türk-müsəlman əhalisinə qarşı soyqırımlar törədirdilər.

Lakin Qafqazdaxili proseslər və regionla bağlı beynəlxalq siyasi-diplomatik planlar, habelə oyunlar Osmanlı ilə Transqafqaz arasında dayanıqlı sülhə nail olunmasını qaçılmaz edirdi. Buna görə də Osmanlının sülh danışıqlarına başlanılmasına dair növbəti təklifi (23.II.1918) tezliklə Seym tərəfindən qəbul olundu. Müəyyən müzakirələrdən sonra isə danışıqlara – Trabzonda konfrans çağrılmasına razılıq verildi.

Seymin sülh nümayəndəliyi onun üç milli fraksiyasının üzvlərindən olan siyasətçilər qruplarından ibarət tərkibdə təsdiqləndi. M.Ə.Rəsulzadə isə Seymin nümayəndə heyətində müşavir, bəzi məlumatlara görə həm də tərcüməçi sifətilə təmsil olunmuşdu (2). Konfransda müşavir-tərcüməçi statusu

ilə iştirakına baxmayaraq, o, regionun nüfuzlu liderlərindən biri kimi, danışıqlara müəyyən təsir göstərə bilmiş və, ən başlıcası da, Azərbaycan qrupunun fəaliyyətində böyük rol oynamışdı. Onun konfrans müddətindəki (14.III- 14.IV.1918) fəaliyyəti ilə əlaqədar bəzi diqqətçəkici məqamları (faktları) vurğulamaq lazım gəlir.

Konfransdakı Osmanlı nümayəndə heyətinin başçısı H.Rauf bəyin M.Ə.Rəsulzadə ilə bağlı fikirləri maraq doğurur. Belə ki, onun Seymin sülh nümayəndəliyinin rəhbəri A.Çxenkeli ilə gizli görüşü zamanı (17.III.1918) Qafqaz təmsilçiləri barədə əldə etdiyi məlumatlara və s. əsasən Osmanlı Xarici İşlər nazirliyinə göndərdiyi (18.III.1918) sənəddə deyilirdi ki, müşavirlər heyətindən Müsavat partyiasının başqanı M.Ə.Rəsulzadə bizə dost və bağlı adamdır (3).

Konfransın sənədlərindən də aydın olduğu kimi, M.Ə.Rəsulzadə iki dəfə qısamüddətə toplantıdan ayrılmalı olmuşdu. Belə ki, kəskin fərqli mövqelər üzündən bir ara konfransın işində fasilə yarandığından Seymin sülh nümayəndəliyinin əsas heyətindən üç nəfəri toplantıdakı durum haqqında məlumat vermək və müəyyən məsləhətləşmələr apararaq müvafiq lazımi məlumatlar almaq üçün Tiflisə dönmüşdü. M.Ə.Rəsulzadə də həmin üç nəfərlik heyətlə və M.Mehdiyevlə birlikdə Tiflisə gəlmişdi (4). Türkiyə araşdırmaçısı A.N.Kuratın yazdığına (5) görə, M.Ə.Rəsulzadə və M.Mehdiyev Seymdəki müzakirələrdə türklərin mövqeyini müdafiə edəcəkdilər. Onlar Transqafqaz hökuməti və Seyminin, habelə sülh nümayəndəliyi qrupları təmsilçilərinin birgə iclasında (25-26.III.1918) iştirak etdilər. Tədqiqatçı E.Şahinin həmin toplantıların (müzakirələrin) stenoqrammasına əsasən apardığı təhlildən (6) də göründüyü kimi, əsas heyətdən İ.Heydərov və habelə M.Mehdiyev də Azərbaycan qrupu adından çıxış edərək öz mövqelərini açıqlamışdılar. Onların və bütövlükdə Müsəlman qrupunun

gəldiyi qəti qənaətə (7) görə isə:

a) Transqafqazın müstəqilliyi dərhal elan edilməliydi;

b) Brest-Litovsk müqaviləsinin Qaqfaza aid hissəsi yubadılmadan tanınmalıydı;

c) Osmanlı ilə Güney Qafqaz arasındakı hərbi toqquşmalara ləngidilmədən son qoyulmalıydı;

ç) regionun müstəqilliyinin elan edilməyəcəyi təqdirdə danışıqlar Azərbaycan fraksiyası tərəfindən dəstəklənməməliydi.

M.Ə.Rəsulzadə, ikinci dəfə, bolşevik-daşnak silahlı dəstələrinin 1918-ci il martın sonu – aprelin əvvəlində Bakıda həyata keçirdikləri türk-müsəlman soyqırımı ilə əlaqədar olaraq, konfransı tərk edərək Tiflisə qayıtmışdı (8). O, Tiflisə gəldikdən sonra Seymdə digər müsavatçı parlamentarilərlə birlikdə bəyanat verdi (9). Bəyanatda bildirilirdi ki, Transqafqaz hökumətinin bolşevikləri Bakıdan çıxarmağa çalışmayacağı təqdirdə Müsəlman fraksiyası Seymi tərk etməli olacaqdır. Durumun ciddiliyini nəzərə alan Seym rəhbərliyi, erməni təmsilçilərin "bitərəfliliyi" ilə də olsa, bəzi qərarlar qəbul edə bildi. Həmin qərarlara (10) əsasən erməni silahlı qüvvələrinin Bakıdan çıxarılması üçün tədbirlər görülməli, dəmiryollarının mühafizəsində müsəlman komitələrinin də iştirakı təmin edilməli, hökumət nizamlı ordu yaradılması üçün dərhal hazırlıqlara başlamalı və bu qoşun ilk öncə Bakının tutulması üçün hərəkətə keçməli, Bakıya Seymin (milli fraksiyaların hərəsindən bir nəfər daxil olmaqla) nümayəndə heyəti göndərilməli idi və s.

Arxıv sənəd və materiallarından bu da məlumdur ki, yenidən Trabzona dönən (6.IV.1918) M.Ə.Rəsulzadə konfransdakı Osmanlı heyəti ilə məxfi görüş keçirmişdi (11). Bu görüşdə Bakıdakı türk-müsəlman soyqırımı barədə Osmanlı təmsilçilərinə ətraflı məlumat verilmişdi. Belə bir fakt da maraqlıdır ki, Tiflisdən Trabzona qayıdarkən yolüstü Batum şəhərinin komandanı general Mdivani ilə görüşən M.Ə.Rəsulzadə ondan

bunları eşitmişdi: Batum ətrafındakı silahlı toqquşmalarda acarlardan savayı digər bir qrup da müşahidə edilmişdir və Trabzon sülh danışıqları davam etdiyindən indilik hərbi əməliyyatlara girişilməsi məqsədəmüvafiq deyildir (12). Yeri gəlmişkən, Osmanlı nümayəndə heyəti görüşdəki danışıqlar barədə sultan hökumətinə və III Ordu komandanlığına məlumat çatdırmışdı.

M.Ə.Rəsulzadənin Trabzon konfransı zamanı gördüyü işlər arasında onun Azərbaycan qrupunun əsas heyətinin üzvlərindən müsavatçılar M.H.Hacınski və X.Xasməmmədov, habelə katib Ə.Pepinovla birlikdə hazırladıqları Memorandum (13) mühüm əhəmiyyət kəsb edir. Sultan hökumətinə çatdırılması üçün konfransdakı Osmanlı heyətinə təqdim edilən (8.IV.1918) həmin sənəd orada ifadə olunan fikir və mülahizələr baxımından da diqqəti cəlb edir. Mətni, E.Şahin tərəfindən elmi dövriyyəyə (14) gətirilən, 9 maddəlik Memorandumda Azərbaycanın maraqları ilə birbaşa və dolayısı yolla əlaqəsi olan bəzi vacib məqamlar özünə yer almışdı:

- müsəlmanların qayə və əməlləri Türkiyə ilə birləşməkdən (sənəddə belə yazılmışdır, ancaq yəqin ki, burada söhbət müxtəlif bölgələrdə ermənilər tərəfindən soyqırımlarına məruz qalan əhalidən, onların çoxsaylı tələb və müraciətlərindən gedir. Çünki Seymin Azərbaycan fraksiyası nəinki Türkiyə ilə birləşməyin, hətta Osmanlı ilə hər hansı bir federasiya yaratmağın belə əleyhinə idi – İ.M.) ibarətdir. Və buna qovuşmaq üçün ilk addım isə müstəqil Qafqaz hökumətinin qurulmasıdır;
- əbədi müsəlmanın düşməni və daimi rus dostu olan ermənilər bu istiqlala (yəni müstəqil Qafqaza – İ.M.) birinci və ən təhlükəli əngəldirlər;
- Qafqaz millətləri arasında müsəlmanlar (Azərbaycan türkləri və digərləri nəzərdə tutulur – İ.M.) təşkilat və təchizatca ən zəifləridirlər. Coğrafi vəziyyətləri də onları hamıdan əvvəl

bolşevik təsirinə hədəf etmişdir. Bakıdakı müsəlmanların qətliamı buna yaxşı misal ola bilər;

- gürcülər bolşevik təhlükəsi ilə əlaqədar olaraq, millətlərinin amal və şərəfinin itirilməməsini də nəzərə almaqla, Türkiyəyə meyl edirlər. Batum şəhərilə maddi və mənəvi əlaqələrlə bağlıdırlar. Onun, Rusiyanın əlində olmadıqca, gürcülərdə qalması Osmanlı üçün elə bir təhlükə yarada bilməz. Şəhərin zorla alınması onların qəlbini qıracaqdır. Osmanlının düşmənlərinə (erməni və ruslarla yanaşı) həm də gürcülərin əlavə olunması məqbul sayılmır. Osmanlılarla gürcülər arasında hərbi qarşıdurmanın yaranması onların tərəfsiz qalmayaraq ermənilərlə birləşmələrinə və biz müsəlmanların məhvinə, fəlakətinə səbəb olacaqdır;
- hazırkı vəziyyət Osmanlının Qafqaz müsəlmanlarını bolşevik və erməni hücumlarından xilasını tələb edir. Hərbi yardım bir-iki həftəyə yetişməzsə Şərqi Qafqaz müsəlmanları qırılmağa məhkum olacaqlar.

M.Ə.Rəsulzadə Trabzon danışıqlarından sonrakı – Batum konfransı ərəfəsindəki siyasi-diplomatik proseslərdə də fəal iştirak etdi. Bu baxımdan onun Seymin 1918-ci il aprelin 22-də keçirilən tarixi iclasındakı çıxışı daha təqdirəlayiqdir. Həmin çıxışda qeyd edilirdi ki, "Mavera-yı Kafkasya (Transqafqaz – İ.M.) demokratiyası özünü müdafiə etməli və böyük rus inqilabının nailiyyətlərini (1917-ci ilin fevralından sonrakılar nəzərdə tutulur – İ.M.) qorumalıdır. Bu müvəffəqiyyətləri Rusiyaya qurban verməməlidir. Mavera-yı Kafkasya müstəqil olmalıdır və bu bir zərurətdir" (15).

Trabzon danışıqlarının nəticəsiz qalmasına və tərəflərin yenidən hərbə üstünlük vermələrinə baxmayaraq dövrün beynəlxalq şəraiti və regiondakı proseslərin gedişi Osmanlı ilə Qafqazın müqavilə münasibətləri səviyyəsində uzlaşmalarını şərtləndirirdi. Eyni gündə (22.04.1918) başverən iki hadisə –

Osmanlı tərəfinin sülh təklifi və Cüney Qafqazın müstəqilliyinin elanı (Federativ Demokratik Respublikanın təşkili) ilə danışıqlar prosesinin ikinci mühüm mərhələsi başlandı. Müzakirələrin bu dəfə Batumda aparılması razılaşdırıldı.

Batum konfransına qatılacaq 45 nəfərlik Transqafqaz nümayəndə heyətinə M.Ə.Rəsulzadə də daxil idi. O, Trabzon toplantısından fərqli olaraq, Batum konfransına daha yüksək statusda qatılmışdı. Belə ki, heyətin 6 həlledici səsə malik olan üzvləri arasında Məhəmməd Əmin bəy də (M.H.Hacınski ilə birlikdə) vardı (16).

İlk və son rəsmi toplantısı 1918-ci il mayın 11-də keçirilən Batum konfransında da (14.V.-4.VI.1918) gərgin diplomatik qarşıdurma baş verdi. Türkiyə nümayəndə heyətinin başçısı Xəlil bəy Menteşenin müzakirəyə çıxardığı "Osmanlı imperatorluğu hökuməti ilə Transqafqaz Federativ Cümhuriyyəti arasında imzalanacaq sülh və dostluq müqaviləsinin layihəsi" (17) ətrafında "notalar savaşı" oldu. Azərbaycandan olan təmsilçilər (M.Ə.Rəsulzadə və b.) ölkəmizin strateji maraqlarına əsasən uyğun gəldiyinə görə Osmanlı tərəfinin sənədini dəstəklədilər.

Batum konfransında ən dramatik anların yaşanması, ciddi proseslərin getməsi və uğurlu nəticələr əldə olunması Transqafqaz Seymi ilə Federasiyasının dağılması və regionda müstəqil dövlətlərin yaranmasından sonrakı dönəmdə (26.V.-4.V1. 1918) baş verdi. Bu arada, özü Batumda ikən, həm də Azərbaycan Milli Şürasının sədri (bərpa olunan dövlətimizin başçısı) seçilən M.Ə.Rəsulzadə konfransın davam etdirilməsinə dair qərarın qəbulunda əvəzsiz rol oynadı, tarixi xidmət göstərdi.

Konfransdakı Osmanlı və Azərbaycan təmsilçilərinin bu dönəmdə, yəni onun sonuna yaxın keçirdikləri görüşlərdə apardıqları məsləhətləşmələrdə mərkəzi yeri ölkəmizin istiqlalının möhkəmləndirilməsi və s. üçün Türkiyənin yardım göstərməsi məsələsi tuturdu. Həmin dövrdə bir neçə nəfərlə

Batuma gələrək Xəlil bəy Menteşe ilə gőrűşən N.Keykurun (Şeyxzamanlı) arasındakı sőhbətdə bir məqam bu və digər məsələlərlə bağlı çox diqqətçəkicidir.

M.Keykurun őz xatirələrində (18) yazır ki, onunla birlikdə gőrűşə gələnlər minlərlə imza atılmış kağızları Xəlil bəyə gőstərərək hamısı birdən "Mőhtərəm bəyimiz, xalqımız istiqlal istəmir, biz də istəmirik. Osmanlı dővlətinin bir parçası olmaq istəyirik" deyərkən Menteşe gőzəl sőhbəti ilə onları razı sala bildi. Xatirələrdən bu da aydın olur ki, Xəlil bəy son sőz olaraq "Biz sűngűműz ilə Qafqaza yaxınlaşdıq. Siz bizə ilhaq olmaq istəməsəydiniz də biz sizi sűngű zoru ilə ilhaq edərdik. Ancaq buna imkan yoxdur. Bizim birləşməmizi nə dűşmən, nə də dost dővlətlər qəbul edər. Biz sizə yardım edirik və edəcəyik. İstiqlaliyyət qurub műstəqil yaşamanız űçűn lazımi qədər əsgərimizi gőndərəcəyik. Hər cəhətdən yardım edəcəyik. Őz vətənimiz kimi, sizin vətəninizi də qoruyacağıq. Evlərinizə dőnűn və qurulacaq istiqlaliyyəti dəstəkləyin" demişdi.

Azərbaycana Osmanlı yardımına dair məsələ M.Ə.Rəsulzadənin Tűrkiyə nűmayəndə heyətilə keçirdiyi daha bir gőrűşdə (2.VI. 1918) ətraflı műzakirə olundu (19). Həmin műzakirələr zamanı, iki dővlət arasındakı dostluq műqaviləsinin artıq hazırlanan, ancaq hələlik rəsmən imzalanmayan sazişin 4-cű maddəsinə əsasən Osmanlıdan Azərbaycana hərbi yardım gőstərməsi istənildi. Nəhayət, 1918-ci il iyunun 4-də Osmanlı imperatorluğu hőkuməti ilə Azərbaycan Xalq Cűmhuriyyəti arasında sűlh və dostluq műqaviləsi (20) bağlandı.

M.Ə.Rəsulzadə tərəfindən də imzalanan bu muqavilə Batum konfransında razılaşdırılan ilk sazişdir. AXC-nin ilk beynəlxalq sazişi sayılan Batum műqaviləsi bərpa edilən Azərbaycan dővlətçiliyinin műdafiəsi űçűn etibarlı siyasi-hərbi dəstək kimi də dəyərləndirilir (21). O dővrű dərindən araşdıranlardan F.Kazımzadənin də yazdığı kimi, Azərbaycan bu műqavilədən

heç nə itirmədi, əksinə, Tűrkiyənin yardımını qazandı. Konfransda, M.Ə.Rəsulzadənin bilavasitə iştirakı ilə hazırlanan və őzű tərəfindən imzalanan, bir sıra digər sənədlər də (Batum műqaviləsinə əlavə sazişlər, "Azərbaycanın Tűrkiyədən əsgəri műdaxilə istəməsi" (22) və s.) qəbul olundu.

Űmumiyyətlə, Batum konfransı və műqavilələri Azərbaycanın dővlətçilik tarixində və taleyində bőyűk rol oynadı. XX əsrin əvvəllərindəki beynəlxalq műnasibətlərdə və Qafqaz diplomatiyasında bőyűk dəyərə malik hadisələrdən sayılan bu konfrans və onun yekunları habelə M.Ə.Rəsulzadənin siyasi-milli műcadiləsində də őnəmli mərhələ oldu.

---

1. Azərbaycan Respublikası Dővlət Tarix Arxivi (AR DTA), f.894, siy.10, iş 144, v.12, 17; f.970, siy. 1, iş1, v.6,12,26,30,36-38; f.2894, siy.1, iş 24, v.24-25.
2. Yenə orada, f.970, siy.1, iş3, v.1-2; E. Şahin, Trabzon ve Batum Konferansları ve Antlaşmaları (1917-1918), Ankara, 2002, səh.275 (Qaynaq: "Tanin" qəzeti, İstanbul, 28 aprel 1334/1918, №3370).
3. Genelkurmay Askeri Tarih və Stratejik Etűd Dairesi Başkanlığı Arşivi (ATASE), Arşiv (A.) 4-3671, Klasőr (K.) 2921, Dosya (D.) 511, Fihrist (F.)1-33, 1-34 (sayfa 1-4).
4. A.N.Kurat, Tűrkiye ve Rusya, Ankara, 1990, səh.471; E.Şahin. Adıçəkilən kitab, səh.367 (Qaynaq: "Tiflisskiy Listok" qəzeti, 13/26 mart 1918-ci il, sayı 57).
5. A.N.Kurat. Gőstərilən əsəri, səh.471.
6. E.Şahin. Adıçəkilən kitabı, səh.368-372 (Mənbə: Документы и материалы по внешней политике Закавказья и Грузии. Тифлис, 1919, 69 saylı sənəd, səh.140-146). Bu barədə habelə baxın: T.Svyatoxovski. Rusiya Azərbaycanı 1905-1920-ci illər. – "Azərbaycan" jurnalı, 1989, №11, səh.127-128; Kazemzadeh F., The Struggle For Transcaucasia (1917-1921), Birmingham, 1951, səh. 96-97; M.B.Mehmetzade, Milli Azerbaycan Hareketi, Ankara, 1991, səh.77-80.
7. Baxın: İ.Musayev. Azərbaycanın xarici siyasəti (XX əsr), birinci hissə. Bakı, 2003, səh.26-30; C.Həsənov. Azərbaycan beynəlxalq műnasibətlər sistemində: 1918-1920. Bakı, 1993, səh.55-57; N.Nəsibzadə. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı, 1996, səh.40-43 və s.

8. E.Şahin. Gőstərilən əsəri, səh.394 (Mənbə: ATASE, A.1-64, K.1854, D.120-729, F.1-256 və s.).
9. Yenə orada (Qaynaq: ATASE,A.4-3671,K.2918,D.28-496,F.1-177 və s.).
10. AR DTA, f.894, siy.10, iş 144, v.13-16.
11. E.Şahin. Adıçəkilən əsəri, səh.404 (Mənbə: ATASE, A.1-64, K.1854, D.120-179, F.1-252 və s.).
12. Yenə orada.
13. ATASE, A.4-3671, K.2921, D.511, F.1-204, 1-205, 1-206.
14. E.Şahin. Gőstərilən kitab, səh.415-416.
15. Документы и материалы по внешней политике Закавказья и Грузии, 99 saylı sənəd, səh.205.
16. Z. Avalov (Avalişvili) Nezavisimostğ Qruzii v mejdunarodnoy politike. 1918-1921 qq. Vospominaniə. Tiflis, 1925, səh.34. (Qaynaq: "İkdam" qəzeti, İstanbul, 17 may 1334/1918, №7640 və "Tanin" qəzeti, İstanbul, 31 may 1334/1918, №3403).
17. Yenə orada, səh.42.
18. Nağı Şeyxzamanlının xatirələri. Bakı, 1997, səh.158-159.
19. E.Şahin. Adıçəkilən əsəri, səh.620 (Mənbə: 93 saylı Askeri Mecmuanın Tarih Kısmı, 1 iyun 1934, səh.7).
20. AR DTA, f.894, siy.2, iş 88, v.1-3; f.28, siy.1, iş 33, v.12-13; Osmanlı Devleti ile Azerbaycan Tűrk Hanlıkları Arasındakı Műnasibetlere Dair Arşiv Belgeleri, Cilt II (1575-1918), Ankara, 1993, səh.225-229; Tűrkiye Cűmhuriyeti Dışişleri Bakanlığı Arşivi (T.C. DBA), Karton №560.
21. M.Ə.Rəsulzadə. Azərbaycan Cűmhuriyyəti. Bakı, 1990, səh.37-40.
22. T.C. DBA, Karton 124; Документы и материалы…, 178 və 179 saylı sənədlər, səh.364-365 və s.

# AZƏRBAYCAN İSTİQLALININ İKİ YOLU VƏ İKİ MÜBARİZİ: NƏRİMAN NƏRİMANOV VƏ MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ*

**Solmaz RÜSTƏMOVA-TOHİDİ**

Azərbaycanın müasir dövr tarixinin ən mürəkkəb, dolaşıq və əhəmiyyətli dövrü sayılan XX əsrin ilk 20 ili yalnız zəngin ictimai-siyasi hadisələrlə deyil, həm də bu hadisələrin Azərbaycan xalqının və dövlətçiliyinin ən mühüm məsələlərini həll etməli olan şəxsiyyətlərinin taleyi və münasibətləri baxımından böyük maraq kəsb edir. Bu dövrdə Azərbaycanın siyasi səhnəsinə çıxan şəxsiyyətlər istər öz siyasi-ictimai görüşləri, istər mənəvi-əxlaqi keyfiyyətləri ilə bir-birindən nə qədər fərqlənsələr də, onların hamısını bir məqsəd, bir amal birləşdirirdi: Azərbaycanın istiqlalı! Tarixi dövr və siyasi mühit bu istiqlala çatmağın son dərəcə müxtəlif, ziddiyyətli yollarını təklif edir və Azərbaycan siyasi olimpinin iki ən nəhəng simasını və iki ən böyük Vətəndaşını üz-üzə qoyur.

Bu iki şəxsiyyət Azərbaycanın görkəmli ictimai-siyasi və dövlət xadimləri, mütəfəkkir və ziyalıları, yazıçı və jurnalistləri Nəriman Nərimanov və Məhəmməd Əmin Rəsulzadədir. Bu epitetlər mübaliğə deyildir və onların hər birinə eyni dərəcədə və tam ədalətlə şamil edilə bilər. Siyasi burulğanlar əsri olan XX əsrin ən faciəli paradokslarından biri də bəlkə budur ki, mənsub olduğu xalqın azadlığı və səadəti üçün dərin şəxsi mə-

* Məqalə müəllifin 1995-ci il 10-11 mart tarixdə İstanbulda TÜSTAV və UITE tərəfindən "Tarixə Yenidən Baxış və Tarixin qaynaqları" mövzusunda keçirilən simpoziumda etdiyi məruzə əsasında yaşılmışdır.

suliyyət hissi duyan və bütün varlığı, fikri, qəlbi ilə bu xalqa xidmət etmək istəyən bu son dərəcə istedadlı şəxsiyyətləri eyni məqsəd uğrunda mübarizənin iki – tamamilə əks qütbünə atır.

Kommunist ideologiyasının tərənnümçüsü kimi N.Nərimanov və milli ideyanın daşıyıcısı kimi M.Ə.Rəsulzadə haqqında kifayət qədər əsərlər yazılıb. Doğrudur, Azərbaycan elmi ədəbiyyatında Rəsulzadənin ictimai-siyasi və ədəbi fəaliyyəti Nərimanov qədər işlənməyib. Uzun illər adının çəkilməsi belə yasaq edilmiş bu qəribə taleli şəxsin əsərləri Azərbaycanda yalnız 90-cı illərin əvvəllərindən nəşr edilməyə başlanıb, haqqında bir sıra elmi, kütləvi və bədii əsərlər yazılıbdır. Bu nəşrlər və ədəbiyyat M.Ə.Rəsulzadənin son dərəcə zəngin yazılı irsi və onlardan az əhəmiyyətli olmayan uzun, mürəkkəb həyat və mübarizə yolunu layiqincə əhatə etməsələr də, hər halda bu böyuk Şəxsiyyətə qarşı neçə onilliklər davam etmiş ədalətsizliyin müəyyən qədər aradan götürüldüyünü deməyə əsas verir.

Lakin maraqlıdır ki, Şərqin bir nömrəli kommunisti sayılan N.Nərimanovun xatirəsi də öz "kommunist vətənində" həmişə birmənalı qiymətləndirilməyib. 1925-ci ildə vəfat edən N.Nərimanovun ölümündən cəmi bir il sonra adı birdən-birə unudulub. Daha sonra isə "Lenin işinin davamçıları" ona "millətçi" damğası vuraraq adını tarixdən silmək siyasəti aparıblar. Yalnız 50-ci illərin ortalarından, Stalinin ölümündən sonra Nərimanovun adına bəraət verilməsi təzahürləri görünməyə başlayır. Onun kitabları nəşr olunur, 1970-ci ildə anadan olmasının 100 illiyi təntənə ilə qeyd edilir, Bakıda abidəsi ucaldılır. Lakin bütün bunlarla yanaşı Azərbaycan tarixində ən "beynəlmiləlçi" xadimlərdən olan N.Nərimanova "millətçi" damğasının nə əsasla vurulduğu sualı hələ də cavabsız olaraq qalırdı.

Yalnız 80-cı illərin sonlarından başlayaraq, – SSRİ-də "yenidənqurma" siyasətinin nəticəsi kimi Azərbaycan KP arxivləri açıldıqdan sonra Şərqdə kommunist hərəkatının bu, ən nüfuzlu

simalarından birinin keçirdiyi əhvali-ruhiyyə, atdığı addımlar, yürütdüyü mülahizələr haqqında ilk dəfə düzgün və ətraflı məlumat almaq imkanı yaranır. İlk dəfə 1990 və daha sonra 1992-ci ildə bir neçə əlavələrlə birlikdə rus və Azərbaycan dillərində Bakıda "Ucqarlarda inqilabımızın tarixinə dair" (1) adı ilə ayrıca kitabça şəklində çap olunan N.Nərimanovun İ.V.Stalinə yazdığı məktub-məruzə bu baxımdan misilsiz mənbə sayılır. 1923-cü ildə yazılmış və məxfi sənəd kimi 70 ildən artıq müddətdə elmi ictimaiyyətdən gizlədilən bu məruzə, həmçinin digər iki məxfi sənəd - Nərimanovun "V.İ.Leninə məktub"u və "Oğluma bitməmiş məktub"u onun şəxsiyyətinə və ictimai-siyasi mövqeyinə daha dərindən və diqqətlə yanaşmaq zərurətini meydana çıxardı. Məhz bu sənədlər, Nərimanovla Rəsulzadə arasında paralel aparmağa, eyni dövrü, eyni hadisələri yaşamış bu iki şəxsin taleyində, ictimai-siyasi görüşlərində və inqilabi fəaliyyətində olan oxşar və fərqli cəhətləri qiymətləndirməyə imkan verir.

İlkin ictimai görüşlərinə görə maarifçi olan və əmək fəaliyyətinə müəllim kimi başlayan Nərimanovun özünün yazdığına görə məhz "müsəlman kütləsinin müstəsna avamlığı və geriliyi" onun qarşısına özünün "ədəbi və ictimai işi ilə bu kütləni oyadıb inqilaba hazırlamaq" vəzifəsi qoyur (2). Bu inqilabın xarakteri haqqında hələ dəqiq təsəvvürə malik olmayan Nərimanov 1894-cü ildə Bakıda müsəlman kütlələri üçün ilk ümumi kitabxana-qiraətxana açır.

Həmin 1894-cü ildə 10 yaşlı Məhəmməd Əmin din xadiminin ailəsində anadan olmasına baxmayaraq dünyəvi elmlərə yiyələnir, yeni təşəkkül tapan kitabxana-qiraətxanalara daxil olan ədəbiyyatla, mətbuatla ilk tanışlığa başlayır.

1902-ci ildə, artıq ictimai problemlərdən bəhs edən bir neçə ədəbi əsərin müəllifi kimi tanınan Nərimanov Odessada Tibb Universitetinə daxil olur və burada ilk dəfə inqilabi tələbə hərəkatına qoşulur.

Həmin 1902-ci ildə 17 yaşlı Məhəmməd Əmin Bakıda inqilabi "Müsəlman Gənclik Təşkilatı"nı yaradır.

1905-ci il birinci rus inqilabının yaratdığı nisbi azadlıqlar Rusiyanın ucqarlarında da inqilabi fikrin və hərəkatın inkişafına güclü təkan verir. Öz "Gənclik təşkilatı"nı 1904-cü ildə "Müsəlman Demokratik "Müsavat" Cəmiyyəti"nə çevirmiş Məhəmməd Əmin Rəsulzadə bu dövrdə son dərəcə populyar olan sosial-demokratiya ideyalarının təsiri altına düşür və onun rəhbərlik etdiyi cəmiyyətin əsasında RSDFP-nin Bakı Komitəsinin nəzdində ilk "Müsəlman Sosial-Demokrat "Hümmət" Təşkilatı" yaradılır. 1905-ci ildə Odessadan Bakıya qayıdan Nəriman Nərimanov da bu təşkilata üzv olur. Beləliklə, bu iki şəxsin tanışlığı və Azərbaycan inqilabi hərəkatında fəaliyyəti eyni təşkilatdan başlayır.

1905-1907-ci illər hələ həm Nərimanov, həm də Rəsulzadə üçün sosial-demokratiya ideyalarına bağlılıq dövrüdür. Lakin Rusiya inqilabının gedişində bu fikir cərəyanının müxtəlif istiqamətlərinin mövqeləri müəyyənləşdikcə hər iki azərbaycanlı inqilabçının görüşlərində də ciddi dəyişikliklər baş verir. Nərimanov "Oğluma bitməmiş məktub"unda öz seçdiyi yolu belə əsaslandırırdı: "Mən insanın insan tərəfindən istismarının əleyhinəyəm. Mən bəşəriyyətin tezliklə azadlığa çıxması, nadanlıqdan, habelə köləlikdən azad olması yollarını axtarırdım. Mən sosial-demokrat idim. Lakin bu təşkilat daha çox idealdan uzaqlaşır. Mən bolşeviklərin proqramını xüsusi inamla qəbul etmişəm, belə ki, mən bunda öz məramımın: dünyada köləliyin məhvinin həyata keçməsini görürdüm" (3).

Bolşeviklər partiyasıninn proqram şüarları bu dövrdə Rəsulzadəni də daha çox cəlb edir. Həmin illər Bakıda inqilabi fəaliyyət göstərən bolşevik Stalinlə çox səmimi və yaxından dostluq edən, onu bir dəfə ölümdən qurtaran Məhəmməd Əmin "Stalinlə ixtilal xatirələri" əsərində "baltanı çarlığın kökünə vu-

ran bolşevik görüşlərinə üstünlük verdiyini" yazırdı (4).

Lakin bolşeviklərin sinfi mübarizə və sinfi ziddiyyətlərini aradan qaldırmaq məqsədi üzərində qurulmuş proqramı Rəsulzadəni bu partiyanın fəaliyyətinə getdikcə daha tənqidi yanaşmağa vadar edir. Bu dövrdə Azərbaycanın Qərbi Avropa mədəniyyəti məktəbi keçən, Türkiyədəki ictimai-siyasi və fəlsəfi fikir cərəyanlarının daşıyıcıları olan və onları Azərbaycan mühitində inkişaf etdirən açıq fikirli, milli ruhlu ziyalıları ilə yaxından tanışlıq və əməkdaşlıq da onun görüşlərinə ciddi təsir edir. Bolşevizmin vətəni Rusiyadan fərqli olaraq Azərbaycanın müstəmləkə bir ölkə olduğu və bu baxımdan ən əvvəl öz milli müstəqilliyi uğrunda mübarizə aparmağın zəruriliyini başa düşən Rəsulzadə RSDFP-dən uzaqlaşır və Rusiya müstəmləkə üsul-idarəsinə qarşı Azərbaycan milli istiqlal hərəkatının təməlini qurmağa başlayır.

Bu yolda aparılan son dərəcə uzun, geniş və gərgin fəaliyyətin nəticəsi kimi, M.Ə.Rəsulzadə proqramında "Milli istiqlala malik olmayan bir millət hürriyyət və harsını hifz etməz" sözləri yazılmış "Müsavat" Partiyasının lideri, "İnsanlara hürriyyət, millətlərə azadlıq" şüarını əsas tutan Azərbaycan Demokratik Cümhuriyyətinin rəhbəri və "Bir kərə yüksələn bayraq bir daha enməz" məşhur kəlamı ilə səciyyələnən Azərbaycan milli istiqlal mücadiləsinin ideoloqu səviyyəsinə yüksəlir (5).

Azərbaycan xalqının azadlıq yolunu tamam başqa ideyalar – beynəlmiləlçilik və sinfi mübarizə ideyaları ilə bağlayan N.Nərimanov da bu məslək uğrunda apardığı mübarizə nəticəsində ən ali mənsəblərə çatmış, Azərbaycan Demokratik Cümhuriyyəti devrildikdən sonra yaradılan Azərbaycan Sovet Sosialist Respublikasının rəhbəri, daha sonra SSR İttifaqı Mərkəzi İcraiyyə Komitəsinin sədri vəzifələrini tutmuş, Şərqdə kommunist ideyalarının yayılması istiqamətində apardığı fəaliyyətinə görə isə hətta "Şərqin Lenini" kimi bir epitetə layiq görülmüşdür.

Mübarizə yolları ayrılan andan Nərimanovla Rəsulzadə arasında dərin siyasi rəqabət başlamış, onlar bir-birini Azərbaycan xalqının mənafeyinə xəyanətdə ittiham etmişlər.

Nərimanov Rəsulzadənin başçılıq etdiyi hərəkatı "pan-türkizm" və "panislamizm" ideyalarını yaymaqda, "Türkiyənin qanadı altına girməkdə", məmləkətin mənafeyini İngiltərəyə, Almaniyaya, nəhayət, ağ rus generalı Denikinə satmaqda, "Müsəlman kütlələrinin" deyil, "bir ovuc bəy, xan, mülkədar və Bakı milyonçularının mənafeyini müdafiə etməkdə" günahlandırırdı(6).

Rəsulzadə öz növbəsində Nərimanovun mənsub olduğu təşkilatı Azərbaycanın milli istiqlalını bolşevik Rusiyasının "yalançı şüarlar altında gizlənən" təcavüzkar niyyətlərinə qurban verməkdə, Azərbaycan torpaqlarını, neftini və başqa maddi sərvətlərini, hətta din, dil və mədəniyyətini "qırmızı imperiyaya" hədiyyə etməkdə ittiham edir, "Nəriman və yoldaşları ruslara satmadıqları bir şey buraxmadılar" yazırdı (7).

Maraqlıdır ki, bu iki siyasi rəqibin nəzərlərində ust-ustə düşən yalnız bir məsələ vardı ki, o da Azərbaycan xalqının, onun dövlətçiliyinin, ərazisinin, sərvətlərinin, mədəniyyətinin ən böyük düşməni kimi daşnak erməni qüvvələrinin hər iki xadim tərəfindən dəfələrlə etiraf edilməsidir. Təəssüf ki, ictimai-siyasi görüşlərindəki ciddi fikir ayrılıqları Azərbaycanın müqəddəratı üçün çox təhlükəli olan bu məsələdə də onların birləşməsinə mane olur.

Bununla belə, aralarındakı siyasi mükalimənin bütün kəskinliyinə baxmayaraq, nə Nərimanov, nə də Rəsulzadə bir-birinin şəxsiyyətinə toxunacaq heç bir təhqiramiz ifadələrə yol verməmişlər. Əksinə, Məhəmməd Əmin Nərimanovun o dövrün siyasi dairələri və zəhmətkeş kütləleri arasında böyük nüfuzunu həmişə qeyd etmişdir. Nərimanov da bolşevik istilasından sonra Rəsulzadə Qızıl Ordu qüvvələri tərəfindən həbs edilərkən öz im-

kanları daxilində onun təhlükəsizliyini təmin etməyə çalışmışdır.

Rəsulzadənin həbsdən xilası və mühacirətə keçmək tarixini isə o dövrün ən dramatik hadisələrindən hesab etmək olar. Onun həbs xəbərini eşidən Stalin şəxsən həbsxanaya gedib Rəsulzadəni azad edir və onu özü ilə birlikdə Moskvaya aparır. Beləliklə, Stalin 1905-ci ildə onu ölümdən xilas etmiş keçmiş inqilabçı dostu, hazırki siyasi düşməni qarşısında öz vicdani borcunu yerinə yetirir (8). İki il Moskvada yaşadıqdan sonra Rəsulzadə gizli yolla Finlandiyaya keçir və bu zamandan Azərbaycan milli istiqlal hərəkatının sözsüz ki, ən birinci siması olan 38 yaşlı Məhəmməd Əminin hələ 30 ildən artıq davam edəcək ağır, keşməkeşli mühacirət dövrü başlanir.

Lakin məhz bu illərdə, Rəsulzadədən fərqli olaraq zahirən bütün arzularına çatmış Nərimanov da həyatının ən ağır və iztirablı dövrünə qədəm qoyur. Nərimanovun 70 il üzərinə "tamamilə məxfi" qrifi qoyulmuş məktubları onun ömrünün son illərində keçirdiyi dəruni hisslər barədə geniş təsəvvür yaratmaqla, Rusiya və Azərbaycanda bolşevik inqilabı və sosializm quruculuğu prosesinə tamam başqa bir gözlə – bu inqilabı həyata keçirmiş adamın nəzərləri ilə baxmağa imkan verir. Bu məktublar Sovet hakimiyyətinin artıq ilk illərində baş verən çox ciddi pozuntulardan dəhşətə gələrək onları aradan qaldırmağa cəhd edən, lakin artıq gücsüzlüyünü və imkansızlığını anlayaraq çıxış yolunu öz düşüncələrini və mənəvi sarsıntılarını gələcək nəsillərə çatdırmaqda görən və başa düşüləcəyinə ümid edən müdrik, təcrübəli və yorğun bir adamın şəxsi faciəsini nümayiş etdirir.

"Azərbaycandan Şərq üçün nümunəvi Sovet Respublikası yaratmaq və bununla da Şərqin məzlum xalqlarını tez bir zamanda öz tərəfimizə cəlb edərək azadlıq hərəkatını alovlandırmaq" (9) məqsədinin real təcrübədə "Azərbaycanın simasızlaşdırılmasına" və yenidən "parçala və hökm sür" siyasətinin

keçirildiyinə, "Azərbaycanın taleyinin erməni daşnaklarına tapşırıldığına", yerli müsəlman mütəxəssislərin işdən uzaqlaşdırılaraq rus, erməni və yəhudilərlə əvəz edildiyinə, Azərbaycan dilinin tədris ocaqları və idarələrdən sıxışdırılıb çıxarıldığına, Sovet Rusiyasının Azərbaycan nefti üzərində "monarxiya" yaratdığı zaman "Azərbaycan kəndlisinin talaşa yandırdığına", yerli əhalinin dini hisslərinə qarşı repressiya siyasəti aparıldığına və bütün bunların labüd nəticəsi kimi Azərbaycanda "hal-hazırda hakimiyyətin süngü gücünə müdafiə edildiyinə" gətirib çıxardığını Nərimanov Stalinə yazdığı məktubda böyük ürək ağrısı ilə qeyd edirdi(10).

Bu məktubda bolşevik siyasətinin həmçinin digər ucqar müsəlman respublikalarında, Türküstanda, Buxarada da nüfuzdan düşdüyü, bir sıra Şərq ölkələrində tam iflasa uğradığı, İran azadlıq hərəkatının isə bilavasitə bolşeviklərin əli ilə boğulduğu açıq etiraf olunurdu (11).

Bütün bu əyintilər arasında Nərimanov üçün ən dəhşətlisi Sovet Rusiyasının Azərbaycanın dövlətçiliyinə olan münasibətidir. Leninə yazdığı hədsiz həyəcan və təlaş dolu məktubunda "həmişə Denikini müdafiə etmiş Ermənistanın müstəqillik qazanaraq üstəlik Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini aldığını", "ikili siyasət aparan Gürcüstanın müstəqillik əldə etdiyini", "üç respublikadan birinci olaraq Sovet Rusiyasının qoynuna atılmış Azərbaycanın isə həm ərazisini, həm də müstəqilliyini" itirdiyini göstərərək Nərimanov birbaşa Leninə müraciət edir: "Məgər "Müstəqil Azərbaycan" sizin dilinizdən çıxmamışdırmı ?" (12).

"Yeganə ümidimiz – inqilabımızı Şərqdə siyasətlə müdafiə etmək ümidi də alt-üst oldu" - deyən Nərimanov, əgər gətirdiyi bu dəlillərə diqqət yetirilməzsə, Azərbaycanın "geri çağırılması barədə Mərkəz qarşısında məsələ qaldırmaq məcburiyyətini" xüsusi qeyd edir(13).

Bütün bu hadisələrdən aldığı nəticələr Nərimanovu bolşevizmin labüd məhvi fikrinə gətirir. "Oğluma bitməmiş məktub"unda acı bir təəssüflə "bəlkə də sən bu sətirləri oxuyan vaxt bolşevizm olmayacaq" yazan Nərimanov, bununla belə, bütün bu uğursuzluqların səbəbini "dünyada köləliyin məhvini həyata keçirən" bolşevizmin özündə deyil, "hakimiyyətin korladığı", "nəhəng bir dövlətin müqəddəratını öz əlinə almaq və diktator olmaq qərarına gəlmiş" görkəmli işçilərin yeritdiyi şovinist siyasətdə görür(14).

Göstərilən sənədin 1923-cü ildə yazılmış birinci hissəsində Nərimanov hələ "Mən əminəm ki, bizim ideyamız qalib gələcəkdir" (15) inamını bildirirdi. Lakin cəmi bir neçə aydan sonra, ölümünə lap az qalmış həmin məktuba etdiyi əlavəni N.Nərimanov öz həyat yolunun siyasi iflası sayıla biləcək bu sözlərlə bitirir: "Gedəcək yolumuz yoxdur" (16).

Həmin bu dövrdə, Nərimanovun ən birinci siyasi rəqibi M.Ə.Rəsulzadə 1923-cü ildə Türkiyədə özünün ilk mühacirət kitabını – "Azərbaycan Cümhuriyyəti" əsərini nəşr etdirir və bu kitabdan qırmızı xətt kimi keçən əsas fikrini belə ifadə edir: "Gələcək – millətləri süngü gücü ilə yapma rejimə boyun əydirənin deyil, milli hakimiyyətə, haqqa və hürriyyətə dayanan istiqlalçılığındır"(17).

Zaman və həyat özü XX əsr Azərbaycan istiqlal mübarizəsinin və siyasi fikrinin iki ən görkəmli nümayəndəsi arasında gedən ideya və əməl mübahisəsinə son nöqtəni qoydu. Sovet İttifaqında kommunist ideologiyasının yuxarıdan süqutu, İdtifaqın özünün bir dövlət kimi dağılması və Azərbaycanın yenidən öz müstəqilliyini bərpa etməsi bu ideya mübarizəsindən kimin qalib çıxdığını göstərdi və hələ 1923-cü ildə qəribə bir dəqiqliklə söylənilən "Kommunizm süquta məhkumdur. Kommunizm süquta məhkum olduğu kimi suni vasitələrlə mərkəziyyəti-idarə vücudə gətirmək istəyən Moskva sistemi də məh-

kumi-zəvaldır"(18) uzaqgőrənliyi təsdiq etdi. Bu mənada "bir kərə bayrağını yuksəltdiyi" vətənində 70 il ərzində űnvanına bir kəlmə xoş sőz sőylənilməyən, haqqı, hűrriyyəti uğrunda műbarizə apardığı millətinin xəbəri olmadan qűrbətdə, dilində nisgilli "Azərbaycan" kəlməsi ilə dűnyadan kőçən və bir dəstə həmməsləki tərəfindən Ankarada dəfn olunan Məhəmməd Əmin Rəsulzadə taleyinmi, yaxud tarixinmi hőkmű ilə, həmçinin Azərbaycandan uzaqlarda vəfat edərək artıq mənən tamamilə uzaqlaşdığı silahdaşları tərəfindən təmtəraqla Moskvada, Qızıl meydanda dəfn edilən Nəriman Nərimanovdan daha xoşbəxt sayıla bilər.

Lakin qlobal hadisələr, siyasi təbəddulatlar və sarsıntılar dővrűndə yaşayaraq boyunlarına bűtőv bir xalqın taleyini həll etmək yűkű gőtűrən bőyűk əqidə sahibləri haqqında yəqin ki, yalnız ağ və qara rənglərlə danışmaq olmaz. Bu adamların keçdikləri bőyűk və műrəkkəb həyat yolu, qoyduqları son dərəcə zəngin irs və sənədlər istər dővrűn tarixini, istərsə də bu tarixi yaradanların şəxsiyyətini hərtərəfli, dərindən őyrənməyi və qiymətləndirməyi zəruri edir.

---

1. Н.Нариманов. К истории нашей революции в окраинах. (Письмо И.В.Сталину). Баку, 1990. Nəriman Nərimanov. Ucqarlarda inqilabımızın tarixinə dair. İ.V.Stalinə məktub). Bakı, Azərnəşr,1992.
2. Nəriman Nərimanov. Ucqarlarda inqilabımızın tarixinə dair, s.65.
3. Yenə orada.
4. M.Ə.Rəsulzadə. Stalinlə ixtilal xatirələri. Bakı, Elm, 1991, s.16;
5. Bax: M.Ə.Rəsulzadə. Azərbaycan Cűmhuriyyəti. Bakı, Elm,1990,s.3-4.
6. N.Nərimanov. Məqalələr. Nitqlər.I cild, Bakı, Azərnəşr, 1971. s.219. Seçilmiş əsərləri, II cild Bakı, 1989, s.80, 83, 93, 206, 212.
7. M.Ə.Rəsulzadə. Azərbaycan Cűmhuriyyəti…,s.84,85.
8. Ətraflı bax: M.Ə.Rəsulzadə. Stalinlə ixtilal xatirələri…,s.24-32.
9. N.Nərimanov. Ucqarlarda inqilabımızın tarixinə dair…,s.33.
10. Yenə orada, s.s.56, 60, 36, 50, 36, 49.
11. Yenə orada, s.s.13, 14.

12. Yenə orada, s.62.
13. Yenə orada, s.63.
14. Yenə orada, s.65-66.
15. Yenə orada, s.55.
16. Yenə orada, s.60.
17. M.Ə.Rəsulzadə. Azərbaycan Cűmhuriyyəti…, s.4.
18. Yenə orada, s.93.

# М.Э.РАСУЛЗАДЕ И ЗАКАВКАЗСКИЙ МУСУЛЬМАНСКИЙ НАЦИОНАЛЬНЫЙ СОВЕТ

**Рашад РУСТАМОВ**

Свержение монархии и установление республиканского строя ускорил процесс создания национальных политических организаций Южного Кавказа. В отличие, от армян и грузин, азербайджанцы не имели общенациональной политической партии. Это привело к тому, что Бакинский Национальный Совет мусульманских общественных организаций, созданный как общественная организация, фактически стал во главе азербайджанского национального движения.

1917 год стал годом становления азербайджанских политических партий. В апреле 1917 года в Елисаветполе была создана партия Тюркских федералистов, провозгласившая своей целью создание Азербайджанской государственности в составе Российской Федерации. Идея создания Азербайджанской автономии была поддержана также партией Мусават. Ее лидер М.Э. Расулзаде выступил на I съезде мусульман Кавказа с докладом, в котором требовалось предоставление автономии мусульманским народам России.

Сотрудничество между партиями тюркских федералистов и партией Мусават привело к объединению их в июне 1917 года в единую политическую партию под названием партия Тюркских федералистов – Мусават. М.Э. Расулзаде был избран председателем партии.

I съезд партии, составший 25-31 октября 1917 года за-

вершил процесс становления партии в качестве азербайджанской общенациональной политической партии. На съезде была принята новая программа партии, выдвинувшая восстановление Азербайджанской государственности.

В Азербайджане расширялось национально-освободительное движение. Непосредственное руководство азербайджанскими национальными силами осуществлялось Бакинским Мусульманским Национальным Советом. Мусульманскому Национальному Совету противостоял Бакинский Совет рабочих и военных депутатов, поддерживаемый Бакинским гарнизоном Российской армии, Каспийской военной флотилией и армянскими национальными частями. Так как регулярные азербайджанские части только начинались создаваться, то азербайджанские члены Закавказского Комиссариата пытались заручиться поддержкой Турции. Национальные политические партии Южного Кавказа расценили Октябрьский переворот как узурпацию власти одной партией.

В ноябре 1917 года национальными политическими партиями, среди которых ведущую роль играли партия армянских социалистов-революционеров Дашнакцутюн, партия Тюркских федералистов - Мусават, а также грузинские меньшевики, был создан новый краевой орган власти - Закавказский Комиссариат. Под влиянием армянских националистов Закавказский Комиссариат распространил свою власть также на занятые русскими войсками территории Турции, а также на Карсский округ, Ардаган и Батумскую область, также являвшихся спорными территориями между Россией и Турцией. Это привело к тому, что с первых дней своего существования Южно-Кавказскому правительству пришлось столкнуться с территориальными проблемами.

Новое правительство России заявило о своем выходе из Антанты. В ноябре 1917 года в Брест-Литовске между странами Четвертного Союза, в состав которого входила также и Турция, и Советской Россией было подписано соглашение о перемирии.

Правительство Южного Кавказа отказалось признать перемирие, подписанное советским правительством и начало собственные переговоры. 5 декабря 1917 года в Эрзинджане было подписано перемирие между Закавказским Комиссариат и Турцией.

В начале январе 1918 года военный министр Турции Энвер Паша от имени своего правительства обратился к Закавказскому Комиссариату с предложением начать переговоры о заключении мирного договора между турецким правительством и Закавказским Комиссариатом. Закавказский комиссариат, в котором преобладали представители российской социал-демократической партии (меньшевиков), партии социалистов–революционеров дашнакцутюн и российской партии социалистов-революционеров заявил, что правом ведения мирных переговоров обладает лишь Всероссийское Учредительное Собрание.

Роспуск Всероссийского Учредительного Собрания советом народных комиссаров сделал невозможным решение вопроса о власти мирным путем. Это усилило сепаратистские тенденции национальных партий Южного Кавказа. Закавказский комиссариат взял курс на отделение Южного Кавказа от России.

Из депутатов, избранных в учредительное собрание от Южного Кавказа и Кавказской Армии, был образован законодательный орган края - Закавказский Сейм.

Взгляды армянских и грузинских политических партий в решении как экономических, так и национальных проб-

лем часто совпадали. В отличие от них в программах азербайджанских политических партий было много различий. Эти различия сделали невозможным объединение в единую политическую фракцию.

В Закавказском Сейме азербайджанскими депутатами были созданы три фракции- партии "Мусават" и беспартийных, партии "Иттихад" и фракция Мусульманского Социалистического Блока. Депутаты от партии "Гуммет" входили в грузинскую национальную фракцию. Фракцию партии Мусават в Закавказском Сейме возглавил председатель партии М.Э.Расулзаде (1). Несмотря на численное превосходство азербайджанских депутатов, отсутствие единой национальной фракции лишало ее возможности влиять на решения Закавказского Сейма.

Начавшаяся в России гражданская война ускорила развал Кавказской Армии. Солдаты Кавказской Армии покидали фронт целыми частями. К концу 1917 года части Кавказской армии покинули большую часть оккупированной территории Турции. В создавшихся условиях командование Кавказской Армии и правительством Южного Кавказа видело выход из создавшееся положения в создании национальных частей. Было принято решение о создании армянского, грузинского, азербайджанского и русского корпусов (2).

Среди национальных корпусов наиболее боеспособной силой являлся армянский национальный корпус. Части армянского национального корпуса заменили русские войска на оккупированных территориях Турции и на территории Карсского округа. В Батумской области были размещены части грузинского национального корпуса. При их поддержке партия Дашнакцутюн начала целенаправленное уничтожение мирного турецкого населения. Это явилась причиной многочисленных протестов турецкой стороны.

13 февраля турецкие войска были вынуждены нарушить перемирие. Были освобождены Эрзинджан, Трабзон и Байбурт. Дальнейшее продолжение военных действий создавало угрозу оккупации всего Южного Кавказа.

23 февраля 1918 года турецкий командующий Вахиб-паша сообщил председателю Закавказского Комиссариата Гегечкори о предложении своего правительства начать переговоры о разработке условий мирного договора непосредственно между Турцией и Закавказским Комиссариатом. К тому времени произошли серьезные изменения в позиции Закавказского Комиссариата по отношению мирных переговоров с Турцией.

Начавшаяся гражданская война в России сделала невозможным мирное решение вопроса о власти. Победы турецкой армии над армянскими национальными частями доказали военное превосходство турецкой армии над войсками Южного Кавказа. Дальнейшее продолжение военных действий создавало угрозу оккупации всего Южного Кавказа.

Это заставило представителей грузинской и армянской фракций изменить свое отношение к мирным переговорам. На объединенном заседании правительства и Сейма было принято решение о принятии предложения Турецкого правительства. Местом переговоров был избран город Трабзон.

Вскоре были получены известия об условиях Брест-Литовского мирного договора, заключенного между Советской Россией и странами Четвертного Союза. Согласно условиям этого договора Россия отказывалась от всяких претензий на территории Карса, Ардагана и Батума. Дальнейшую судьбу этих территорий должен был решить плебисцит среди населения этих территорий (3). Так как большую

часть населения этих территорий составляли турки, то фактически это означало передачу этих территорий Турции.

Армянская и грузинская фракции Закавказского Сейма отказались признать Брест-Литовский мирный договор.

Партия Дашнакцутюн и возглавляемая ею Армянская фракция Закавказского Сейма предполагали включить Карс в состав будущего Армянского государства. Грузинская национальная фракция считала Батум и Ардаган собственностью грузинского народа (4).

На заседании Закавказского Сейма, посвященного мирным переговорам от 1-го марта 1918 года армянская и грузинская фракции выступили с единых позиций.

По требованию армянской и грузинской фракций Закавказский Сейм заявил, что мирный договор может быть подписан лишь при условии восстановления границ 1914 года и предоставления автономии Турецкой Армении.

Закавказским Сеймом для ведения мирных переговоров на основе пропорционального представительства трех национальных фракций была образована мирная делегация.

Трабзонская конференция начала свою работу 14 марта 1918 года.

В тот же день командующий 3-й турецкой армией Вахиб-паша в соответствии с условиями Брест-Литовского мирного договора потребовал от главнокомандующего Кавказской Армии вывести свои войска с территорий Карса, Ардагана и Батума. Так как национальные корпуса являлись частью Кавказской Армии, то это требование распространялась также на них (5).

Неопределенность политической формы Южного Кавказа делало невозможным заключение мирного договора.

Главными противниками провозглашения независи-

мости Южного Кавказа являлись представители армянской и грузинской фракций Сейма. Провозглашение независимости в границах Южного Кавказа, для армянской и грузинской фракций означало отказаться от претензий на территорию Карса, Ардагана и Батума. Включение же их в состав нового государства привело бы к новым столкновениям с Турцией.

Азербайджанские депутаты, представляющие партии "Мусават", "Иттихад" и беспартийных, были заинтересованы в провозглашении независимости. Провозглашение независимости края привел бы к росту влияния Турции в регионе, которую они рассматривали как своего союзника в борьбе за территориальную целостность Азербайджана. Единое отношение к идее независимости привело к установлению союзнических отношений между этими фракциями. Ведущую роль здесь играла фракция партии Мусават, руководимая Мамед Эмином Расулзаде.

Их представитель, член партии "Иттихад" Мехтиев на заседании Сейма заявил, что, в случае отказа от провозглашения независимости, они откажутся участвовать на мирных переговорах. Но Сейм большинством голосов отклонил это требование (6).

В первый день конференции турецкая делегация потребовала от делегации Южного Кавказа признать условия Брест – Литовского мирного договора, а также определить свое политическое устройство. Правительство Южного Кавказа, хотя и не признавало власть Советской России, оно все же не торопилось с провозглашением независимости, так как все еще надеялось на мирное решение вопроса о власти. Кроме того, власти Южного Кавказа остерегались потери связей с Россией, так как это могло привести к возрастанию влияния Турции. По мнению турецкой делега-

ции, отказ Южно-Кавказской делегации от провозглашения независимости означал, что Южный Кавказ продолжает находиться в составе России, и поэтому все обязательства, взятые Советской Россией, в разной степени относятся и к Южному Кавказу.

Требование Турции вывести войска Южного Кавказа с территории Карса, Ардагана и Батума, а также определить форму государственного строя Южного Кавказа, обсуждалось также на заседании Закавказского Сейма. Грузинская и армянская фракции единогласно выступили против притязаний Турции на эти территории. Выступивший от имени обеих фракций представитель партии Дашнакцутюн Карчикян заявил, что Турция требует от Южного Кавказа провозглашения независимости, но для этого нужно определить территорию государства. Если включить в ее состав территории Карса, Ардагана и Батума, то это повлечет за собой столкновение с Турцией. Если же мы не включим эти территории в состав Южного Кавказа, то наша независимость потеряет всякий смысл (7).

В отличие от армянской и грузинской фракций, в азербайджанской фракции не было единого мнения относительно условий мирного договора с Турцией. Представитель фракции беспартийных Фаталихан Хойский на заседании Сейма от 25 марта 1918 года заявил, что турецкое правительство всегда относилось к Южному Кавказу, как к независимому государству. Исходя из этого, Турция предложила Южному Кавказу участвовать на Брест–Литовкой конференции. Но правительство Южного Кавказа отказалась от этого. Это означало, что Южный Кавказ все еще продолжает считать себя частью России. Поэтому вполне естественно, что Турецкое правительство требует от нас выполнения всех условий мирного договора с Россией.

Эту позицию разделяли также представители социалистического блока. Их представитель Ибрагимбей Гейдаров также выступил за возвращение Турции территорий Карса, Ардагана и Батума.

Фракция партии "Гуммет" выступила против территориальных претензий Турции. Представители этой фракции Шейхульисламов и Пепинов заявили, что Брест-Литовский мирный договор предоставляет населению этих территорий право на самоопределение, что вовсе не дает Турции право претендовать на эти территории.

Представитель фракции "Мусават" Хасмамедов предлагал принять все требования Турции за исключением Батума. Будучи единственным портом Южного Кавказа на Черном море, Батум играл важную роль для экономики всего Кавказа (8).

Уничтожение турецкого населения на территории Карса и Ардагана вынудило Турцию вновь нарушить перемирие. 19 марта 1918 года турецкими войсками был освобожден Ардаган. Армянские национальные войска были разоружены.

Выступивший во время обсуждения этих событий в Закавказском Сейме представитель фракции "Мусават" Х. Хасмамедов заявил, что с точки зрения международного права действия Турции вполне естественны. Поэтому, действия Турции надо рассматривать не как захват чужой территории, а как борьбу против незаконных военных формирований, каковыми являются армянские национальные части (9).

Это заявление Х. Хасмамедова было связано с тем, что к тому времени большая часть территории Азербайджана контролировалась азербайджанскими национальными формированиями. Единственной территорией, которая находи-

лась под контролем Советской России, оставалась территория Бакинского уезда. Здесь азербайджанским национальным силам противостояли вооруженные силы Бакинского Совета, состоящие из армянских национальных частей, войск Бакинского гарнизона и Каспийской военной флотилии. Руководители национального движения Азербайджана рассматривали Турцию в качестве своего союзника в борьбе против влияния России на Южном Кавказе.

30-31 марта 1918 года в результате захвата Бакинским Советом власти в Баку было убито 12 тысяч азербайджанцев. Как отметил в своем выступлении председатель партии Мусават, большую часть погибших составляли женщины и дети.

Эти события повлияли на деятельность азербайджанских депутатов Закавказского Сейма. После разгрома Бакинского Мусульманского Совета азербайджанская фракция стала во главе национального-освободительного движения Азербайджана.

Депутатами от партии Мусават, Иттихад, блока беспартийных был создан Закавказский Мусульманский Совет во главе с председателем партии Мусават Мамед Эмином Расулзаде. В состав Мусульманского Совета вошли все азербайджанские партийные фракции, кроме фракции партии " Гуммет" (10).

Закавказский Мусульманский Совет оказался в сложной ситуации. Бакинский Совет не собирался ограничивать свою власть лишь территорией Баку. Вскоре после мартовских событий войска Бакинского Совета захватили территорию всей Бакинской губернии. На захваченных территориях проводилось массовое уничтожение азербайджанского населения. Единственной силой, способной противостоять Бакинскому Совету, являлся Закавказский Сейм.

Поэтому, азербайджанская фракция была вынуждена изменить свое отношение к Трабзонским переговорам. Поддержка требований Турции могла привести к тому, что в результате азербайджанские депутаты остались бы в одиночестве

По поручению Закавказского Мусульманского Национального Совета руководитель азербайджанской делегации М.Г.Гаджинский попытался повлиять на позиции турок. На встрече с руководителем турецкой делегации Рауфом Орбайом М.Г.Гаджинский заявил, что в случае захвата Батума турками, на Южном Кавказе могут начаться новые межнациональные столкновения. Азербайджанцы в таком случае окажутся в очень трудном положении, так как они окажутся в окружении армян, грузин и большевиков. Но эта встреча осталась безрезультатной. Турки не собирались отказываться от Батума.

Неспособность правительства решить Бакинскую проблему заставляла руководство Закавказского Мусульманского Национального Совета искать другие пути решения данного конфликта. Независимо от своей партийной принадлежности все члены Национального Совета считали, что единственной силой, способной спасти азербайджанский народ от угрозы физического уничтожения, являлась Турция. Как признавался сам М.Э.Расулзаде все внутренние средства были исчерпаны (11).

Турецкое правительство с пониманием отнеслось к просьбам азербайджанской стороны о помощи. Во время встречи с руководителем азербайджанской части делегации Гаджинским, военный министр Турции Энвер-паша заявил о намерении своего правительства помочь Азербайджану. Была достигнута договоренность об участии турецких военных советников в создании азербайджанских регуляр-

ных войск.

В отличие от армянской фракции, мнения грузинской и азербайджанской фракций во многом совпадали. Обе эти фракции выступали за сохранение Батума в составе Южного Кавказа. В создавшихся условиях делегация Южного Кавказа пыталась затянуть переговоры с целью выиграть время.5-го апреля 1918 года Чхенкели представил Турецкой стороне новую декларацию, в котором выражалась согласие правительства Южного Кавказа уступить Турции часть территории Ардагана, при условии согласия турецкой стороны на предоставление автономии армянам в Восточной Анатолии. Эта декларация вывала возмущение турецкой делегации и было расценено ею как вмешательств во внутренние дела Турции.

6 апреля 1918 года Турция в ультимативной форме потребовала от делегации Южного Кавказа признания условий Брест – Литовского мирного договора. Непринятие ультиматума могло привести к оккупации всего Южного Кавказа турецкими войсками (12).

Напуганный таким развитием событий, руководитель делегации Южного Кавказа Чхенкели предложил своему правительству принять все требования Турции, за исключением Батума и части Карсского округа.

Однако эти частичные уступки никак не могли повлиять на позиции турок. Турецкие войска продолжали продвигаться вглубь территории Карсского округа. 10 апреля 1918 года турецкие войска зяняли территории Олту, Звана и Меджикели.

В такой ситуации Чхенкели без согласия Закавказского Сейма заявил о признании правительством Южного Кавказа условий Брест-Литовского мирного договора (13).

Армянская и грузинская фракции, а также блокирую-

щаяся с ними русская фракция, отказались поддержать позицию мирной делегации и выступили за объявление войны Турции.

Закавказский Мусульманский Совет оказался в сложном положении. Ее отказ от поддержки военных действий могло быть расценено как поддержка Турции, что нанесло бы урон безопасности азербайджанского населения Бакинского и Елисаветпольского губерний. Поэтому члены Закавказского Мусульманского Совета, которые к тому времени составляли большинство азербайджанских депутатов, также проголосовали за объявление войны Турции.

Закавказский Сейм принял решение об образовании военной коллегии, состоящей из премьер–министра, (он же являлся и военным министром), министра иностранных и дел и министра финансов. Вся власть за время ведения войны передавалась военной коллегии (14).

Таким образом, Трабзонская мирная конференция не привела к разрешению спорных вопросов между Турцией и Южным Кавказом. Военные действия были возобновлены.

На этих переговорах между Турцией и руководством Закавказского Мусульманского Национального Совета были установлены связи, которые в дальнейшем сыграли решающую роль в обеспечении территориальной целостности Азербайджана.

Наступление турецких войск привело к тому, что армянское население освобожденных турками территорий массами стало переходить на территорию Иреванской губернии. Армянский Национальный Совет, возглавляемый партией армянских социалистов революционеров Дашнакцутюн, пытался разместить их на территориях, населенных азербайджанцами. Для борьбы с местным населением дашнаки использовали армянские национальные части. В ре-

зультате действий армянских национальных частей восемьдесят тысяч азербайджанцев стали беженцами.

Одновременно с армянскими национальными частями, свое наступление расширяли и войска Бакинского Совета. Азербайджанское население на захваченных территориях подвергалось массовому уничтожению. Несмотря на требования руководителя Закавказского Мусульманского Совета Мамеда Эмина Расулзаде, выступившего с требованием защиты азербайджанского населения, правительство Южного Кавказа продолжало считать своим главным врагом Турцию. Все военные ресурсы были направлены против турецкой угрозы. Мусульманский Национальный Корпус, как впоследствии отмечал член Национального Совета Шафибек Рустамбеков, существовал тогда только на бумаге (15). Бездействие правительства Южного Кавказа относительно армянских национальных частей, а также против войск Бакинского Совета, усилили стремления к союзу с Турцией среди членов Закавказского Мусульманского Совета. На встрече с бывшим немецким консулом в Иране Шрейдером было заявлено, что Закавказский Мусульманский Национальный Совет считает, что единственной силой, способной спасти азербайджанское население, является Турция. Шрейдеру было также заявлено, что Мусульманский Совет со своей стороны сделает все возможное для провозглашения независимости Южного Кавказа (16).

Закавказский Мусульманский Национальный Совет во главе с М.Э.Расулзаде взял на себя организацию защиты местного азербайджанского населения. В качестве ее местных органов выступали мусульманские национальные комитеты. Эти комитеты фактически превратились в местные органы власти. Таким образом, власть в Азербайджане перешла к Закавказскому Национальному Совету задолго до

создания Азербайджанской Демократической Республики.

Наступление турецких войск показало полную несостоятельность армянских национальных частей. Попытки армянской и части грузинской национальной фракций обратиться за помощью к Советской России встретили сопротивление Мусульманского Национального Совета. Председатель Совета М.Э.Расулзаде заявил, что азербайджанское население готово оказать вооруженное сопротивление любым силам, пытавшимся вновь подчинить Южный Кавказ России. Это вынудило Грузинскую Национальную фракцию изменить свое мнение относительно требований турецкой стороны.

20 апреля правительство Гегечкори, выступавшее за военные действия с Турцией, подало в отставку. Под давлением Закавказского Мусульманского Национального Совета Закавказский Сейм провозгласил независимость Южного Кавказа. Было образовано новое правительство во главе с А. Чхенкели. От Закавказского Мусульманского Национального Совета в состав нового правительства вошли Н.Юсифбеков, Х.Мелик-Асланов. М.Г.Гаджинский и И. Гейдаров. 25 апреля турецкими войсками был захвачен Карс. Это вынудило правительство Южного Кавказа обратиться к Турции с предложением о возобновлении мирных переговоров. 28 апреля Турция заявила о своем признании Закавказской Федеративной Республики. Мирные переговоры с Турцией были возобновлены. Местом переговоров был выбран Батум. Батумская конференция началась 11 мая 1918 года.

Южно-Кавказскую делегацию возглавил премьер-министр и министр иностранных дел Закавказской Республики А. Чхенкели. Азербайджанскую часть делегации возглавил Мамед Гасан Гаджинский. Турецкую делегацию возглавил министр юстиции и иностранных дел Османской

империи, командующий Восточной группы войск Халил-бей Ментеше, который заявил, что, так как прежние переговоры были провалены по вине Южно-Кавказской делегации, то турецкая сторона не может удовлетвориться прежними требованиями. Делегации Южного Кавказа были представлены новые требования. Согласно этим требованиям к Турции должны были отойти Ахалцихская и Ахалкалакские районы Тифлисской губернии, город Александрополь, большая часть территории Эчмиадзина, Нахичеванский уезд, а также Карс-Александрополь-Караклис-Джульфинская железная дорога (17).

В ответ на требования Турции руководитель делегации Южного Кавказа заявил, что требования Турции противоречат условиям Брест-Литовского мирного договора и потому неприемлимы для Южного Кавказа.

Возобновление переговоров вынудило Армянскую фракцию пойти на переговоры с Закавказским Мусульманским Национальным Советом. Армянская фракция предложила свою помощь в решении Бакинской проблемы с условием создания в Баку армяно-азербайджанского правительства. Эти предложения были отвергнуты Мусульманским Советом, как противоречащие интересам Азербайджана.

Не добившись согласия делегации Южного Кавказа, Турция приступила к захвату спорных территорий. Опасаясь возобновления военных действий, Чхенкели приказал Южно-Кавказским войскам не оказывать сопротивления турецкой армии. Но, Армянский Национальный Совет отказался подчиниться решениям правительства. На своем заседании в Александрополе Армянский Национальный Совет принял решение о непризнании условий Брест-Литовского мирного договора и продолжении военных действий. 15 мая 1918 года Турецкие войска захватили Александрополь.

Действия армянских национальных частей грозили втягиванием всего Южного Кавказа в новую войну с Турцией и могли привести к оккупации всего Южного Кавказа. Батумская конференция обнаружила всю противоречивость интересов азербайджанского, грузинского и армянского народов. Руководитель азербайджанской части делегации, член Закавказского Национального Совета М.Г.Гаджинский настаивал на принятии всех требований Турции.

В таких условиях Грузинская фракции считала, что единственным выходом из создавшегося положения является провозглашение Грузии под протекторатом Германии (18).

Угроза распада Закавказского Сейма вынуждала Закавказский Мусульманский Совет быть готовым к объявлению Азербайджана независимым и ведению самостоятельных переговоров с Турцией. 16 мая 1918 года в Батум отбыла новая азербайджанская делегация в составе Н.Юсифбекова, Ф.Хойского, М.Ю.Джафарова и Х.Хасмамедова. Руководство всей азербайджанской делегацией было возложено на М.Э.Расулзаде.

Одновременно, с этим, руководство Мусульманского Совета считало, что распад Закавказской федерации может усложнить межнациональные отношения и привести к новым столкновениям. Поэтому, оно выступало за сохранение Федерации, хотя бы в форме Азербайджано-Грузинской Федерации.

Однако, попытки Азербайджанской делегации не увенчались успехом. 14 мая 1918 года на заседании Грузинской фракции было принято обращение к Германии с просьбой способствовать обеспечению территориальной целостности Грузии.

26 мая состоялось последнее заседание Закавказского Сейма, на котором было объявлено о роспуске Закавказ-

ского Сейма и прекращении существования Закавказской Федеративной Республики.

Закавказский Мусульманский Национальный Совет 27 мая 1918 года провел свое чрезвычайное заседание, где провозгласил себя Азербайджанским Национальным Советом. Председателем Совета вновь был избран М.Э.Расулзаде. Также был избран исполнительный комитет во главе с Ф.Хойским.

28 мая 1918 года Азербайджанский Национальный Совет провозгласил независимость Азербайджана.

---

1. C.Həsənli Azərbaycan beynəlxalq műnasibətlər sistemində. Bakı, 1992, s. 24.
2. Аркомед. Материалы по истории отпадения Закавказья от России. Тбилиси, 1923. с.27
3. Архив политических партий и общественных организаций Азербайджанской Республики. (далее: АППОО АР) Ф.84, оп.11, д.12, л.5. Протоколы совместных заседаний мусульманских фракций Закавказского Сейма.
4. Внешняя политика Грузии и Закавказья. Тифлис, 1919 год, с.35
5. Там же, с.43.
6. Азербайджанская Демократическая Республика. Баку 1998 год.
7. Внешняя политика СССР, т I. Москва, 1957, с.220.
8. Внешняя политика Грузии и Закавказья. Тифлис, 1919 год, с. 45
9. Аркомед. Материалы по истории отпадения Закавказья от России, с. 32.
10. Там же, с. 35.
11. АППОО. Ф.84, оп.11, д.12, л.7.
12. Внешняя политика Грузии и Закавказья, с. 45.
13. Там же, с.40.
14. Там же, с.42.
15. АППОО АР. Ф.84, оп.11,д.12, л.12.
16. Там же, л.16.
17. Там же, л.16.
18. Аркомед. Материалы по истории отпадения Закавказья от России, с.45.

# M.Ə.RƏSULZADƏNİN SİYASİ BAXIŞLARININ FORMALAŞMASI

**Sevda SÜLEYMANOVA**

Azərbaycan milli hərəkatının lideri, ilk xalq cűmhuriyyətinin qurucularından olan Məhəmməd Əmin Rəsulzadə gőrkəmli ictimai-siyasi xadim kimi xalqımızın tarixi yaddaşında silinməz iz buraxmış şəxsiyyətlərdəndir. Belə ki, o, XX yűzilliyin əvvəllərində Azərbaycan xalqının qəflət yuxusundan oyanıb xurafat və fanatizmin buxovlarından azad olaraq milliőzűnűdərkdən milli muxtariyyət ideyasına, sonra isə milli istiqlala çatmasında misilsiz rol oynamışdır.

M.Ə.Rəsulzadə ilk siyasi fəaliyyətinə gənc yaşlarından, hələ Bakı texniki məktəbində təhsil aldığı illərdə başlamışdı. Məktəbin erməni və rus şagirdlərinin őz təşkilatlarını yaratması və siyasi fəallığı M.Ə.Rəsulzadənin də siyasi baxışlarının formalaşmasına təsir gőstərmiş və 1902-ci ildə "Műsəlman gənclik təşkilatı"nı yaratmışdır. M.Ə.Rəsulzadə bu barədə yazırdı: "…Bakı o zamankı şərtlər daxilində yalnız Rusiyada sosialist cərəyanlarının və çar əleyhdarı hərəkatlarının qaynar bir ocağı deyil, eyni zamanda Qafqazda yaşayan műsəlmanların və xűsusilə Azərbaycan tűrklərinin milli hərəkatına mərkəzlik yapan bir şəhər idi… burada fəaliyyətdə bulunan űmumi ixtilal və műxalifət cərəyanlarının yanında műstəqil hərəkatda bulunan yerli və milli qruplarla təşkilatlar da vardı, o cűmlədən tərəfimdən təşkil olunmuş, űzvləri műxtəlif rus liselərində və digər orta məktəblərdə oxuyan Azərbaycan tűrk tələbələrindən ibarət gizli bir dərnək vardı" (1). Bu dərnəyin qarşısında duran başlıca vəzifə rus-tatar məktəblərində çox az saat ayrılan Azərbaycan dilini inkişaf etdirmək yerli ədiblərin əsərlərini

oxumaq və çarizmə qarşı yazılmış bəyannamələri yaymaqdan ibarət idi.

Gőrkəmli ictimai-siyasi xadim M.A.Şahtaxtinskinin 1903-cű ildə Tiflisdə nəşr etməyə başladığı "Şərqi-Rus" qəzeti və onda çap olunan məqalələri M.Ə.Rəsulzadənin siyasi baxışlarının formalaşmasında műəyyən rol oynamışdır. Bu dővrdə onun bőyűyűb boya-başa çatdığı Bakı şəhəri inqilabi ideyaların bűtűn Qafqaza yayılması űçűn bir siyasi mərkəzə çevrilmişdi. Rusiyada fəaliyyət gőstərən demək olar ki, bűtűn partiyaların őzəkləri Bakıda yaradılmışdı. Belə őzəklərdən biri də hələ 1901-ci ildən yaradılmış RSDFP-nin Bakı Komitəsi idi. Bu komitənin űzvləri, əsasən rus, erməni, gűrcű, yəhudi və digər qeyri-azərbaycanlılardan ibarət idi. Halbuki neft sənayesi və mədənlərində işləyən fəhlələrin bőyűk əksəriyyətini azərbaycanlılar təşkil edirdilər. Buna gőrə də onların inqilabi hərəkatdan kənarda qalması siyasi partiyalar űçűn əlverişli deyildi.

Azərbaycanlı fəhlələrin rus dilini bilməməsi və ictimai-siyasi hazırlığının olmaması onları təşviqatçı rus dilli natiqlərdən uzaqlaşdırırdı. M.Ə.Rəsulzadənin yaradıcılarından biri olduğu "Műsəlman sosial-demokrat firqəsi "Hűmmət"in yaradılması zərurəti də məhz buradan doğurdu. Bakı quberniyası jandarm idarəsinin məlumatında bildirilir ki, műsəlman sosial-demokrat qrupu "Hűmmət" RSDFP-nin fraksiyası olub őz műstəqil proqramına malik deyildi. Polis Departamentinin materiallarında bu qrupun başqa partiyalardan fərqli xűsusiyyəti kimi son dərəcə konspirativ olması gőstərilir. Arxiv sənədlərində bu partiyanın gőrkəmli xadimləri sırasında M.Ə.Rəsulzadə ilə yanaşı A.Kazımzadə, M.H.Hacınski, Ə.Ağayev, Q.Qarabəyov, S.M.Əfəndiyev, İ.Aşurbəyov və b.-nın da soyadlarına rast gəlinir (2).

Tariximizin bu dővrűnűn tanınmış tədqiqatçısı olan Amerika alimi prof. T.Svyatoçovski "Rus Azərbaycanı 1905-1920"

əsərinin “Azərbaycan sosializmi” bőlməsində yerli sosialistlərin 1904-cű ildə yaratdıqları “Hűmmət” təşkilatının RSDFP ilə sıx əlaqədə olduğunu qeyd edir (3). Sosialist ideyalarını yaymaqla məşğul olan bu təşkilat sosial-siyasi və digər mővzularda műzakirələr keçirir və hektoqrafda eyni adlı qəzet buraxırdı. “Hűmmət” qəzeti ərəb atalar sőzű “El bir olsa dağ oynadar yerindən” devizi ilə çıxırdı. Partiyanın rəsmi orqanına çevrilmiş “Hűmmət”, “Təkaműl”, “Dəvət-Qoç” və “Yoldaş” qəzetlərinin nəşrində műhűm rol oynayan M.Ə.Rəsulzadə “Hűmmət” qəzetinin 3-cű sayında “Hűmmətűr-rical təqləűl-cibal” adlı məqaləsində yazırdı: “Bu kəlami-izan həzrət əmirűlmőminin Əli ibn Əbu Talib Əleyhissəlamın kəmali-mőcűznűmalarından olub, “Kişilərin hűmməti dağları qoparar” - dediyini hamımız bilirik. Və bu sőzű őzűműzə űnvan qayırdıqda bu sőz bizə dəsturuləməldir… Həqiqətdə də őylədir. Hər bir şeyin qűvvəti birlikdədir…

Bir neçə şəxsin arasında ittihad həmfikirlilik, həmməsləklik ilə olur… Məsələn, biz cavanların biri millətpərəst, o biri demokrat, űçűncűsű ətiqpərəst, dőrdűncűsű cədidpərəst olub da, bu cűr dəstə-dəstə olmaqda, hərəmiz őzűnə məxsus bir yol gőtűrűb, műəyyən bir məslək ilə getməkdən hamımız tək-tək tələf olluq. Və heç birimizin əli őz muradına çatmaz… Hərəmiz bir kűncdə bir xűsusi cəmiyyət qayırıb da műxtəlif yollar ilə getməkdənsə birləşməli, őz fikir və fellərimizdən bir-birimizi hali etməliyiz. Millətpərəstlik bizə yararsa, hamımız millətpərəst, demokratlıq yararsa, hamımız demokrat və qeyri bir yarar məslək űzrə olub, műttəhidűl-qővl vəl fel iş gőrək…” (4). 21 yaşlı bir gəncin bu cűr yűksək elmi səviyyədə yazılmış məqaləsi artıq onun həm milli, həm də demokratik siyasi baxışlarının formalaşdığını sűbut edir. M.Ə.Rəsulzadə “Hűmmət”in Qafqazda tűrk mətbuatı arasında ilk partiya orqanı olduğunu qeyd etmişdi.

M.Ə.Rəsulzadə, N.Nərimanov,S.M.Əfəndiyev, M.H.Mővsűmov, M.H.Hacınski, Ə.Ağayev və b. gőzəl natiqlik və publisistik qabiliyyətləri ilə tezliklə "Hűmmət" partiyasını təkcə Bakıda deyil, həm də əyalətlərdə məşhurlaşdırdılar. İ.Stalin, P.Çaparidze və b. tanınmış sosial-demokratlarla sıx əməkdaşlıq edən M.Ə.Rəsulzadə inqilabçı fəhlə X.Səfərəliyevin dəfn mərasimində alovlu nitq sőyləmişdi. O, birinci rus inqilabı və kűtləni inqilabdan yayındırmaq məqsədilə sűni surətdə tőrədilmiş erməni-azərbaycanlı műnaqişəsi ilə bağlı yazırdı: "…Bűrokratlar Rusiya inqilabi-kəbirindən rəhayab olub, xilaslıq tapmaq űçűn biçarə rəiyyəti bir neçə vaxtda təhti-təzyiq və təkdirdə saxlamaq űçűn olmazın hiylələr edib, hər bir ərzəl işlərə tənəzzűl etdilər. İki milləti bir-biri ilə vuruşdurub, nahaq qanlar içində inqilabı qərq etmək istədilər…" (5).

1905-1907-ci illərdə baş verən hadisələrə őz műnasibətini bildirən M.Ə.Rəsulzadə "Bəlayi-əzim" adlı məqaləsində yazırdı: "Rusiyanın hər bir kűncűnə, hər bir nőqtəsinə baxılırsa, insafsızlıq, həlakət və fəlakət gőrűlməkdədir. Millət űmidgahı olan Dővlət duması dağıldıqdan sonra, adət űzrə Rusiyanın űstűnű qara istibdad buludları alıb, hűrriyyət və ədalət gűnəşinin zəif olsa da pərtővəndaz olmağına műmaniət etməyə başladı: műftinlər, xuliqanlar, siqnala, işarəyə műntəzir olanlar hər yerdə hərəkət etdilər. Bu qəbildən olub da Qafqaz siqnalçıları da işə şűuru edib, gőzəl Qafqazı cəhənnəmə dőndərməyə, onu yenə də nahaq qanlara boyamağa şűru etdilər…" (6).

Siyasi fəaliyyətinə sosial-demokrat kimi başlayan M.Ə.Rəsulzadə gőrkəmli ictimai-siyasi xadimlərimiz olan Ə.Topçubaşov, Ə.Hűseynzadə, Ə.Ağayev, F.Vəzirov, Ziyadxanov, Xoyski, Xasməmmədov qardaşları kimi liberal hərəkata qoşulmadı. Bu səbəbdən də inqilab məğlub olduqdan sonra hűcuma keçən irticanın təqibindən műhacirətə getməli oldu.

İran məşrutə hərəkatına qoşulan M.Ə.Rəsulzadə Cənubi

Azərbaycanı qarış-qarış gəzərək Səttarxan və digər Təbriz inqilabçıları ilə birgə şah üsul-idarəsinə qarşı mübarizə aparmışdı. O, 1909-cu ildən "İran-i-nou" qəzetinin baş redaktoru olmaqla bura ilk dəfə "Modern Avropa qəzet formasın"ı (7) gətirmişdir. 1910-cu ildə yaranan İran Demokrat Partiyasının əsasını da M.Ə.Rəsulzadə qoymuşdur. Şimali Azərbaycanla bir an belə əlaqəni kəsməyən M.Ə.Rəsulzadə vaxtaşırı olaraq "Tərəqqi" qəzetinə "İran məktubları" başlığı ilə məqalələr göndərirdi. O, 1910-1911-ci illərdə İranda fars dilində "Tənqidi-firqeyi etidaliyyun və ya eçtimaiyyun-etidaliyyun" (Mühafizəkar və ya sosialist-mühafizəkar partiyaların tənqidi) və "Səadəti-bəşər" adlı kitablarını nəşr etdirmişdi. Bu fəlsəfi-tarixi əsərlərində, o, cəmiyyətin inkişafı mərhələləri və yollarını, siyasi partiyaların ictimai-siyasi hərəkatın inkişafında rolu və məramını elmi surətdə təhlil etmişdir.

İranda məşrutə hərəkatı qan içərisində boğulandan sonra çar hökumətinin təkidi ilə Rusiyadan ora gedən inqilabçılar ölkədən çıxarılır. Türkiyəyə getməyə məcbur olan M.Ə.Rəsulzadə İstanbulda Ə.Hüseynzadə, Ə.Ağayev, Y.Akçura, Z.Göyalp və b. görkəmli türkçülərlə birgə "Türk ocağı" cəmiyyətində çalışmağa başladı. Bu mühit onun sosialist baxışlarında təbəddülata səbəb oldu. Türkçülüyün ideoloqları ilə əməkdaşlıq, ünsiyyət M.Ə.Rəsulzadənin də siyasi baxışlarının artıq bir türkçü kimi formalaşmasını şərtləndirmiş oldu.

O, hələ İranda olarkən Cənubi Azərbaycanın tarixi, coğrafiyası, əhalisi, onun ictimai-iqtisadi, siyasi və mədəni durumu ilə yaxından tanış olmuş və 1911-ci ilin noyabr ayından işıq üzü görən "Türk yurdu" jurnalında "İran türkləri" adlı yüksək elmi dəyərə malik əsərini dərc etdirmişdi. Xalqımızın tarixinin öyrənilməsində böyük əhəmiyyət kəsb edən bu məqalədə azərbaycanlıların parçalanmış xalq olması dünya ictimaiyyətinin nəzərinə çatdırılırdı. Azərbaycanın şimalında və cənubun-

da yaşayan yerli əhalinin hűquqi vəziyyətini műqayisə edən M.Ə.Rəsulzadə yazır: "İranda tűrklər, nə Rusiyada olduğu kimi məhkum və nə də Tűrkiyədə olduğu kimi hakim bir millət deyildirlər" (8). O, Cənubi Azərbaycanla bağlı fikirlərini "Səbilűrrəşad" qəzetində dərc etdirdiyi silsilə məqalələrində davam etdirərək gőstərmişdir ki: "İran tűrkləri Osmanlı və Rus hűdudları boyunca sakin olduqlarından həm Qafqasiyada, həm məmaliki Osmaniyyədə yaşayan kəndi həmcinslərilə qonşu olduqlarından bu məmləkətlərlə bir çox műnasibəti-ticariyyədə bulunuyorlar" (9). Bu məqalələrində M.Ə.Rəsulzadənin islami baxışları islam dininin bőyűk islahatçısı Şeyx Cəmaləddin əl-Əfqani və onun "Urvətűlvűsqa" qəzeti haqqında analitik fikirləri őz əksini tapmışdır. Şeyx Cəmaləddinin əsərləri ilə yaxından tanış olan M.Ə.Rəsulzadə onun "Vəhdəti cinsiyyə fəlsəfəsi"ni ("Milli birlik fəlsəfəsi") tűrkcəyə tərcűmə etmişdi. Təbii ki, bu əsərlər də M.Ə.Rəsulzadənin siyasi baxışlarına őz təsirini gőstərmişdi. O yazırdı ki, din məsələsi vicdan məsələsidir və kim dinini satarsa, vicdanını satmış kimidir" (10).

Bir műddət Qafqazdan ayrı dűşűb İran və Tűrkiyəni səyahət edən M.Ə.Rəsulzadə, qonşu millətlərdən fərqli olaraq iranlılarla tűrklərin bəzi műhűm məsələləri həll edə bilməmələrinin səbəblərini araşdırmağa çalışmışdır. Onun gəldiyi nəticəyə gőrə, bu, farsların və tűrklərin arasında "təbii saf vətən fikri, millət mənfəəti ilə çalışanlarla bərabər saf şəxsi qərəzlər və xəsis ehtiraslarına məğlub olanlar"ın (11), xűsusilə ikincilərin daha çox olması ilə bağlı idi.

1911-1912-ci illərdə Avropa dővlətlərinin, onların təhrikilə Balkan xalqlarının Tűrkiyəni parçalamaq məqsədilə başladıqları műharibə o zaman İstanbulda olan M.Ə.Rəsulzadənin siyasi baxışlarına őz təsirini gőstərməyə bilməzdi. Bununla əlaqədar, "İbrət gűnləri" adlı məqaləsində, o yazırdı: "Balkan műharibəsi… buna bolqar kralı Ferdinand "səlibin hilala qarşı

hərbi” adını vermişdi. Şovinist və műtəəssib műhərrirlərdən bir çoxu da bunu “din” ilə “din” műharibəsi və bir dinin digər din űzərinə qələbəsi şəklində təfsir etdilər. Bu kimi təfsirlərə və təfsirdən ziyadə, təhrik və təftində mətbuatın liberal adlanan məlum qismi də iştirak elədi. Halbuki, məsələ meydanda idi… Tűrkləri hər nə surətdə olsa da Avropadan qovmaq istəyirlərdi…” (12)

“İqbal” qəzetində dərc olunan məqalələrində erməni məsələsinə də toxunan M.Ə.Rəsulzadə çox doğru olaraq xəritədə Tűrkiyə Ermənistanının olmadığını və yalnız ermənilər sakin olan bir necə vilayətin olduğunu yazırdı.

1913-cű ildə Romanovlar sűlaləsinin 300 illiyi műnasibətilə elan olunmuş əfv-űmumidən istifadə edən M.Ə.Rəsulzadə İstanbuldan Bakıya qayıdaraq “Műsavat” partiyasına daxil olur. Tűrkiyə tədqiqatçısı Tahir Sűnbűl bu barədə yazır ki: “Műsavat” 1913-cű ildə M.Ə.Rəsulzadənin kişiliyində, siyasi baxımdan təcrűbəli və fikri olaraq səlahiyyətini isbatlamış bir őndərə sahib olmuşdu” (13).

Vətənə qayıdan M.Ə.Rəsulzadə siyasi partiya rəhbəri olmaqla yanaşı yenə də publisist fəaliyyətini davam etdirir, mətbuatda, əsasən maarif, dil və ədəbiyyat məsələlərini təhlil edirdi. O, dilin ictimai műhűm bir amil olduğunu vurğulayaraq yazırdı ki: “Dilsiz bir millət olmadığı kimi, millətsiz də bir dil olmaz… Bir milləti dildən yaxşı təmsil edən olmaz…” (14)

1914-cű ildə bəşəriyyətin bəlası olan birinci dűnya műharibəsinin başlanması ilə M.Ə.Rəsulzadənin baxışlarında tűrkçűlűyə dőnűş daha da sűrətləndi. Bunu onun məqalələrində aydın gőrmək olur. O yazırdı ki, topların gurultusu ilə bərabər “Millətlərin həqqi műqəddəsdir!” nidası da eşidilirdi (15). M.Ə.Rəsulzadə belə nəticəyə gəlmişdi ki, “Avropa műharibəsi dővlətlərin deyil, millətlər və mədəniyyətlərin műharibəsidir. Madam ki, bu bőylədir demək ki, műharibə nəticəsi dəxi

dűnya millətlərinin xəritəsi dəyişdiyi kimi dővlət təşkilatlarına olan nəzəriyyələrdə dəyişəcək və bilaşűbhə sosialistlərin də təbii gőrdűkləri milliyyət əsası qəbul olunacaqdır" (16). Onun "Dirilik" jurnalında dərc etdirdiyi "Milli dirilik" adlı silsilə məqalələrinin əsas qayəsini "Diriliklərin ən qiymətlisi milli dirilikdir" (17) fikri təşkil edir.

M.Ə.Rəsulzadə yazırdı ki, hər bir xalqın mədəni inkişafı űçűn űç əsas lazımdır: "Milliyyət, beynəlmiləliyyət və əsriyyət. Millətin rűknű ana dili, beynəlmiləliyyətin əsası din və əsriyyətin binası əsrə hakim olan űlum və fűnun ilə məhəllinə gőrə onun vasitəsi olan dillərin őkrəməsidir" (18). Çarizm dővrűndə azərbaycanlıların həqarətlə "tatar", "persian", "műsəlman" adlandırılmasına etiraz olan bu məqalələr xalqımızın milli őzűnűdərk prosesində bőyűk rol oynamışdır. M.Ə.Rəsulzadənin milli məsələyə dair konsepsiyası milli soy kőkűnə qayıdışa műhűm təsir gőstərmişdir. O, "İstiqlal məfkurəsi və gənclik" əsərində yazırdı: "Bizdə milliyyətpərvərlik hissiyyatı ibtida őz azadlıq və istiqlalımızı və hətta bűtűn tűrklərin xilasını hədəfə qılmaq surətilə deyil, műstəqil və yarımműstəqil bir halda yaşayan digər insan və tűrk dővlətlərinə qarşı səmimi hissiyyat və əlaqə gőstərməklə təzahűr etmiş, siyasi təmayűllűlərimiz bir çox zaman bu hűdudu keçməmişdir..." (19).

Əsərdə M.Ə.Rəsulzadə gőstərir ki, Azərbaycanda milli hərəkat 1918-ci ilə qədər rus mənbələrində "panislamizm" kimi qiymətləndirilmişdir. Bu heç də rusların xətası olmayıb őzűműzűn milliyyətlə islamiyyəti qarışdırmağımızdan irəli gəlirdi. O zaman milliyyətpərvərlik şəxsi deyil, bəşəri xarakter daşıyırdı. Belə ki, Azərbaycan ziyalılarının fikrincə, "Tűrkiyə qűvvətli olursa, İran yaşarsa, bizim də yaşayacağımız őz-őzűnə hiss olunurdu", siyasi mətləblər isə milli maarif və milli məktəbdən o tərəfə keçmirdi (20). Buna gőrə də rus idarəsi tərəfindən műsəlmanlara tűrk və Azərbaycan kəlməsinin işlədil-

məsini M.Ə.Rəsulzadə qazanılmış böyük nailiyyət adlandırırdı. O, türkçülüyü inkişaf etdirməklə heç də islamdan üz çevirməmiş, əksinə islamı türk millətçiliyinin tərkib hissəsinə çevirməklə axırıncını daha təsirli etməyə çalışmışdır. Buna görə də M.Ə.Rəsulzadə 1915-ci il oktyabrın 2-dən nəşr etməyə başladığı "Açıq söz" qəzetinə türkoloq Ziya Göyalpın sözlərini deviz götürmüşdü: "…Ziyanın son zamanlarda – "Türk millətindənəm, - islam hümmətindənəm, - Qərb mədəniyyətindənəm" şəklində dediyi bu "şüar" türkçülük, xalqçılıq vəzifələri üzərində təşəkkül edən milliyyətpərvər "Müsavat" firqəsinin proqram müqəddiməsində yer tapdı" (21).

M.Ə.Rəsulzadə müharibə dövründə Qafqaza təyin olunmuş yeni canişin Nikolay Nikolayeviçdən nəşrinə icazə aldığı "Açıq söz" qəzeti milli varlığı qoruyub, Azərbaycan xalqının hüriyyət qazanmaq üçün milliyyət məfkurəsi ətrafında birləşməsində mühüm rol oynadı.

1917-ci il fevral inqilabı nəticəsində çarizmin devrilməsini sevinclə qarşılayan M.Ə.Rəsulzadə "Açıq söz" qəzetində yazırdı: "Rusiyanın bütün xalqları ürəklərində bəslədikləri məqsədlərinə çatdılar. Despotizm süqut etdi. Bu qanlı "jandarm", bütün xalqın düşməni… Azad Rusiya indi, hərb dövrü olmasına baxmayaraq bütün xalqlara azadlıq vəd və zəmanət verir…" (22). O, bu vədlərə inanaraq Azərbaycan muxtariyyəti ideyasını irəli sürmüşdü. Onun fikrincə, Rusiya kimi böyük bir dövlətin qüdrətini yalnız federativ, demokratik respublika təmin edə bilərdi. M.Ə.Rəsulzadə bu fikrini 1917-ci il aprelin 15-dən 20-nə qədər Bakıda keçirilən Qafqaz müsəlmanlarının I qurultayında söylədiyi nitqində "Tarix özü Teymurləng, Çingiz xan, Makedoniyalı İsgəndərin və Roma imperatorlarının timsalında sübut etmişdir ki, dövlət ittifaqı yaratmaq üçün azad istəkdən başqa heç bir kənar qüvvə bu dövlətə daxil olan müxtəlif millətlərin möhkəm birliyini yarada bilməz…" (23) sözləri ilə

ifadə etmişdi. O, bu qurutlaya böyük qiymət verərək yazırdı ki, Qafqaz müsəlmanlarının I qurultayı onların siyasi yetkinliyini bir daha sübut etdi (24).

Muxtariyyət ideyasını inkişaf etdirən M.Ə.Rəsulzadə mayın 1-dən 11-dək Moskvada keçirilmiş Ümumrusiya müsəlmanlarının qurultayında Rusiyanın siyasi quruluşu məsələsi üzrə öz layihəsini irəli sürmüşdü. Bu layihənin əsasını "milli-ərazi federasiya prinsipləri əsasında yaradılmış demokratik respublika" ideyası təşkil edirdi (25). O, qurultay iştirakçılarına belə bir sualla müraciət etmişdi: "…170 milyonu aşan bir məmləkət böyük bir çeşidli millətdən meydana gələn bir dövlət bir mərkəzdən idarə oluna bilərmi?" (26). Qurultayın sədri Ə.Salikovun "federasiya idarə şəklinin türk-müsəlman qövmlərini parçalayacağı" iddiasını rədd edən M.Ə.Rəsulzadə demişdi ki: "Biz Türk-Tatar övladı və o millətin babalarıyız və türk oğlu türküz. Bununla iftixar edəriz. Rusiyada 30 milyon müslümanın 29 milyonu türkdür…"(27).

M.Ə.Rəsulzadənin milli-məhəlli muxtariyyət layihəsi qurultayda 446 səs qazanaraq Ə.Salikovun 291 səs almış unitar dövlət layihəsi üzərində qələbə çaldı. Bu qələbə günlərlə davam edən qızğın mübahisə və münaqişə nəticəsində əldə edilmişdi.

Türkçülük və muxtariyyət ideyalarında məfkurə birliyi M.Ə.Rəsulzadəni N.Yusifbəyli ilə yaxınlaşdırdı. Bu isə "Müsavat" partiyası ilə "Türk ədəmi-mərkəziyyət"in qovuşmasına səbəb oldu. 1917-ci il oktyabrın 26-dan 31-nə qədər birləşmiş partiyanın Bakıda keçirilmiş qurultayında sədrlik edən M.Ə.Rəsulzadə geniş nitq söylədi. O, qurultayı açaraq demişdi ki, türklərin tənəzzülünün başlıca səbəbi milli ideyanın yoxluğudur. Partiyanın qurultayı tərəfindən qəbul edilmiş demokratik ruhlu proqramında Azərbaycan muxtariyyəti siyasi bir tələb kimi irəli sürülmüşdü. Lakin Azərbaycanda fəaliyyət göstərən rus

və erməni siyasi partiyaları bu tələbə düşməncəsinə yanaşırdılar. Bu barədə M.Ə.Rəsulzadə "Azərbaycan Cümhuriyyəti" əsərində sonralar yazırdı: "Bolşevik fiqrəsinin mürəffici-əfkarı bulunan "Bakinski raboçi" qəzetəsi (Bakı əmələsi) bizimlə yapdığı bir münaqişədə: "Azərbaycan muxtariyyəti türk burjuaziyasının muxtariyyətidir. Bu muxtariyyətə nə Rusiya burjuaziyası, nə də Rusiya demokratisi razı olur. Azərbaycan muxtariyyətini istəyən müsavatçılar nəticədə xarabazar bulurlar" - deyordu" (28).

S.G.Şaumyanın başçılıq etdiyi Bakı soveti verdiyi vədə əməl edərək 1918-ci il martın 17 (30)-dən aprel ayının əvvəllərinə qədər daşnakların köməyilə Bakıda qanlı faciə törətdi. Xalqımızın başına gətirilən bu soyqırımı ilə əlaqədar M.Ə.Rəsulzadə ürək ağrısı ilə yazırdı: "Əmələ və füqəra hakimiyyəti naminə "Müsavat" firqəsi ilə "Milli müsəlman şurasına" elani-hərb edən "Bakı soveti erməni alayları ilə biliştirak 10.000-ə qərib müsəlman qətl etdi. Qətl edilənlər miyanında əksəri əmələ və füqəra sinfindən olmaq üzrə minlərlə qadın, cocuq və silah daşımağına imkan bulunmayan ixtiyarlar vardı"(29). Bu müdhiş faciədən sonra Azərbaycan milli hərəkatının mərkəzi Bakı şəhəri azərbaycanlıların əlindən alındı. M.Ə.Rəsulzadə kömək üçün Zaqafqaziya Seyminə və Osmanlı hökumətinə müraciət etsə də heç bir nəticəsi olmadı. Doğrudur, Osmanlı dövləti Azərbaycana yardım üçün ordu göndərdi. Lakin Nuru paşanın başçılıq etdiyi bu ordu yalnız may ayının axırlarında Gəncəyə gəlib çıxdı.

1918-ci il mayın 26-da Gürcüstanın öz müstəqilliyini elan edib Seymdən çıxması ilə Zaqafqaziya Seyminin buraxılması azərbaycanlı deputatları da belə bir addım atmaq zərurəti qarşısında qoydu. Beləliklə, mayın 27-də Tiflisdə M.Ə.Rəsulzadənin sədrliyi ilə Milli Şura yaradıldı. Batum sülh danışıqlarında iştirak edən M.Ə.Rəsulzadənin Milli Şuranın sədri seçilməsi onun istiqlal ideyasını ardıcıl olaraq müdafiə etməsi ilə

əlaqədar idi. O, məhz mart soyqırımından sonra muxtariyyət ideyasından istiqlala doğru dőnűş etmişdir. Onun Batumdan gőndərdiyi teleqram Milli Şuranın iclasında oxunmuşdu.

İyulun 16-da Tiflisdən művəqqəti paytaxt elan etdiyi Gəncəyə kőçən Azərbaycan hőkuməti ilk bőhranını yaşayarkən də məhz M.Ə.Rəsulzadənin istiqlal ideyasına sədaqəti őzűnű bir daha gőstərdi. O, milli mənafeyi partiya mənafeyindən və hər hansı vəzifə kűrsűsűndən űstűn tutaraq Milli Şuranın buraxılması təklifini irəli sűrműşdű. Bu fədakar addımın əhəmiyyətini qeyd edən M.Ə.Rəsulzadə Milli Şuranın 7-ci iclasında demişdi: "… Pək də naűműd olmayalım. Tarixin, amali-milliyəmiz nőqteyi-nəzərindən, műsaid bir zamanında olduğunuzu, tűrk iddihadı űçűn fűrsət ələ keçdiyini unutmayalım. Bűtűn məsaimizi bu hűrriyyəti-siyasiyyənin təsbitinə sərf edəlim. Bunun űçűn də hər dűrlű fədakarlığa amadə bulunalım…"(30).

İstanbul Beynəlxalq Sűlh Konfransına gőndərilən Azərbaycan nűmayəndə heyətinə sədrlik edən M.Ə.Rəsulzadə oradan gőndərdiyi teleqramlarda gőrűlən işlər barədə məlumat verirdi. O, teleqramlardan birində Bakının azad edilməsinin zəruriliyini qeyd edərək Bakısız Azərbaycanı başsız bədənə bənzədirdi. Bakının sentyabrın 15-də tűrk qoşunlarının kőməyilə azad edilməsində onun İstanbulda apardığı danışıqların da bőyűk rolu olmuşdur.

1918-ci il dekabrın 7-də bőyűk təntənə ilə Bakıda açılan bűtűn Şərqdə ilk demokratik parlamentin iclasını açan M.Ə.Rəsulzadə demişdir: "…Əfəndilər, Rusiyada zűhur edən bőyűk inqilab digər həqiqətlər arasında bir bőyűk həqiqəti qəti elan etmişdi. Bu həqiqət millətlərin hűriyyət və istiqlal haqları idi…"(31). O, parlamentin iclasında "Műsavat" partiyasının bəyannaməsini oxuyaraq bildirdi ki, Azərbaycanın istiqlalı ideyası barədə partiyalar arasında heç bir fikir ayrılığı ola

bilməz. Buna görə də bütün partiyalar Azərbaycan dövlətinin daxili və xarici siyasətini müdafiə etməlidirlər.

Bütün ömrü boyu Azərbaycan xalqının maariflənməsi və istiqlala çatması uğrunda usanmaz mübarizə aparan M.Ə.Rəsulzadə ilk ali məktəbin – Bakı Dövlət Universitetinin açılmasında da böyük rol oynamışdır. Bu barədə universitetin ilk rektoru olmuş V.İ.Razumovski sonralar yazırdı: "M.Ə.Rəsulzadənin sayəsində, onun gücü, maarifçilik köməyi ilə "Müsavat" partiyasında universitetin açıq və gizli düşmənləri partiyanın qərarına tabe olmağa məcbur olmuşlar, biz öz tərəfimizdə artıq iki partiyaya malik idik, "Müsavat" və sosialistlər, bu da parlamentdə çoxluğu təmin edirdi"(32).

1920-ci il aprel istilasından sonra dönməz əqidəyə malik olan M.Ə.Rəsulzadə dinc yaşayışı iztirab dolu üzüntülü qərib həyatına dəyişərək mühacirət etmişdir. O, ömrünün sonunadək siyasi mühacir həyatını Azərbaycanın müstəqilliyi ideyasının gerçəkləşdirilməsi işinə həsr etmişdir.

1991-ci il oktyabrın 18-də Azərbaycanın müstəqililiyinin bərpa olunması görkəmli ictimai siyasi xadim M.Ə.Rəsulzadənin siyasi baxışlarının əsasını təşkil edən istiqlal məfkurəsinin təntənəsi idi.

1. Rəsulzadə M.Ə. Stalinlə ixtilal xatirələri. Bakı, 1991, s.13.
2. RFDA, f.102, siy.237, v.482, v.15 (Bax: Süleymanova S. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu – XX yüzilliyin əvvəlləri), Bakı, 1999, s.211).
3. Bax: "Xazar", 1990, №1, s.104.
4. Rəsulzadə M.Ə. Əsərləri. I c., s.17-19.
5. "Dəvət Qoç", №6, 19 iyul 1906 (Bax: Rəsulzadə M.Ə. Əsərləri, I c., s.20).
6. Bax: Yenə orada, s.21..
7. "Sühən" jurnalı, Tehran, 1955, №4 (bax: Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Bakı, 1991, s.7.)
8. Rəsulzadə M.Ə.Əsərləri. II c., 1909-1914. Bakı, 2001, s.115.

9. Yenə orada, s.144.
10. Yenə orada, I c., s.389.
11. Yenə orada, II c., s.183.
12. Yenə orada.
13. Sűnbűl T. Azərbaycan Dosyası. Ankara, 1990, s.42.
14. Rəsulzadə M.Ə. Əsərləri, II c., s.233.
15. Bax: Rəsulzadə M.Ə. Azərbaycan Cűmhuriyyəti. Bakı, 1990, s.25.
16. Rəsulzadə M.Ə. Əsərləri, II c., s.386.
17. Yenə orada, s.463.
18. "Açıq sőz", 5 aprel 1991, №11.
19. "Azadlıq" ,31 dekabr 1990, №28.
20. Yenə orada.
21. Yaqublu N. Məmməd Əmin Rəsulzadə. Bakı, 1991, s.45.
22. Bax: Sűleymanova S. Azərbaycanda ictimai-siyasi hərəkat.
23. Yenə orada, s.341.
24. "Kaspi", 23 aprel 1917, №89.
25. Програмные документы мусульманских политических партий. Оксфорд, 1985, с.11.
26. İlqar İ. Rusiyada Birinci Műslűman Konqresi. İstanbul, 1988, s.310.
27. Bax: Sűnbűl T. Gőst. əsəri, s.67.
28. Rəsulzadə M.Ə. Azərbaycan Cűmhuriyyəti, s.32.
29. Yenə orada, s.33.
30. Yenə orada, s.42.
31. Azərbaycan Xalq Cűmhuriyyəti – 80. Gənc tədqiqatçıların məqalələr toplusu. Bakı, 1998, s.44.
32. Bakı Dővlət Universitetinin Xəbərləri, 1922, №2.